

*Allah yolunda öldürülənlərə (şəhid olanlara) "ölü" deməyin. Əksinə, onlar (Allah dərgahında) diridirlər, lakin siz bunu dərk etmirsiniz.*

*(BƏQƏRƏ SURƏSİ 154)*

Layihənin müəllifi, tərtibçi-redaktor:
**Abdulla Qurbani**
*Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi,*
*Prezidentin fərdi təqaüdçüsü, polkovnik*



# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

**Azərbaycan Ordusunun**
**şəhid zabit və gizirləri**

*Birinci kitab*

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
İnv. № -26500-
PREZİDENT KİTABXANASI

BAKI – 2021

63.3(5Az)6-4
V 62




Allah bütün şəhidlərimizə rəhmət eləsin. Allah onların yaxınlarına səbir versin. Şəhidlərimizin yaxınları üçün təsəlli odur ki, onlar öz canlarını Vətən uğrunda qurban verdilər. Təsəlli odur ki, torpaqlarımız azad olundu, ərazi bütövlüyümüz bərpa edildi. Eyni zamanda, təsəlli odur ki, şəhidlərimizin intiqamını biz döyüş meydanında aldıq. Şəhidlərimizin qanı yerdə qalmadı. Həm İkinci, həm də Birinci Qarabağ müharibəsinin şəhidlərinin qanını döyüş meydanında aldıq, o cümlədən günahsız insanların, Xocalı qurbanlarımn, digər mülki şəxslərin intiqamını düşməndən döyüş meydanında aldıq. Biz döyüşərək, vuruşaraq, qan tökərək tarixi ədaləti bərpa etdik, ərazi bütövlüyümüzü bərpa etdik, düşməni torpaqlarımızdan qovduq.

*Azərbaycan Respublikasının Prezidenti,*
*Müzəffər Ali Baş Komandan İlham Əliyevin*
*Hərbi Qənimətlər Parkında təltif olunan*
*hərbi qulluqçularla görüşdə çıxışından*

*Bakı, 12 aprel, 2021-ci il*

## Azərbaycan Respublikasında
## Anım Gününün təsis edilməsi haqqında
## Azərbaycan Respublikası Prezidentinin
## Sərəncamı

Ermənistanın Azərbaycana qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsinə başlamışdır.

Haqq və Şərəf işimiz olan, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirmişdir.

Azərbaycan Ordusunun zəfər yürüşünə dözə bilməyən düşmən təxribatlara əl ataraq, günahsız mülki insanları hədəfə almaqla müharibə cinayətləri törətmişdir.

Həmvətənlərimizin bir çoxu şəhid olmuş, itkin düşmüş, yaralanaraq sağlamlığını itirmişdir. Torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edilmişdir. Müzəffər Ordumuzun bu gün yazdığı tarix sabah daha da güclü inkişaf edəcək, çiçəklənəcək Azərbaycan üçün möhkəm bünövrədir. Bu, eyni zamanda, regionda dayanıqlı və uzunmüddətli sülhü, əmin-amanlığı və təhlükəsizliyi təmin edən mühüm amildir.

Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, **qərara alıram:**

1. Hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 2 dekabr 2020-ci il.*



## Azərbaycan Respublikasında
## Zəfər Gününün təsis edilməsi haqqında
## Azərbaycan Respublikası Prezidentinin
## Sərəncamı

XX əsrin 80-ci illərinin sonları – 90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20%-ni işğal etmiş, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür.

Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməmişdir.

2019-cu ildən etibarən isə Ermənistan hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatlar və atdığı addımlar danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozmuşdur. Bununla Ermənistan bir daha özünün əsl məqsədinin mövcud status-kvonu möhkəmləndirməkdən və Azərbaycan ərazilərini ilhaq etməkdən ibarət olduğunu nümayiş etdirmişdir.

Ermənistanın qəbul etdiyi təcavüzkar və hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, "yeni ərazilər uğrunda yeni müharibə" çağırışı, mülki şəxslərdən ibarət "könüllü dəstələri" yaratmaq qərarı, 2020-ci il iyulun 12-də Ermənistan–Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, eyni zamanda, bütövlükdə qoşunların təmas xəttində gərginliyi artırması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunlarını cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını göstərirdi.

Azərbaycan dəfələrlə bəyan etmişdi ki, Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdə qanunsuz mövcudluğu regionda sülh və təhlükəsizlik üçün əsas təhdiddir və hər zaman vəziyyətin gərginləşməsinə səbəb ola bilər.

Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum

qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu.

44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi.

Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.

Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə **qərara alıram**:

1. Hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 3 dekabr 2020-ci il.*





## Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinin şanlı səhifəsidir

XIX əsrin əvvəllərində İran və Rusiya arasında Azərbaycan ərazilərinin bölüşdürülməsinə dair 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri imzalandıqdan sonra Çar Rusiyası qədim Azərbaycan torpaqlarında bufer zona yaratmaq məqsədi ilə "erməni dövləti" qurmaq planını həyata keçirməyə başladı. Bu məqsədlə İran və Türkiyə ərazisindən 300 minə qədər erməni XIX əsrin birinci yarısında Azərbaycana köçürüldü və İrəvan, Dağlıq Qarabağ, Naxçıvan, Zəngəzur, Dərələyəz, Ordubad, Vedibasar və digər ərazilərdə yerləşdirildi.

Çar Rusiyası və Qərb dövlətlərinin dəstəyi ilə ermənilər Ermənistan dövlətini qurmağa cəhd etsələr də, Rusiya onsuz da bölgədə belə bir erməni dövlətinin qurulması planını çoxdan hazırlamışdı. Bu planın reallaşması baxımından ən önəmli hadisələrdən biri ermənilərin bölgəyə kütləvi halda yerləşdirilməsi oldu.

1967-ci ildə İrəvanda çap olunan "XVIII əsrdə erməni-rus əlaqələri" adlı kitabda qeyd edilirdi ki, hələ 19 may 1783-cü ildə knyaz Q.A.Potyomkin II Yekaterinaya "Fürsət tapdıqca Qarabağı dərhal ermənilərin nəzarətinə verməklə, Asiyada bir xristian dövləti yaratmaq üçün nə lazımdırsa edəcəyik" demişdir.

1832-ci ildə Çar Rusiyasının rəsmi statistikalarında Qarabağ xanlığı əhalisinin 64,8 faizinin azərbaycanlı, 34,8 faizinin isə ermənilər olduğu qeyd edilir.

1972-ci ildə İrəvanda nəşr olunan "Qərbi Ermənistanın Rusiyaya birləşdirilməsi" adlı kitabda Qarabağ xanlığında 12000 ailənin olduğu və bunların sadəcə 2500 nəfərinin erməni ailəsi olduğu bildirilir.

Ermənilərin Qarabağa sonradan gəlməsi ilə bağlı onların özlərinin başqa bir etirafı isə 1978-ci ildə Azərbaycanın Dağlıq Qarabağ muxtar vilayəti daxilində olan Ağdərə bölgəsində "ermənilərin bölgəyə gəlməsinin 150-ci ili" abidəsini inşa etmələridir.

I Dünya müharibəsi dövründə ermənilər Qafqazda rus orduları ilə birlikdə hərəkət edir və Osmanlı dövlətinə qarşı savaşaraq məqsədlərini reallaşdırmağa çalışırdılar.

1905-1907-ci illərdə erməni quldur dəstələri bölgədə böyük qətliamlar törədirlər. 1918-ci il mart ayının sonlarında Çar Rusiyasının Dünya müharibəsindən çəkilməsiylə geri qayıdan erməni və rus orduları Bakı soveti tərəfindən Azərbaycanda hakimiyyətin qorunması məqsədilə Bakıda saxlanılır və hərbi qüvvələr 31 mart - 01 aprel 1918-ci il tarixlərində Bakı şəhərində 12000-dən çox azərbaycanlını qətl edirlər. Bu qətliam Azərbaycanın digər rayonlarında – Şamaxı, Quba, Salyan, Göyçay, Gəncə və Naxçıvanda da davam etdirilmişdir.





1918-ci ilin yanvar ayından 1920-ci ilin aprelinədək Azərbaycanda erməni quldurları 300.000-dən çox azərbaycanlını qətlə yetirmiş və 27 aprel 1920-ci ildən, Azərbaycanın sovet nəzarətinə keçməsindən sonra bu qətliamlar siyasi formada reallaşdırılmışdır. 1920-ci il aprel-oktyabr ayları arasında 40.000-dən çox azərbaycanlı siyasi məhbus kimi mühakimə olunmuş və sürgünə göndərilmişdir.

Sovetlər birliyi dövründə bu siyasət davam etdirilərək Azərbaycanın tarixi torpaqları hissə-hissə Azərbaycandan qoparılaraq Ermənistana birləşdirilmişdir.

XX əsrin əvvəllərində erməni daşnak qüvvələrinin silah yolu ilə əldə etmək istədikləri məqsədlər sovetlər birliyi dövründə siyasi yollarla davam etdirilmiş və Azərbaycanın Göyçə, Zəngəzur vilayətləri, Şərur-Dərələyəz mahalı və Mehri rayonu da Ermənistana verilmişdir.

1948-1952-ci illərdə azərbaycanlıların tarixi dədə-baba yurdu olan İrəvandan məcburi köçürülməsi və 1988-1989-cu illərdən başlayan Dağlıq Qarabağ hadisələri 1990-ci ilin əvvəllərindən iki ölkə arasında müharibə vəziyyətinin yaranmasına səbəb olmuşdur.

Azərbaycan torpaqlarında "Böyük Ermənistan" qurma planlarını reallaşdırmaq üçün erməni siyasətçiləri də fəaliyyətlərini gizlətmirdilər.

Beləliklə, məkrli erməni xislətinin ilk qurbanları yenə də tarixi Azərbaycan torpaqlarında yaradılan Ermənistanın azərbaycanlı sakinləri olur. Ermənistanda dövlət səviyyəsində kömək göstərilən gizli erməni silahlı birlikləri azərbaycanlılara qarşı silah istifadə etməkdən belə çəkinmirlər.

24 fevral 1988-ci ildə Yuxarı Qarabağın Əsgəran rayonunda ermənilər azərbaycanlılara qarşı təxribata başlayırlar. Bu təxribat zamanı 2 azərbaycanlı qətlə yetirilir, 19 nəfər ağır yaralanır. Bu qanlı olaydan sonra qarşıdurma daha da şiddətlənir. 1988-ci ildən başlayaraq Ermənistandan - minillik tarixi Vətənlərindən 230 min azərbaycanlı zorla çıxarılır. 1988-1989-cu illərdə bu məcburi sürgün zamanı 225 azərbaycanlı öldürülür.

Bütün bu dəhşətli hadisələri mərkəz Moskva yalnız seyr etməklə izləyirdi.

Qafqazda sülh və əmin-amanlığı istəməyən və bunun nəticəsində də mənfəət əldə etməyə çalışan, qaranlıq güclərin maşası olan erməni ekstremist təşkilatları yeni cinayətlər törədir və keçmişdə açmış olduqları terror cinayətlərinə yeni qanlı səhifələr də əlavə edilir.

1988-ci ildən başlayaraq Azərbaycanın Dağlıq Qarabağ bölgəsində erməni terror təşkilatlarının şovinist fəaliyyətləri açıq-aşkar vüsət almağa başlayır.

Ermənistan və Dağlıq Qarabağdakı erməni mətbuat orqanları, həm Moskvadan, həm də digər ölkələrdən gəlmiş erməni liderləri ermənilərin Azərbaycana qarşı təşkilatlanmasında səylərini əsirgəmirlər. Hətta dırnaqarası "erməni ziyalıları" Dağlıq Qarabağda ermənilərin tətil və etiraz aksiyaları keçirməsini təşkil edir və Dağlıq Qarabağın Azərbaycanla əlaqələrini qoparırdı. Həmin dövrdə Ermənistan mediasında Azərbaycan və Türkiyə əleyhinə qərəzli yazılar verilirdi.

1987-ci ildə SSRİ-nin dağılmasına qədərki prosesdə, istər sovetlər ittifaqının rəhbəri Mixail Qorbaçovun, istərsə də, SSRİ Ali Sovetinin Dağlıq Qarabağı Azərbaycan torpağı kimi tanıması, lakin ermənilərə qarşı heç bir sanksiya tətbiq etməməsi Dağlıq Qarabağ problemini bir müddətə səngidir. Ermənistanda fəaliyyət göstərən şovinist təşkilatların fəaliyyətinə göz yumulması ermənilərin Dağlıq Qarabağda təşkilatlanmasına və onların yeni-yeni cinayətlər törətməsinə səbəb olur.

1990-cı il yanvar ayının ilk günlərində Xankəndidə ermənilər Azərbaycan sərnişin avtobusunda olan polislərə hücum edir və atışma zamanı ermənilərdən 1 nəfər ölür, 3 nəfər yaralanır, sərnişinlərdən isə 5 azərbaycanlı ağır vəziyyətdə xəstəxanaya çatdırılır. Bu hadisədən sonra SSRİ-nin ali idarəetmə orqanı 4 yanvar 1990-cı ildən etibarən Azərbaycan-Ermənistan sərhədini bağlayır və sərhəddəki atışmalar avtomatlarla yanaşı, iriçaplı pulemyotlar, hətta ağır top və raketlərlə müşayiət olunur.

Ermənistanın 9 yanvar 1990-cı ildə Qarabağı "1990-cı il iqtisadi planı"na daxil etməsi iki ölkə arasında gərginliyi daha da artırır. SSRİ Ali Soveti bu qərarın etibarsız olduğunu bildirsə də, Ermənistan hakimiyyəti işğalçı mövqeyini gizlətməyərək "Ermənistanda Ermənistan qanunları qüvvədədir" açıqlamasını verir.

12 yanvardan erməni quldur dəstələrinin Dağlıq Qarabağda azərbaycanlıların yaşadığı kənd və qəsəbələrə hücumları nəticəsində 12 nəfər vəhşicəsinə öldürülür, 22 nəfər əsir götürülür. Həmin il qeyri-qanuni olaraq Dağlıq Qarabağ ermənilərindən Ermənistan Ali Sovetinə 12 nəfər deputat seçilir.

Azərbaycan-Ermənistan sərhədlərində intensivləşən atışmalardan sonra Rusiyanın hərbi yardımı ilə Ermənistanda silahlı dəstələr yaradılır və bu dəstələrin, eləcə də, motoatıcı hərbi hissələrin iştirakı ilə münaqişə daha da genişlənərək müharibə həddinə çatdırılır.

Bütün bunlar Qafqazda artıq müharibə ocağının yaradıldığının bir əlaməti idi. SSRİ-nin dağılması ərəfəsində yaranan milli münaqişələr və





azadlıq mübarizəsi Azərbaycanda ictimai-siyasi və hərbi vəziyyətin daha gərgin olduğundan xəbər verirdi.

Azərbaycanlıların Ermənistandan zorla qovulmasına, ermənilərin Dağlıq Qarabağda siyasi və hərbi təşkilatlanmağa başlamasına vaxtında müdaxilə etməyən o vaxtki Azərbaycan rəhbərləri problemin daha da böyüməsinə bir növ yardımçı olurlar.

Xalqın SSRİ hakimiyyətinə etirazları və Dağlıq Qarabağda baş verən hadisələr səbəbindən keçirilən etiraz aksiyaları Moskva tərəfindən birmənalı qarşılanmır və vəziyyəti nizama salmaq üçün Azərbaycana 24.000 əsgər göndərilməsi qərarlaşdırılır.

Sovet əsgərlərinin Bakıda milli azadlıq mübarizəsini məhv etmək üçün reallaşdırdığı 20 Yanvar qətliamı Moskvanın Azərbaycan-Ermənistan münasibətlərində Azərbaycan xalqına qarşı etdiyi hərbi cinayət, təcavüz aktı idi.

20 Yanvar 1990-cı ildə Bakıda cərəyan edən qanlı hadisələrdən sonra ümumi olaraq ermənilər həm siyasi, həm də hərbi baxımdan hərəkətə başlayırlar. Erməni milli hərəkatının hərbi qanadını təşkil edən erməni milli ordusunun fədailəri 1990-cı ilin martında Azərbaycanın Ermənistan sərhədi yaxınlığında Qazax rayonunun kəndlərinə hücum edir və 9 nəfəri qəddarcasına qətlə yetirirlər.

Fevral ayında Qarabağ münaqişəsinin dayandırılması üçün Gürcüstanın paytaxtı Tbilisi şəhərində Azərbaycan və Ermənistan arasında atəşkəs elan olunması qərara alınsa da, Ermənistan tərəfi buna əməl etmir. Mart ayının sonlarında erməni silahlı dəstələri yenidən Ermənistan sərhədində yerləşən Qazax rayonunun qəsəbə və kəndlərinə hücum edir və azərbaycanlıları qətlə yetirirlər. Bu qanlı hadisə sərhəddə münaqişənin daha da şiddətlənməsinə səbəb olur.

23 avqust 1990-cı ildə Ermənistanın öz müstəqilliyini elan etməsi və bununla bərabər Dağlıq Qarabağı Ermənistan torpağı sayması artıq Qarabağ problemini daha yüksək mərhələyə çatdırır.

1990-cı ilin sentyabrında Ermənistan hökumətinin köməyi ilə ermənilər Laçın, Ağdam, Əsgəran şəhərləri və Şuşa-Bakı quru yolu istiqamətində hücuma keçirlər. O vaxt SSRİ Daxili İşlər Nazirliyi qüvvələrinin baş komandanının köməkçisi Boris Smıslov məruzəsində "Ermənistan hökuməti mane olduğuna görə erməni silahlılarının əllərindəki silahları yığmaq mümkün deyil" deyə bildirirdi.

1991-ci ilin mart ayının ortalarında Mixail Qorbaçov Sovetlər Birliyinin Teleqraf Agentliyinə (TASS) verdiyi açıqlamada "Yuxarı Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Regionda SSRİ Konstitusiyası ilə birlikdə Azərbaycan Konstitusiyası da qüvvədədir. Qarabağda azərbaycanlılarla ermənilərin birgə yaşamaları tarixi bir həqiqətdir və bundan qaç-

maq mümkün deyil" şəklində sülhsevər və Qarabağın mövcud statusunu təsdiqləyən mesajı ermənilər tərəfindən hiddətlə qarşılanır.

1991-ci ilin iyun-iyul aylarında ermənilərin Qarabağdakı Azərbaycan kəndlərinə hücumları nəticəsində xeyli sayda azərbaycanlı qətlə yetirilir.

Həmin ilin avqustunda Azərbaycan müstəqilliyini elan edir və bu tarix respublikada rəsmi olaraq "Milli Oyanış Günü" kimi qeyd edilir. Eyni zamanda, paralel olaraq Dağlıq Qarabağ erməniləri də müstəqillik yolunda qərar verərək "Artsak Ermənistan Xalq Cümhuriyyəti"nin yarandığını bəyan edirlər. Bu qərar Konstitusiyaya zidd olduğuna görə Azərbaycan parlamenti tərəfindən əsassız hesab edilir.

Beləliklə, 1988-1989-cu illərdə Dağlıq Qarabağda Azərbaycan və Ermənistan sərhədindəki münaqişələr 1991-ci ildə iki ölkə arasında müharibəyə yol açır. Ermənistanda yaşayan azərbaycanlılar dədə-baba yurdlarından zorla çıxarılır, Dağlıq Qarabağ bölgəsindəki azərbaycanlılar yaşayan kəndlər tamamilə boşaldılır. Rusiya qoşunlarının dəstəyi ilə ermənilər Azərbaycana qarşı genişmiqyaslı hücum planı hazırlayır və 1991-ci ildə bu işğalçılıq planı addım-addım həyata keçirilməyə başlayır.

Əsrin faciəsi sayılan Xocalı hadisələri zamanı nəinki azərbaycanlılara, eləcə də bütün bəşəriyyətə, insanlığa qarşı misli görünməyən hərbi cinayətlər törədilir.

1991-ci ildən başlayaraq Xocalı Bozdağ, Kətikdağ və Mehdikənd istiqamətindən müntəzəm olaraq atəşə tutulur.

Noyabrın əvvəllərində Xocalının Azərbaycanla əlaqəsi kəsilir. Cəmilli kəndi, onun arxasınca isə Kərkicahan, Meşəli kəndləri yandırılır. Onlarla insan həlak olur.

1992-ci ilin fevral ayında Malıbəyli və Quşçular kəndləri də eyni aqibəti yaşayır. Xocalının Azərbaycanla helikopter əlaqəsinə də son qoyulur.

Fevralın 25-də təxminən saat 20:00 radələrində ermənilər 366 cı rus ordusunun döyüş texnikaları ilə şəhəri dörd tərəfdən mühasirəyə alırlar. Şəhərə güclü hücum olur. Xocalı müdafiəçiləri 3 saatdan artıq qeyri-bərabər döyüşdə tab gətirsələr də, fevralın 26-na keçən gecə Xocalı yerlə-yeksan edilir, yüzlərlə günahsız insan xüsusi qəddarlıqla qətlə yetirilir, uşaqlara, qadınlara aman verilmir, adamlar əsir götürülür və itkin düşürlər. Ermənilərin Xocalıda törətdikləri soyqırımı yalnız Xolokost və Xatın kimi dəhşətli soyqırımları ilə müqayisə etmək olar. Xocalıda törədilən vəhşiliklər erməni xislətinin nekrofil fantaziyasının sərhədsizliyi ilə bəşəriyyəti şok vəziyyətinə salır.

Tam dəqiqləşdirilməmiş məlumata görə Xocalıda 613 insan qətlə yetirilmiş, 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini itirmiş, 487 nəfər, o cümlədən 76 uşaq yaralanmış, 70 uşaq, 106 qadın





vəhişəcsinə öldürülmüş, 1275 nəfər əsir aparılmış, 150 nəfər itkin düşmüşdür.

Xocalıda azərbaycanlılara qarşı törədilmiş bu qanlı cinayətlər haqqında nəinki digər millətlərdən olan jurnalistlər, yazıçılar, elə ermənilərin özləri də ürəkağrısı ilə yazmış və bu faciəni törədənləri lənətləmişlər.

1992-ci il martın 12-də erməni jurnalisti Berain Siracyan Fransada çap olunan "Hücumdan öncə" adlı məqaləsində yazırdı: "Xocalını gözlərimlə gördüm. Hər yerdən qan iyi gəlirdi. Qar üstündə, buz üstündə qalaqlanmış kimsəsiz, sahibsiz cəsədlərdən qorxdum... Qorxdum ki, bu gün üçün heç vaxt Azərbaycan tərəfi, sabahkı nəsillər susmasın... Bu gün ruslar bizimlədir. Bəs sabah? Biz tənha qala bilərik...".

Parisdə çap olunan "Qarabağ qeydləri" adl kitabda isə erməni Akop Arakelyan yazır: "Hərbi həkim Mirzoyanın tapşırığı ilə meyitlərin yığılıb yandırılması qərara alınıb. Yaralıları da öldürülmədən tonqallara atırlar. Erməniləri və Ermənistanı bir daha görməmək üçün oranı tərk etdim".

Bu kimi faktlar yüzlərlədir, minlərlədir.

Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış edir və ölkəmizə qarşı hərbi təcavüzü daha da genişləndirirdi.

Azərbaycanda həmin dövrdə hökm sürən hərc-mərclikdən istifadə edən təcavüzkar Ermənistan Kəlbəcər, Laçın rayonları da daxil olmaqla ərazilərimizin 20 faizini işğal edir, düşmənin həyata keçirdiyi təmizləmə siyasəti nəticəsində bir milyondan çox azərbaycanlı öz doğma yurd-yuvasından didərgin salınır.

1993-cü ilin iyulunda xalqın tələbi ilə hakimiyyətə gələn ümummilli lider Heydər Əliyevin qətiyyəti, əzmkarlığı və uzaqgörənliyi sayəsində münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq nizamlanması istiqamətində qəti addımlar atılır. Lakin Ermənistan öz məkrli və hiyləgər niyyətindən əl çəkmir. Qubadlı, Cəbrayıl, Zəngilan, Ağdam və Füzuli rayonlarının bir çox yaşayış məntəqələri də ermənilər tərəfindən işğal edilir.

Ulu Öndər Heydər Əliyev Ermənistan və Azərbaycan arasında gedən müharibəyə son qoyulması, işğal edilmiş torpaqların geri qaytarılması və ümumiyyətlə, bu hərbi münaqişənin sülh yolu ilə həll edilməsinə üstünlük verir və məsələnin danışıqlar yolu ilə həll olunmasını istəyirdi. O, bu siyasəti həyata keçirərək, bu yolla gedərək, ilk növbədə, beynəlxalq təşkilatların imkanlarından istifadə etməyə çalışır, bu sahədə səmərəli və məqsədyönlü tədbirlər görür, böyük dövlətlərin təşəbbüslərindən və imkanlarından istifadə etməyə çalışırdı.

Təəssüf ki, bu görülən tədbirlər lazımi nəticə verimirdi. Bütün bun-

lara baxmayaraq Heydər Əliyev öz düzgün və doğru yolundan çəkinmir və fəaliyyətini davam etdirirdi. Bu məqsədlərə nail olmaq üçün Heydər Əliyev Ermənistan respublikasının rəhbərliyi ilə danışıqlar aparılmasını da lüzumsuz hesab edərək, Dağlıq Qarabağda olan qüvvələrlə bilavasitə əlaqəyə girir, onlarla danışıqlar aparır, məsələnin sülh yolu ilə həll olunmasına səy göstərir, atəşin kəsilməsi və atəş kəsildiyi dövrdə məsələnin sülh yolu ilə həll olunması, erməni silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş torpaqlarından çıxması məsələsini qəti surətdə qoyurdu.

Ermənistan isə Azərbaycan rəhbərliyinin bütün bu cəhdlərinə məhəl qoymadan işğalçılıq siyasətini davam etdirirdi.

O dövrdəki məğlubiyyətlərimiz bir tərəfdən Azərbaycan Ordusunun döyüşən hissələrinin bir çox yerlərdə gücsüzlüyü, döyüş qabiliyyətinin kifayət qədər olmaması nəticəsində baş verirdisə, digər tərəfdən də bu ərazidə yaşayan əhalinin öz torpaqlarını qorumaq, saxlamaq əvəzinə, dərhal yurdlarını qoyub didərgin düşmək əhval-ruhiyyəsi ilə bağlı idi.

1993-cü il noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fərmanı ilə Müdafiə Şurası yaradılır və həmin gün axşam Heydər Əliyevin sədrliyi ilə Müdafiə Şurasının ilk iclası keçirilir. İclasda Ermənistan silahlı qüvvələrinin qarşısını almaq üçün görüləcək zəruri tədbirlər və respublikada yaranmış ictimai-siyasi vəziyyət müzakirə edilir. Müdafiə Şurasının qərarı ilə Müdafiə Nazirliyinin əsas strukturlarında bəzi kadr dəyişiklikləri edilir. Nazirlər Kabinetinə ordu quruculuğu məsələsinə diqqət və qayğının artırılması, ortaya çıxan problemlərin dərhal və qətiyyətlə həll edilməsi tapşırılır.

Ertəsi gün – 1993-cü il noyabrın 2-də Heydər Əliyev Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə yeni hücumları və təcavüzü ilə bağlı Milli televiziya və radio vasitəsilə xalqa müraciət edir.

İctimai şüurda yeni bir mərhələnin başlanğıcı kimi qiymətləndirilən bu müraciətlə milli birliyin və həmrəyliyin əsası qoyulur. Az qala vətəndaş müharibəsi vəziyyətinə gətirilən xalq öz xilaskarının ətrafında daha sıx birləşməyə başlayır. Xalqın milli mənlik şüurunun oyanmasında, həmçinin orduya itirilmiş inamın bərpa olunmasında ölkə rəhbərinin bu tarixi müraciətinin müstəsna rolu olur. Bütün ölkə vətəndaşları bu müraciətin təsiri altında bir nəfər kimi ayağa qalxır. Yüzlərlə, minlərlə əli silah tutan Azərbaycan vətəndaşı cəbhəyə - işğal olunmuş əraziləri azad etmək, düşmənin qarşısını almaq üçün könüllü döyüşlərə atılmağa hazır olduqlarını bildirirlər.

Heydər Əliyevin səsi-sorağı cəbhə bölgələrindən, təlim mərkəzlərindən gəlir. Azərbaycan əsgəri ilk dəfə öz Ali Baş Komandanını ön səngərdə, şəxsi heyət arasında görür, ondan öyüd-nəsihət və işğal altında olan tarixi torpaqlarımızı azad etmək üçün xeyir-dua alır.





1993-cü il noyabrın 7-də təlim mərkəzlərinin birində döyüşçülərlə görüşən Heydər Əliyev demişdir: "Azərbaycan əsgəri qorxmaz, cəsarətli, mərd olmalıdır. Bunu texnikanın sükanı arxasında əyləşən hər kəs bilməlidir ki, onun məharətindən, igidliyindən çox şey asılıdır. Döyüşçü ən ağır məqamda da zəiflik göstərməməlidir. Torpağını müdafiə edən adam üçün ən müqəddəs amal qəhrəmanlıq göstərməkdir. Hər biriniz bu amalla yaşamalısınız. Sizin yolunuz birdir – Vətən, torpaq uğrunda mətanətlə döyüşmək, düşmənə layiqli cavab vermək. Mən əminəm ki, bu yolda son damla qanınızı belə əsirgəməyəcəksiniz. Bunu sizdən Vətən, Xalq, Torpaq gözləyir".

Heydər Əliyev 1993-cü il 11-12 dekabrda cəbhəyanı bölgəyə - İmişli, Füzuli, Beyləqan, Şəmkir, Ağcabədi rayonlarına və Gəncə şəhərinə səfər edir. İctimaiyyətin nümayəndələri və döyüşçülərlə görüşür, geniş müzakirələr aparır və budəfəki görüşlər zamanı daha sərt danışır: "Bu gün hamı, ən əvvəl əli silah tuta bilən kişilər Vətənin müdafiəsinə qalxmalıdırlar. Adını kişi qoyan kəs qaçqın ola bilməz və olmamalıdır, üstəlik buna dözməməlidir ki, düşmən onun doğma torpağını arxayınca tapdalayır, onun xalqının namusuna toxunur. Vətənin müdafiəsi hər bir kəsin müqəddəs borcudur... Sülhün başlıca şərti bundan əvvəl işğal olunmuş torpaqların tamamilə azad edilməsidir. Təcavüzkarı cilovlamağa qadir döyüş qabiliyyətli ordu yaradılması sülhə doğru yolda eyni dərəcədə mühüm vəzifədir".

Ordu quruculuğuna xüsusi önəm verən Heydər Əliyev qısa bir vaxt ərzində ordu ilə xalqın sağlam mənəvi birliyinə nail olur və 1993-cü il dekabr ayının sonlarında hərb tariximizə şanlı səhifə kimi yazılan "Horadiz əməliyyatı" məhz Ulu Öndərimizin Ali Baş Komandanlığı və xeyir-duası ilə başlanır.

Bu əməliyyat zamanı Azərbaycan Ordusu əsl qəhrəmanlıq nümunələri göstərir. Üzərində "Vətən uğrunda!", "Heydər Əliyev uğrunda!" sözləri yazılmış tank və digər zirehli texnikalar, raket-artilleriya qurğuları ilə döyüş meydanına atılan igidlərdən neçəsi şəhid olsa da, əsgərlərimiz ruhdan düşmür, onlar döyüşçü yoldaşlarının intiqamını alaraq, düşmənə tutarlı zərbələr vuraraq irəliləyirlər.

Erməni silahlı birləşmələri Füzuli şəhərinin şərqinə hərəkət etməyə cəhd göstərsə də, xəyallarına gəlməyən müqavimət ilə qarşılaşaraq geri çəkilməyə məcbur edilirlər. Azərbaycan Ordusu 15 dekabrda 5 istiqamətdə hücuma keçərək düşmənin müdafiəsini dağıdır, artilleriya atəşləri altında Füzuli rayonunun daxilinə doğru irəliləyir. 1994-cü il yanvarın əvvəlində artıq Horadiz qəsəbəsi də daxil olmaqla 22 yaşayış məntəqəsi düşmən işğalından azad edilir və yüz hektarlarla ərazi tam nəzarətə götürülür. Qısa bir vaxt ərzində işğaldan azad edilən kəndlər



PREZİDENT KİTABXANASI
İnv. № - 26500

yenidən qurulur, çadır şəhərciklərində, yataqxanalarda, vaqonlarda məskunlaşmış məcburi köçkünlər öz yurd-yuvalarına qayıdırlar. Heydər Əliyevin diqqət və qayğısı ilə Horadiz qəsəbəsində də quruculuq işlərinə start verilir və işğaldan azad edilən yaşayış məntəqələri kül altından boy ataraq yenidən xoşbəxt günlərinə qovuşur.

Ulu öndər Heydər Əliyev ömrünün sonuna kimi Azərbaycan dövlətinin və xalqının gələcəyi naminə var qüvvəsi ilə çalışır. Ordu quruculuğuna xüsusi önəm verir və istənilən döyüş tapşırığını yerinə yetirməyə, Ermənistan tərəfindən işğal olunmuş tarixi torpaqlarımızı azad etməyə, respublikamızın ərazi bütövlüyünü bərpa etməyə qadir bir ordunun yaradılması arzusunu reallaşdırır və ömrünün sonlarında əmin olduğunu bildirir ki, onun axıra çatdıra bilmədiyi taleyüklü məsələləri, planları, işləri özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi gələcək Prezidentimiz İlham Əliyev həyata keçirəcəkdir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinə son müraciətində Azərbaycan Prezidenti, Ali Baş Komandan Heydər Əliyev deyirdi: "Bu gün biz xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq və ədalət prinsiplərinə uyğun həlli üçün bütün vasitələrdən istifadə edirik. Münaqişənin həllində dinc yola, diplomatik danışıqlara, beynəlxalq birliyin dəstəyinə üstünlük verdiyimizi dəfələrlə bəyan etmişik. Lakin danışıqların uğurla nəticələnməsi üçün ordumuzu daha da gücləndirməli, ölkəmizin müdafiə qüdrətini və hərbi potensialını daim artırmalıyıq. Övladlarımız hərbi xidməti Vətən qarşısında ən müqəddəs borc və ən şərəfli vəzifə saymalıdırlar. Silahlı Qüvvələrin şəxsi heyəti öz fiziki və hərbi hazırlığını təkmilləşdirməli, döyüş texnikasına dərindən yiyələnməli, ən mürəkkəb şəraitdə ondan istifadə etməyi bacarmalıdır. Şəxsi heyətin təlim-tərbiyəsi ilə məşğul olan bütün zabit korpusu əsl vətənpərvərlik nümayiş etdirməli, fədakarlıq və mətinlik nümunəsi olmalıdır".

Xalqımızın ümummilli lideri Heydər Əliyev 2003-cü ildə əbədiyyətə qovuşduqdan sonra xalqımız öz doğru və dürüst seçimini edərək Ulu Öndərin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçir.

Hər bir Azərbaycan vətəndaşının prezidenti olacağına and içən İlham Əliyev ilk gündən Ümummilli Liderimizin axıra çatdıra bilmədiyi taleyüklü məsələlərin, planların, işlərin həyata keçirilməsi üçün ciddi fəaliyyətə başlayır. Qısa müddət ərzində Azərbaycanda iqtisadi artım yüksək səviyyəyə qalxır, sosial məsələlərin həllinə böyük diqqət göstərilir, minimum əmək haqları artırılır, ölkədə quruculuq, abadlıq işləri yeni vüsət alır, gələcəyimiz üçün yeni-yeni layihələr həyata keçirilir.





İlham Əliyevin Prezident kimi fəaliyyətində ordu quruculuğu məsələləri əsas prioritetə çevrilir. Ordu quruculuğuna xüsusi diqqət yetirilir. Ölkə iqtisadiyyatının günü-gündən inkişafı Azərbaycanın müdafiə potensialının daha da yüksəlməsinə, ordumuzun qüdrətlənməsinə böyük təkan verir.

İlham Əliyevə görə müasir, mütəşəkkil ordunu yaratmaq Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri olmuşdur.

Bu gün isə hər bir Azərbaycan vətəndaşı etiraf edir ki, Heydər Əliyevin yaratdığı müasir, mütəşəkkil Azərbaycan Ordusunun daha da möhkəmləndirilməsi, onun qalib, rəşadətli bir ordu səviyyəsinə çatdırılması Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin adı ilə bağlıdır.

Müzəffər Ali Baş Komandanımız İlham Əliyev prezidentliyi dövründə ordu quruculuğu prosesinə xüsusi diqqət verir, ordunun maddi-texniki bazası möhkəmləndirilir, şəxsi heyətin sosial-məişət problemləri ardıcıl olaraq həll edilir, müasir silahlar, hərbi texnikalar alınır, yüksək ixtisaslı peşəkar hərbçilər yetişdirilir və bütün bunların nəticəsində 2016-cı ilin Aprel döyüşləri zamanı Goranboy, Ağdərə, Tərtər, Füzuli və Cəbrayıl rayonları istiqamətində uğurlu əməliyyatlar keçirilir, bir çox strateji yüksəkliklər işğaldan azad edilir və böyük bir ərazi nəzarətə götürülür.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan gənclərinin respublika toplantısında (1 fevral 2019-cu il) bu barədə danışaraq demişdir: "Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir və bu əməliyyatlarda iştirak edənlərin mütləq əksəriyyəti gənclərdir. Biz bu əməliyyatlar nəticəsində uzun illər ərzində işğal altında qalan torpaqları işğalçılardan azad etdik. O torpaqlarda – Lələtəpədə, Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının dağlarında Azərbaycan bayrağını ucaltdıq. Bu, böyük tarixi qələbədir. Bu qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq, Azərbaycan əsgəri, Azərbaycan zabiti Vətən uğrunda, torpaq uğrunda canından keçməyə hazırdır.

Bu qələbə ermənilərin uzun illər ərzində yaratdıqları mifi tamamilə darmadağın etdi. Bu qələbə göstərdi ki, ən əlverişsiz hərbi mövqelərdən əks-hücum əməliyyatı apararaq bir çox strateji mövqelərə sahib olduq. Bu gün ordu quruculuğu istiqamətində atılan addımlar təbiidir, zəruridir. Çünki biz müharibə şəraitində yaşayırıq, müharibə hələ bitməyib. Biz hər an hazır olmalıyıq ki, torpaqlarımızı işğalçılardan azad edək".

2018-ci ilin mayında Naxçıvan Muxtar Respublikasının Ermənistanla sərhədində də Azərbaycan Ordusu düşmən üzərində qələbə çalaraq hərb tariximizə "Günnüt Zəfəri"ni yazır. 10 min hektardan çox ərazi azad edilir və nəzarətə götürülür.

Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 822, 553, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə yenə də nəticə vermir. Ermənistan işğala əsaslanan status – kvonu möhkəmləndirmək və işğal olunmuş əraziləri ilhaq etmək siyasətini davam etdirir. Ermənistanın hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribat xarakterli bəyanatlar və atdığı addımlar danışıqlar prosesinə məqsədyönlü şəkildə tamamilə mənfi təsir göstərir. İşğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşma siyasətinin genişləndirilməsi, Ermənistan rəhbərliyinin "Qarabağ Ermənistandır və nöqtə" deyə ziddiyyətli açıqlaması, "Yeni ərazilər uğrunda yeni müharibə" çağırışı, mülki şəxslərdən ibarət "könüllü dəstələr" yaratmaq qərarı, 2020-ci ilin iyul ayında Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törədilməsi, yaşayış məntəqələrini və mülki insanları hədəfə alması düşmənin təcavüzkar siyasətinin əyani sübutudur və Ali Baş Komandan bu məsələni daim diqqət mərkəzində saxlayır.

2020-ci il iyulun 12-də dövlət sərhədinin Tovuz rayonu istiqamətində erməni silahlı qüvvələrinə aid zirehli texnika və düşmənin canlı qüvvələrinin yerdəyişmələr etdiyi müşahidə olunur. Bu, Ermənistan tərəfindən Azərbaycana qarşı artilleriya hücumunun əvvəldən planlaşdırılmasının sübutu idi.

Həmin gün günorta saatlarında Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini pozaraq artilleriya qurğularından istifadə etməklə mövqelərimizi atəşə tutması ilə Tovuz döyüşləri başlanır. Görülən adekvat tədbirlər nəticəsində düşmənə zərbə endirilir və o, itki verərək geri oturdulur.

Düşmən hücumunun qarşısını alarkən döyüşdə Azərbaycan Ordusunun hərbi qulluqçuları, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Sadıqov Vüqar Lətif oğlu və baş əsgər Məmmədov Elşad Dönməz oğlu şəhid olur. Həkimlərimizin səyinə baxmayaraq yaralanan 5 nəfərdən biri, əsgər Daşdəmirov Xəyyam Məhəmməd oğlu da dünyasını dəyişir.

İyulun 13-nə keçən gecə ərzində də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində gərginlik davam edir. Artilleriya, minaatan və tankların tətbiqi ilə müşayiət olunan gecə döyüşlərində bölmələrimizin dəqiq atəşi ilə düşmənin dayaq məntəqəsi, artilleriya qurğuları, hərbi hissəsi ərazisində avtomobil texnikası və canlı qüvvəsi məhv edilir. Döyüşdə baş leytenant Mahmudov Rəşad Rəşid oğlu qəhrəmancasına şəhid olur.





İyulun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilir.

Dövlətimizin başçısı Ermənistanın növbəti təxribatının qarşısının alındığını, düşmənə adekvat cavab verildiyini, hərbçilərimizin qisasının alındığını, Ermənistan tərəfinin bütün cəhdlərinin iflasa uğradığını, Azərbaycanın öz dövlət sərhədini qoruduğunu və Ermənistan əsgərlərinin bir santimetr də Azərbaycan torpağına keçə bilməməsini və bütün məsuliyyətin Ermənistanın hərbi-siyasi rəhbərliyinin daşıdığını bildirərək qeyd edir ki, Ermənistan rəhbərliyinin ikiüzlü və riyakar fəaliyyətinə görə belə hadisələr baş verir. Bir tərəfdən, beynəlxalq ictimaiyyətə müraciət edir və Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində atəşkəs rejiminin möhkəmləndirilməsi üçün kömək xahiş edir. Digər tərəfdən, hərbi təxribatlar törədərək Azərbaycan ərazisinə basqın etmək istəyir, mövqelərimizi zəbt etmək istəyir, mülki əhalini, kəndlərimizi atəşə tutur. Bu çirkin və məkrli siyasət Ermənistanı uçuruma aparacaq. Bütün məsuliyyət Ermənistanın rəhbərliyi üzərinə düşür. Azərbaycan öz ərazi bütövlüyünü bundan sonra da qoruyacaq, öz sərhədlərimizi qoruyacaq... Bu çirkin əməllərə əl atmaq onların təcavüzkar siyasətinin təzahürüdür. Bu siyasəti məntiqlə izah etmək mümkün deyil. Çünki bu siyasət olduqca ziddiyyətlidir və bu siyasət Ermənistan üçün böyük təhlükə mənbəyidir.

Azərbaycan Prezidenti bir daha bəyan edir ki, Azərbaycan heç vaxt işğal edilmiş torpaqların bu vəziyyətdə qalması ilə barışmayacaq, işğalla barışmayacaq və əlindən gələni edəcək ki, öz ərazi bütövlüyünü bərpa etsin.

Təhlükəsizlik Şurasının iclasının keçirildiyi günün ikinci yarısında düşmən yenə də təxribatlarını davam etdirir. Lakin görülən sərt cəza tədbirləri nəticəsində düşmənin atəş mövqeləri, kəşfiyyat bölməsinin radiolokasiya stansiyası, hərbi avtomobil texnikası üçün saxlanc, tank, zirehli transportyor, 20 nəfərdən çox şəxsi heyəti, tabor qərargahı və hərbi infrastrukturu bölmələrimizin dəqiq atəşi ilə darmadağın edilir.

İyulun 13-dən 14-nə keçən gecə və səhər saatlarında yenə də şiddətli döyüşlər davam edir.

Düşmənin aktiv fəaliyyətinin qarşısının alınması məqsədilə görülən tədbirlər nəticəsində ona məxsus müxtəlif təyinatlı texnikalar, döyüş vasitələri, komanda məntəqəsi, müdafiənin dərinliyindəki ehtiyatlar və canlı qüvvəsi məhv edilir.

Müdafiənin ön xəttində general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev və bir neçə hərbi qulluqçu qəhrəmancasına şəhid olur (Hər iki hərbi qulluqçu Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ölümlərindən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb).

Şəhidlər hərbi və dini ənənələrə uyğun olaraq dövlət himninin sədaları və yaylım atəşi altında böyük izdihamın iştirakı ilə son mənzilə yola salınır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev şəhid general-mayor Polad Həşimovun və polkovnik İlqar Mirzəyevin İkinci Fəxri xiyabanda dəfn mərasimi zamanı telefon vasitəsilə şəhid hərbi qulluqçularımızın ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

Həmin günlər bütün xalq ayaq üstə idi. Hər kəs şəhidlərimizin intiqamını almaq üçün döyüşlərə hazır olduğunu bildirir, ordumuza dəstək nümayiş etdirirdi. Ermənistan-Azərbaycan silahlı qüvvələrinin təmas xəttindən 300 km aralıda, Tovuz rayonu istiqamətində baş verən bu təxribatların bir neçə strateji səbəbi var idi. İlk növbədə, Ermənistanın məqsədi Azərbaycanın şərq-qərb platformasına, bizim qardaş Türkiyə ilə birgə həyata keçirdiyimiz TANAP və TAP kimi layihələrimizə təhlükə yaratmaq idi. Hədəflərin əsasında ərazi əldə etmək və həmin ərazidə nəzarəti ələ keçirmək də var idi. Eyni zamanda, Ermənistan Qarabağ mövzusundan diqqəti yayındıraraq yeni bir təhlükə mənbəyi yaratmağa çalışırdı.

Gündən-günə daha da güclənən, qüdrətlənən Azərbaycan Ordusunun bölmələri bu təxribatın da qarşısını mərdliklə aldılar. Düşmən əks-həmlə və qisas əməliyyatı ilə ordumuzun gücünü yenidən hiss etdi, döyüş meydanında çoxsaylı itkilər verərək geri çəkilməyə məcbur oldu. Bununla da, Azərbaycan Ordusunun müqayisəedilməz üstünlüyü, hər an düşməni məhv etməyə hazır olması növbəti dəfə öz təsdiqini tapdı. Bu hadisə Azərbaycan Ordusunun 2016-cı ilin aprelində və 2018-ci ilin mayında qazandığı qələbənin heç də təsadüfi olmadığını göstərdi.

Tovuz döyüşlərində Azərbaycan Ordusunun üstünlüyünü bir daha önə çəkən Ali Baş Komandan İlham Əliyev o günlərdə qürurla deyirdi: "Mən hesab edirəm ki, bu əməliyyatın Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olacaq. Necə ki, 2016-cı ildə Aprel döyüşlərində düşmənə dərs verdik və Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini düşməndən azad etdik. İki il bundan əvvəl 2018-ci ildə uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsi Azərbaycan Ordusu tərəfindən götürüldü və işğalçılar o bölgələrdən qovuldu. Azərbaycan Ordusu tərəfindən götürülmüş strateji yüksəkliklər imkan verir ki, biz Ermənistanın bir neçə yaşayış məntəqəsinə nəzarət edək. Ermənistandan Dağlıq Qarabağa gedən avtomobil yolu bizim nəzarətimizdədir. Naxçıvan ərazisinin bir hissəsini işğal etmiş Ermənistan Qüvvələri həmin ərazilərdən qovuldu, çıxarıldı, o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı".





Tovuz rayonu istiqamətində erməni hərbi birləşmələrinin təxribatlarının qarşısının alınmasında hərbçilərimizin göstərdiyi şücaət, qəhrəmanlıq bir dastana çevrildi və bu hadisə ordumuzun torpaqlarımızı azad etməyə qadir olduğunu əyani nümayiş etdirdi. Bir tərəfdən Azərbaycan Ordusu yüksək döyüş qabiliyyətini nümayiş etdirə bildi, digər tərəfdən zabit və əsgərlərimiz özlərinin yüksək döyüş ruhunu və vətənpərvərlik mövqələrini, qələbə əzmində olduqlarını ortaya qoydu.

Tovuz döyüşləri zamanı həmişə olduğu kimi, yenə də ilk dəstək qardaş Türkiyədən gəldi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ermənistanın Azərbaycana son hücumlarını qınadı. Qardaş ölkənin dövlət başçısı vətənini müdafiə edərkən şəhid olan azərbaycanlı qardaşlarımıza Allahdan rəhmət, yaralılara şəfa diləyərək öz narahatçılığını bildirdi: "Dağlıq Qarabağın işğalından bəri bu bölgədə davam edən gərginliyin Ermənistanın sistemli hücumları nəticəsində müharibəyə çevrilməsindən narahatıq. Sonuncu hücumlar Dağlıq Qarabağda deyil, iki dövlət arasındakı sərhəddə ağır silahlardan istifadə olunmaqla həyata keçirilib. Heç şübhəsiz, bu hücum Ermənistanın əndazəni aşan hərəkətidir. Burada məqsədli bir təxribat var: həm Dağlıq Qarabağ probleminin həllinin qarşısını almaq, həm də yeni bir münaqişə mənbəyi yaratmaq. Türkiyə qədim dostluq bağları və qardaşlıq əlaqələrinin olduğu Azərbaycanın haqq və hüququnun müdafiəsi, torpaqlarına qarşı yönələn təcavüzün qarşısının alınmasında tərəddüd etməyəcək. Öz ölkəsində sosial və epidemiya ilə bağlı problemləri həll edə bilməyən bir dövlətin belə hücumlar etməsi, ilk növbədə, xalqına qarşı hörmətsizlikdir. Bütün imkanlarımızla dost və qardaş Azərbaycanın yanındayıq və yanında olmaqda davam edəcəyik".

Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu Ermənistanın törətdiyi təxribatlara qarşı "TRT HABER" televiziya kanalında dərhal öz sərt münasibətini bildirdi: "Ermənistanın törətdikləri qəbuledilməzdir. Ermənistan ağlını başına yığmalıdır. Azərbaycan yalnız deyil. Biz Türkiyə Respublikası və türk milləti olaraq bütün imkanlarımızla Azərbaycanın yanındayıq. Azərbaycan işğal olunmuş ərazilərinin azad edilməsi məsələsində hansı həll yolunu seçsə, Azərbaycanı dəstəkləyəcəyik. Bütün imkanlarımızla Azərbaycanın yanındayıq".

Türkiyənin Milli Müdafiə naziri Hulisi Akar isə "Anadolu" agentliyinin təşkil etdiyi canlı yayımda sualları cavablandırarkən baltanı lap kökündən vurdu: "Azərbaycan türkü bizim doğma qardaşımızdır. Biz bir millət, iki dövlətik. Ermənistanın Tovuz rayonu istiqamətində Azərbaycana hücumlarını şiddətlə qınayırıq. Ermənistan öz boyundan böyük işlərə girişir".

Nəinki Türkiyə rəsmilərinin, eləcə də sadə türk vətəndaşlarının Er-

mənistanın növbəti təxribatlarına qarşı etiraz səslərini yüksəltmələri, ağrılı, üzüntülü günlərdə xalqımıza, şəhid ailələrinə səbir, dözüm arzulamaları, Azərbaycan əsgəri ilə bir səngərdə çiyin-çiyinə düşmənə ağır zərbələr vurmağa hazır olduqlarını bəyan etmələri xalqımızı nə qədər qürurlandırdısa, Vətən əsgərlərinin döyüş əzmini, vətənpərvərlik və düşmənə nifrət hissini də bir o qədər yüksəltdi.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Ermənistanın işğalçı siyasətinin, bu ölkənin faşizm ideologiyasının daşıyıcısı olmasının ifşası istiqamətində həyata keçirdiyi fəaliyyət Tovuz rayonu istiqamətində baş verən yeni hərbi toqquşmalara da dünyanın diqqətini cəlb etdi. Azərbaycanın müttəfiqləri, tərəfdaşları, ayrı-ayrı dövlətlər, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı ölkəmizin müdafiəsinə qalxdılar.

Tovuz hərbi əməliyyatları fonunda Ermənistanın heç bir dövlət, təşkilat və siyasətçi tərəfindən dəstəklənməməsi işğalçı erməni siyasətinin ifşası, erməni yalanlarının iflasa uğraması istiqamətində mühüm əhəmiyyət kəsb etdi. Hətta Ermənistanın təmsil olunduğu Kollektiv Təhlükəsizlik Müdafiə Təşkilatı da onu müdafiə edən hansısa bir bəyanat vermədi. Bu hadisədən sonra təşkilat dərhal toplanmalı və baş vermiş hadisəni dəyərləndirməli idi.

Tovuz döyüşlərinin ən mühüm reallığı isə növbəti dəfə təxribatın qarşısının alınması, tərəflərin həyata keçirdiyi əməliyyatların nəticəsi və keyfiyyəti Azərbaycanın müasir döyüş imkanları baxımından Ermənistandan dəfələrlə güclü olduğunu göstərdi.

Tovuz döyüşləri zamanı şəhid olmuş qardaşlarımızın qırxı çıxmamış hərbi əməkdaşlıq haqqında sazişə əsasən, illik plana uyğun olaraq iyulun 29-dan Azərbaycanda Azərbaycan və Türkiyənin Quru Qoşunlarının və Hərbi Hava Qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərinin keçirilməsi xalqımızı nə qədər sevindirdisə, düşmənlərimizi də bir o qədər qorxutdu, vahiməyə saldı.

Azərbaycan və Türkiyə ordularının hərbi qulluqçuları birgə təlimlərdə əldə etdikləri nailiyyətləri əzəli və tarixi Azərbaycan torpağı olan Dağlıq Qarabağa son yürüşdə, sonucu qələbə ilə, zəfər ilə nəticələnəcək müqəddəs savaşlarda uğurla təkrarlamağa artıq hazır idilər. Əgər döyüşlər yenidən başlasa, dostlarımız da, düşmənlərimiz də bir daha şahidi olacaqlar ki, Bakını bolşevik-daşnak işğalından azad edən Qafqaz İslam Ordusunun, Nuru paşaların, Kazım Qarabəkir paşaların, Mürsəl paşaların, Xəlil paşaların davamçıları bu gün də Azərbaycan və Türkiyə ordularında minlərlə, on minlərlə, yüz minlərlədirlər. Onlar 30 ilə yaxındır ki, köçən ellərini səbirsizliklə gözləyən yurd yerlərimizi düşmən əsarətindən azad etmək üçün hücum əmri gözləyirlər.

2020-ci il sentyabrın 27-də saat 06:00 radələrində Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqeləri və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmasına cavab olaraq Azərbaycan xalqı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsinə qalxdı.





Qəhrəman əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütün Azərbaycan xalqı birlik və həmrəylik nümayiş etdirərək, işğalçıya layiqli cavab vermək üçün bir bayraq altında cəm oldu, düşməni darmadağın etmək, qələbə qazanmaq naminə "Dəmir Yumruq" kimi birləşdi.

Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2020-ci il tarixli Fərmanı ilə 2020-ci il sentyabrın 27-də Ermənistan Respublikasının silahlı qüvvələrinin beynəlxalq hüquq normalarını yenidən kobud surətdə pozaraq, müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə etməklə bir neçə istiqamətdən Azərbaycan Respublikasının yaşayış məntəqələrini və hərbi mövqelərini atəşə tutduğunu, nəticədə mülki şəxslər və hərbçilər arasında ölən və yaralananların olduğunu, bu hücumların qarşısının alınması məqsədi ilə Azərbaycan Ordusunun əks-hücum əməliyyatlarına başladığını nəzərə alaraq, Azərbaycan Respublikasının Konstitusiyasının 109-cu maddəsinin 29-cu bəndini və 111-ci maddəsini rəhbər tutaraq Ermənistan Respublikasının silahlı qüvvələrinin Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını işğal etməsi, Azərbaycan Respublikasına qarşı silahlı hücumlar və mütəmadi hərbi təxribatlar törətməsi ilə əlaqədar, 2020-ci il 28 sentyabr saat 00:00-dan Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan edildi.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət etdi.

Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananların olduğunu, Azərbaycan Ordusunun hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirdiyini və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikalarının sıradan çıxdığını bildirən Prezident İlham Əliyev Allahdan şəhidlərimizə rəhmət dilədi, onların qanının yerdə qalmayacağını bəyan etd və bu təxribatların erməni faşizminin növbəti təzahürü olduğunu bildirdi.

İyul ayında Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində yenə də ermənilərin törətdikləri təxribatları xatırlayan dövlətimizin başçısı nəzərə çatdırdı ki, Azərbaycan düşmənə layiqli cavabını verdi və düşmən bir santimetr irəliyə gedə bilmədi. Düşmən dayandırıldı, ölkəmizin ərazi bütövlüyü qorundu. Sarsıdıcı zərbələr nəticəsində Ermənistan tərəfi məcbur olub acı məğlubiyyətlə razılaşdı.

Ali Baş Komandan bu barədə dəfələrlə danışdığına baxmayaraq yenə də dedi ki, əgər bizim istəyimiz olsaydı, hərbi döyüşləri Ermənistan ərazisinə keçirə bilərdik. Ancaq bizim Ermənistan ərazisində hərbi hədəflərimiz yoxdur və belə olan halda bir neçə gündən sonra atəş dayandırılmışdır.

Prezident İlham Əliyev Ermənistanın bu təxribatı törətməkdə hansı məqsədi güddüyünə də aydınlıq gətirdi: "İlk növbədə Azərbaycan torpaqlarının işğalı onların planındadır və onlar bunu gizlətmirlər. Onların hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı, yeni ərazilər uğrunda yeni işğal siyasəti. Budur, bu gün Ermənistan hərbi-siyasi rəhbərliyinin siyasəti. Digər səbəb Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq və Azərbaycandan düşmən obrazı yaratmaqdır. Daha bir səbəb isə ondan ibarətdir ki, Ermənistan hər vəchlə çalışır ki, danışıqlar prosesi pozulsun və deyə bilərəm ki, buna nail olur. Məhz Ermənistanın riyakar, qeyri-konstruktiv və yalançı siyasəti nəticəsində hazırda danışıqlar faktiki olaraq dayanıbdır. Növbəti təxribatın törədilməsi məhz bu məqsədləri güdür və bu məqsədlər onlar üçün əsas məqsədlərdir.

İyul ayında Azərbaycan düşmənə layiqli cavabını verdi, öz ərazi bütövlüyünü qorudu və bir daha göstərdi ki, Azərbaycanla hədə-qorxu dili ilə danışan bundan peşman olacaqdır. Əfsuslar ki, bu, onlar üçün dərs olmadı. Halbuki mən iyul təxribatından sonra demişdim ki, Ermənistanın bu acı məğlubiyyəti onlar üçün dərs olmalıdır".

Ermənistanın bizə qarşı təxribatlarını faktlarla bir-bir xatırladan İlham Əliyev qətiyyətlə bildirirdi ki, Azərbaycan heç bir təxribata əl atmamışdır, sadəcə olaraq, öz maraqlarını müdafiə edir, öz mövqeyini dəstəkləyir və öz siyasətini alnıaçıq aparır: "Biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bu həqiqətdir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş qərar və qətnamələr Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu açıq-aydın təsbit edir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində deyilir ki, erməni silahlı qüvvələri dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Otuz ilə yaxındır ki, bu qətnamələr kağız üzərində qalır. Otuz ilə yaxındır ki, Minsk qrupu çərçivəsində danışıqlar aparılır və bunun sonunda Ermənistan müntəzəm olaraq hərbi təxribatlar törətməklə danışıqlar prosesini iflic vəziyyətə salıbdır... Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə





əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.

Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır".

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında da Ermənistanın Azərbaycana qarşı törətdiyi təxribatın səbəbləri və son müddət ərzində Ermənistanın çirkin addımları haqqında geniş məlumat verilir. Ali Baş Komandan İlham Əliyev fikirlərini bölüşərək bir daha əminliyini bildirir ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır, ədalətsizliyə son qoyacaqdır! Otuz ilə yaxın davam edən işğala son qoyacaqdır! Çünki Azərbaycan xalqı öz torpağında yaşamaq istəyir. Azərbaycan vətəndaşı Vətən həsrəti ilə yaşayır. Ermənilər tərəfindən, Ermənistan rəhbərliyi tərəfindən öz dədə-baba torpaqlarından zorla didərgin salınmış insanlar öz doğma ocaqlarına qayıtmaq istəyirlər. Baxmayaraq ki, onların ocaqları vəhşilər tərəfindən dağıdılıb. Baxın Ağdam şəhərinin qalıqlarına. Baxın Füzuli şəhərinin qalıqlarına. Baxın işğal olunmuş ərazilərdə bizim məscidlərimizin, qəbiristanlıqlarımızın dağıdılmış vəziyyətinə. Bütün bunları erməni cəlladları törədib və biz tam haqlıyıq. Bizim mübarizəmiz haqq mübarizəsidir və bu gün Azərbaycan vətəndaşları dövlətə tam dəstək göstərirlər, bu dəstəyi daim hiss edirik. Azərbaycan vətəndaşı Azərbaycan Ordusunun yanındadır. Otuz ilə yaxın öz doğma torpaqlarına qayıda bilməyən soydaşlarımıza üz tutub deyirəm, biz əlimizdən gələni edəcəyik ki, sizi öz doğma torpaqlarınıza qaytaraq.

Azərbaycan Prezidenti İlham Əliyev bir daha Ermənistana xəbərdarlıq edir: "Əgər onlar öz çirkin əməllərindən əl çəkməsələr peşman olacaqlar. Biz onlara 2016-cı ildə, 2018-ci ildə, bu ilin iyul ayında dərs verdik. Amma görünür ki, bu, onlar üçün dərs olmadı. Bu dəfə də dərs veririk və verəcəyik. Bu gün şanlı Azərbaycan Ordusu böyük uğurlu əks-hücum əməliyyatı keçirir və bu əməliyyat davam edir."

Təhlükəsizlik Şurasının iclasında Müdafiə naziri general-polkovnik Zakir Həsənov məruzə edir ki, saat 6-ya bir neçə dəqiqə qalmış erməni silahlı qüvvələri Füzuli, Cəbrayıl, Tərtər və Ağdam rayonlarının kəndlərini artilleriyadan atəşə tutmuşdur. Dağıntılar, əhali arasında yaralananlar və itkilər olmuşdur. Hərbi hissələrin ön xətti də atəşə tutulmuşdur. Eyni

vaxtda Ağdam, Füzuli, Cəbrayıl istiqamətində düşmənin silahlı qüvvələrinin cəmləşməsi müşahidə olunmuşdur və onların hücuma hazırlaşdığı müşahidə edilmişdir. Əməliyyat şəraiti nəzərə alınaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatı həyata keçirib. Əks-hücum əməliyyatı nəticəsində düşmənin ön xətti yarılmışdır. Artıq Qaraxanbəyli, Nüzgar, Yuxarı Əbdürəhmanlı, Böyük Mərcanlı, Kənd Horadiz, Qərvənd kəndləri azad edilmişdir. Azərbaycan Ordusu digər istiqamətlərdə uğurlu əks-hücum əməliyyatı həyata keçirir və düşmən böyük itkilər verərək geri çəkilir. Azərbaycan Ordusunun zərbələri həm ön xətdə, həm də düşmənin tam dərinliyində həyata keçirilir. Ən müasir silahlar tətbiq olunur və biz düşmənin müqavimətini o qədər də güclü görmürük. Düşmən tam şəkildə geri çəkilir.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev ilk uğurlar münasibətilə Azərbaycan xalqını, Azərbaycan Ordusunu təbrik edir.

Artıq Azərbaycan xalqının və Azərbaycan Ordusunun arzuladığı məqamdır. 30 ilə yaxındır ki, qalib Vətən əsgərini və köçən ellərini səbirsizliklə gözləyən tarixi torpaqlarımızın işğaldan azad edilməsi, respublikamızın ərazi bütövlüyünün bərpa olunması uğrunda "Dəmir Yumruq" əməliyyatı – Vətən müharibəsi başlanıb. Əli silah tutan hər bir Azərbaycan vətəndaşı müsəlləh əsgər olduğunu bəyan edir, "Hər şey cəbhə üçün, hər şey Qələbə üçün!" şüarı bütün ölkəni dolaşır. Ordumuz zəfər yürüşü ilə torpaqlarımızın azadlığı uğrunda müqəddəs savaşlara atılıb. İgid oğullarımız şəhidlik geyib düşmən istehkamlarını yararaq irəliləyir. Ölkə vətənpərvərlik hissi ilə yaşayır, hər kəs döyüşə can atır. Bütün xalqımız torpaqların tezliklə azad ediləcəyinə inanır. Hər kəs Ali baş Komandanın hər bir əmrinə hazırdır!

Düşmən çaşqınlıq içindədir. Bir-birinin ardınca hərbi texnika və qüvvələrini itirən işğalçı Ermənistanın hərbi birləşmələri ordumuzun vurduğu zərbələrə tab gətirmir. Yenə hiyləyə əl ataraq Daşkəsən istiqamətində və digər sərhədyanı ərazilərdə yaşayış məntəqələrimizi atəşə tutur. Amma düşmən bu hərəkətlərinin də adekvat cavabını alaraq işğal etdiyi ərazilərimizdən qaçmağa üz tutur.

Sentyabrın 28-dən 29-na keçən gecə bütün cəbhəboyu gərgin döyüşlər davam edir. Ermənistan silahlı qüvvələri cəbhənin Füzuli-Cəbrayıl və Ağdərə-Tərtər istiqamətlərində itirdikləri mövqeləri geri qaytarmaq üçün bir neçə dəfə əks-hücuma cəhd göstərir. Azərbaycan Ordusunun bu istiqamətlərdə yerləşən bölmələri etibarlı şəkildə müdafiə olunaraq düşmənin bütün cəhdlərinin qarşısını dərhal alır.

Dayanmadan hücuma keçən, düşmənə göz qırpamağa imkan verməyən Azərbaycan Ordusunun bölmələri gecənin qaranlığında belə düşmənə rahat nəfəs almağa macal vermir. Artilleriyaçılardan tutmuş hərbi





pilotlara qədər hər bir döyüşçü üzərinə düşən tapşırıqları böyük həvəslə, qələbə əzmi, torpaqlarımızı azad görmək eşqi ilə icra edir. Gecə döyüşlərində cəbhənin Ağdərə istiqamətində düşmənin Madagizdən hərəkət edən zirehli və avtomobil texnikasından ibarət qarışıq kolonu və onların hərəkətinə atəş dəstəyi verən artilleriya batareyası Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələri və cəbhənin bu istiqamətində yerləşən qoşunlarımız tərəfindən məhv edilir.

Bundan başqa, cəbhənin Füzuli-Cəbrayıl istiqamətində sentyabrın 29-da səhər saatlarından yerdəyişmə etmək istəyən düşmənin bir tankı, bir avtomobil texnikası və 10 nəfərədək şəxsi heyəti artilleriya zərbəsi ilə məhv edilir. Eləcə də cəbhənin Füzuli-Cəbrayıl istiqamətində Ermənistan qoşunlarının daha 4 tankı qəhrəman döyüşçülərimiz tərəfindən sıradan çıxarılır.

Səhər saatlarından etibarən ordumuz Füzuli şəhərinin işğaldan azad olunması uğrunda hücum əməliyyatlarını davam etdirir. Bütün cəbhəboyu hücuma keçən şanlı ordumuz düşmənin texnika və canlı qüvvəsini məhv edərək irəliləməkdədir. İlk ağır zərbələr nəticəsində düşmən qüvvələrini qorxuya salan zabit və əsgərlərimiz işğaldan azad ediləcək son qarış ərazimiz də azad olunmayınca silahı yerə qoymayacaqlarına and içirlər.

Arxa cəbhədə də böyük qələbəlikdir. Vətən müharibəsinin ilk günündən Azərbaycan Ordusunun yaşayış məntəqələrini azad edərək irəliləməsi, düşmənə hərbi texnika və canlı qüvvə sarıdan xeyli itkilər verməsi xalqın Ali Baş Komandana və Azərbaycan Ordusuna inamını daha da artırır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında" 2020-ci il 28 sentyabr tarixli Sərəncamının icrası ilə bağlı təsdiq edilmiş plana uyğun olaraq, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli struktur bölmələrində hərbi vəzifəlilərin səfərbərlik üzrə cəbhəyə yola salınmasına başlanılır.

Qismən səfərbərliyə cəlb edilən Azərbaycan vətəndaşları respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etmək üçün böyük ruh yüksəkliyi və coşqu ilə qurumun qeydiyyatda olduqları idarə, şöbə və bölmələrinə tələsirlər.

Hərbi vəzifəlilərin, onları yola salan valideyn və yaxınlarının böyük ruh yüksəkliyi bir daha göstərir ki, xalqımız işğal altındakı ərazilərimizi düşməndən azad etmək üçün ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlarla qürur duyur və ümumi qələbəmiz naminə nəbzi Vətən ilə vuran Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin sərəncamını təntənə ilə qarşılayır.

Çoxmillətli ölkəmizdə hər kəs Vətənin müdafiəsini qanunla müəyyən edilmiş vəzifədən əlavə özünə mənəvi borc bilir. Hər bir çağırışçının dilində əsas şüar bunlardır: "Biz birlikdə güclüyük!", "Biz zəfər çalacağıq!". Çünki bizim işimiz haqq işidir.

Bütün Azərbaycan xalqının diqqəti cəbhə bölgəsinə yönəlib və hər kəs oradan gələn hər yeni zəfər müjdəsini sonsuz sevinclə qarşılayır. İnsanlarımız arzulanan böyük qələbəmizin rəhni kimi baxdıqları Ali Baş Komandanı, Milli Ordumuzu, Azərbaycan əsgərini ürəkdən dəstəkləyirlər. Bu mübarizəli və şanlı günlərdə bütün ölkə bir yumruq kimidir, cəmiyyətin bütün təbəqələri, bütün vətəndaşlarımız Vətən naminə, Azərbaycan torpaqlarının təcavüzdən nəhayət ki, birdəfəlik azad edilməsi yolunda öz rəhbəri ilə birlikdədir və onun bu şərəfli yoldakı bütün təşəbbüslərini, bütün çağırışlarını dəstəkləyir.

Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarının qarşısını uğurla alması, düşmənə sarsıdıcı zərbələr endirməklə cəbhədə əldə etdiyi ilk qələbələr xalqımız tərəfindən böyük sevinclə və ruh yüksəkliyi ilə qarşılanır. Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş Türkiyənin vətəndaşları bu nailiyyətlərə görə Ali Baş Komandan İlham Əliyevə çoxsaylı təbrik və minnətdarlıq məktubları yazır, ölkə rəhbərinin ətrafında daha sıx birləşib ərazi bütövlüyümüz uğrunda canlarından keçməyə belə hər an hazır olduqlarını bildirirlər.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "instagram" səhifəsində "Azərbaycan dövləti heç vaxt başqasının torpaqlarına iddialı olmayıb, heç zaman insanlığa qarşı cinayət törətməyib. Azərbaycan Ordusu başqa dövlətin torpaqlarına ayaq basmayıb, o, doğma torpağını qoruyur və onun uğrunda döyüşür!" fikrini paylaşım edərək Ermənistanın növbəti silahlı təxribatına cavab verildiyini, Azərbaycan Ordusunun öz Vətənini müdafiə edərək uğurlu əks-hücum əməliyyatı keçirdiyini və Azərbaycanın işğal altında olan ərazilərini azad etdiyini bildirir.

Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan dövlətinə və xalqına dəstək olaraq öz prinsipial və ədalətli mövqeyini nümayiş etdirən bütün insanlara, təşkilatlara və dövlətlərə dərin təşəkkürünü bildirir. İlk növbədə, qardaş Türkiyə xalqına və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana minnətdarlığını bildirir. Onların həmrəyliyi və mənəvi dəstəyinin bu gün hər bir azərbaycanlıya qürur hissi yaşatdığını qeyd edir.

Xanım Mehriban Əliyeva paylaşımını bu sözlərlə bitirir: "Azərbaycanın bütün əsgərlərinin, zabitlərinin həyatı və sağlamlığı üçün dua edirəm!





Bu gün biz azərbaycanlılar niyyətimizlə, hərəkət və dualarımızla misli görülməmiş birlik göstəririk. Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun!

Qoy uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!

Allah şəhidlərimizə rəhmət eləsin! Qəbirləri nurla dolsun!"

***

Azərbaycan Ordusu düşməni döyüş meydanında, səngərdə, Prezident İlham Əliyevin çıxışları, müsahibələri isə siyasi və beynəlxalq müstəvidə məğlub etməkdə davam edir.

Xalqımızın dəmir yumruqtək birliyinin simvoluna çevrilən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müraciət və qələbə müjdələrini xalqımız hər gün səbirsizliklə gözləyir və bu xəbərlər hər bir Azərbaycan vətəndaşının, hər bir Vətən əsgərinin böyük ruh yüksəkliyinə səbəb olur.

Həmin müraciətlərdən bəzi fraqmentləri təqdim edirik:

***4 oktyabr 2020-ci il***

Prezident İlham Əliyev Cəbrayıl şəhərinin və Cəbrayıl rayonunun doqquz kəndinin işğaldan azad edildiyi müjdəsini verərək bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edir:

– Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm. Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdıb. Bu qanlı döyüşlərdə həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Yaralı əsgərlərimizə şəfa diləyirəm. Uzun illərdən sonra Cəbrayıl şəhəri azad edildi! Cəbrayıl bizimdir!..

Bu gün Cəbrayılın işğaldan azad edilməsi Ermənistana, onun havadarlarına dərs olmalıdır. Mən hadisələrdən əvvəl demişdim. Orada təxribat törətdi, dərs verdik, dərs olmadı. Burada təxribat törətdi, dərs verdik, dərs olmadı. Nəhayət, bu dəfə təxribat törətdi, dərs verdik, indi dərs oldu.

Biz haqq-ədalət tərəfindəyik. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

***9 oktyabr 2020-ci il***

– Əziz həmvətənlər, bu gün müzəffər Azərbaycan Ordusu bir neçə yaşayış məntəqəsini işğaldan azad edib. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm!

İşğaldan azad edilmiş yaşayış məntəqələrinin adlarını sizin diqqətinizə çatdırmaq istərdim: Hadrut qəsəbəsi, Çaylı kəndi, Yuxarı Güzdək kəndi, Gorazilli kəndi, Qışlaq kəndi, Qaracallı kəndi, Əfəndilər kəndi, Süleymanlı kəndi, Sur kəndi.

Bu kəndlərin və Hadrut qəsəbəsinin işğaldan azad edilməsi tarixi qələbəmizdir...

Ermənistana axırıncı şans veririk, axırıncı şans! Heç kimə ümid bağlamasın. Heç kim onlara kömək etməyəcək. Bizim qabağımızda Ermənistan acizdir. Bizim qabağımızda Ermənistan diz çöküb. Bizim şəhidlərimizin ruhu qarşısında biz onları diz çökdürmüşük. Şəhidlərimizin qanı yerdə qalmayıb. Mən dəfələrlə şəhid ailələrinin nümayəndələri ilə, şəhid valideynləri ilə görüşəndə demişdim ki, biz onların qisasını alacağıq. Bizim şəhidlərimizin qanı yerdə qalmayacaq və qalmır. Biz qan istəmirik. Biz istəyirik ki, torpaqlarımız bizə verilsin. Verilsin, uzatmasınlar məsələni. Status-kvo deyilən məsələ yoxdur, qurtardı getdi. Azərbaycan əsgərinin qabağında heç kim heç nə edə bilməz. Biz bu gün o təmas xəttini darmadağın etdik. Yoxdur təmas xətti... Tarixi qələbə çalırıq! Bu qələbə Azərbaycan xalqının əldə etdiyi qələbələr arasında ən parlaq qələbədir. Gələcəkdə bu qələbələr davam edəcək. Biz torpaqlarımızı azad edəcəyik. Ərazi bütövlüyümüzü bərpa edəcəyik! Düşməni ondan sonra da qovacağıq. Mən bilirəm ki, Azərbaycan xalqı mənim bu sözlərimi bəyənibdir. Qovacağıq onları axıra qədər. Bayrağımız işğal edilmiş bütün torpaqlarda qaldırılacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək. Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!

***17 oktyabr 2020-ci il***

– Şanlı Azərbaycan Ordusu öz xilaskarlıq missiyasını uğurla davam etdirir. Son günlər ərzində mən xalqıma xəbər verərək, yeni azad edilmiş kəndlərin adlarını açıqlamışdım. Bu gün də böyük məmnunluq hissi ilə, böyük sevinc hissi ilə azad edilmiş növbəti yaşayış məntəqələrinin adlarını əziz xalqıma çatdırmaq istəyirəm. Bu gün Füzuli rayonunun aşağıdakı yaşayış məntəqələri işğalçılardan azad edilib: Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri. Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ bizimdir!

Mən özümü xoşbəxt insan hesab edirəm ki, bu sevincli xəbərləri doğma xalqıma çatdırıram. Ali Baş Komandan kimi bütün işlərə rəhbərlik edirəm və Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da fəaliyyətimdə ölkəmizin, xalqımızın milli maraqlarını qorumaq üçün əlimdən gələni əsirgəməyəcəyəm. Heç bir təhdid, heç bir hədə, heç bir təzyiq mənim iradəmə təsir edə bilməz. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda vuruşuruq. Öz ərazi bütövlüyümüzü bərpa edirik.





Yaşasın Azərbaycan Ordusu! Yaşasın Azərbaycan xalqı! Qarabağ Azərbaycandır!

***20 oktyabr 2020-ci il***

– Əziz həmvətənlər, müzəffər Azərbaycan Ordusu döyüş meydanında yeni qələbələr qazanır. Bu qələbələr hər bir Azərbaycan vətəndaşını sevindirir. Torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan düşmən döyüş meydanında Azərbaycan Ordusunun gücünü görür. Biz öz torpağımızda vuruşuruq, öz torpağımızı qoruyuruq və işğalçıları bundan sonra da öz torpaqlarımızdan qovacağıq.

Xalqımız döyüş meydanından, cəbhə bölgəsindən səbirsizliklə yeni xəbərlər gözləyir. Mən çox şadam və mən xoşbəxt adamam ki, bu şad xəbərləri Azərbaycan xalqına çatdırıram. Hər bir kəndin, hər bir şəhərin, hər bir strateji yüksəkliyin işğalçılardan azad edilməsi böyük peşəkarlıq, cəsarət, rəşadət, qəhrəmanlıq tələb edir. Bizim hərbçilərimiz şəhid olurlar. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Şəhidlərimiz həmişə bizim qəlbimizdə yaşayacaq. Bizim hərbçilərimiz döyüş meydanında yaralanırlar. Allah bütün yaralı əsgərlərimizə şəfa versin!

Əziz xalqımın səbirsizliklə gözlədiyi bizim yaşayış məntəqələrinin azad edilməsi haqqında məlumatı böyük qürur hissi ilə çatdırıram. Füzuli rayonu – azad edilmiş kəndlərin adları: Dördçinar, Kürdlər, Yuxarı Əbdürəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı. Cəbrayıl rayonu – azad edilmiş kəndlər: Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli, Xocavənd rayonu – azad edilmiş yaşayış məntəqələrinin siyahısını çatdırıram: Ağcakənd, Mülkidərə, Daşbaşı, Günəşli, Vəng. Bu kəndə yeni Azərbaycan adı verirəm. Bundan sonra Vəng kəndi Çinarlı adlandırılsın. Adı mübarək olsun! Zəngilan rayonu. Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub və yaşayış məntəqlərinin azad olunmasını təmin edib. Zəngilan rayonunun ərazisində yerləşən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!

***26 oktyabr 2020-ci il***

– Əziz həmvətənlər, bir aya yaxındır ki, İkinci Qarabağ müharibəsi davam edir. Bu müharibə xalqımız üçün Vətən müharibəsidir. Biz Vətən

torpaqlarını işğalçılardan azad edirik. Bu müddət ərzində şanlı Azərbaycan Ordusu bir çox yaşayış məntəqələrini düşməndən azad edibdir. Biz döyüş meydanında tarixi ədaləti bərpa edirik...

Beləliklə, dünən azad edilmiş yaşayış məntəqələrinin siyahısını doğma xalqıma çatdırıram. Zəngilan rayonunda azad edilmiş kəndlər: Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd. Cəbrayıl rayonunun azad edilmiş kəndləri: Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər. Qubadlı rayonunun dünən azad edilmiş yaşayış məntəqələri: Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan və Qubadlı şəhəri!

Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının sakinlərinə bu kəndlərdə yaşamış sakinlərə xoş xəbər çatdırmaq mənim üçün böyük şərəfdir. Düzdür, o kəndlərdən bir şey qalmayıb. Eybi yoxdur, bərpa edəcəyik. Azərbaycan xalqının da, dövlətinin də buna gücü çatacaq. Təki torpaqlarımız azad olsun. Təki Bayrağımız işğaldan azad edilmiş bütün torpaqlarda qaldırılsın. Biz əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına bu torpaqları azad edirik. Həm döyüş meydanında, həm siyasi müstəvidə özümüzü təsdiqləmişik. Dünyaya təsdiqləmişik. Azərbaycan xalqını qürurlu xalq kimi, cəsarətli xalq kimi təsdiqləmişik. Heç bir təzyiq bizə təsir edə bilməz. Heç bir hədə-qorxu bizi yolumuzdan döndərə bilməz. Çünki haqq yolundayıq. Yumruq kimi birik. Bu birlik əbədidir və əbədi olacaq!

Əziz həmvətənlər, mən hələ müharibənin ilk günündə sizə söz vermişdim ki, biz düşməni torpaqlarımızdan qovacağıq, sona qədər qovacağıq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

***8 noyabr 2020-ci il***

– Əziz həmvətənlər, əziz bacılar və qardaşlar! Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm.

İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür! Bu Qələbəni biz döyüş meydanında qazandıq. Danışıqlar masası arxasında yox. Mən dəfələrlə demişəm ki, bütün bəyanatlara rəğmən ki, bu münaqişənin – Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərbi həlli yolları da vardır və bu gün biz bunu döyüş meydanında sübut edirik...

Biz bu Qələbəni döyüş meydanında qazandıq, şəhidlər verərək bu Qələbəni qazandıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Həm birinci





Qarabağ, həm ikinci Qarabağ – Vətən müharibəsi adlandırdığımız müharibədə şəhid olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Onların yaxınlarına səbir diləyirəm. Yaralı soydaşlarımıza Allahdan şəfa diləyirəm. Biz xalqımızın, əsgərlərimizin, zabitlərimizin canı, qanı bahasına torpaqlarımızı işğalçılardan azad edirik. İşğalçıları torpaqlarımızdan qovuruq və qovacağıq!...

Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!

***

Beləliklə, qəhrəman əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütün Azərbaycan xalqı birlik və həmrəylik nümayiş etdirərək, işğalçıya layiqli cavab verdi. "Dəmir Yumruq" əməliyyatı nəticəsində düşmən darmadağın edildi və Azərbaycan Ordusu Qələbə qazandı.

Dövlətimizin ədalətli və haqlı mövqeyini qəti və prinsipial şəkildə daim dəstəkləyən Türkiyə Respublikası müharibənin ilk günlərindən Azərbaycana siyasi və mənəvi dəstəyini əsirgəmədi. Qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan Vətən müharibəsi ərzində bir çox çıxışlarında bu mövzuya toxunaraq Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu açıq şəkildə bəyan etmişdir. Bu günlər ərzində Türkiyə xalqının nümayiş etdirdiyi həmrəylik hər bir azərbaycanlıya böyük qürur və fərəh hissi yaşatdı. Bu həmrəylik Azərbaycan-Türkiyə qardaşlığının əbədi və sarsılmaz olduğunu bütün dünyaya bir daha sübut etdi.

Azərbaycan Ordusunun zəfər yürüşünə dözə bilməyən düşmən təxribatlara əl ataraq günahsız mülki insanları hədəfə almaqla müharibə cinayətləri törətdi. Nəticədə 11 nəfər uşaq olmaqla, 94 mülki şəxsi qətlə yetirildi. 400-dən çox insan yaralandı.

Ermənistan beynəlxalq konvensiyaları kobud şəkildə pozaraq mülki insanlara qarşı kasetli bombalar, fosfor mərmiləri və ballistik raketlərdən istifadə etdi. Bütün bunlara baxmayaraq  müzəffər ordumuz Vətən müharibəsi ərzində humanizmin prinsiplərinə və beynəlxalq humanitar hüquqa sadiqliyini nümayiş etdirərək, dinc əhaliyə heç vaxt hücum etmədi və öz gücünü döyüş meydanında göstərdi.

44 gün davam edən hərbi əməliyyatlar nəticəsində ordumuz Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonlarını, Azərbaycanın mədəniyyət incisi hesab olunan Şuşa şəhərini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan, Talış və Çaylı kəndləri, Xocalı və laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə,

300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ, Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi. Bu torpaqlar Azərbaycan xalqının igid oğullarının, bizim əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına qaytarıldı.

Hərbi əməliyyatlar zamanı qazanılmış qələbələr, xüsusilə Qarabağın tacı olan Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin gedişində həlledici rol oynadı. Belə ki, Şuşa işğaldan azad olunandan cəmi bir gün sonra Azərbaycan Ordusu daha 70-dən çox yaşayış məntəqəsini azad etdi və bununla da düşmənə son zərbəni vurdu. Məhz bundan sonra Ermənistan öz məğlubiyyətini etiraf edərək, kapitulyasiya aktını imzalamağa, Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur oldu.

Azərbaycan xalqının əzmi və iradəsi, dövlətimizin iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-Prezident birliyi ölkəmizin Qələbəsini təmin edən mühüm amillər oldu. Azərbaycan xalqı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi Zəfər çaldı.

2020-ci ilin 27 sentyabrında "Dəmir Yumruq" əməliyyatı ilə başlanan 44 günlük Vətən müharibəsində aşağıdakı şəhər, qəsəbə və kəndlərimiz düşmən işğalından azad edildi:

**27 sentyabr** – Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri, Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri, Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər.

**3 oktyabr** – Tərtər rayonunun Suqovuşan və Talış kəndləri, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq kəndləri, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi.

**4 oktyabr** – Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri.

**5 oktyabr** – Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndləri.

**9 oktyabr** – Xocavənd rayonunun Hadrut qəsəbəsi və Sur kəndi, Cəbrayıl rayonunun Qaracallı, Süleymanlı, Əfəndilər, Qışlaq kəndləri, Füzuli rayonunun Yuxarı Güzdək, Görəzilli kəndləri, Tərtər rayonunun Çaylı kəndi.

**14 oktyabr** – Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu kəndləri, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri.

**15 oktyabr** – Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraqus kəndləri, Füzuli rayonunun Arış kəndi, Cəbrayıl rayonunun Doşulu kəndi.

**16 oktyabr** – Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri.





**17 oktyabr** – Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri.

**18 oktyabr** – Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı qaldırıldı.

**19 oktyabr** – Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri.

**20 oktyabr** – Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri, Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri, Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri, Xocavənd rayonunun Ağcakənd kəndi, Mülkidərə, Daşbaşı, Günəşli və Çinarlı kəndləri.

**21 oktyabr** – Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Muşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndləri, Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndləri, Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfəddinli, Aşağı Rəfəddinli kəndləri.

**23 oktyabr** – Xocavənd rayonunun Dolanlar və Bünyadlı kəndləri, Cəbrayıl rayonunun Dağ Tumas, Hüsüs, Xələfli, Minbaşılı, Veysəlli kəndləri, Zəngilan rayonunun Vənədli, Mirzəhəsənli kəndləri, Qubadlı rayonunun Zilanlı, Kürd Marızlı, Muğanlı və Alaqurşaq kəndləri.

**25-26 oktyabr** – Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbbənd, Yenikənd kəndləri, Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər kəndləri, Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çay Tumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndləri və Qubadlı şəhəri.

**28 oktyabr** – Zəngilan rayonunun Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli kndləri. Füzuli rayonunun Mandili kəndi, Cəbrayıl rayonunun Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qarağac kəndləri. Qubadlı rayonunun Qiyaslı, Əbilcə, Qılıcan kəndləri.

**30 oktyabr** – Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı kəndləri, Zəngilan rayonunun Aladin, Vejnəli kəndləri, Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndləri.

**2 noyabr** – Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq kəndləri, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ kəndləri, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndləri.

**4 noyabr** – Cəbrayıl rayonunun Mirək, Kavdar kəndləri, Zəngilan rayonunun Məşədismayıllı, Şəfibəyli kəndləri, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndləri.

**7 noyabr** – Füzuli rayonunun Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli,

Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar kəndləri, Cəbrayıl rayonunun Yuxarı Məzrə, Yanarhac kəndləri, Qubadlı rayonunun Qəzyan, Balasoltanlı, Mərdanlı kəndləri, Zəngilan rayonunun Beşdəli kəndi, Xocavənd rayonunun Ataqut, Hünərli kəndləri, Xocalı rayonunun Qarabulaq, Moşxmaat kəndləri.

**8 noyabr** – Şuşa şəhəri

**9 noyabr** – Füzuli rayonunun Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Aşağı Güzdək, Qovşatlı, Mirzəcamallı, Şəkərcik, Mərdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq kəndləri, Xocalı rayonunun Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Şuşakənd, Muxtar, Daşaltı kəndləri, Xocavənd rayonunun Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Mets Tağlar, Salakətin, Zoğalbulaq, Aragül, Tağavard, Böyük Tağavard, Zərdanaşen, Şəhər kəndləri, Cəbrayıl rayonunun Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər kəndləri, Qubadlı rayonunun Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Qaramanlı, Xəndək, Hənzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli kəndləri, Zəngilan rayonunun Keçikli, Ördəkli, Sobu, Qaragöz, İsgəndərbəyli kəndləri, Bartaz qəsəbəsi, Laçın rayonunun Güləbird, Səfiyan Türklər kəndləri.

**10 noyabr** – Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin bəyanatına əsasən, Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunub.

**20 noyabr** – Noyabrın 10-da imzalanmış üçtərəfli bəyanata uyğun olaraq, Ağdam rayonu Azərbaycana qaytarılıb.

**25 noyabr** – Üçtərəfli bəyanata əsasən, Kəlbəcər rayonu Azərbaycana qaytarılıb.

**1 dekabr** – Üçtərəfli bəyanata əsasən, Laçın rayonu Azərbaycana qaytarılıb. Bununla da, Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə qaytarılması prosesi yekunlaşıb.

***

2021-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş möhtəşəm Zəfər paradı keçirildi. Həmin gün Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının müqəddəs ruhları da şad idi. Həmin gün bütün dünyanın diqqəti qalib Azərbaycana yönəlmişdi. O gün qəhrəman xalqımızın və rəşadətli Azərbaycan Ordusunun ən böyük bayramı idi. Şəhid valideynləri, şəhid doğmaları, onların övladları, igid qazilərimiz qürur hissi keçirirdilər ki, şəhidlərimizin qanları yerdə qalmadı, onların intiqamı layiqincə alındı.





Azərbaycan xalqı şəhidlər verərək 30 ilin həsrətinə son qoydu və bu gün hər bir azərbaycanı qalib bir ölkənin vətəndaşı olmağı ilə fəxr edirdi.

Paradda 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin nümayişi oldu. Paradda, həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirildi.

Bu möhtəşəm Zəfər paradında da öncə Vətən müharibəsində həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Azərbaycan və Türkiyə Respublikalarının dövlət himnləri ifa edildikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev çıxış edərək dedi: "Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq.

... Bu zəfər tarixi zəfərdir. Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi, 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini gözləyirdi. Mən dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, biz daha güclü olmalıyıq və nəyi nə vaxt, necə etmək lazımdır, biz bilirik. Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir dəmir yumruq yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq...".

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan isə Zəfər Paradında bizimlə birlikdə olmaqdan böyük məmnunluq duyduğunu dilə gətirdi: "Azərbaycanın 44 gün davam edən şanlı mübarizəsində şəhid olan igidlərə Uca Allahdan rəhmət, qazilərimizə tezliklə sağalmalarını arzulayıram.

... Qarabağı otuz illik həsrətdən sonra Ana Vətən ilə qovuşduran Azərbaycan Ordusunun şəxsi heyətini təbrik edir, onları dualarla cəbhəyə göndərən anaların əllərindən öpürəm.

20 Yanvarda şəhidlərin məzarları üzərinə qoyulan qərənfillər müstəqilliyi necə xatırladırsa, indi də Dağlıq Qarabağ bölgəsinə xas olan Xarı Bülbül Azərbaycan torpaqlarının azadlığının rəmzinə çevrilmişdir.

İllərdir doğulduqları yerlərdən uzaq qalaraq, yurd həsrəti ilə alışıb yanan bir milyon qaçqın və məcburi köçkün qardaşımız doğulduqları torpaqlara qayıdacaqlarını səbirsizliklə gözləyir. İnşallah, bu qardaşlarımızın həsrətinin ən qısa vaxtda sona çatacağına inanırıq.

... Şəhidlərimizin fədakarlığı sayəsində Azərbaycan ərazi bütövlüyünü, şükür olsun, yenidən təmin etmişdir. Artıq Azərbaycan torpaqları illərdir həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur. Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış Xarı Bülbül artıq azaddır və daha gözəl açacaqdır. Köndələnçay artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. Qarabağ şikəstəsini oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır.

Rəbbimə bizlərə bu günləri yaşatdığı üçün sonsuz şükür edirəm. Bu gün burada bütün qəlbimlə bir daha təkrarlamaq istəyirəm: Qarabağ Azərbaycandır! Qarabağ artıq Ana Vətəninə qovuşmuş, otuz illik həsrət sona çatmışdır. Türkiyə və Azərbaycan olaraq bundan sonrakı hədəfimiz bu torpaqları daha abad, daha inkişaf etmiş, uşaqlarımızın daha yaxşı yaşayacağı bir yerə çevirmək üçün mübarizə aparmaqdır. Türkiyə və Azərbaycan kürək-kürəyə verdikcə Allahın izni ilə çətinliklərin öhdəsindən gəlməyə, uğurdan-uğura çatmağa davam edəcəkdir. Allah köməyimiz olsun!".

Dövlət başçılarının çıxışlarından sonra Zəfər paradı başladı. Silahlı Qüvvələrimizin şəxsi heyəti Azərbaycan Respublikasının Dövlət bayrağı və şanlı hərb tariximizə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsinin Zəfər bayrağı altında tribunaya doğru irəlilədi. Dövlət bayrağı və Zəfər bayrağının ardınca Azərbaycan Ordusunun qoşun növlərinin bayraqları Azadlıq meydanına gətirildi.

Vətən Müharibəsi Qəhrəmanı general-mayor Zaur Cavanşirin başçılıq etdiyi döyüş bayraqdarları qrupu Böyük Qələbənin qazanılmasında müstəsna xidmətləri olan hərbi hissələrin döyüş bayraqlarını Azadlıq meydanına gətirdi.

Sonra Vətən müharibəsində müqəddəs döyüşlərdə əsl qəhrəmanlıq, şücaət, rəşadət və yüksək peşəkarlıq nümunələri göstərərək xalqımıza Böyük Qələbənin sevincini yaşadan Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin hərbi qulluqçuları tribunanın önündən keçdilər. Üç kolondan ibarət parad heyətinə Xüsusi Təyinatlı Qüvvələrin komandanı, Vətən Müharibəsi Qəhrəmanı general-leytenant Hikmət Mirzəyev başçılıq edirdi.





Ardınca Hərbi Dəniz Qüvvələrinin dəniz piyadaları, Xarici Kəşfiyyat Xidmətinin və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarından ibarət parad heyətləri, Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları, Birinci, İkinci, Üçüncü, Dördüncü, Altıncı Ordu Korpuslarının, Raket və Artilleriya Qoşunlarının hərbi qulluqçuları tribuna önündən mətin addımlarla irəlilədilər.

Zəfər paradında qardaş Türkiyə Respublikası Silahlı Qüvvələrini təmsil edən hərbi qulluqçular minbaşı Harun Ergenin rəhbərliyi ilə tribuna önündən keçdilər.

Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin Milli Qvardiyasının, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin, Cəmşid Naxçıvanski adına hərbi liseyin, Naxçıvan Muxtar Respublikasındakı Heydər Əliyev adına hərbi liseyin hərbi qulluqçu və kursantlarından ibarət parad heyətləri də Azadlıq meydanında daha böyük qələbələrə doğru inamla irəlilədilər.

Vətən müharibəsində Qələbəyə həsr olunan Zəfər paradına Hərbi Dəniz Qüvvələrinin və Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin döyüş gəmiləri və katerləri dənizdən dəstək verdi. Dənizdə fəxri keçid edən hərbi gəmilərimiz yüksək döyüş hazırlığı nümayiş etdirdi.

"Dəmir yumruq" əməliyyatının – Vətən müharibəsinin qazilərinin Zəfər paradında tribuna önündən keçidi oldu.

Azadlıq meydanına 44 günlük Vətən müharibəsində düşməndən qənimət götürülmüş hərbi texnikaların bir qismi gətirildi. Vətən müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan ərazilərdə ermənilərdən qənimət götürdüyü və sıradan çıxardığı 2 mindən çox avtomobilin nömrə nişanlarından hazırlanan kompozisiya paradda nümayiş olundu. Dağlıq Qarabağ ərazisinin əzəli Azərbaycan torpağı olduğu kompozisiyanın üzərinə həkk olunan "Qarabağ Azərbaycandır!" şüarı ilə bir daha bəyan edildi.

Bundan sonra xüsusi təyinatlı avtomobil, zirehli texnika və silah sistemləri kolonu Azadlıq meydanına daxil oldu. Kolona "Qarabağ" ordenli general-leytenant Nizam Osmanov başçılıq edirdi.

Azadlıq meydanında Hava Hücumundan Müdafiə silahları sistemləri kolonunun keçidi oldu. Kolona müdafiə nazirinin müavini – Hərbi Hava Qüvvələrinin komandanı, "Zəfər" ordenli general-leytenant Ramiz Tahirov başçılıq edirdi.

Ardınca Azadlıq meydanına artilleriya silahları sistemlərinin kolonu daxil oldu. Kolona "Zəfər" ordenli general-mayor Ağamir Sultanov başçılıq edirdi.

Bundan sonra Azadlıq meydanı üzərində Azərbaycan Hərbi Hava

Qüvvələrinə məxsus döyüş təyyarələrinin və helikopterlərin uçuşu başladı. “Qarabağ” ordenli polkovnik Həsən Əlövsətovun rəhbərlik etdiyi “Mİ-17” hərbi nəqliyyat-desant helikopterləri cütlüyü Azərbaycan və Türkiyə respublikalarının dövlət bayraqları ilə Bakı buxtasının üzərindən uçaraq Zəfər paradının iştirakçılarını salamladı. Bunun ardınca Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Rəşad Nadirovun başçılığı ilə “Mİ-35” hücum helikopterləri qrupunun uçuşu oldu. Polkovnik-leytenant Rəhim Quluzadənin başçılığı ilə “LAHAT” və “SPAYK” uzunmənzilli raketləri ilə silahlanmış “Mİ-17” helikopterlərinin və “Qarabağ” ordenli polkovnik Zaur Rüstəmovun rəhbərliyi ilə “MİQ-29” çoxməqsədli qırıcı təyyarələr qruplarının uçuşları da maraqla qarşılandı. Zəfər paradında döyüş təyyarə və helikopterlərinin çıxışını müasir silahlarla təchiz olunmuş “Su-25” hücum və hava dəstək təyyarələr qrupu tamamladı. Vətən Müharibəsi Qəhrəmanı general-mayor Namiq İslamzadənin başçılıq etdiyi qrupun səmada Azərbaycan Respublikasının dövlət bayrağının təsvirini yaratması üçrəngli şanlı bayrağımızın daim yüksəklərdə dalğalanacağını təcəssüm etdirdi.

“Dəmir yumruq” əməliyyatı adı ilə Azərbaycanın yeni tarixinə yazılan Vətən müharibəsində Rəşadətli Ordumuzun Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığı Böyük Qələbə müasir müstəqil Azərbaycan dövlətinin hərbi qüdrətinin, iqtisadi gücünün nümayişi ilə yanaşı, xalqımızın qələbə əzminin də əyani təsdiqi kimi şanlı hərb tariximizə qızıl hərflərlə yazıldı.

***

Aylar, illər, əsrlər, qərinələr ötəcək, nəsillər bir-birini əvəz edəcək, lakin 2020-ci il sentyabr ayının 27-də Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmasına cavab olaraq Azərbaycanın başladığı Vətən müharibəsində qazandığımız Qələbə Azərbaycan tarixindən heç vaxt silinməyəcək!

Qətiyyətin, milli mübarizənin və tarixi ədalətin qələbəsinin şəhidləri heç vaxt unudulmayacaq.

Hörmətli oxuculara “Vətən müharibəsi şəhidləri” silsiləsindən Birinci kitabı məmnuniyyətlə və məsuliyyətlə təqdim edirik. Siz bu kitabda Azərbaycan Ordusunun Vətən müharibəsi cəbhələrində qəhrəmanlıq, rəşadət, igidlik, mərdlik və şücaət nümunələri göstərərək şəhidlik zirvəsinə ucalan zabit və gizirlərini daha yaxından tanıyacaq, onların əbədiyaşar ömürlərinə çıraq tutacaqsınız.

**Allah bütün şəhidlərimizə rəhmət eləsin!**







**Azərbaycanın bütün əsgərlərinin, zabitlərinin həyatı və sağlamlığı üçün dua edirəm!**

**Bu gün biz azərbaycanlılar niyyətimizlə, hərəkət və dualarımızla misli görünməmiş birlik göstəririk. Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun!**

**Qoy uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nasib etsin!**

**Allah şəhidlərimizə rəhmət eləsin! Qəbirləri nurla dolsun!**

**Mehriban ƏLİYEVA**
***Azərbaycan Respublikasının***
***Birinci vitse-prezidenti***



**Döyüş başa çatdı, bütün məmləkət**
**Qələbə deyirdi, Zəfər deyirdi.**
**"Şəhidlər əbədi yaşayacaqdır"-**
**Sökülən dan yeri, səhər deyirdi.**

**Azadlıq meydanı, Şəhid ruhları**
**Göylərdən izlədi bu ehtişamı.**
**Ömrünüz qovuşdu əbədiyyətə,**
**Sizin qarşınızda baş əyir hamı.**

**Bu dünya durduqca yaşayacaqsan,**
**Qalib döyüşçüsən Şəhid qardaşım.**
**Sənə minnətdardır Azərbaycanım,**
**Səninlə fəxr edir torpağım, daşım.**





## Abbasbəyli Həmid Cavanşir oğlu
(1991-2020)



17 noyabr 1991-ci ildə Bakı şəhərində anadan olub. 2009-cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2013-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 27 iyun 2013-cü il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 27 yanvar 2017-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun motoatıcı bölüyünün motoatıcı taqımının komandiri, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun baş kəşfiyyatçısı, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupu komandirinin müavini vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə fəal iştirak edib. Şəxsi qəhrəmanlıq və şücaət nümunələri göstərib.

2020-ci il oktyabrın 19-da Füzuli rayonu ərazisində gedən döyüşlərdə xidməti vəzifələrinin icrası zamanı qəhrəmancasma şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarında yüksək peşəkarlıqla iştirak etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə "Qarabağ" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.



**Abbaslı**
**Arif**
**Firuz oğlu**
(1993-2020)

15 dekabr 1993-cü ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Qıvraq kəndində anadan olub. 2012-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2016-cı il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 23 iyun 2019-cu il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun baş kəşfiyyatçısı, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupu komandirinin müavini vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə fəal iştirak edib. Qarşıya qoyulmuş döyüş tapşırıqlarının uğurla həyata keçirilməsi üçün səylərini əsirgəməyib.

2020-ci il oktyabrın 12-də Füzuli rayonu ərazisində gedən döyüşlərdə xidməti vəzifələrinin icrası zamanı qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarında yüksək peşəkarlıqla iştirak etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Abbasov**
**Ağaqardaş**
**İlham oğlu**
(1992-2020)

28 sentyabr 1992-ci ildə Zərdab rayonunun Hüseynxanlı kəndində anadan olub. 2014-cü ildə Azərbaycan Müəllimlər İnstitutunun Ağcabədi filialını bitirib. 14 oktyabr 2014-cü ildən 16 sentyabr 2016-cı ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2015-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı" kursunu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 11 fevral 2015-ci il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 11 fevral 2018-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Qərargah bölüyü komandirinin şəxsi heyətlə iş üzrə müavini, motoatıcı taqım komandiri, zenit-raket artilleriya batareyası komandirinin şəxsi heyətlə iş üzrə müavini, motoatıcı bölüyün (BTR-82A) komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən döyüşlərə atılıb və 2020-ci il sentyabr ayının 27-də Füzuli rayonunun Yuxarı Abdurrəhmanlı kəndi istiqamətində hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Abbasov Ceyhun Natiq oğlu**
(1986-2020)

8 fevral 1986-ci ildə Bakı şəhərində anadan olub. 2005-ci ildə Tovuz Peşə Liseyini bitirib. Cəbhə bölgəsindəki hərbi hissələrdən birində kəşfiyyatçı-qumbaraatan əsgər kimi müddətli həqiqi hərbi xidmət keçib.

2012-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu hazırlığı", 2018-ci ildə "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 19 may 2018-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Kəşfiyyat qrupunun kəşfiyyatçısı, kəşfiyyat bölməsinin operatoru, kəşfiyyat manqasının baş kəşfiyyatçısı-istehkamçı, snayper manqasının baş snayperi, snayper taqımının snayper manqasının komandiri-snayper, motoatıcı taqım komandirinin müavini, snayper taqımının komandirinin müavini-təlimatçı, snayper manqasının komandiri vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 29-da Göygöl rayonu istiqamətində hərbi əməliyyatlar zamanı şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Hərbi xidmətlərə görə", ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalları ilə təltif olunub.







**Abbasov Hüseyn Əlizadə oğlu**
(1993-2020)

13 fevral 1993-cü ildə Hacıqabul rayonunda anadan olub. 2011-ci ildə tam orta məktəbi bitirib. Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib. 2016-cı ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 13 dekabr 2016-cı il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Cəbhə bölgəsindəki hərbi hissələrdə motoatıcı taborun motoatıcı bölüyünün motoatıcı taqım komandirinin müavini və hərbi hissənin xüsusi təyinatlı kəşfiyyat bölüyünün kəşfiyyatçı-radioteleqrafçısı vəzifələrində xidmət edib.

Ermənistanın təxribatlarına cavab olaraq "Dəmir Yumruq" əməliyyatı ilə başlanan Vətən müharibəsinin ilk günlərindən Murovdağ zirvəsinin və Suqovuşanın azad olunması uğrunda döyüşlərdə fəal iştirak edib. Kəşfiyyatçı-radioteleqrafçı kimi qarşıya qoyulmuş vəzifələri layiqincə yerinə yetirib.

2020-ci il oktyabrın 6-da Suqovuşan döyüşləri zamanı şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Suqovuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Abbasov İntiqam Yavər oğlu**
(1978-2020)

21 sentyabr 1978-ci ildə Abşeron rayonunda anadan olub. 1994-cü ildə tam orta məktəbi bitirib. 12 oktyabr 1996-cı ildən 12 may 1999-cu ilədək Azərbaycan Ordusunda baş sürücü-mexanik kimi müddətli həqiqi hərbi xidmət keçib.

2001-ci ildə "Zabit hazırlığı təkmilləşdirmə kursu"nun "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 13 yanvar 2001-ci il tarixli əmri ilə "gizir", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 27 may 2017-ci il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqımın döyüş maşınının komandiri – manqa komandiri, motoatıcı taborun rabitə taqımının komandirinin müavini – manqa komandiri, mexanikləşdirilmiş taborun mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının döyüş maşınları heyətinin döyüş maşını komandiri, motoatıcı taborun (BTR T-82A) motoatıcı bölüyünün motoatıcı taqımının motoatıcı manqasının komandiri – döyüş maşını komandiri, motoatıcı taborun (BTR-82A) motoatıcı bölüyünün motoatıcı taqımının komandirinin müavini – döyüş maşını komandiri, mexanikləşdirilmiş taborun (BTR-82A) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının döyüş maşınları heyətinin döyüş maşını komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən döyüşlərdə iştirak edib.

2020-ci il sentyabrın 29-da Füzuli rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.





Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



***Erməni vandallarının vəhşicəsinə dağıtdıqları, viran qoyduqları yurd yerlərimiz ölməz Şəhidlərimizin qanı bahasına düşmən əsarətindən xilas edildi. Bu yerlərə yenə də yaz gələcək, köçən ellər yurd-yuvalarına qayıdacaq.***



**Abbasov Teymur Feyruz oğlu**
(1981-2020)

25 fevral 1981-ci ildə Bakı şəhərində anadan olub. 2002-ci ildə Gəncə Dövlət Universitetini, 2003-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 6 oktyabr 2003-cü il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Vətən müharibəsində motoatıcı taborun motoatıcı bölüyünün motoatıcı taqım komandiri vəzifəsində iştirak edib.

Ali hərbi məktəb auditoriyasından birbaşa döyüş meydanına atılaraq yüksək nəzəri biliklərə və təcrübi vərdişlərə yiyələndiyindən, çöl təlimlərində vaxtında bərkdən-boşdan çıxdığından taqıma peşəkarcasına rəhbərlik edib, qarşıya qoyulan döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsinə çalışıb və göstərilən etimadı layiqincə doğruldub.

2020-ci il oktyabrın 12-də Füzuli rayonu ərazisində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən igidlik göstərərək şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Abbasov Seymur Müşfiq oğlu**
(2000-2020)

20 may 2000-ci ildə Göygöl rayonunda anadan olub. 2017-ci ildə tam orta məktəbi, 2020-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini (eksternlə) bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 30 sentyabr 2020-ci il tarixli əmri ilə "kiçik leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı bölüyün komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsində Vətən müharibəsi döyüşlərində iştirak edib.

Vətən müharibəsinin ilk günlərindən şəxsi heyətin mənəvi-psixoloji hazırlığının, döyüş ruhunun daha da yüksəldilməsində, onlarda vətənpərvərlik, qələbəyə inam hissinin aşılanmasında səylərini əsirgəməyib. Şəxsi heyət arasında cəsur döyüşçü kimi tanınıb.

2020-ci il noyabrın 8-də Şuşa şəhəri istiqamətində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən atılmış mərminin partlaması zamanı şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Cəsur döyüşçü" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Abdullayev**
**Elşən**
**Sabir oğlu**
(1992-2020)

1 avqust 1992-ci ildə Gəncə şəhərində anadan olub. 2014-cü ildə Gəncə Dövlət Universitetini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 11 fevral 2015-ci il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 19 noyabr 2018-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin mühəndis-istehkam bölüyü komandirinin şəxsi heyətlə iş üzrə müavini, maddi-texniki təminat bölüyünün komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifələrində xidmət edib.

2020-ci ilin oktyabr ayında xüsusi təyinatlı hərbi hissə komandirinin sərəncamına verilib və Vətən müharibəsində fəal iştirak edib.

2020-ci il noyabr ayının 9-da Şuşa şəhəri ərazisində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Döyüşdə fərqlənməyə görə" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra), "Kəlbəcərin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.





**Abdullayev**
**Eldar**
**Firidun oğlu**
(1981-2020)



23 iyul 1981-ci ildə Sumqayıt şəhərində anadan olub. 1999-cu ildə 35 saylı Texniki Peşə Liseyini, 2001-ci ildə Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinin Hərbi Tibb Məktəbini bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 20 iyun 2011-ci il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taborun tibb məntəqəsinin feldşeri, tibb məntəqəsinin aptek rəisi – əczaçı, tibb məntəqəsinin rəisi – feldşeri, Hərbi Tibb Məktəbinin tədris bölüyünün baş çavuşu (feldşerlər hazırlığı üzrə), hərbi hissənin təminat bölməsinin rəisi, hərbi hissənin tibb məntəqəsinin feldşeri vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 18-də Füzuli rayonu istiqamətində düşmənlə təmas xəttində xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Abdullayev Hasil Miryusif oğlu**
(1985-2020)

21 may 1985-ci ildə Beyləqan rayonunun Dünyamahlar kəndində anadan olub. 2003-cü ildə tam orta məktəbi bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətdə olub və istehkamçı kimi vəzifəsinin öhdəsindən layiqincə gəlib.

2011-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "MAH-HXHQ hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 1 oktyabr 2016-cı il tarixli əmri ilə "kiçik gizir", 22 fevral 2019-cu il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Mexanikləşdirilmiş taborun mexanikləşdirilmiş manqasının mexanik-sürücüsü, maddi-texniki təminat bölüyünün avtomobil (döyüş sursatı, ərzaq, əşya, yanacaq və hərbi-texniki əmlak daşıyan) taqımının sürücüsü, hərbi hissənin kəşfiyyat dəstəsinin (dərin kəşfiyyat dəstəyi) sürücüsü, hərbi hissənin kəşfiyyat dəstəsinin (dərin kəşfiyyat dəstəyi) kəşfiyyat qrupunun kəşfiyyatçısı, hərbi hissənin xüsusi təyinatlı kəşfiyyat bölüyünün xüsusi təyinatlı kəşfiyyat qrupunun kəşfiyyatçı – is-tehkamçısı, kəşfiyyat bölüyünün kəşfiyyat-müşahidə taqımının texniki müşahidə qrupunun komandiri – operator, kəşfiyyat müşahidə bölüyünün taktiki kəşfiyyat-müşahidə taqımının taktiki kəşfiyyat-müşahidə qrupunun operatoru vəzifələrində xidmət edib.

Vətən müharibəsində taqımın taktiki kəşfiyyat-müşahidə qrupunun operatoru kimi iştirak edib.

2020-ci il oktyabrın 4-də Füzuli rayonu istiqamətində gedən hər-





bi əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən atılan mərminin partlayışı nəticəsində ağır yaralanıb və 15 oktyabr 2020-ci ildə Silahlı Qüvvələrin Baş Klinik Hospitalının Neyrocərrahiyyə bölməsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



*"Qisasınızı artıqlaması ilə aldıq, şəhid qardaşlarımız!"*



**Abdullayev İbrahim Habil oğlu**
(1994-2020)

7 iyul 1994-cü ildə Bakı şəhərində anadan olub.

2015-ci ildə Ukrayna Milli Texniki Universitetinin Xarkov Politexnik İnstitutunu bitirib. Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2017-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nda təhsil alıb.

Azərbaycan Respublikası Müdafiə nazirinin 30 may 2017-ci il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 30 may 2020-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Dağ-atıcı taqımın komandiri, motoatıcı bölüyün (BMP-3) atəş dəstək taqımının komandiri, xüsusi təyinatlı taqım komandirinin müavini, taqım komandiri vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 4-də Füzuli rayonu ərazisində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və Azərbaycan Respublikası Müdafiə nazirinin əmri ilə "Şücaətə görə" medalları ilə təltif olunub.





**Abdullayev Kənan Mübariz oğlu**
(1990-2020)



3 dekabr 1990-cı ildə Mingəçevir şəhərində anadan olub. 2012-ci ildə Mingəçevir Politexnik İnstitutunu və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 5 oktyabr 2012-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun motoatıcı bölüyünün motoatıcı taqımının komandiri, motoatıcı taborun motoatıcı bölüyünün komandiri, mexanikləşdirilmiş taborun (BTR-82A) mexanikləşdirilmiş bölüyünün komandiri vəzifələrində xidmət edib.

Ehtiyatda olmasına baxmayaraq Vətən müharibəsi başlanarkən yenidən ordu sıralarına qayıdıb və mexanikləşdirilmiş taborun mexanikləşdirilmiş bölüyünün komandiri vəzifəsində döyüşlərdə iştirak edib. Qarşıya qoyulmuş döyüş tapşırıqlarının layiqincə yerinə yetirilməsi üçün səylərini əsirgəməyib.

2020-ci il oktyabrın 14-də Tərtər və Ağdərə rayonları istiqamətində hərbi əməliyyatlar zamanı vəzifə borcunu yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.



**Abdullayev Rasim Yaqub oğlu**
(1975-2020)

21 fevral 1975-ci ildə Kəlbəcər rayonunun Milli kəndində anadan olub. 1996-cı ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb Universitetinin nəzdində hərbi hazırlıq kursunu, 1998-ci ildə isə həmin universitetin müalicə-profilaktika fakültəsini bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 29 oktyabr 1998-ci il tarixli əmri ilə "tibb xidməti leytenantı" hərbi rütbəsi verilib.

Hərbi hissənin səyyar tibb qrupunun qəbul-çeşidləmə bölməsinin rəisi, terapiya bölməsinin ordinatoru – terapevti,terapiya bölməsinin rəisi, Silahlı Qüvvələrin Baş Klinik Hospitalının ümumi cərrahiyyə şöbəsinin onkologiya bölməsinin baş ordinatoru, Müdafiə Nazırliyi Mərkəzi Hərbi Poliklinikası terapiya bölməsinin rəisi, hərbi hissənin poliklinika rəisinin tibb hissəsi üzrə müavini, tibb xidməti rəisi, tibb bölüyünün komandiri vəzifələrində xidmət edib.

"Tibb xidməti polkovnik-leytenantı" hərbi rütbəsinədək yüksəlib.

2020-ci ilin 10 noyabrında Şuşa rayonu istiqamətində xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən





sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



***Şəhidlərimizin qanı yerdə qalmadı!***



**Abdullayev Rəşad Arif oğlu**
(1988-2020)



14 sentyabr 1988-ci ildə Cəlilabad rayonunun Göytəpə kəndində anadan olub. 2006-cı ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2010-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2010-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun qərargah bölüyünün tank əleyhinə taqımının komandiri, xüsusi təyinatlı alayın xüsusi təyinatlı qrup komandirinin müavini, xüsusi təyinatlı taborun xüsusi təyinatlı qrup komandirinin müavini, xüsusi əməliyyat qrupunun komandiri, xüsusi əməliyyat taborunun əməliyyat zabiti vəzifələrində xidmət edib.

"Kapitan" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsinin ilk günündə döyüşlərdə fərqlənib.

2020-ci il sentyabrın 28-də Göygöl rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008) "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" yubiley medalları, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Hərbi xidmətlərə görə" medalı, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918 - 2018)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif olunub.





Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" (ölümündən sonra) adı verilib, "Vətən uğrunda" (ölümündən sonra), "Kəlbəcərin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



***Şəhid ruhları intiqama çağırır bizi!***



**Abdullayev Şəhriyar Kamil oğlu**
(1987-2020)

2 mart 1987-ci ildə Kəlbəcər rayonunun Cəmilli kəndində anadan olub. 2005-ci ildə tam orta məktəbi bitirib. 2007-ci ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

Ehtiyata buraxıldıqdan sonra Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu hazırlığı kursu"nda təhsil alıb.

Azərbaycan Respublikası Müdafiə nazirinin 28 fevral 2014-cü il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taborun motoatıcı bölüyünün motoatıcı taqımının motoatıcı manqa komandiri, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən döyüşlərdə fəal iştirak edib, xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib.

2020-ci il oktyabrın 12-də Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Abdullayev Tural Bəylər oğlu**
(1993-2020)

9 dekabr 1993-cü ildə Xocavənd rayonunun Tuğ kəndində anadan olub.

2012-ci ildə müddətli həqiqi hərbi xidmətini müvəffəqiyyətlə başa vuraraq ehtiyata buraxılıb.

2014-cü ildə hərbi hissədə "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu hazırlığı kursu" nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 23 sentyabr 2020-ci il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Snayper manqasının snayperi, snayper taqımının snayper manqasının baş snayperi, motoatıcı manqanın komandiri, həmlə manqasının komandiri, motoatıcı manqanın (BMP-3) komandiri, motoatıcı manqanın qumbaraatanı vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 24-də Füzuli rayonunun Abdurəhmanlı kəndi istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Abdullayev**
**İntiqam**
**Allahverdi oğlu**
**(1998-2020)**

12 avqust 1998-ci ildə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Düylün kəndində anadan olub.

2016-cı ildə Heydər Əliyev adına hərbi liseyi, 2020-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2020-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Qazax və Göygöl rayonları ərazisindəki hərbi hissələrdə motoatıcı taqım komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsinin ilk günündə komandiri olduğu motoatıcı taqımın şəxsi heyəti ilə birlikdə 30 ilə yaxındır ki, Ermənistan silahlı qüvvələrinin Murovdağ silsiləsinin zirvələrində möhkəmləndirdikləri mövqeləri ələ keçirmək, düşmən təxribatlarına son qoymaq üçün hərbi əməliyyatlara qatılıb.

Murovdağın sərt, sıldırımlı aşırımlarında, çətin iqlim şəraitində ağır döyüşlər zamanı düşmənə xeyli itki verərək bir neçə atəş nöqtəsini susdurublar.

2020-ci il oktyabrın 3-də Kəlbəcər istiqamətində döyüşlərdə xidməti vəzifəsini son nəfəsinə, son gülləyədək şərəflə yerinə yetirib və şəhidlik zirvəsinə ucalıb.

Nəşi 2021-ci ilin baharında Şuşa istiqamətində düşməndən təhvil alınaraq təyyarə reysi ilə Naxçıvan Muxtar Respublikasına göndərilib və böyük izdihamın iştirakı ilə doğulduğu kənddə hərbi və dini ənənələrə





uyğun olaraq son mənzilə yola salınıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə təltif olunması üçün təqdimatı aidiyyatı üzrə göndərilib.



*Son layla çal, yatır məni,*
*Qərənfilə batır məni,*
*Şəhidlərə yetir məni,*
*Ana, Murovdan gəlirəm,*
*Qardan, qırovdan gəlirəm.*



**Abdulrəhmanov Şöhrət Böyükbəy oğlu**
(1991-2020)

14 fevral 1991-ci ildə Hacıqabul rayonunun Şorbaçı kəndində anadan olub.

2015-ci ildə tam orta məktəbi bitirib. Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2016-cı ildə hərbi hissə nəzdində "MAHHXHQ hazırlığı kursu"nu, 2020-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 25 sentyabr 2020-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqımın tuşlayıcısı-minaatan, mexanikləşdirilmiş taborun (BTR-82A) mexanikləşdirilmiş manqasının qumbaraatanı, mexanikləşdirilmiş taborun (BTR-83A) mexanikləşdirilmiş manqasının komandiri vəzifələrində xidmət edib.

"Dəmir yumruq" əməliyyatı ilə başlanan Vətən müharibəsinin ilk günündən hərbi əməliyyatlara qatılıb və komandiri olduğu mexanikləşdirilmiş manqanın şəxsi heyəti ilə birlikdə döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 8-də Tərtər və Ağdərə rayonları istiqamətlərində düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Nəşi 2020-ci il dekabrın 31-də işğaldan azad edilən ərazidən çıxarılıb.

Xidmətlərinə görə mükafatlandırılması üçün aidiyyatı üzrə təqdimat göndərilib.







**Abdullazadə Həsənağa Şakir oğlu**
(1993-2020)

9 mart 1993-cü ildə Lənkəran şəhərində anadan olub. 2010-cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2014-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə Nazirinin 23 iyun 2014-cü il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 10 avqust 2017-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, motoatıcı bölüyün (MT-LB) komandiri, motoatıcı taborun qərargah rəisi – tabor komandirinin müavini vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündə Murovdağ zirvələrinin düşmən işğalından azad edilməsi uğrunda döyüşlərə atılıb və çətin dağ şəraitində qarşıya qoyulan döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsi üçün son nəfəsinədək vuruşub.

2020-ci il oktyabrın 2-də həmin istiqamətdə hərbi əməliyyatlar zamanı şəhidlik məqamına çatsa da, nəşini çıxarmaq mümkün olmayıb. Yalnız 112 gündən sonra cənazəsi çıxarılaraq böyük izdihamın iştirakı ilə son mənzilə yola salınıb.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalları ilə təltif olunub.

"Dəmir Yumruq" əməliyyatı ilə Ermənistanın təxribatlarına cavab olaraq başlanan Vətən müharibəsində xidmətlərinin mükafatlandırılması üçün aidiyyatı üzrə təqdimat göndərilib.



***"Vətən müharibəsində iki əzizimi itirsəm də, sınmayacağam. Gərəksə, mən də Vətən uğrunda müqəddəs savaşlara atılmağa hazıram. Təki Vətən sağ olsun!"***





**Abdurahmanlı Sübhan Mahir oğlu**
**(1992-2020)**



18 oktyabr 1992-ci ildə Bakı şəhərində anadan olub. 2010-cu ildə tam orta məktəbi bitirdikdən sonra Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında müddətdən artıq həqiqi hərbi xidmətdə olub.

2017-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 13 aprel 2017-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taborun (BTR-82A) motoatıcı taqım komandirinin müavini, kəşfiyyat bölüyünün baş çavuşu vəzifələrində xidmət edib.

Füzuli və Xocavənd rayonlarının yaşayış məntəqələrinin düşmən işğalından azad edilməsi uğrunda hərbi əməliyyatlarda iştirak edib.

2020-ci il oktyabrın 6-da Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən mərdlik və igidlik nümunələri göstərərək qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "İgidliyə görə" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Abdurahmanov Əfqan Ağasəf oğlu**
(1976-2020)

25 may 1976-cı ildə Qəbələ rayonunun Əmirvan kəndində anadan olub. 1993-cü ildə tam orta məktəbi bitirib. 9 iyul 1995-ci ildən 05 sentyabr 1997-ci ilədək Silahlı Qüvvələrdə müddətli həqiqi hərbi xidmət keçib.

Ehtiyata buraxıldıqdan sonra indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub və oranı müvəffəqiyyətlə bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 avqust 2001-ci il tarixli əmri ilə ona "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, motoatıcı taborun qərargah rəisinin şəxsi heyətlə iş üzrə köməkçisi, haubitsalı artilleriya divizionunun qərargah rəisinin tərbiyə işləri üzrə köməkçisi, əməliyyat imkanları konsepsiyası taborunun şəxsi heyət bölməsinin rəisi – qərargah rəisinin şəxsi heyət üzrə köməkçisi, motoatıcı taborun qərargah rəisi – tabor komandirinin müavini, hərbi hissənin döyüş hazırlığı bölməsinin rəisi vəzifəsində öhdəsinə düşən tapşırıqları layiqincə yerinə yetirib.

Vətən müharibəsində hərbi hissənin qərargah rəisi - briqada komandirinin müavini kimi məsuliyyətli bir vəzifənin öhdəsindən layiqincə gələn "polkovnik-leytenant" 2020-ci il oktyabrın 10-da Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi





(1918-2013)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalları ilə təltif olunub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" (ölümündən sonra) adı verilib, "Vətən uğrunda" medalı ilə təltif olunub.



***İgidlər yetirən Vətən torpağı düşmən tapdağında xar ola bilməz!***



**Abdurahmanov**
**Elvin**
**Əbülfəz oğlu**
(1996-2020)

1 oktyabr 1996-cı ildə Qəbələ rayonunun Əmirvan kəndində anadan olub. 2014-cü ildə tam orta məktəbi bitirib. 15 oktyabr 2014-cü ildən 1 aprel 2016-cı ilədək müddətli həqiqi hərbi xidmət keçib.

Ehtiyata buraxıldıqdan sonra, 2017-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 28 sentyabr 2017-ci ildə "gizir" hərbi rütbəsi verilib.

Hərbi hissənin kəşfiyyat bölüyünün kəşfiyyat taqımı komandirinin müavini, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

Vətən müharibəsində Füzuli və Cəbrayıl rayonlarının yaşayış məntəqələrinin işğaldan azad edilməsi uğrunda xüsusi əməliyyat tapşırıqlarını layiqincə yerinə yetirib.

2020-ci il oktyabrın 2-də Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.







**Abdurrəhmanov**
**Hafiz**
**Xalid oğlu**
(1989-2020)

21 noyabr 1989-cu ildə Şəmkir rayonunun Sabirkənd kəndində anadan olub.

2008-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2012-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 iyun 2012-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Mühəndis-istehkam taqımının komandiri, mühəndis-istehkam bölüyünün komandiri vəzifələrində xidmət edib.

"Dəmir yumruq" əməliyyatına "kapitan" rütbəsində qatılan bölük komandiri müharibənin ilk günündən döyüşlərdə fərqlənib.

2020-ci il sentyabrın 29-da Tərtər və Ağdərə istiqamətində gedən döyüş əməliyyatları zamanı qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalları, ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.



**Abışov**
**Babək**
**Vaqif oğlu**
(1994-2020)

25 aprel 1994-cü ildə Beyləqan rayonunun Yeni Mil qəsəbəsində anadan olub.

2011-ci ildə tam orta məktəbi bitirib. 9 iyul 2012-ci ildən 1 yanvar 2014-cü ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra həyatını həmişəlik Azərbaycan Ordusuna həsr etmək məqsədilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nda təhsil alıb.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 may 2014-cü il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Cəbhə bölgəsində motoatıcı taqım komandirinin müavini, həmlə taqımı komandirinin müavini, atəş dəstək taqımı komandirinin müavini, motoatıcı taqım (BTR-82A) komandirinin müavini vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 10-da Füzuli rayonunun Abdurəhmanlı kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Abuşov**
**Bəhruz**
**Zabid oğlu**
(1983-2020)

18 iyun 1983-cü ildə Qəbələ rayonunun Nohurqışlaq kəndində anadan olub. 2001-ci ildə tam orta məktəbi, 2004-cü ildə Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 iyun 2004-cü il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin radiasiya-kimyəvi mühafizə taqımının komandiri, kütləvi qırğın silahlarından mühafizə taqımının komandiri, aerozol maskalanma bölüyünün komandiri, tabor komandirinin maddi-texniki təminat üzrə müavini – hərbi hissənin kimya xidməti rəisi vəzifələrində xidmət edib.

"Mayor" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il noyabrın 9-da Şuşa şəhəri ərazisində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" medalları, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.



**Ağaəhmədov**
**Elnur**
**Fəxrəddin oğlu**
(1998-2020)

28 iyun 1998-ci ildə Xızı rayonunun Sitalçay kəndində anadan olub. 2015-ci ildə tam orta məktəbi bitirib. Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu hazırlığı kursu"nda təhsil alıb.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 14 fevral 2020-ci il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Hərbi hissənin xüsusi təyinatlı dəstəsinin atəş dəstək taqımının snayper manqasının baş snayperi, xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 26-da Xocavənd rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı xüsusi tapşırığı yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Ağamalıyev**
**Şəhriyar**
**Əvəz oğlu**
(1989-2020)

28 sentyabr 1989-cu ildə Qazi-Məmməd (indiki Hacıqabul) şəhərində anadan olub.

2012-ci ildə Bakı İslam Universitetini, 2018-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 13 avqust 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin motoatıcı taborunda motoatıcı taqım komandiri, kəşfiyyat bölüyünün kəşfiyyat taqımının komandiri, kəşfiyyat bölüyünün komandiri vəzifələrində xidmət edib.

Goranboy rayonunun Murovdağ istiqamətində hərbi əməliyyatlar zamanı qarşıya qoyulan kəşfiyyat tapşırıqlarının yerinə yetirilməsində fəal iştirak edib. Əraziyə yaxından bələd olduğundan və nəzəri biliklərini təlimlərdə dəfələrlə təcrübədən keçirdiyindən döyüşdə kəşfiyyatçı kimi xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib.

2020-ci il oktyabrın 30-da son döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.



**Ağamirov Şixmir Qabil oğlu**
(1990-2020)

5 aprel 1990-cı ildə Qusar rayonunda anadan olub. 2008-ci ildə tam orta məktəbi bitirib. Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmətini müvəffəqiyyətlə başa vurub.

2011-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 27 avqust 2011-ci il tarixli əmri ilə "gizir", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 30 may 2019-cu il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilib.

Hərbi hissənin atəş şəhərciyinin (tank, PDM, artilleriya və zenit-raket artilleriyasının) rəisi, taqım komandirinin müavini, motoatıcı bölüyün baş texniki, baş çavuşu, mexanikləşdirilmiş taborun (BTR-82A) minaatan batareyasının baş çavuşu vəzifələrində xidmət edib.

2020-ci il noyabrın 8-də Şuşa şəhəri istiqamətində gedən hərbi əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalları, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.







**Ağayev Ağali Tağı oğlu**
(1995-2020)

29 aprel 1995-ci ildə Siyəzən rayonunun Balaca Həmyə kəndində anadan olub. 2012-ci ildə tam orta məktəbi bitirib. 30 aprel 2013-cü ildən 15 oktyabr 2014-cü ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2016-cı ildə "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu hazırlığı", 2017-ci ildə hərbi hissə nəzdində "Təməl Xüsusi Təyinatlı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 24 aprel 2019-cu il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Hərbi hissənin motoatıcı taborunda motoatıcı taqımın motoatıcı manqa komandiri, xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı manqasının heyət nəfəri – atıcı, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 26-da Xocavənd rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra), "Kəlbəcərin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Ağayev**
**Asəf**
**Abid oğlu**
(1993-2020)

24 noyabr 1993-cü ildə Qax rayonunda anadan olub. 2012-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2016-cı il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 23 iyun 2019-cu il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı qüvvələrin tərkibində rabitə bölüyünün radio taqımının komandiri, qərargah və təchizat taborunun rabitə bölüyü radio taqımının komandiri vəzifələrində xidmət edib.

Ermənistanın işğalı altında olan yaşayış məntəqələrinin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda başlanan Vətən müharibəsində fəal iştirak edib.

10 dekabr 2020-ci ildə iştirakçısı olduğu Azadlıq meydanında keçirilən Zəfər paradından bir həftə sonra Xocavənd rayonu istiqamətində minaya düşərək şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)", "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə





yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.



***Vətənin uğrunda can vermişəm mən,***
***Qana qan demişəm, qan vermişəm mən.***
***Başını sən dik tut Vətən, ey Vətən,***
***Cənnət qapısını açıb gedirəm!***



**Ağayev**
**Cəlal**
**Ağaverdi oğlu**
(1984-2020)

4 dekabr 1984-cü ildə Lerik rayonunun Kornədi kəndində anadan olub. 2003-cü ildə tam orta məktəbi bitirib. 7 oktyabr 2003-cü ildən 25 sentyabr 2004-cü ilədək Azərbaycan Ordusunda snayperçi kimi xidmət edib.

Ehtiyata buraxıldıqdan sonra Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 20 avqust 2005-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Hərbi hissənin tank bölüyünün tank taqımının tank komandiri, tank bölüyünün baş texniki vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 29-da Tərtər-Ağdərə rayonları istiqamətində xidməti vəzifəsini yerinə yetirərkən mərdlik və igidlik nümunələri göstərərək şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" medalları və ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə" medalları ilə təltif olunub.







**Ağayev**
**Elçin**
**Zakir oğlu**
(1993-2020)

7 iyul 1993-cü ildə Cəlilabad rayonunda anadan olub. 2010-cu ildə Cəlilabad rayonunun Günəşli kənd V.Niftullayev adına 1 nömrəli orta məktəbini, 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 26 iyun 2015-ci il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 iyun 2018-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin motoatıcı taborunda (BTR-82A) motoatıcı bölüyün motoatıcı taqımının komandiri, motoatıcı bölük komandiri vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 5-də Tərtər rayonunun Talış kəndi istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən igidlik nümunələri göstərərək şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "İgidliyə görə" (ölümündən sonra), "Suqovuşanın azad olunmasına görə" (ölümündən sonra), "Laçının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Ağayev Həmdəm Mayıl oğlu**
(1975-2020)

9 sentyabr 1975-ci ildə Ağdərə rayonunun Sırxavənd kəndində anadan olub. 1992-ci ildə tam orta məktəbi, 1999-cu ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 20 iyul 1999-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı qrup komandirinin müavini, motoatıcı taqım komandiri, kəşfiyyat taqımının komandiri, kəşfiyyat bölüyünün komandiri, tabor komandirinin maddi-texniki təminat üzrə müavini, hərbi hissənin qərargah rəisi - tabor komandirinin müavini, motoatıcı taborun komandiri, briqada komandirinin maddi-texniki təminat üzrə müavini - maddi-texniki təminat bölməsinin rəisi, hərbi hissənin qərargah rəisi - briqada komandirinin müavini vəzifələrində xidmət edib. "Polkovnik-leytenant" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 4-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olub.

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Motoatıcı tabor komandirinin MTT üzrə müavini", "Qoşun kəşfiyyatı taborunun qərar-gah rəisi – tabor komandiri", "Kəşfiyyat taborunun komandiri" və "Birləşmə komandirinin MTT üzrə müavini" kurslarında iştirak edib.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə " 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli,





"Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Hərbi xidmətlərə görə", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.



*Ruhlarınız şad olsun, Şəhid qardaşlarımız!*



**Ağayev İlkin Tehran oğlu**
(1986-2020)

2 iyun 1986-cı ildə Zərdab rayonunda anadan olub. 2003-cü ildə tam orta məktəbi bitirib. Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2006-cı ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 1 mart 2007-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandirinin müavini, Cəmşid Naxçıvanski adına hərbi liseydə kurs bölüyünün baş çavuşu, tədris kurslarının baş çavuşu, cəbhə bölgəsindəki hərbi hissədə motoatıcı və artilleriya bölüklərinin baş çavuşu vəzifələrində xidmət edib.

8 iyun 2017-ci ildə ehtiyata buraxılıb. Vətən müharibəsi başlananda könüllü olaraq döyüşlərə yollanıb və artilleriya divizionunun baş çavuşu kimi döyüşlərdə iştirak edib.

2020-ci il noyabrın 8-də Şuşa şəhəri istiqamətində gedən döyüş əməliyyatlarında döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" yubiley medalı, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.







**Ağayev Mirlətif Mirislam oğlu**
(1990-2020)

20 noyabr 1990-cı ildə Cəlilabad rayonunda anadan olub. 2013-cü ildə Azərbaycan Dövlət Tibb Universitetini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 9 yanvar 2014-cü il tarixli əmri ilə "tibb xidməti leytenantı" hərbi rütbəsi verilib.

Hərbi hissənin tibb məntəqəsinin həkimi – stomatoloq, stomatoloji kabinetin rəisi vəzifələrində xidmət edib.

25 iyul 2015-ci ildə ehtiyata buraxılıb.

Vətən müharibəsi başlananda könüllü olaraq döyüşlərə yollanıb və hərbi hissənin motoatıcı taborunun tibb məntəqəsinin rəisi kimi xidmətini davam etdirib.

2020-ci il oktyabrın 25-də Qubadlı rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra), "Qubadlının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Ağayev**
**Ramil**
**Mərdan oğlu**
(1984-2020)

20 dekabr 1984-cü ildə Lerik rayonunda anadan olub. 2001-ci ildə tam orta məktəbi, 2006-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 20 iyun 2006-cı il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Artilleriya taqımının komandiri, minaatan batareyanın komandiri, artilleriya divizionu komandirinin maddi-texniki təminat üzrə müavini, qərargah rəisi – divizion komandirinin müavini vəzifələrində xidmət edib.

"Mayor" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 8-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.







**Ağayev**
**Saleh**
**Nurəddin oğlu**
(1992-2020)

30 aprel 1992-ci ildə Biləsuvar rayonunun Günəşli kəndində anadan olub.

2007-ci ildə tam orta məktəbin 9-cu sinfini bitirib. Müddətli həqiqi hərbi xidmət keçib. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu hazırlığı kursu"nun dinləyicisi olub.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 24 aprel 2019-cu il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Motoatıcı manqa komandiri, xüsusi təyinatlı komandanın kəşfiyyatçısı (atıcı), xüsusi kəşfiyyat qrupunun kəşfiyyatçısı (tuşlayıcı-operator), idarəetmə manqasının tuşlayıcısı-operator, tibb məntəqəsinin atıcısı-sanitar, xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 11-də Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.



**Ağayev Vüqar Əhməd oğlu**
(1973-2020)

4 mart 1973-cü ildə Bakı şəhərində anadan olub. 1990-cı ildə orta məktəbi bitirib. 16 yanvar 1992-ci ildən 18 avqust 1993-cü ilədək müddətli həqiqi hərbi xidmət keçib.

Birinci Qarabağ müharibəsində iştirak edib. 1995-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 7 iyun 1995-ci il tarixli əmri ilə "kiçik leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini, hərbi hissənin qərargah rəisi – tabor komandirinin müavini, motoatıcı tabor komandiri, briqada komandirinin müavini, briqada komandirinin maddi-texniki təminat üzrə müavini – bölmə rəisi, hərbi hissənin əməliyyat bölməsinin zabiti – bölmə rəisinin baş köməkçisi, hərbi hissənin MTT bölməsinin zabiti bölmə rəisinin müavini, tabor komandiri, hərbi hissənin maddi-texniki təminat bölməsinin rəisi, əməliyyat bölmə rəisinin döyüş hazırlığı üzrə baş köməkçisi vəzifələrində xidmət edib. "Polkovnik-leytenant" hərbi rütbəsinədək yüksəlib. 23 dekabr 2016-cı ildə ehtiyata buraxılıb.

Vətən müharibəsi başlananda yenidən hərbi xidmətə çağırılıb və motoatıcı taborun komandiri vəzifəsində döyüşlərdə iştirak edib.

Vətən müharibəsində komandiri olduğu motoatıcı taborun şəxsi heyəti ilə birlikdə qarşıya qoyulmuş döyüş tapşırıqlarını uğurla yerinə yetirərək bir neçə yaşayış məntəqəsinin düşmən işğalından azad edilməsində





igidlik və şücaət nümunələri göstərib.

2020-ci il noyabrın 1-də Qubadlı rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Hərbi xidmətlərə görə", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" medalları ilə təltif olunub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" (ölümündən sonra) adı verilib.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Qubadlının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



***Şəhidlər ölməz, Vətən bölünməz!***



**Ağayev**
**Zülfü**
**Ağalı oğlu**
(1977-2020)

1 fevral 1977-ci ildə Astara rayonunun Qara kəndində anadan olub. 1994-cü ildə tam orta məktəbi bitirib. 5 iyul 1996-cı ildən 22 dekabr 1998-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib. 5 iyun 2001-ci ildə "Zabit heyətinin təkmilləşdirmə kursu"na daxil olub və oranı müvəffəqiyyətlə başa vurub.

Azərbaycan Respublikası Müdafiə nazirinin 13 yanvar 2001-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Hərbi hissənin motoatıcı taqımının döyüş maşınının komandiri – manqa komandiri, mexanikləşdirilmiş taqımın döyüş maşını komandiri – manqa komandiri, təlim-döyüş maşınları bölüyünün döyüş maşını komandiri-sürücülük üzrə təlimatçı, mexanikləşdirilmiş təlim manqasının komandiri, motoatıcı taborun motoatıcı bölüyünün baş çavuşu, motoatıcı bölüyünün baş texniki, döyüş maşınları heyətinin rəisi vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 08 may 2020-ci il tarixli əmri ilə "baş gizir" rütbəsi verilib.

2020-ci il sentyabrın 27-də Füzuli rayonu istiqamətində döyüş əməliyyatları zamanı şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Hərbi xidmətlərə görə", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)",





"Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



*Çıxsın Qarabağdan yadlar, yağılar,*
*Laçın yuvasında sar ola bilməz!*



**Alıyev Elçin Bayram oğlu**
(1975-2020)

16 iyul 1975-ci ildə Abşeron rayonunda anadan olub. 1992-ci ildə tam orta məktəbi, 1997-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 31 iyul 1997-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin haubitsallı artileriya batareyasının idarəetmə taqımının komandiri, artilleriya batareyasının komandiri, hərbi hissənin kəşfiyyat rəisi, hərbi hissənin artilleriya rəisinin köməkçisi, əməliyyat bölməsinin zabiti (artilleriya ilə qarşılıqlı əlaqənin koordinatoru), hərbi hissənin artilleriya rəisinin baş köməkçisi, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində Raket və Artilleriya Qoşunları kafedrasının Atış və atəşin idarə edilməsi silsiləsinin müəllimi, hərbi hissənin artilleriya rəisinin baş köməkçisi vəzifələrində xidmət edib.

Müdafiə nazirinin 22 dekabr 2007-ci il tarixli əmri ilə ona "mayor" hərbi rütbəsi verilib. 2017-ci ildə ehtiyata buraxılıb.

Vətən müharibəsinin başlaması ilə əlaqədar olaraq yenidən ordu sıralarına çağırılıb və hərbi hissənin mexanikləşdirilmiş tabor (BMP-2) komandirinin artilleriya üzrə köməkçisi vəzifəsində döyüşlərdə iştirak edib.

2020-ci il noyabrın 10-da Şuşa şəhəri istiqamətində gedən hərbi əməliyyatlar zamanı şəhid olub.

Sağlığında "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.








***Şəhidlər xiyabanı –***
***xalqımızın və ordumuzun müqəddəs ziyarətgahı***



**Alıyev**
**Laçın**
**Rasim oğlu**
(1992-2020)

22 yanvar 1992-ci ildə Goranboy rayonunun Qazaxlar kəndində anadan olub. 2009-cu ildə tam orta məktəbi bitirib. 23 yanvar 2010-cu ildən 27 may 2011-ci ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2012-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"na daxil olub və 2013-cü ildə oranı bitirərək "gizir" kimi cəbhə bölgəsindəki hərbi hissədə motoatıcı taqım komandirinin müavini vəzifəsində xidmətini davam etdirib.

Qərargah bölüyünün baş çavuşu, motoatıcı bölüyün (BTR-82A) motoatıcı taqım komandirinin müavini vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 25-də Füzuli rayonunun Yuxarı Abdurəhmanlı kəndi istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)" yubiley medalları, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.





**Alıyev**
**Vahid**
**Abbas oğlu**
(1989-2020)



18 fevral 1989-cu ildə Daşkəsən rayonunda anadan olub. 2006-cı ildə tam orta məktəbi bitirib. 10 aprel 2007-ci ildən 13 sentyabr 2008-ci ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2012-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 27 aprel 2012-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Hərbi hissənin tank taborunda tank komandiri vəzifəsində xidmətini davam etdirib.

Vətən müharibəsinin başlandığı ilk gündən komandir olduğu tank heyəti ilə döyüşlərə atılıb, Füzuli və Cəbrayıl rayonlarının yaşayış məntəqələrinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə fəal iştirak edib.

2020-ci il sentyabrın 30-da Füzuli rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Allahverdiyev**
**Babək**
**Bəxtiyar oğlu**
(1979-2020)

30 may 1979-cu ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Dəmirçi kəndində anadan olub. 1996-cı ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2000-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyul 2000-ci il tarixli əmri ilə “leytenant” hərbi rütbəsi verilib.

Bir müddət motoatıcı taqım komandiri vəzifəsində xidmət etdikdən sonra Azərbaycan Ordusu sıralarından ayrılıb.

Vətən müharibəsi başlananda könüllü olaraq yenidən ordu sıralarına qayıdıb və “baş leytenant” kimi döyüşlərdə iştirak edib.

Motoatıcı taqım komandiri, motoatıcı taborun kəşfiyyat taqımının komandiri, kəşfiyyat bölüyünün komandiri vəzifələrində xidmət edib.

Füzuli, Xocavənd və Şuşa uğrunda döyüşlərdə fərqlənib.

2020-ci il noyabrın 5-də Şuşa şəhəri istiqamətində igidlik nümunələri göstərərək şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Vətən uğrunda” (ölümündən sonra), “Xocavəndin azad olunmasına görə” (ölümündən sonra), “Füzulinin azad olunmasına görə” (ölümündən sonra) medalları ilə təltif olunub.







**Allahverdiyev**
**Elşad**
**Zaməddin oğlu**
(1997-2020)

5 aprel 1997-ci ildə Göygöl şəhərində anadan olub. 2014-cü ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2019-cu ildə Rusiya Federasiyası Ordu generalı A.V.Xrulyov adına Maddi-Texniki Təminat Hərbi Akademiyasını bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 11 iyul 2019-cu il tarixli əmri ilə “leytenant”, Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 11 iyul 2020-ci il tarixli əmri ilə “baş leytenant” hərbi rütbəsi verilib.

Hərbi hissənin təmir bölüyünün (zirehli-tank texnikasının) zirehli-tank təmiri taqımının komandiri, mexanikləşdirilmiş taborun (BMP-2) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının komandiri, hərbi hissənin maddi-texniki təminat bölməsinin zirehli tank xidməti rəisinin köməkçisi vəzifələrində xidmət edib.

2020-ci il noyabrın 23-də Şuşa şəhərində düşmən tərəfindən vurulan hərbi texnikanı təxliyyə edərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Vətən uğrunda” (ölümündən sonra) medalı və Azərbaycan Respublikası Müdafiə nazirinin 30 dekabr 2020-ci il tarixli əmri ilə “Hərbi xidmətdə fərqlənməyə görə” 3-cü dərəcəli medalı ilə (ölümündən sonra) təltif olunub.



**Allahverdiyev**
**Namaz**
**Baxış oğlu**
(2000-2020)

13 iyun 2000-ci ildə Şəki şəhərində anadan olub. 2017-ci ildə tam orta məktəbi, 2020-ci ildə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini (eksternlə) bitirib.

"Kiçik leytenant" rütbəsində Vətən müharibəsinə yollanıb və motoatıcı taborun motoatıcı bölüyünün motoatıcı taqımının komandiri kimi döyüşlərdə iştirak edib.

Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək üçün "Dəmir Yumruq" əməliyyatı ilə başladığı Vətən müharibəsinin ilk günlərindən hərbi əməliyyatlarda fəal iştirak edib. Komandiri olduğu taqımın şəxsi heyəti ilə birlikdə qarşıya qoyulan döyüş tapşırıqlarını layiqincə yerinə yetirib. Cəsur döyüşçü kimi şəxsi igidlik nümunələri göstərib.

2020-ci il noyabrın 8-də Şuşa şəhəri istiqamətində hərbi əməliyyatlar zamanı düşmən tərəfindən atılmış mərmi partlayışı nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Cəsur döyüşçü" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Alməmmədov**
**Emin**
**Akif oğlu**
(1989-2020)

27 fevral 1989-cu ildə Şəmkir rayonunda anadan olub. 2007-ci ildə tam orta məktəbi bitirib. 6 oktyabr 2007-ci ildən 2 aprel 2009-cu ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2014-cü ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "MAH-HXHQ və QHQ hazırlığı", 2018-ci ildə "Gizir hazırlığı" kurslarının dinləyicisi olub.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 8 dekabr 2018-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Tank əleyhinə artilleriya taqımı komandirinin müavini-top komandiri, reaktiv artilleriya batareyasının idarəetmə maşını heyəti (batareya komandirinin) rəisi-operator, taktiki raket divizionunun start batareyasının idarəetmə maşını heyətinin rəisi – operator, haubitsalı artilleriya taqımının top komandiri, artilleriya divizionunun idarəetmə taqımının radiolokasiya stansiyasının rəisi vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 27-də dağ-atıcı briqadanın döyüş mövqeyində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Hərbi xidmətlərə görə" (ölümündən sonra), "Kəlbəcərin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Alqayev**
**Harun**
**Məhəmməd oğlu**
(1992-2020)

14 iyul 1992-ci ildə Balakən rayonunun Gərəkli kəndində anadan olub. 2010-cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2014-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2015-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2014-cü il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 23 iyun 2017-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Gənc leytenant hərbi hissənin kəşfiyyat bölüyünün kəşfiyyat taqımının komandiri, bölüyün kəşfiyyat-müşahidə taqımının komandiri, Kəşfiyyat bölüyünün komandiri, hərbi hissənin xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun baş kəşfiyyatçısı vəzifələrində xidmət edib.

2020-ci il oktyabr ayının 10-da Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalları, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.





**Aslanov**
**Ağasadıq**
**Xəlil oğlu**
(1991-2020)



1 mart 1991-ci ildə Neftçala rayonunun Kürqarabucaq kəndində anadan olub. 2013-cü ildə tam orta məktəbi bitirib. Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçib.

2018-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"nu "gizir" hərbi rütbəsi ilə bitirib.

Maddi-texniki təminat bölüyünün avtomobil təmiri taqımının komandiri, zərbə pilotsuz uçuş aparatları manqasının («Orbiter-1K», «SkyStriker») baş texniki vəzifələrində xidmət edib.

Vətən müharibəsində qələbənin qazanılmasında müstəsna xidmətləri olub. Düşmənə canlı qüvvə və texnika sarıdan xeyli itkilər verib.

2020-ci il noyabrın 7-də Şuşa şəhərinin Çanaxçı yaşayış məntəqəsi istiqamətində gedən hərbi əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən ağır yaralanıb və həkimlərin səylərinə baxmayaraq ertəsi gün Füzuli hərbi hospitalında dünyasını dəyişib.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş, düşmənin canlı qüvvəsini və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" (ölümündən sonra) ordeni və "Vətən uğrunda" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Aslanov Babək Sakit oğlu**
(1994-2020)

15 noyabr 1994-cü ildə Tovuz rayonunun Yanıqlı kəndində anadan olub.

2012-ci ildə tam orta məktəbi bitirib. 30 yanvar 2013-cü ildən 10 iyun 2014-cü ilədək müddətli həqiqi hərbi xidmət keçib.

Müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxıldıqdan sonra Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"na daxil olub və 2015-ci ildə oranı "gizir" hərbi rütbəsi ilə başa vurub.

Mexanikləşdirilmiş taqımın döyüş maşını komandiri – mexanikləşdirilmiş manqanın komandiri, motoatıcı taborun (BMP-2) motoatıcı bölüyünün motoatıcı taqımının döyüş maşını komandiri - motoatıcı manqa komandiri, mexanikləşdirilmiş taqımın döyüş maşınları heyətinin döyüş maşını komandiri vəzifələrində xidmət edib.

Füzuli və Xocavənd rayonlarının yaşayış məntəqələrinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə fərqlənib.

2020-ci il oktyabrın 2-də Füzuli rayonu istiqamətində xidməti vəzifələrini yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.





**Aslanov Tural Elşən oğlu**
(1992-2020)



5 iyun 1992-ci ildə Yardımlı rayonunda anadan olub. 2013-cü ildə Azərbaycan Müəllimlər İnstitutunun Sumqayıt filialını və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin motoatıcı taborunun motoatıcı taqımının komandiri, mexanikləşdirilmiş taqımın komandiri vəzifələrində xidmət edib.

12 aprel 2015-ci ildə ehtiyata buraxılıb.

Vətən müharibəsi başlananda könüllü olaraq döyüşlərə yollanıb və mexanikləşdirilmiş taborun (BMP-2) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının komandiri kimi döyüş əməliyyatlarında iştirak edib.

2020-ci il noyabrın 6-da Şuşa şəhəri istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəxsi mərdlik və igidlik nümunələri göstərərək şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Aslanov**
**Xəyal**
**Qüdrət oğlu**
(1994-2020)

5 mart 1994-cü ildə Tərtər rayonunun Hacallı kəndində anadan olub. 2012-ci ildə tam orta məktəbi bitirib. 15 oktyabr 2012-ci ildən 1 aprel 2014-cü ilədək müddətli həqiqi hərbi xidmət keçib.

Ehtiyata buraxıldıqdan sonra Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"na daxil olub və oranı "gizir" rütbəsi ilə başa vurub.

Cəbhə bölgəsində təsərrüfat taqımının anbar rəisi, motoatıcı taqım komandirinin müavini, kəşfiyyat-müşahidə bölüyünün texniki müşahidə taqımının texniki müşahidə qrupunun komandiri – operatoru, tank əleyhinə bölüyün tank əleyhinə taqım komandirinin müavini – qumbaraatan manqasının komandiri, motoatıcı taqım komandirinin müavini vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündə döyüşlərdə fərqlənib.

2020-ci il sentyabrın 27-də Tərtər rayonunun Talış kəndi istiqamətində hərbi əməliyyatlar zamanı şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Döyüşdə fərqlənməyə görə" (ölümündən sonra), "Suqovuşanın azad olunmasına görə" (ölümündən sonra), "Laçının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Atakişiyev**
**Tərlan**
**Dərgah oğlu**
(1977-2020)

23 fevral 1977-ci ildə Şamaxı rayonunda anadan olub. 1999-cu ildə Azərbaycan Dövlət Neft Akademiyasını və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən "Leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin tank taborunun rabitə rəisi – taqım komandiri vəzifəsində xidmət edib. 1 iyun 2001-ci ildə xidmət müddəti başa çatdığına görə ehtiyata buraxılıb.

Vətən müharibəsi başlananda könüllü olaraq yenidən ordu sıralarına daxil olub və motoatıcı taborun rabitə rəisi – rabitə taqımınm komandiri vəzifəsində döyüşlərdə iştirak edib.

Taborun rabitə vasitələrinin daim işlək vəziyyətdə saxlanılması üçün səylərini əsirgəməyib.

2020-ci il oktyabrın 22-də Füzuli rayonu ərazisində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.



**Atayev**
**Nicat**
**Habil oğlu**
(1994-2020)

5 mart 1994-cü ildə Mingəçevir şəhərində anadan olub. 2018-ci ildə Gəncə Dövlət Universitetini, 2019-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 30 dekabr 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Cəbhə bölgəsində motoatıcı taborun motoatıcı bölüyünün motoatıcı taqımının komandiri vəzifəsində xidmət edib.

"Dəmir Yumruq" əməliyyatı ilə başlanan Vətən müharibəsinin ilk günündə komandiri olduğu motoatıcı taqımın şəxsi heyəti ilə birlikdə Füzuli rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş yaşayış məntəqələrinin azad edilməsi uğrunda döyüşlərə qələbə əzmi ilə, respublikamızın ərazi bütövlüyünün tezliklə bərpa olunacağına əminliklə qatılıb.

2020-ci il sentyabrın 27-də Füzuli rayonu ərazisində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Axundov**
**Mirzə**
**Musa oğlu**
(1984-2020)

15 mart 1984-cü ildə Lənkəran rayounun Gəgiran kəndində anadan olub. 2001-ci ildə tam orta məktəbi bitirib. 10 aprel 2002-ci ildən 8 aprel 2003-cü ilədək Hərbi Dəniz Qüvvələrinin hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçərək xüsusi təyinatlı dəstənin baş atıcısı, dalğıc-döyüş üzgüçüsü, mühafizə taqımının manqa komandiri, «Cilov» qrupunun manqa komandiri vəzifələrində xidmət edib.

2005-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirdikdən sonra xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı qrupunun dalğıcı-kəşfiyyatçı, hərəkətedən rekompressiya stansiyasının rəisi-dalğıc, dalğıc təlim mərkəzinin hərəkətedən rekompressiya stansiyasının dalğıcı, stansiyanın rəisi-dalğıc, hərbi hissənin dalğıc xidmətinin dalğıcı-təlimatçı vəzifələrində xidmət edib.

18 fevral 2017-ci ildən başlayaraq xidmətini cəbhə bölgəsində hərbi hissənin motoatıcı taborunda motoatıcı taqım komandirinin müavini, kəşfiyyat bölüyündə kəşfiyyat manqasının komandiri, kəşfiyyat taqımı komandirinin müavini, kəşfiyyat bölüyünün baş çavuşu, motoatıcı bölüyün baş çavuşu vəzifələrində davam etdirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 18 fevral 2005-ci tarixli əmri ilə "miçman" hərbi rütbəsi verilib.

2020-ci il oktyabrın 1-də Tərtər və Ağdərə rayonları istiqamətində hərbi əməliyyatlar zamanı şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi

(1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" medalları ilə təltif olunub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Suqovuşanın azad olunmasına görə" (ölümündən sonra), "Laçının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.




***Oddan keçir, qandan keçir oğullar,***
***Göydən mərmi, atəş yağır, od yağır.***
***Hüququndan, candan keçir oğullar,***
***Şəhid ruhu intiqama çağırır.***





**Azayev**
**Asif**
**Məhəmmədağa oğlu**
(1985-2020)



1 fevral 1985-ci ildə Şamaxı rayonunda anadan olub. 2003-cü ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2007-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və "Zabit ixtisas kursu"nu bitirib.

Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, qərargah bölüyünün komandiri, motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini, motoatıcı taborun (Marauder) qərargah rəisi – tabor komandirinin müavini vəzifələrində xidmət edib. "Mayor" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 20-də Füzuli rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalları ilə təltif olunub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni və "Vətən uğrunda" "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.



**Azayev Sadiq Xubyar oğlu**
(1992-2020)

11 avqust 1992-ci ildə Quba rayonunun Qonaqkənd kəndində anadan olub.

2010-cu ildə tam orta məktəbi bitirib. 8 oktyabr 2010-cu ildən 2 aprel 2012-ci iləddək Daxili Qoşunlarda müddətli həqiqi hərbi xidmət keçib.

2017-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müvafiq əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taborun motoatıcı taqım komandirinin müavini vəzifəsində xidmət edib.

Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın 27 sentyabr 2020-ci ildə başladığı Vətən müharibəsinin ilk günündə Füzuli rayonu uğrunda döyüşlərə atılıb və xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlməyə çalışıb.

2020-ci il oktyabrın 1-də Füzuli rayonu ərazisində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Bababəy Şamil Nazim oğlu**
(1994-2020)

4 yanvar 1994-cü ildə Ordubad rayonunun Çənnəb kəndində anadan olub. 2012-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və "Zabit ixtisas kursu"nu bitirib.

Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Tank bölüyünün tank taqımının komandiri, mexanikləşdirilmiş taborun (BMP-2) tank taqımının komandiri, mexanikləşdirilmiş taborun (BMP-3) tank taqımının komandiri vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 23 iyun 2019-cu il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Vətən müharibəsində rəhbərlik etdiyi mexanikləşdirilmiş taqım texnika və canlı qüvvə sarıdan düşmənə xeyli itkilər verib.

2020-ci il oktyabrın 7-də Tərtər və Ağdərə rayonları istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.



**Babaşov Bayram İlqar oğlu**
(1993-2020)

10 iyul 1993-cü ildə Cəlilabad rayonunun Şəhriyar kəndində anadan olub. 2012-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin snayper bölüyünün snayper taqımının komandiri, motoatıcı bölüyün (MT-LB) motoatıcı taqımının komandiri, motoatıcı bölüyün (BMP-3) komandiri vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 23 iyun 2019-cu il tarixli əmri ilə ona "baş leytenant" hərbi rütbəsi verilib.

Vətən müharibəsinin ilk şəhidlərindəndir.

2020-ci il oktyabrın 2-də Göygöl rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.







**Babaxanov Elman Ağamirzə oğlu**
(1993-2020)

17 dekabr 1993-cü ildə Bakı şəhərində anadan olub. 2012-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Mexanikləşdirilmiş taborun qərargah rəisinin kəşfiyyat üzrə köməkçisi – kəşfiyyat taqımının komandiri, kəşfiyyat taqımının komandiri, motoatıcı taborun qərargah rəisinin kəşfiyyat üzrə köməkçisi – kəşfiyyat taqımının komandiri, komandir müavini, xüsusi təyinatlı bölüyün komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifələrində xidmət edib.

Əlahiddə Ümumqoşun Ordu Komandanının 3 noyabr 2020-ci il tarixli əmri ilə "kapitan" hərbi rütbəsi verilib.

2020-ci il noyabrın 8-də Xocavənd rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni (ölümündən sonra) və "Vətən uğrunda" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif edilib.



**Babayev**
**Əli**
**Həsən oğlu**
(1997-2020)

14 noyabr 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şəhid Məmməd kəndində anadan olub.

2015-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2020-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Gənc leytenant cəbhə bölgəsində hərbi hissənin mexanikləşdirilmiş taborunun (BTR-82A) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsi başlananda Beyləqan rayonundakı hərbi hissələrdən birində xidmət edirdi. İlk döyüşlərə böyük ruh yüksəkliyi, qələbə əzmi, işğal olunmuş tarixi torpaqlarımızın tezliklə azad ediləcəyinə əminliklə atılsa da, Zəfər gününü görmək ona qismət olmadı.

2020-ci il sentyabrın 27-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda" "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Babayev**
**Elməddin**
**Cəfərqulu oğlu**
(1981-2020)

26 oktyabr 1981-ci ildə Biləsuvar rayonunun Çaylı kəndində anadan olub.

21 yanvar 2000-ci ildən 11 iyul 2001-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2006-cı ildə Bakı şəhəri Azərdəniz Sənaye Texnikumunu, 2007-ci ildə isə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müvafiq əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Tank bölüyünün tank taqımının tank komandiri vəzifəsində xidmət edib.

"Dəmir Yumruq" əməliyyatı ilə başlanan 44 günlük Vətən müharibəsinin ilk günündə Tərtər rayonu istiqamətində döyüşlərə qatılıb.

2020-ci il sentyabrın 29-da Tərtər rayonu ərazisində aparılan hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



**Babayev**
**Murad**
**Nadir oğlu**
(1982-2020)

31 mart 1982-ci ildə Cəlilabad rayonunun Sabirabad kəndində anadan olub.

2000-ci ildə tam orta məktəbi bitirib. 14 iyul 2000-ci ildən 6 yanvar 2002-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

Ehtiyata buraxıldıqdan sonra Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"na daxil olub və 2003-cü ildə oranı "gizir" rütbəsi ilə başa vurub.

Hərbi hissənin tank taborunun tank bölüyünün tank komandiri, tank bölüyünün baş çavuşu və baş texniki vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 27-də Füzuli rayonu istiqamətində döyüş əməliyyatları zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 24 iyun 2014-cü il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilib.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Babayev**
**Nihad**
**Akif oğlu**
(1991-2020)

30 avqust 1991-ci ildə Biləsuvar rayonunda anadan olub. 2009-cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2013-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2014-cü ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib

Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin motoatıcı taborunun (MT-LB) motoatıcı bölüyünün motoatıcı taqımının komandiri, xüsusi təyinatlı bölüyün xüsusi təyinatlı qrup komandiri, hərbi hissənin qərargah və təchizat bölüyünün komandiri, xüsusi təyinatlı bölüyün komandiri, tabor komandirinin maddi-texniki təminat üzrə müavini vəzifələrində xidmət edib.

Əlahiddə Ümumqoşun Ordu Komadanının 27 iyun 2020-ci il tarixli əmri ilə "kapitan" hərbi rütbəsi verilib.

2020-ci il oktyabrın 23-də Xocavənd rayonu ərazisində aparılan hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yerirərkən qəhrəmancasına şəhid olub.

Vətən müharibəsində qələbənin qazanılmasında müstəsna xidmətləri vardır.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı və "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalla təltif olunub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə

yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" (ölümündən sonra) adı verilib, "Vətən uğrunda" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.




***Vətənin şəhid oğulları qanları, canları bahasına dünyaya bir daha sübut etdilər ki, həqiqətən Qarabağ Azərbaycandır! Qarabağ Azərbaycanındır!***







**Babayev Rahib Bəxtiyar oğlu**
(1985-2020)

19 iyun 1985-ci ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Külüs kəndində anadan olub. 2002-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2006-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2007-ci ildə isə "Zabit ixtisas kursu"nu bitirib.

Müdafiə nazirinin əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, motoatıcı taborun qərargah rəisi – tabor komandirinin müavini, motoatıcı taborun komandiri vəzifələrində xidmət edib. "Mayor" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində qələbənin qazanılmasında xüsusi ilə fərqlənib.

2020-ci il sentyabrın 30-da Göygöl rayonunun Toğanalı kəndi yaşayış məntəqəsi istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.



**Babayev**
**Ramil**
**Taqət oğlu**
(1991-2020)

12 dekabr 1991-ci ildə Kürdəmir rayonunun Şilyan kəndində anadan olub. 2010-cu ildə Cəmşid Naxşıvanski adına hərbi liseyi, 2014-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini, 2015-ci ildə “Zabit ixtisas kursu”nu bitirib.

Müdafiə nazirinin 23 iyun 2014-cü il tarixli əmri ilə “leytenant” hərbi rütbəsi verilib.

Kəşfiyyat bölüyünün kəşfiyyat taqımının komandiri, kəşfiyyat bölüyünün komandiri, hərbi hissənin kəşfiyyat bölməsi rəisinin məlumatların toplanılması üzrə köməkçisi vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 23 iyun 2017-ci il tarixli əmri ilə “baş leytenant” hərbi rütbəsi verilib.

Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın respublikanın ərazi bütövlüyünün bərpası və işğal altında olan tarixi torpaqlarımızın azadlığı naminə “Dəmir Yumruq“ əməliyyatı ilə başladığı Vətən müharibəsinin ilk günündən döyüşlərə atılıb və xidməti vəzifəsinin öhtəsindən layiqincə gəlib.

2020-ci il sentyabrın 29-da Goranboy rayonunun Gülüstan kəndi ərazisində hərbi əməliyyatlar zamanı kəşfiyyat tapşırığını yerinə yetirərkən şəhid olub. Nəşi 2021-ci il fevralın 1-də döyüş meydanından çıxarılıb və hərbi-dini ənənələrə uyğun olaraq böyük izdihamın iştirakı ilə Kürdəmir Şəhidlər xiyabanında dəfn edilib.

Ölümündən sonra təltif edilməsi üçün təqdimatı aidiyyatı üzrə göndərilib.





**Babayev**
**Rəşad**
**Ağabəy oğlu**
(1992-2020)



4 iyun 1992-ci ildə Bakı şəhərində anadan olub.

2013-cü ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını, 2014-cü ildə hərbi hissənin nəzdində “Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 29 may 2020-ci il tarixli əmri ilə “gizir” hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı taborun xüsusi təyinatlı dəstəsinin xüsusi təyinatlı qrupunun kəşfiyyatçısı, xüsusi təyinatlı manqa komandiri, xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən döyüşlərə atılaraq xüsusi təyinatlı qüvvələrin tərkibində mühüm kəşfiyyat tapşırıqlarını uğurla yerinə yetirib.

2020-ci il oktyabrın 10-da Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən igidlik nümunələri göstərərək şəhid olub.

Sağlığında “Azərbaycan Ordusunun 100 illiyi (1918-2018” Azərbaycan Respublikasınm yubiley medalı, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Vətən uğrunda”, “İgidliyə görə”, “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif olunub.



**Babayev**
**Vüsal**
**Sübbuh oğlu**
(1992-2020)

8 yanvar 1992-ci ildə Bakı şəhərinin Əzizbəyov rayonunda anadan olub. 2010-cu ildə Pirallahı tam orta məktəbini, 2014-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2015-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Özüyeriyən artilleriya divizionunun özüyeriyən artilleriya batareyasının özüyeriyən artilleriya taqımının komandiri, motoatıcı taborun (BTR-82A) minaatan batareyasının idarəetmə taqımının komandiri vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 23 iyun 2017-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

2020-ci il oktyabrın 18-də Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018" Azərbaycan Respublikasının yubiley medalı, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Bağırov**
**Süleyman**
**Loğman oğlu**
(1992-2020)

1 fevral 1992-ci ildə Sabirabad rayonunda anadan olub.

2014-cü ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsində xidmət edib.

2016-cı il mayın 5-də müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxılıb.

Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın başladığı Vətən müharibəsinin ilk günündə könüllü olaraq yenidən ordu sıralarına qayıdıb və motoatıcı taborun motoatıcı bölüyünün komandirinin şəxsi heyətlə iş üzrə müavini kimi döyüşlərdə iştirak edib.

2020-ci il oktyabrın 8-də Cəbrayıl rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.



**Balayev**
**Orxan**
**Vidadi oğlu**
(1998-2020)

18 sentyabr 1998-ci ildə Quba rayonunun Alpan kəndində anadan olub. 2015-ci ildə tam orta məktəbi bitirib. 30 aprel 2017-ci ildən 25 oktyabr 2018-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2019-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib,

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müvafiq əmrinə əsasən "gizir" hərbi rütbəsi verilib.

Hərbi hissənin motoatıcı bölüyünün (BMP-3) motoatıcı taqım komandirinin müavini, mexanikləşdirilmiş manqanın komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günlərindən komandiri olduğu mexanikləşdirilmiş manqa ilə birlikdə döyüşlərdə fəal iştirak edib. Komandanlığın əmr və göstərişlərini layiqincə icra edib.

2020-ci il oktyabrın 8-də Tərtər və Ağdərə rayonları istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018" Azərbaycan Respublikasının yubiley medalı, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.







**Baliev**
**Hüseynağa**
**Salman oğlu**
(1987-2020)

22 dekabr 1987-ci ildə Salyan rayonunda anadan olub. 2005-ci ildə Y.Qafarov adına 8 saylı orta məktəbi, 2009-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2010-cu ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Mexanikləşdirilmiş taqım komandiri, motoatıcı taqım komandiri, bölük komandiri, mühafizə və təminat bölüyünün komandiri, motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini, motoatıcı taborun qərargah rəisi - tabor komandirinin müavini, motoatıcı taborun komandiri vəzifələrində xidmət edib. "Mayor" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 9-da Xocavənd rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə "Qarabağ" ordeni və "Vətən uğrunda" medalı ilə təltif olunub.



**Baxşəliyev**
**Natiq**
**Saleh oğlu**
(1980-2020)

7 iyul 1980-ci ildə Bakı şəhərində anadan olub.

2001-ci ildə Azərbaycan Texniki Universitetini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 25 avqust 2001-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun minaatan batareyasının minaatan taqımının komandiri, idarəetmə taqımının komandiri vəzifələrində xidmət edib.

6 aprel 2003-cü ildə xidmət müddəti başa çatdığına görə Azərbaycan Ordusu sıralarından ehtiyata buraxılıb.

Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək üçün başladığı Vətən müharibəsinin ilk günündə yenidən ordu sıralarına qayıdıb və minaatan taqımın komandiri kimi döyüşlərdə iştirak edib.

2020-ci il oktyabrın 20-də Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Baxşəliyev**
**Qərib**
**İnqilab oğlu**
(1977-2020)

22 may 1977-ci ildə Bakı şəhərində anadan olub. 1994-cü ildə tam orta məktəbi, 1999-cü ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) bitirib.

Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin motoatıcı taqımının komandiri, Cəmşid Naxçıvanski adına hərbi liseyin tədris taqımının komandiri – tərbiyəçi, tədris taborunun bölük komandiri – müəllim, kursun bölük komandiri, şəxsi heyətlə iş üzrə bölmənin psixoloqu, şəxsi heyətlə iş üzrə şöbənin psixoloqu – şöbə rəisinin baş köməkçisi, Heydər Əliyev adına hərbi liseyin şəxsi heyətlə iş üzrə şöbə rəisinin mənəvi-psixoloji təminat üzrə müavini, briqada komandirinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavini – ideoloji iş və mənəvi-psixoloji təminat bölməsinin rəisi, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin humanitar və sosial fənlər kafedrasının hərbi fənlər silsiləsinin baş müəllimi (hərb tarixi üzrə), briqada komandirinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavini – ideoloji iş və mənəvi-psixoloji təminat bölməsinin rəisi vəzifələrində xidmət edib.

"Polkovnik-leytenant" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il noyabrın 3-də Qubadlı rayonunun Çərəli yaşayış məntəqəsi istiqamətində xidməti vəzifələrinin icrası zamanı şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə

görə" 2-ci dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



***Zəfər toplarımız tezliklə Azadlıq meydanında gurlayacaq. Həmin gün şəhid silahdaşlarımızın müqəddəs ruhları da şad olacaq!***







**Bayramlı Elmar İsa oğlu**
(1998-2020)

2 sentyabr 1998-ci ildə Bakı şəhərində anadan olub. 2016-cı ildə Sumqayıt şəhərindəki, 24 nömrəli tam orta məktəbi, 2020-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Cəbhə bölgəsindəki hərbi hissənin motoatıcı taborunda motoatıcı taqım komandiri vəzifəsində xidmət edib.

Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycan Ordusunun işğal edilmiş tarixi torpaqlarımızın azadlığı və respublikamızın ərazi bütövlüyünün təmin olunması məqsədilə başladığı Vətən müharibəsinin ilk günündən hərbi əməliyyatlara qatılıb və qarşıya qoyulan döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsi üçün səylərini əsirgəməyib.

2020-ci il sentyabrın 29-da Tərtər rayonunun Talış kəndi istiqamətində hərbi əməliyyatlar zamanı şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Suqovuşanın azad olunmasına görə" (ölümündən sonra), "Laçının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Bayramov**
**Elburus**
**Eyvaz oğlu**
(1986-2020)

1 dekabr 1986-cı ildə Beyləqan rayonunun Milabad kəndində anadan olub. 2005-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2009-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin motoatıcı taborunda motoatıcı taqım komandiri vəzifəsində xidmətə başlayan gənc leytenant sonralar cəbhə bölgələrindəki hərbi hissələrdə motoatıcı bölüyün komandiri, mexanikləşdirilmiş taborun (BMP-3) mexanikləşdirilmiş bölüyünün komandiri, qərargah bölüyünün komandiri, motoatıcı taborun qərargah rəisi – tabor komandirinin müavini, motoatıcı taborun komandiri, motoatıcı taborun (BMP-3) komandiri, mexanikləşdirilmiş taborun (BMP-3) komandiri, mexanikləşdirilmiş taborun (BMP-1) komandiri vəzifələrində xidmət edib. "Mayor" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 3-də Füzuli rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.`

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" medalları ilə təltif olunub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı





düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən Müharibəsi Qəhrəmanı" (ölümündən sonra) adı verilib, "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



***Təlimlərdən döyüşlərə,***
***Döyüşlərdən qələbəyə gedirik!***



**Bayramov**
**İqbal**
**Əhmədağa oğlu**
(1977-2020)

4 iyul 1977-ci ildə Lənkəran şəhərində anadan olub. 1998-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasını, 1998-ci ildə Azərbaycan Dövlət Neft Akademiyası nəzdində hərbi kafedranı bitirib.

Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Cəbhə bölgəsindəki hərbi hissədə motoatıcı taqım komandiri vəzifəsində xidmət edib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 29 sentyabr 2000-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

28 may 2001-ci ildə xidmət müddəti başa çatdığına görə ehtiyata buraxılıb.

13 oktyabr 2004-cü ildən yenidən ordu sıralarına qayıdaraq Hərbi Dəniz Qüvvələrinin hərbi hissələrindən birində motorlaşdırılmış alayın patrul taborunun patrul taqımının komandiri, alayın ayrı yerləşən dağ taborunun döyüş təminatı bölüyü komandirinin tərbiyəvi işlər üzrə müavini, motorlaşdırılmış alayın 2-ci patrul bölüyünün komandiri, motorlaşdırılmış alayın qərargahında döyüş təlimi üzrə zabit, motorlaşdırılmış alayın qərargah rəisinin xidmət üzrə köməkçisi vəzifələrində xidmət edib.

"Mayor" hərbi rütbəsinədək yüksəlib.

13 yanvar 2018-ci ildə ehtiyata buraxılıb.

Vətən müharibəsi başlananda yenidən hərbi xidmətə çağırılıb və motoatıcı taborun komandiri kimi döyüşlərdə iştirak edib.





2020-ci il oktyabrın 5-də Füzuli rayonu istiqamətində gedən döyüş əməliyyatlarında döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.



***Yollar cəbhələrə ümidlə getdi,***
***Yollar cəbhələrdən əliboş gəldi.***
***Yollar da vuruldu, yollar da öldü,***
***Əsgərlər əynində paltar kimiydi,***
***Yollar əsgərləri soyunub gəldi...***



**Bayramov**
**Ramin**
**Hüseynağa oğlu**
(1979-2020)

8 oktyabr 1979-cu ildə Cəlilabad rayonunda anadan olub. 2000-ci ildə Azərbaycan Dövlət Universitetini bitirib.

Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

25 dekabr 2004-cü ildən 26 iyun 2006-cı ilədək motoatıcı taqım komandiri vəzifəsində xidmət edib. "Baş leytenant" hərbi rütbəsi ilə ehtiyata buraxılıb.

Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq yenidən hərbi xidmətə çağırılıb və motoatıcı taborun motoatıcı bölüyünün komandiri vəzifəsində döyüşlərdə iştirak edib.

Cəbrayıl və Qubadlı rayonlarının yaşayış məntəqələrinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə komandanlığın əmr və göstərişlərini layiqincə yerinə yetirib.

2020-ci il noyabrın 9-da Qubadlı rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) və "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra), "Qubadlının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.





**Bayramov**
**Ruslan**
**Azər oğlu**
(1996-2020)



5 oktyabr 1996-cı ildə Quba rayonunun Aşağı Atuc kəndində anadan olub. 2015-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Naxçıvan Muxtar Respublikasındakı hərbi hissələrdə kəşfiyyat bölüyünün kəşfiyyat taqımının komandiri, motoatıcı taborun qərargah rəisinin kəşfiyyat üzrə köməkçisi – kəşfiyyat taqımının komandiri, xüsusi təyinatlı bölüyün xüsusi təyinatlı qrup komandiri vəzifələrində xidmət edib.

Əlahiddə Ümumqoşun Ordu Komandanının 3 noyabr 2020-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

2020-ci il noyabrın 9-da Şuşa şəhəri ərazisində aparılan hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yerirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.



**Bayramov**
**Samir**
**Elxan oğlu**
(1996-2020)

15 avqust 1996-cı ildə Göygöl rayonunun Yeni Zod kəndində anadan olub. Əslən Kəlbəcər rayonunun Qılınclı kəndindəndir. 2014-cü ildə tam orta məktəbi bitirib.

8 oktyabr 2014-cü ildən 26 aprel 2016-cı ilədək müddətli həqiqi hərbi xidmət keçib.

Ehtiyata buraxıldıqdan sonra, 2016-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"na daxil olub və oranı müvəffəqiyyətlə başa vurub.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Kəşfiyyat manqasının komandiri vəzifələsində hərbi əməliyyatlara qatılıb və 44 günlük Vətən müharibəsinin ilk günündən döyüşlərdə fəal iştirak edib.

2020-ci il sentyabrın 30-da Murovdağ silsiləsinin Camışdağ zirvəsi istiqamətində şəhid olub və nəşi 2 ay sonra çıxarılaraq Göygöl şəhər Şəhidlər xiyabanında dəfn edilib.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.







**Bayramov**
**Xəqani**
**Məmməd oğlu**
(1990-2020)

17 oktyabr 1990-cı ildə Beyləqan rayonunun Təzəkənd kəndində anadan olub.

Tam orta məktəbi bitirib. 12 yanvar 2009-cu ildən 1 iyul 2010-cu ilədək müddətli həqiqi hərbi xidmət keçib.

13 aprel 2014-cü ildə yenidən ordu sıralarına qayıdıb və kəşfiyyat manqasının komandiri vəzifəsində xidmətini davam etdirib. Sonralar cəbhə bölgəsində baş kəşfiyyatçı-istehkamçı, kəşfiyyat-müşahidə taqımının vizual kəşfiyyat manqasının komandiri, kəşfiyyat manqasının kəşfiyyatçısı-istehkamçı vəzifələrində xidmət edib.

2019-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müvafiq əmrinə əsasən "gizir" hərbi rütbəsi verilib.

Vətən müharibəsi döyüşlərində kəşfiyyat-müşahidə taqımı komandiri kimi üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlib.

2020-ci il oktyabrın 2-də Qubadlı rayonu istiqamətində gedən hərbi əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Bədəlov**
**Oktay**
**Ələddin oğlu**
(1984-2020)

27 oktyabr 1984-cü ildə Tovuz rayonunun Çeşməli kəndində anadan olub. 2002-ci ildə tam orta məktəbi bitirib. 10 yanvar 2003-cü ildən 29 iyul 2004-cü ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2004-cü ildə hərbi hissənin nəzdində "Gizir hazırlığı kursu"nu başa vurduqdan sonra xüsusi təyinatlı alayın xüsusi təyinatlı qrupunun kəşfiyyatçısı (istehkamçı), mühəndis kəşfiyyat-istehkam manqasının kəşfiyyatçısı (istehkamçı) vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 24 mart 2020-ci il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilib.

Vətən müharibəsində qarşıya qoyulmuş vəzifələri layiqincə yerinə yetirib, qəhrəmanlıq nümunələri göstərib.

2020-ci il oktyabrın 27-də Xocavənd rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdyinə, düşmənin





canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.



*Biz ölsək də, yaşasın ana Vətən əbədi,*
*Mamır olub qayada bizik bitən əbədi.*
*Sil gözünün yaşını, qaragiləm, bu nədi?*
*Torpağı ana kimi qucanlarım var mənim,*
*Vətən deyib canından keçənlərim var mənim!*



**Bədəlov Valeh Vahid oğlu**
(1990-2020)

10 oktyabr 1990-cı ildə Zaqatala rayonunun Aşağı Tala kəndində anadan olub. 2012-ci ildə Qafqaz Universitetini bitirdikdən sonra Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nda təhsil alıb.

Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Cəbhə bölgəsindəki hərbi hissənin motoatıcı taqımının komandiri vəzifəsində xidmət edib və 5 aprel 2014-cü ildə ehtiyata buraxılıb.

2015-ci ildə yenidən ordu sıralarına qayıdaraq mexanikləşdirilmiş taqım (BMP-3) komandiri, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun baş kəşfiyyatçısı, xüsusi əməliyyat qrupu komandirinin müavini vəzifələrində xidmətini davam etdirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 27 yanvar 2017-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Vətən müharibəsi cəbhələrində əsl qəhrəmanlıq, şücaət nümunələri göstərib.

2020-ci il oktyabrın 7-də Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif olunub.





Ölümündən sonra ona Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə " Vətən Müharibəsi Qəhrəmanı" adı verilib, "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.



***Topların səsindən dağ da diksinir,***
***Daşlaşmış igidlər oyanır bu gün.***
***Rahat yat məzarda, şəhid qardaşım,***
***Düşmən al qanına boyanır bu gün!***



**Bərxudarov Toğrul Məmməd oğlu**
(1987-2020)

30 iyun 1987-ci ildə Gəncə şəhərində anadan olub. 2004-cü ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2008-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı bölüyün atəş dəstəyi taqımının komandiri, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursant taqımının komandiri – müəllim köməkçisi, kursant bölüyünün komandiri – müəllim, motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini, motoatıcı taborun qərargah rəisi – tabor komandirinin müavini vəzifələrində xidmət edib. "Mayor" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il sentyabrın 30-da Tərtər və Ağdərə rayonları istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.







**Bəşirov Hakim Nizam oğlu**
(1989-2020)

2 mart 1989-cu ildə İmişli rayonunda anadan olub. 2011-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını, 018-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun (SandCat) motoatıcı bölüyünün motoatıcı taqım komandiri, mexanikləşdirilmiş taqım komandiri vəzifələrində xidmət edib.

27 sentyabr 2020-ci ildə Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın işğal altındakı tarixi torpaqlarının azad edilməsi və respublikamızın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başladığı 44 günlük Vətən müharibəsinin ilk günündən döyüşlərdə fəal iştirak edib və xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib.

2020-ci il oktyabrın 19-da Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Budaqov**
**Rəşad**
**Ramiz oğlu**
(1986-2020)

13 mart 1986-cı ildə Yevlax rayonunda anadan olub. 2004-cü ildə tam orta məktəbi, 2008-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Tank taqımının komandiri, tank bölüyünün komandiri, hərbi hissənin qərargah rəisi – tabor komandirinin müavini, tabor komandiri, briqada komandirinin maddi-texniki təminat üzrə müavini – maddi-texniki təminat bölməsinin rəisi vəzifələrində xidmət edib. "Mayor" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il sentyabrın 28-də Talış və Suqovuşan kəndləri istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 3-cü dərəcəli "Rəşadət" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.







**Budaqov**
**Rufiz**
**Şirzad oğlu**
(1977-2020)

12 iyul 1977-ci ildə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Tivi kəndində anadan olub.

17 iyul 1995-ci ildən 19 fevral 1996-ci islədək müddətli həqiqi hərbi xidmət keçib.

Hərbi hissənin "Zabit heyətinin təkmilləşdirilməsi kursu"nun nəzdində "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 26 dekabr 1998-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Tank bölüyünün tank komandiri, tank bölüyünün baş çavuşu, motoatıcı taborun minaatan batareyasının baş çavuşu, tank taqımının komandiri vəzifələrində xidmət edib. Vətən müharibəsinin ilk günündə döyüşlərdə xüsusi ilə fərqlənib.

2020-ci il sentyabrm 29-da Tərtər rayonunun Talış kəndi istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə "Qarabağ" ordeni və "Vətən uğrunda" medalı ilə təltif olunub.



**Cabbarov
Orxan
Rövşən oğlu**
(1995-2020)

20 noyabr 1995-ci ildə Tovuz rayonunda anadan olub. 2013-cü ildə tam orta məktəbi bitirib. 12 yanvar 2014-cü ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. İstehkamçı, baş istehkamçı, manqa komandiri vəzifəsində xidmət edib.

2015-ci ildə hərbi hissənin nəzdində "Təməl Xüsusi Təyinatlı kursu"nu başa vurduqdan sonra xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı komandasının atıcısı-qumbaraatan köməkçisi, xüsusi təyinatlı komandanın kəşfiyyatçısı (atıcı), xüsusi təyinatlı dəstənin mühəndis kəşfiyyatı manqasının mühəndis kəşfiyyatı qrupunun komandiri, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmətini davam etdirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 19 fevral 2019-cu il tarixli əmri ilə ona "kiçik gizir" hərbi rütbəsi verilib.

2020-ci il noyabrın 9-da Şuşa şəhəri ərazisində gedən hərbi əməliyyatlar zamanı mühüm kəşfiyyat tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", Azərbaycan Respublikasının "Şücaətə görə", ölümündən sonra isə ona Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən





göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib.

"Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.



***"Torpaq su ilə qarışanda palçıq, qan ilə qarışanda Vətən olar". Bu fikirlər hər bir Azərbaycan əsgərinin amalına çevrilib və yeri gələrsə onları Vətən uğrunda canlarından, qanlarından keçməyə ruhlandırır.***



**Cabbarov Seymur İlham oğlu**
(1987-2020)

16 mart 1987-ci ildə Nəxçıvan Muxtar Respublikasının Şərur rayonunun Çərçiboğan kəndində anadan olub.

2008-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, mexanikləşdirilmiş taqım komandiri, motoatıcı bölük komandiri, motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini, təlim taboru komandirinin maddi – texniki təminat üzrə müavini, motoatıcı tabor komandirinin maddi – texniki təminat üzrə müavini, komendant bölüyünün komandiri vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 3-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Cabbarov Vidadi Cəbrayıl oğlu**
(1997-2020)

28 mart 1997-ci ildə Lerik rayonunun Piran kəndində anadan olub. 2014-cü ildə tam orta məktəbi bitirib. 10 aprel 2015-ci ildən 22 sentyabr 2016-cı ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2018-ci ildə hərbi hissənin nəzdində "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu hazırlığı", 2020-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 8 may 2020-ci il tarixli əmri ilə ona "gizir" hərbi rütbəsi verilib.

Haubitsalı artillleriya taqımının mexaniki - sürücü, haubitsalı artilleriya divizionunun idarəetmə taqımının artilleriya kəşfiyyatı manqasının (hərəkətli kəşfiyyat məntəqəsi) mexaniki - sürücü, haubitsalı özüyeriyən artilleriya taqımının sürücüsü, rabitə bölüyünün rabitə qovşağının (stasionar) avtomatik idarəetmə sistemləri bölməsinin növbə rəisi vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 20-də Azərbaycan Respublikasının ərazi bü-tövlüyü uğrunda Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə

görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.




*Dərələr adladım, odlardan keçdim,*
*Deme ki, dünyadan mən nakam köçdüm.*
*Ay ana, bu yolu könüllü seçdim,*
*Gün kimi al şəfəq saçıb gedirəm!*





**Cabbarzadə Məmmədiyə Məhəmməd oğlu**
(1986-2020)



10 dekabr 1986-cı ildə Şəki rayonunda anadan olub. 2006-cı ildə tam orta məktəbi bitirib. 13 iyul 2006-cı ildən 2 yanvar 2008-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

Ehtiyata buraxıldıqdan sonra taleyini Vətənə xidmət peşəsinə bağlamaq üçün Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na daxil olub və oranı "gizir" hərbi rütbəsi ilə bitirib.

Mexanikləşdirilmiş manqanın döyüş maşını komandiri, mexanikləşdirilmiş manqanın komandiri, motoatıcı taborun (BMP-3) motoatıcı bölüyünün motoatıcı taqımının döyüş maşını komandiri – döyüş maşınları heyəti rəisinin müavini, mexanikləşdirilmiş manqanın komandiri, mexanikləşdirilmiş taqımın (BTR-82A) döyüş maşınları heyətinin döyüş maşını komandiri vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 30-da Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Cavadlı**
**Nemət**
**Cavid oğlu**
(1995-2020)

3 iyun 1995-ci ildə İmişli rayonunda anadan olub. 2012-ci ildə tam orta məktəbi bitirib. 4 iyul 2013-cü ildən 8 dekabr 2015-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2016-cı ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu başa vurub.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 12 aprel 2016-cı il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı (BTR-82A) manqa komandiri – döyüş maşını komandiri, xüsusi təyinatlı dəstənin maşın komandiri – tank əleyhinə raket kompleksləri manqasının komandiri, xüsusi silah dəstəsinin tank əleyhinə taqımının mobil tank əleyhinə raket kompleksləri manqasının komandiri – maşın komandiri (operator) vəzifələrində xidmət edib.

Vətən müharibəsində şəxsi şücaət nümunələri göstərib.

2020-ci il oktyabrın 29-da Xocavənd rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı, ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə "Qarabağ" ordeni, "Vətən uğrunda" və Azərbaycan Respublikası Müdafiə nazirinin əmri ilə "Şücaətə görə" medalları ilə təltif olunub.







**Cavadov**
**Cəlil**
**Ağaddin oğlu**
(1989-2020)

29 mart 1989-cu ildə Lerik rayonunun Lerik qəsəbəsində anadan olub. 2006-cı ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2010-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, qərargah və təchizat bölüyünün komandiri, motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini, istehsalat bölməsinin sex rəisi, təmir fondu və hazır məhsulu saxlama bölməsinin rəisi, mexanikləşdirilmiş tabor (SandCat) komandirinin müavini vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 27-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Cavadov**
**Namiq**
**Rəhbər oğlu**
(1973-2020)

7 noyabr 1973-cü ildə Əsgəran rayonunun Qırmızıkənd kəndində anadan olub.

1997-ci ildə Bakı Dövlət Universitetini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 26 sentyabr 1997-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

10 may 2003-cü ildən 15 noyabr 2004-cü ilədək Naxçıvan Muxtar Respublikasındakı hərbi hissələrdən birində motoatıcı taqım komandiri vəzifəsində xidmət etdikdən sonra ehtiyata buraxılıb.

Vətən müharibəsinin başlaması ilə əlaqədar olaraq yenidən ordu sıralarına çağırılıb və motoatıcı taqım komandiri vəzifəsində döyüşlərdə iştirak edib.

2020-ci il oktyabrın 25-də Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Cəbrayılov**
**Sübhan**
**Rahim oğlu**
(1983-2020)

23 oktyabr 1983-cü ildə Salyan rayonunun Marışlı kəndində anadan olub. 2001-ci ildə tam orta məktəbi bitirib.

5 aprel 2002-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2003-cü ildə hərbi hissənin nəzdində "Gizir hazırlığı kursu"nu bitirib.

"Kiçik gizir" hərbi rütbəsində xüsusi təyinatlı alayın xüsusi təyinatlı qrupunun kəşfiyyatçısı (sanitar), xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 18 may 2018-ci il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilib.

Vətən müharibəsində xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı kimi şəxsi şücaət və igidlik nümunələri göstərib.

2020-ci il oktyabrın 19-da Füzuli rayonu ərazisində gedən döyüşlər zamanı xüsusi əməliyyat tapşırıqlarını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə

görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona “Vətən Müharibəsi Qəhrəmanı” adı verilib.

“Vətən uğrunda” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif olunub.




*Çətindi Qarabağ, Xocalı dərdi,*
*Bağ saldıq, barını yağılar dərdi.*
*Cismim torpaqdadı, cismim yerdədi,*
*Ruhumla göylərə uçub gedirəm!*





## Cəbrayılov Elnur Tofiq oğlu (1981-2020)



26 aprel 1981-ci ildə Xanlar rayonunun Çaylı kəndində anadan olub.

2003-cü ildə Gəncə Dövlət Universitetini bitirib.

6 iyul 2003-cü ildən 10 aprel 2004-cü ilədək cəbhə bölgəsindəki hərbi hissədə istehkamçı kimi müddətli həqiqi hərbi xidmət keçib.

2004-cü ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin “Ehtiyat zabit hazırlığı kursu”nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 20 iyul 2004-cü il tarixli əmri ilə “leytenant”, Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 08 iyun 2015-ci il tarixli əmri ilə “baş leytenant” hərbi rütbəsi verilib.

Motoatıcı bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsində xidmət edib. “Kapitan” hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsinin ilk günündən Füzuli rayonunun yaşayış məntəqələrinin işğaldan azad olunması uğrunda döyüşlərdə xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib.

2020-ci il oktyabrın 13-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

18 yanvar 2021-ci ildə nəşi işğaldan azad edilən ərazidən çıxarılıb və Göygöl rayonunun Şəhidlər xiyabanında hərbi ənənələrə uyğun olaraq son mənzilə yola salınıb.

Sağlığında “Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)” yubiley medalı ilə təltif olunub.

Vətən müharibəsində xidmətlərinə görə mükafatlandırılması üçün aidiyyatı üzrə təqdimat göndərilib.



**Cəfərli Həmid Kərim oğlu**
(1990-2020)

1 avqust 1990-cı ildə Bakı şəhərində anadan olub. 2007-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2011-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2012-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Kəşfiyyat taqımının komandiri, kəşfiyyat bölüyünün komandiri, kəşfiyyat taboru komandirinin müavini, mexanikləşdirilmiş bölüyün (BTR-82A) komandiri vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

"Qoşun kəşfiyyatı taqım komandiri" və "Xüsusi təyinatlı kəşfiyyat bölük komandiri" kurslarında peşəkarlığını daha da artırıb.

Vətən müharibəsində iştirak edib və 2020-ci il oktyabrın 5-də Füzuli rayonu istiqamətində döyüşlər zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Cəfərli Orxan Etibar oğlu**
(1996-2020)

16 fevral 1996-cı ildə Daşkəsən rayonunda anadan olub. 2013-cü ildə tam orta məktəbi bitirib.

4 aprel 2014-cü ildən 3 oktyabr 2015-ci ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

Ehtiyata buraxıldıqdan sonra Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu hazırlığı" və "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 8 may 2020-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Hərbi hissənin dağ-atıcı taborunda dağ-atıcı manqanın komandiri, dağ-atıcı taqım komandirinin müavini vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 30-da Murovdağ zirvələrinin və Kəlbəcərin azad olunması uğrunda hərbi əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən şəxsi igidlik nümunələri göstərərək şəhidlik zirvəsinə ucalıb.

Nəşi dekabrın 9-da qarlı zirvələrdən çıxarılaraq dəfn edilib.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.



**Cəfərli Xəyal Xəlil oğlu**
(1992-2020)

9 iyul 1992-ci ildə Salyan rayonunun Qaraçala kəndində anadan olub. Tam orta məktəbi bitirib.

4 oktyabr 2010-cu ildən 10 aprel 2012-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

Ehtiyata buraxıldıqdan bir müddət sonra yenidən ordu sıralarına qayıdaraq müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi özüyeriyən artilleriya taqımının mexaniki-sürücü vəzifəsində xidmətini davam etdirib.

2019-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 18 may 2019-cu il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Vətən müharibəsinin ilk günündən kəşfiyyat manqasının komandiri vəzifəsində döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 22-də Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra), "Qubadlının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Cəfərov Elməddin Hümbət oğlu**
(1987-2020)

21 sentyabr 1987-ci ildə Abşeron rayonunun Şuraabad kəndində anadan olub. 2005-ci ildə tam orta məktəbi bitirib. 5 oktyabr 2005-ci ildən 16 mart 2007-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2011-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 27 avqust 2011-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Maddi-texniki təminat bölüyünün təsərrüfat taqımının anbar rəisi, motoatıcı bölüyün (Marauder) motoatıcı taqımının döyüş maşını komandiri – döyüş maşınları heyətinin rəisi, motoatıcı bölüyün (SandCat) baş texniki vəzifələrində xidmət edib.

44 günlük Vətən müharibəsində Cəbrayıl, Xocavənd və Füzuli rayonlarının yaşayış məntəqələrinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə fəal iştirak edib.

2020-ci il sentyabrın 28-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Cəfərov**
**Etibar**
**Teyyub oğlu**
(1983-2020)

2 aprel 1983-cü ildə Şəmkir rayonunda anadan olub. 2000-ci ildə tam orta məktəbi bitirib. 27 aprel 2001-ci ildən 24 sentyabr 2002-ci ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2003-cü ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müvafiq əmrinə əsasən "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandirinin müavini, məxfi hissə rəisi, haubitsalı özüyeriyən artilleriya divizionunun təminat taqımının texniki, maddi-texniki təminat bölüyünün təsərrüfat taqımının anbar rəisi, dağ-atıcı taqım komandirinin müavini vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 28-də dağ-atıcı briqadanın döyüş mövqeyində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Cəfərov**
**Mətləb**
**Məhəmməd oğlu**
(1977-2020)

19 noyabr 1977-ci ildə Sabirabad rayonunun Nərimankənd kəndində anadan olub.

1998-ci ildə Azərbaycan Dövlət Kənd Təsərrüfatı Akademiyasını bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 7 oktyabr 1999-cu il tarixli əmri ilə "leytenant", 27 dekabr 2001-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

3 oktyabr 2000-ci ildən 31 iyul 2002-ci ilədək Azərbaycan Ordusunda motoatıcı taqım komandiri vəzifəsində xidmət edib.

Ehtiyata buraxıldıqdan sonra Sabirabad Dövlət Aqrar İnkişaf Mərkəzində çalışıb.

Vətən müharibəsi başlanan ilk gün könüllü olaraq Səfərbərlik və Hərbi Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə gedərək döyüşlərə yollanıb.

Mexanikləşdirilmiş taborun (BTR, SandCat) mexanikləşdirilmiş taqımının komandiri vəzifəsində Füzuli və Cəbrayıl rayonlarının bir neçə yaşayış məntəqəsinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə fəal iştirak edib.

Noyabrın 2-də Qubadlı döyüşlərində ağır yaralanıb. Həkimlərin səylərinə baxmayaraq 18 gün sonra şəhidlik zirvəsinə ucalıb.

Hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azrəbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



**Cəfərov Ramiz Sübhan oğlu**
**(1974-2020)**

10 dekabr 1974-cü ildə Ukrayna Respublikasının Donetsk vilayətində anadan olub. 1981-1989-cu illərdə Sumqayıt şəhərində 11 saylı tam orta məktəbdə təhsil alıb.

1992-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi bitirib. 1 avqust 1992-ci ildə Bakı Ali Ümumqoşun Komandanlıq Məktəbinə (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) daxil olub. 18 noyabr 1992-ci ildən təhsilini Ryazan Ali Hava Desant Komandanlıq Məktəbində davam etdirib və oranı 1996-cı ildə bitirərək Azərbaycan Respublikası Müdafiə Nazirliyinin sərəncamına göndərilib.

Xüsusi təyinatlı taqım komandiri, xüsusi təyinatlı bölük komandiri, 3-cü şöbənin zabiti, hərbi hissənin qərargah rəisi - xüsusi təyinatlı təlim taboru komandirinin müavini, xüsusi təyinatlı tabor komandiri, briqada komandirinin maddi-texniki təminat üzrə müavini - maddi-texniki təminat bölməsinin rəisi, briqada komandirinin müavini vəzifələrində xidmət edib. "Polkovnik-leytenant" hərbi rütbəsinədək yüksəlib.

Britaniya Şurasının Bakıdakı Təlim Mərkəzində "İngilis dili", "Xüsusi təyinatlı kəşfiyyat taborunun komandiri" və başqa kurslarda iştirak edib.

Vətən müharibəsində döyüş əməliyyatlarının planlaşdırılması və uğurla nəticələnməsində xüsusi peşəkarlıq nümayiş etdirib, rəşadət və şücaət nümunələri göstərib.

2020-ci il noyabrın 9-da Şuşa şəhəri ərazisində gedən hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olub.





Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Respublikası Silahlı Qüvvələr Veteranı", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib. "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.



***Yağı qaçır silahını ataraq,***
***Hücumdadır Azərbaycan əsgəri.***
***Şəhid ruhu bizlərdən də qabaqda***
***İlk olaraq salamlayır Zəfəri!***



**Cəfərov**
**Ruslan**
**Gündüzoviç**
(1976-2020)

19 noyabr 1976-cı ildə Xankəndi şəhərində anadan olub. 1993-cü ildə tam orta məktəbi, 1997-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, avtomobil xidməti rəisinin köməkçisi, avtomobil xidməti rəisi, maddi təminat bölüyünün avtomobil taqımı komandiri – bölük komandirinin müavini, hərbi hissənin qərargah zabiti (texniki təminat üzrə cavabdeh), maddi-texniki təminat bölməsinin zabiti (avtomobil-texniki təminat xidmətinə cavabdeh), hərbi hissənin maddi-texniki təminat bölməsinin avtomobil xidməti rəisi vəzifələrində xidmət edib. "Mayor" hərbi rütbəsinədək yüksəlib.

6 fevral 2016-cı ildə ehtiyata buraxılıb.

Vətən müharibəsi başlanarkən yenidən orduya çağırılıb və motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini vəzifəsində döyüşlərdə iştirak edib.

2020-ci il oktyabrın 11-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918 - 2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, ölümündən sonra isə





Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



***Şəhid varsa, torpaq da var, Vətən də,***
***Şəhidlərə ölüm yoxdur Vətəndə!***



**Cəfərov Şahlar Fəzail oğlu**
(1975-2020)

5 iyun 1975-ci ildə Sabirabad rayonunda anadan olub. 1992-ci ildə tam orta məktəbi, 1997-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım, bölük komandiri, motoatıcı tabor komandirinin və motoatıcı taborun qərargah rəisinin maddi-texniki təminat üzrə müavini, motoatıcı taborun qərargah rəisinin tərbiyə işləri üzrə köməkçisi, motoatıcı taborun qərargah rəisi - tabor komandirinin müavini vəzifələrində xidmət edib. "Mayor" hərbi rütbəsinədək yüksəlib. 21 oktyabr 2014-cü ildə ehtiyata buraxılıb.

Vətən müharibəsində mexanikləşdirilmiş tabor (BMP-2) komandirinin müavini vəzifəsində döyüşlərdə iştirak edib.

2020-ci il oktyabrın 14-də Füzuli rayonu istiqamətində döyüş əməliyyatları zamanı şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008), ölümündən sonra isə Vətən müharibəsində hərbi əməliyyatlarda hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Cəfərov Zaur Hüseyn oğlu**
(1980-2020)

4 mart 1980-ci ildə Kəlbəcər rayonunda anadan olub. 1997-ci ildə tam orta məktəbi, 2001-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi), 2001-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu, 2016-cı ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasını bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Artilleriya divizionunun kəşfiyyat rəisi, artilleriya taqımının komandiri – batareyanın baş zabiti, artilleriya batareyasının komandiri, artilleriya divizionu komandirinin maddi-texniki təminat üzrə müavini, artilleriya divizionunun qərargah rəisinin maddi-texniki təminat üzrə köməkçisi, haubitsalı özüyeriyən artilleriya divizionunun qərargah rəisi - divizion komandirinin müavini, əməliyyat bölməsinin zabiti – bölmə rəisinin baş köməkçisi, artilleriya divizionunun komandirinin müavini - briqadanın atəş dəstək koordinatorunun müavini, haubitsalı artilleriya divizionu komandirinin müavini, haubitsalı artilleriya divizionunun komandiri, hərbi hissənin artilleriya rəisi – artilleriya bölməsinin rəisi, briqada komandirinin maddi-texniki təminat üzrə müavini – maddi-texniki təminat bölməsinin rəisi, hərbi hissənin qərargah rəisi – briqada komandirinin müavini vəzifələrində xidmət edib. "Polkovnik-leytenant" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində iştirak edib və 2020-ci il oktyabrın 9-da Tərtər

rayonunun Talış kəndi ərazisində döyüş mövqeyində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013), "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "İgidliyə görə", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.




***Kirsin zirvəsində qalib əsgərin möhtəşəm heykəli ucalacaqdır!***







**Cəmilli Şakir Arif oğlu**
(1992-2020)

4 dekabr 1992-ci ildə Füzuli rayonunun Araz Dilağarda kəndində anadan olub. 2010-cu ildə tam orta məktəbi bitirib. Müddətli həqiqi hərbi xidmət keçib. 2015-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu" və 2020-ci ildə "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 8 may 2020-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Silah təmiri manqasının, təmir bölüyünün xüsusi işlər taqımının komandiri vəzifələrində xidmət edib.

Ermənistanın təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də "Dəmir Yumruq" əməliyyatı ilə başlanan Vətən müharibəsinin ilk günündən döyüşlərə qatılıb.

Komandirlik etdiyi təmir bölüyünün şəxsi heyəti ilə birlikdə atıcı silahların və zirehli-tank texnikalarının ekstremal vəziyyətlərdə təmirini peşəkarlıqla təmin edib.

2020-ci il noyabrın 23-də Şuşa şəhəri istiqamətində xidməti vəzifələrini yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.



**Cəmilli Xəqani Mənsur oğlu**
(1995-2020)

22 fevral 1995-ci ildə Yevlax rayonunun Varvara kəndində anadan olub. 2 iyul 2013-cü ildən 1 yanvar 2015-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2016-cı ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı" kursunda təhsilini başa vurduqdan sonra hərbi hissənin motoatıcı taborunda motoatıcı taqım komandirinin müavini vəzifəsində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin əmri ilə "gizir" hərbi rütbəsi verilib.

44 gün davam edən Vətən müharibəsinin ilk günündən respublikamızın ərazi bütövlüyünün təmin olunması uğrunda hərbi əməliyyatlara qatılıb. Füzuli və Xocavənd döyüşlərində şəxsi şücaət və qəhrəmanlıq nümunələri göstərib.

2020-ci il oktyabrın 1-də Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Çobanov Orxan Zahid oğlu**
(1997-2020)

2 avqust 1997-ci ildə Xaçmaz rayonunun Pirqulu-oba kəndində anadan olub. 2015-ci ildə tam orta məktəbi bitirib. 6 oktyabr 2015-ci ildən 18 aprel 2017-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2018-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı" kursunu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müvafiq əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Hərbi hissənin motoatıcı taborunda (BMP-1) motoatıcı taqımın döyüş maşını komandiri – döyüş maşınları heyəti rəisinin müavini, mexanikləşdirilmiş taborun (BMP-1) mexanikləşdirilmiş taqımının döyüş maşınları heyətinin döyüş maşını komandiri vəzifələrində xidmət edib.

Azərbaycan Ordusunun düşmən üzərində tezliklə qələbə çalacağına böyük əminliklə hərbi əməliyyatlara qoşulub və döyüşlərin ilk günündə xidməti vəzifəsinin öhdəsindən layiqincə gəlib.

2020-ci il sentyabrın 28-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərəkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Dadaşov**
**Elvin**
**İmanqulu oğlu**
(1993-2020)

14 avqust 1993-cü ildə Neftçala rayonunda anadan olub. 2014-cü ildə tam orta məktəbi bitirib. 9 oktyabr 2011-ci ildən 12 mart 2013-cü ilədək Hərbi Dəniz Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçib.

2016-cı ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 5 iyul 2016-cı il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandirinin müavini, motoatıcı bölüyün (BMP-2) baş çavuşu, motoatıcı taqımın (BMP-2) döyüş maşını komandiri – döyüş maşınları heyəti rəisinin müavini vəzifələrində xidmət edib.

Füzuli, Qubadlı, Zəngilan və Xocavənd rayonları uğrunda döyüşlərdə fəal iştirak edib. Şuşa şəhəri istiqamətində iki dəfə yaralanmasına baxmayaraq yenidən döyüş meydanına qayıdıb və silahdaşları ilə birlikdə düşmənlərə qarşı amansızcasına vuruşub.

2020-ci il noyabrın 6-da Şuşa döyüşlərində şəhid olub və nəşi noyabrın 19-da çıxarılaraq böyük izdihamın iştirakı ilə hərbi ənənələrə uyğun olaraq son mənzilə yola salınıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Dadaşzadə**
**Mahir**
**Qərib oğlu**
(1993-2020)

1 sentyabr 1993-cü ildə Beyləqan rayonunun Allahyarlı kəndində anadan olub.

2010-cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2014-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və 2015-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin dağ-atıcı taborunda dağ-atıcı taqım komandiri, dağ-atıcı bölük komandiri vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 23 iyun 2017-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Vətən müharibəsinin ilk günündən döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 26-da Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhidlik zirvəsinə ucalıb.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif olunub.



**Dadaşzadə Yalçın İsmayıl oğlu**
(1993-2020)

10 iyun 1993-cü ildə Beyləqan rayonunun Örənqala kəndində anadan olub. 2011-ci ildə tam orta məktəbi bitirib. 4 iyul 2011-ci ildən 1 yanvar 2013-cü ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2014-cü ildə "MAHHXHQ və QHQ hazırlığı", 2018-ci ildə "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müvafiq əmrinə əsasən "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı manqa komandiri, kəşfiyyat manqasının kəşfiyyatçısı, kəşfiyyat bölüyünün kəşfiyyat-müşahidə taqımı komandirinin müavini, motoatıcı taborun (BTR-82A) motoatıcı taqımının döyüş maşını komandiri – döyüş maşınları heyətinin rəisi, mexanikləşdirilmiş taborun (BTR-82A) mexanikləşdirilmiş taqımının döyüş maşını komandiri - döyüş maşınları heyətinin rəisi vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 27-də Füzuli rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Dəmirov Siyahim Əlizamin oğlu**
(1990-2020)

13 sentyabr 1990-cı ildə Beyləqan rayonunun Əlinəzərli kəndində anadan olub. 2008-ci ildə tam orta məktəbi bitirib. 3 aprel 2009-cu ildən 1 oktyabr 2010-cu ilədək cəbhə bölgəsindəki hərbi hissələrdən birində müddətli həqiqi hərbi xidmət keçib.

2014-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "MAHHXHQ və QHQ hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 19 aprel 2019-cu il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Artilleriya divizionunda artilleriya taqımı komandirinin müavini – top komandiri, hərbi hissənin xüsusi təyinatlı dəstəsinin minaatan manqasının heyət nəfəri, xüsusi təyinatlı taqımın atəş dəstək manqasının minaatan qrupunun komandiri-tuşlayıcı vəzifələrində xidmət edib.

Vətən müharibəsində döyüşlərdə fərqlənərək düşmənə canlı qüvvə və hərbi texnika sarıdan xeyli itkilər verib.

2020-ci il oktyabrın 29-da Şuşa şəhəri istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə "Qarabağ" ordeni, "Vətən uğrunda" və Azərbaycan Respublikası Müdafiə nazirinin əmri ilə "Şücaətə görə" medalları ilə təltif olunub.



**Dövlətli**
**İskəndər**
**Vüqar oğlu**
(1992-2020)

24 sentyabr 1992-ci ildə Lerik rayonunun Soru kəndində anadan olub. 2013-cü ildə Bakı Dövlət Rabitə və Nəqliyyat Kollecini bitirib. 16 iyul 2013-cü ildən 1 yanvar 2015-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2016-cı ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 13 dekabr 2016-cı il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Kəşfiyyat manqa komandiri, kəşfiyyat taqımı komandirinin müavini, motoatıcı taqımın (Matador) döyüş maşını komandiri – döyüş maşınları heyətinin rəisi, motoatıcı taqım (BMP-3) komandirinin müavini vəzifələrində xidmət edib.

Vətən müharibəsində hərbi əməliyyatlarda fəal iştirak edib.

2020-ci il oktyabrın 30-da Hadrut qəsəbəsində döyüşlərdə şəxsi igidlik göstərərək şəhidlik zirvəsinə ucalıb.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Dünyamalıyev**
**Ceyhun**
**Zeynal oğlu**
(1996-2020)

15 oktyabr 1996-cı ildə Naxçıvan Muxtar Respublikasının Culfa şəhərində anadan olub. 2014-cü ildə Heydər Əliyev adına hərbi liseyi, 2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Rabitə bölüyünün (komanda məntəqəsinin rabitə qovşağı) radio taqımının komandiri, arxa komanda məntəqəsinin rabitə taqımının komandiri, motoatıcı taborun rabitə rəisi – rabitə taqımının komandiri, rabitə bölüyünün radio taqımının komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsində hərbi əməliyyatlarda fəal iştirak edərək qarşıya qoyulmuş döyüş tapşırıqlarının layiqincə yerinə yetirilməsinə nail olub.

2020-ci il noyabrın 9-da Şuşa şəhəri ərazisində gedən hərbi əməliyyatlar zamanı şəhidlik zirvəsinə ucalıb.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Dursunov**
**Fərid**
**Fazil oğlu**
(1986-2020)

26 iyul 1986-cı ildə Qax rayonunun Qarağan kəndində anadan olub. 2003-cü ildə tam orta məktəbi, 2008-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Avtomatik idarəetmə sistemləri taqımının mühəndis-proqramçısı, rabitə bölməsinin zabiti (AİS-nə nəzarət və informasiya əlaqəsinə cavabdeh), rabitə bölməsi rəisinin köməkçisi vəzifələrində xidmət edib.

"Kapitan" hərbi rütbəsinədək yüksəlib.

"Dəmir Yumruq" əməliyyatı ilə başlanan 44 günlük Vətən müharibəsində hərbi əməliyyatlarda fəal iştirak edib.

2020-ci il sentyabrın 29-da dağ-atıcı briqadanın döyüş mövqeyində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013), "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.





**Emnalıyev**
**Orxan**
**Eyvaz oğlu**
(1994-2020)



5 noyabr 1994-cü ildə Tovuz rayonunun Mülkülü kəndində anadan olub.

2013-cü ildə kənd tam orta məktəbini, 2017-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Tank taborunun tank bölüyünün tank taqımının komandiri vəzifəsində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 13 iyun 2020-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Vətən müharibəsinin ilk günlərindən düşmənə dağıdıcı zərbələr vurub. Qarşıya qoyulmuş döyüş tapşırıqlarını layiqincə yerinə yetirib.

2020-ci il oktyabrın 24-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı düşmən tərəfindən atılan mərmi partlayışı nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.



**Eyyubov Tural Yadulla oğlu**
(1992-2020)

2 iyul 1992-ci ildə Kürdəmir rayonunda anadan olub. 2013-cü ildə Bakı Dövlət Universitetini bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 2 aprel 2014-cü il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin motoatıcı taborunun motoatıcı taqımının komandiri vəzifəsində xidmət edib.

8 oktyabr 2015-ci ildə ehtiyata buraxılıb.

Ermənistanın təxribatlarına cavab olaraq işğal edilmiş tarixi torpaqlarımızın azad edilməsi və respublikamızın ərazi bütövlüyünün bərpa olunması naminə Azərbaycan Ordusunun başladığı İkinci Vətən müharibəsinin ilk günündə qismən səfərbərliklə yenidən hərbi xidmətə çağırılıb və motoatıcı taborun motoatıcı taqımının komandiri vəzifəsində döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 24-də Füzuli rayonu istiqamətində xidməti vəzifələrini yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Əbilov Kamal Vidadi oğlu**
(1996-2020)

17 may 1996-cı ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Oğlanqala kəndində anadan olub. 2014-cü ildə Heydər Əliyev adına hərbi liseyi, 2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, həmçinin Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin dağ-atıcı taborunda dağ-atıcı taqımının komandiri vəzifəsində xidmət edib.

Ermənistanın təxribatlarına cavab olaraq "Dəmir Yumruq" əməliyyatı ilə başlanan Vətən müharibəsinin ilk günündən Murovdağ uğrunda gedən döyüşlərdə fəal iştirak edib. Mərdlik və igidlik nümunələri göstərib.

2020-ci il sentyabrın 30-da düşmənlə təmas xəttində, "Koroğlu-1" döyüş mövqeyində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən atılan mərminin partlaması nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Əfəndiyev**
**Adil**
**Qədir oğlu**
(1995-2020)

12 avqust 1995-ci ildə Qazax rayonunda anadan olub. 2012-ci ildə Qazax şəhər M.Hüseyn adına internat məktəbini, 2018-ci ildə Azərbaycan Tibb Universiteti Hərbi Tibb Fakültəsinin "Hərbi həkim ixtisası hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən "tibb xidməti leytenantı" hərbi rütbəsi verilib.

Hərbi hissənin motoatıcı taborunun qərargah bölüyünün tibb məntəqəsinin rəisi – həkim, qərargah və təchizat bölüyünün tibb məntəqəsinin rəisi vəzifəsində xidmət edib.

Vətən müharibəsinin ilk günündən başlayaraq yaralılara ilk yardım göstərilməsi, onların təxliyə edilməsində fəallıq göstərib.

2020-ci il oktyabrın 22-də respublikamızın ərazi bütövlüyünün bərpası uğrunda gedən döyüşlərdə Xocavənd rayonunun Tuğ yaşayış məntəqəsinin şimal-qərb istiqamətində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən atılmış mərminin partlaması nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Hərbi xidmətlərə görə" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Əhədov**
**Tural**
**Rahil oğlu**
(1993-2020)

22 noyabr 1993-cü ildə Lerik rayonunun Çökərə kəndində anadan olub. 2012-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2016-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun baş kəşfiyyatçısı, xüsusi əməliyyat qrupu komandirinin müavini vəzifələrində xidmət edib.

Vətən müharibəsində Cəbrayıldan başlayaraq Şuşanın azad edilməsinə qədər şərəfli döyüş yolu keçib. Üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 19 oktyabr 2019-cu il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

2020-ci il noyabrın 8-də Şuşa şəhəri ərazisində gedən hərbi əməliyyatlarda xidməti vəzifələrinin icrası zamanı şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Əhədzadə**
**İlkin**
**Qələmşah oğlu**
(1985-2020)

26 iyun 1985-ci ildə Bakı şəhərində anadan olub. 2003-cü ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2007-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, həmlə bölüyünün komandiri, dağ-atıcı taborun dağ-atıcı bölüyünün komandiri, dağ-atıcı taborun komandirinin maddi-texniki təminat üzrə müavini vəzifələrində xidmət edib. "Mayor" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 1-də düşmənlə təmas xəttində hərbi əməliyyatlar nəticəsində xidməti vəzifələrini yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013), "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.





**Əhmədli**
**Şahid**
**Gülməmməd oğlu**
(1992-2020)



17 oktyabr 1992-ci ildə Saatlı rayonunda anadan olub. 2010-cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2014-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, mexanikləşdirilmiş tabor (BMP-3) komandirinin maddi-texniki təminat üzrə müavini vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 iyul 2017-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

2020-ci il oktyabrın 11-də Tərtər rayonunun Talış və Suqovuşan kəndləri istiqamətində xidməti vəzifələrini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.



**Əhmədov**
**Emil**
**Bahadur oğlu**
(1983-2020)



26 noyabr 1983-cü ildə Bakı şəhərində anadan olub. 2001-ci ildə 11 nömrəli Bakı Peşə Liseyini bitirib. 10 yanvar 2002-ci ildən 21 iyun 2003-cü ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2007-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu hazırlığı", 2011-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı" kurslarını bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 7 mart 2011-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Hərbi hissənin tank taborunun maddi-texniki təminat taqımının təmir və texniki qulluq manqasının mexanik-sürücüsü, tank taborunun tank bölüyünün tank komandiri, tank taborunun təlim- döyüş maşınları bölüyünün tank taqımının tank komandiri – sürücülük üzrə təlimatçı, tank bölüyünün tank komandiri, tank taqımının tank komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsində igid tankçı kimi tanınıb. Düşmənə hərbi texnika və canlı qüvvə sarıdan xeyli itkilər verib.

2020-ci il oktyabrın 31-də Xocavənd rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013), "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



***Nərəmlə dağları oyadacağam,***
***Düşmən yuvasına od vuracağam,***
***Qələbə günündə qayıdacağam,***
***Ağlama, qəlblərə köçüb gedirəm,***
***Şəhadət şərbətin içib gedirəm!***



**Əhmədov**
**Vidadi**
**Murad oğlu**
(1979-2020)

12 iyul 1979-cu ildə Salyan rayonunda anadan olub. 1996-cı ildə tam orta məktəbi, 2000-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 7 mart 2011-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, sülhməramlı qüvvələr taborunun sülhməramlı taqım komandiri, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin gizir hazırlığı bölüyünün taqım komandiri, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursant taqımının komandiri – müəllim köməkçisi, cəbhə bölgəsindəki hərbi hissədə motoatıcı tabor komandirinin şəxsi heyətlə iş üzrə müavini, şəxsi heyətlə iş üzrə bölmənin psixoloqu-bölmə rəisinin baş köməkçisi vəzifələrində xidmət edib.

"Mayor" hərbi rütbəsinədək yüksəlib.

2016-cı il dekabrın 16-da ehtiyata buraxılıb.

Vətən müharibəsinin başlanması ilə əlaqədar qismən səfərbərlik üzrə yenidən ordu sıralarına çağırılıb və motoatıcı tabor komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsində döyüşlərdə iştirak edib.

2020-ci il oktyabrın 8-də Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013), ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.







***Nəğmə ollam dodaqlarda,***
***Bülbül ollam budaqlarda,***
***Lalə ollam bu dağlarda***
***Ağlama sonam, ağlama!***



**Əhmədov**
**Yasən**
**Yelmar oğlu**
(1974-2020)

16 sentyabr 1974-cü ildə Ağdam rayonunun Kosalı kəndində anadan olub. 1991-ci ildə tam orta məktəbi, 1998-ci ildə Azərbaycan Dövlət Kənd Təsərrüfatı Akademiyasını bitirib.

7 aprel 1993-cü ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 29 noyabr 1994-cü il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Bölmə komandiri, taqım komandirinin müavini, motoatıcı bölüyün baş çavuşu, inzibati təsərrüfat hissəsinin rəisi, kadrlar və nizami bölmənin məsul icraçısı vəzifələrində xidmət edib.

25 dekabr 2001-ci ildə xidmət müddəti başa çatdığına görə ehtiyata buraxılıb.

23 iyun 2007-ci ildə yenidən ordu sıralarına qayıdaraq motoatıcı bölüyün baş çavuşu, hərbi hissənin şəxsi heyət bölməsi rəisinin köməkçisi, kargüzarlığın məsul icraçısı, korpus komandirinin referenti, kəşfiyyat bölüyünün baş texniki, mühəndis-istehkam bölüyünün baş texniki vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 18 oktyabr 2016-ci il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilmişdi.

2020-ci il oktyabrın 11-də Talış kəndi istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən ağır yaralanıb və oktyabrın 22-də Silahlı Qüvvələrin Baş Klinik Hospitalında şəhid olub.





Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013), "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.




*Şəlalələr laylam mənim,*
*Göy yaylaqlar yaylam mənim.*
*Çəpərlərdən boylan məni*
*Ağlama anam, ağlama!*
*Ağlama sonam, ağlama!*



**Əhmədzadə**
**Famil**
**Ağaəhməd oğlu**
(1975-2020)

23 sentyabr 1975-ci ildə Bakı şəhərində anadan olub. 1997-ci ildə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

8 yanvar 1999-cu ildə motoatıcı bölük komandirinin tərbiyəvi işlər üzrə müavini vəzifəsində müddətli həqiqi hərbi xidmətə başlayıb.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 mart 2000-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

29 sentyabr 2000-ci ildə xidmət müddəti başa çatdığına görə ehtiyata buraxılıb.

Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq qismən səfərbərlik üzrə yenidən ordu sıralarına çağırılıb və motoatıcı taqım komandiri, mexanikləşdirilmiş taborun (BTR-82A) mexanikləşdirilmiş taqımının komandiri vəzifələrində döyüşlərdə iştirak edib.

2020-ci il oktyabrın 14-də Suqovuşan kəndi istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) və "Döyüşdə fərqlənməyə görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Əjdərov**
**Rəhman**
**Rasim oğlu**
(1997-2020)

14 may 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Kəlbə Oruc Dizə kəndində anadan olub. 2014-cu ildə Heydər Əliyev adına hərbi liseyi, 2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin maneə ləğvetmə bölüyünün mühəndis-istehkam taqımının və bölüyünün komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən döyüşlərdə fəal iştirak edib. Vəzifələrinin öhdəsindən layiqincə gəlib, əsl qəhrəmanlıq nümunələri göstərib.

2020-ci il noyabrın 1-də Laçin rayonunun Sofiyan kəndi istiqamətində mühəndis-təminatı tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" (ölümündən sonra) ordeni və "Vətən uğrunda" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" (ölümündən sonra), "Laçının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif edilib.



**Əkbərov Əmrah Şahid oğlu**
(1998-2020)

21 fevral 1998-ci ildə Lerik rayonunun Livədirqə kəndində anadan olub. 2016-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2020-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbininin Quru Qoşunları fakültəsini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2020-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Mexanikləşdirilmiş taborun (SandCat) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının komandiri, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun baş kəşfiyyatçısı vəzifələrində xidmət edib.

Respublikamızın ərazi bütövlüyünün təmin olunması məqsədilə 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsində xüsusi əməliyyat qrupu ilə birlikdə bir çox kəşfiyyat tapşırıqlarını uğurla yerinə yetirib.

2020-ci il oktyabrın 11-də Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.







**Əkbərov Orxan Nadir oğlu**
(1982-2020)

12 dekabr 1982-ci ildə Saatlı rayonunda anadan olub. 1999-cu ildə tam orta məktəbi, 2004-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Kəşfiyyat taqım və bölüyünün komandiri, kəşfiyyat bölməsinin rəisi - qərargah rəisinin kəşfiyyat üzrə köməkçisi, hərbi hissənin kəşfiyyat rəisi – kəşfiyyat bölməsinin rəisi, kəşfiyyat taborunun komandiri vəzifələrində xidmət edib. "Polkovnik-leytenant" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 2-də Füzuli rayonu istiqamətində xidməti vəzifələrini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib, "Vətən uğrunda" "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Ələkbərov**
**Allahverdi**
**Məzahir oğlu**
(1987-2020)

15 fevral 1987-ci ildə Bakı şəhərində anadan olub. 2005-ci ildə tam orta məktəbi, 2017-ci ildə "MAHHXHQ hazırlığı kursu"nu, 2020-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 8 may 2020-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Kəşfiyyat bölüyünün kəşfiyyat taqımının kəşfiyyat manqasının kəşfiyyatçısı, kəşfiyyat manqasının kəşfiyyatçısı – qumbaraatan köməkçisi, motoatıcı taqım komandirinin müavini, kəşfiyyat manqasının komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən döyüşlərdə fəal iştirak edib, kəşfiyyat manqasının komandiri vəzifəsində ən çətin tapşırıqları uğurla yerinə yetirib.

2020-ci il noyabrın 10-da Qubadlı rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən ağır yaralanıb və Mingəçevir şəhər Mərkəzi xəstəxanasında həkimlərin səylərinə baxmayaraq şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Ələkbərov**
**Bağır**
**Əsəd oğlu**
(1995-2020)

10 fevral 1995-ci ildə Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərində anadan olub.

2012-ci ildə tam orta məktəbi, 2014-cü ildə hərbi hissə nəzdində "Gizir hazırlığı kursu"nu bitirib.

Əlahiddə Ümumqoşun Ordu Komandanının 16 avqust 2014-cü il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Kəşfiyyatçı-snayper, snayper qrupunun komandiri, xüsusi silah taqımının snayper manqasının komandiri – snayper vəzifələrində xidmət edib.

Ermənistanın təxribatlarına cavab olaraq "Dəmir Yumruq" əməliyyatı ilə başlanan 44 günlük Vətən müharibəsində işğal olunmuş tarixi torpaqlarımızın azad edilməsi və respublikamızın ərazi bütövlüyünün təmin olunması uğrunda döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 14-də Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması uğrunda hərbi əməliyyatlar zamanı Hadrut qəsəbəsi ərazisində döyüş tapşırığını yerinə yetirərkən igidlik nümunələri göstərərək şəhidlik zirvəsinə ucalıb.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.



**Ələkbərov Əlisahib Selman oğlu**
(1994-2020)

15 yanvar 1994-cü ildə Salyan rayonunun Piratman-Gəncəli kəndində anadan olub.

2012-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrlərinə əsasən "leytenant" və "baş leytenant" hərbi rütbələri verilib.

Kəşfiyyat bölüyünün kəşfiyyat taqımının komandiri, dağ-atıcı taborun dağ-atıcı bölüyünün dağ-atıcı taqımının komandiri, tank əleyhinə bölüyün tank əleyhinə taqımının komandiri, dağ-atıcı taqımın komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib. Komandiri olduğu dağ-atıcı taqımı ilə birlikdə qarşıya qoyulmuş kəşfiyyat tapşırıqlarını uğurla yerinə yetirib.

2020-ci il sentyabrın 29-da döyüş mövqeyində hərbi əməliyyatlar zamanı düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə "Qarabağ" ordeni, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Ələkbərov Fərid Tahir oğlu**
(1980-2020)

18 iyul 1980-cı ildə Bakı şəhərində anadan olub. 2000-ci ildə Türkiyə Respublikası Kuleli hərbi liseyini, 2004-cü ildə Türkiyə Respublikası Quru Qoşunları Hərbi Məktəbini bitirib.

Haubitsalı artilleriya taqımı komandiri, artilleriya təlim taqımı komandiri, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursant taqımının komandiri - müəllim köməkçisi, "Raket və Artilleriya Qoşunları" kafedrasının "Raket və artilleriya qoşunlarının döyüşdə tətbiqi" silsiləsinin müəllimi, Quru Qoşunları fakültəsinin "Raket və Artilleriya Qoşunları" kafedrasının "Atış və Atəşin idarə edilməsi" silsiləsinin baş müəllimi vəzifələrində xidmət edib.

"Mayor" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsi döyüşlərində motoatıcı taborun minaatan batareyasının komandiri kimi vəzifələrinin öhdəsindən layiqincə gəlib.

2020-ci il noyabrın 9-da Şuşa şəhəri istiqamətində gedən hərbi əməliyyatları zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan artilleriya atəşi nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə

yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.



*Ətəyi göy yaylaqlı, zirvəsi qarlı dağlar,*
*Hasar-hasar, vüqarlı, axar-baxarlı dağlar,*
*Ay səngərli, qalalı, polad arxalı dağlar,*
*Qartal olub zirvənə uçanlarım var mənim,*
*Vətən deyib canından keçənlərim var mənim!*

*Qələbə qandan keçir, möhkəm dayan, Qarabağ,*
*Lalələrdən don geyin, lala boyan, Qarabağ,*
*Köçən ellər qayıdır, oyan, oyan, Qarabağ,*
*Yurd yerinə ilk cığır açanlarım var mənim,*
*Vətən deyib canından keçənlərim var mənim!*







**Ələkbərov Naiq Faiq oğlu**
(1994-2020)

1 avqust 1994-cü ildə Şamaxı rayonunda anadan olub. 2011-ci ildə tam orta məktəbi, 2014-cü ildə Azərbaycan Dövlət Tibb Universitetinin Hərbi Tibb Fakültəsinin Hərbi Tibb Məktəbini bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2014-cü il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taborun tibb məntəqəsinin feldşeri, artilleriya divizionunun tibb məntəqəsinin rəisi – feldşer, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın "Dəmir Yumruq" əməliyyatı ilə başladığı İkinci Qarabağ müharibəsində –Vətən müharibəsində Füzuli rayonunun yaşayış məntəqələrinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı, cəsur döyüşçü kimi tanınıb.

2020-ci il oktyabrın 9-da Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən igidlik göstərərək şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.



**Ələkbərov**
**Niyaməddin**
**İsrafil oğlu**
(1989-2020)

12 iyul 1989-cu ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Sədərək qəsəbəsində anadan olub. 2007-ci ildə tam orta məktəbi bitirib. 21 oktyabr 2011-ci ildən 12 mart 2013-cü ilədək müddətli həqiqi hərbi xidmət keçib.

Ehtiyata buraxıldıqdan sonra Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "MAHHXHQ hazırlığı", 2019-cu ildə "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 18 may 2019-cü il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Cəbhə bölgəsindəki hərbi hissənin motoatıcı taborunun motoatıcı manqasının komandiri, kəşfiyyat bölüyünün kəşfiyyat taqımının kəşfiyyat manqasının kəşfiyyatçısı-istehkamçı, kəşfiyyat manqasının komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsində komandirlik etdiyi kəşfiyyat manqası ilə birlikdə ilk döyüşlərdə xüsusi ilə fərqlənib, mühüm kəşfiyyat tapşırıqlarını uğurla yerinə yetirib.

2020-ci il oktyabrın 2-də Füzuli rayonu ərazisində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla





yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.



***Borcluyuq bu gün üçün, günəşli səhər üçün***
***Ürəklərdə bir heykəl olan qəhrəmanlara!***
***Borcluyuq qanadlanan, gülən nəğmələr üçün***
***Ölən qəhrəmanlara, qalan qəhrəmanlara!***



**Ələkbərov Röyal Fərmail oğlu**
(1994-2020)

23 iyun 1994-cü ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda anadan olub. 2011-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlimm və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin dağ-atıcı taborunun dağ-atıcı taqımının komandiri, motoatıcı taborun motoatıcı taqımının komandiri, motoatıcı bölüyün komandiri vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 iyun 2018-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

2020-ci il oktyabrın 16-da Cəbrayıl rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən atılan intensiv artilleriya atəşi nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalları, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.







**Ələkbərov Telman İqdam oğlu**
(1991-2020)

30 mart 1991-ci ildə Bakı şəhərində anadan olub. 2018-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını, 2019-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 29 yanvar 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun (BMP-1) motoatıcı taqımının komandiri vəzifəsində xidmət edib.

Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın işğal altında olan yaşayış məntəqələrinin azad edilməsi və respublikanın ərazi bütövlüyünün bərpa olunması naminə "Dəmir Yumruq" əməliyyatı ilə başladığı Vətən müharibəsində komandirlik etdiyi taqımın şəxsi heyəti ilə birlikdə düşmənə texnika və canlı qüvvə sarıdan xeyli itki verib. Komandanlığın əmr və göstərişlərini layiqincə yerinə yetirib. Döyüşlərdə fərqlənib.

2020-ci il oktyabrın 7-də Ağdam rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.



**Ələsgərli**
**İlkin**
**Bəkir oğlu**
(1992-2020)

14 oktyabr 1992-ci ildə Şəmkir rayonunun Keçili kəndində anadan olub. 2010-cu ildə tam orta məktəbi bitirib. 19 oktyabr 2010-cu ildən 31 mart 2012-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

Ehtiyata buraxıldıqdan sonra, 2013-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "MAHHXHQ hazırlığı", 2020-ci ildə "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 8 may 2020-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Hərbi hissənin qərargah və təchizat bölüklərində maddi-texniki təminat taqımı yeməkxanasının aşpazı, baş aşpaz, taborun maddi-texniki təminat taqımının təsərrüfat manqasının baş aşpazı, motoatıcı taborun tank əleyhinə taqımının qumbaraatan manqasının sürücüsü, motoatıcı taborun (BMP-1) maddi-texniki təminat taqımı komandirinin müavini-avtomobil manqa komandiri, mexanikləşdirilmiş taborun (BMP-1) maddi-texniki təminat taqımının avtomobil manqasının komandiri, mexanikləşdirilmiş (BMP-2) manqanın komandiri, kəşfiyyat manqasının komandiri vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 27-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.








*Şəhidlik zirvəsin fəth edən qardaş,*
*Qisasın yağıdan alındı bu gün.*
*Qəzəbim süngü tək düşmən bağrına,*
*Bayrağım Şuşaya sancıldı bu gün!*



**Ələsgərli**
**Zaur**
**Mübariz oğlu**
(1995-2020)

5 mart 1995-ci ildə Sumqayıt şəhərində anadan olub. 2012-ci ildə tam orta məktəbi bitirib. 7 aprel 2013-cü ildən 20 sentyabr 2014-cü ilədək müddətli həqiqi hərbi xidmət keçib.

Ehtiyata buraxıldıqdan sonra, 2016-cı ilin 18 iyunundan Azərbaycan Ordusunda müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi mühafizə taqımının manqa komandiri vəzifəsində xidmətini davam etdirib.

2018-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müvafiq əmrinə əsasən "gizir" hərbi rütbəsi verilib.

Hərbi Dəniz Qüvvələrinin hərbi hissəsində xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı qrupunun dalğıcı - kəşfiyyatçısı vəzifəsində xidmət edib.

Vətən müharibəsində dəniz piyadaları xüsusi təyinatlılarının tərkibində döyüşlərdə fəal iştirak edərək bir çox mühüm döyüş tapşırıqlarının yerinə yetirilməsində xüsusi ilə fərqlənib.

2020-ci il oktyabrın 31-də Xocavənd rayonu ərazisində növbəti döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə ye-





tirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə "Qarabağ" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.



***Şəhidlər qanına boyanan bayraq***
***Əsrlər ötsə də, enməyəcəkdir.***
***Oğullar yataqda, qızlar duvaqda***
***Əcəl kəfənini geyməyəcəkdir.***

***Nəbi Bozatını yəhərləyəcək,***
***Düşmən al qanına boyanacaqdır.***
***Aynalı səsindən dağ diksinəcək,***
***Daşlaşmış igidlər oyanacaqdır!***



**Ələsov**
**Əli**
**Aydın oğlu**
(1995-2020)

8 yanvar 1995-ci ildə Goranboy rayonunda anadan olub. 2018-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetini, 2019-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 29 yanvar 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun (BMP-3) motoatıcı bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsində xidmət edib.

Vətən müharibəsinin ilk günündən döyüşlərə atılıb. Şəxsi heyətin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının, vətənpərvərlik hissinin və qələbə əzminin daha da yüksəldilməsi üçün səylərini əsirgəməyib.

Cəbhənin Tərtər və Ağdərə rayonları istiqamətində Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlər zamanı mexanikləşdirilmiş bölüyün şəxsi heyəti ilə birlikdə hərbi əməliyyatlarda fəal iştirak edib.

2020-ci il oktyabrın 8-də Tərtər və Ağdərə rayonları istiqamətində xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Nəşi 2020-ci il dekabrın 29-da işğaldan azad edilən mövqelərdən çıxarılaraq böyük izdihamın iştirakı ilə hərbi ənənələrə uyğun olaraq son mənzilə yola salınıb.

Vətən müharibəsində xidmətlərinə görə mükafatlandırılması üçün aidiyyatı üzrə təqdimat göndərilib.







**Əlimov**
**Elvin**
**Nəsrəddin oğlu**
(1995-2020)

8 iyun 1995-ci ildə Bakı şəhərində anadan olub. 2013-cü ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2017-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Tank bölüyünün tank taqımının komandiri vəzifəsində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 13 iyun 2020-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Vətən müharibəsində Cəbrayıl və Füzuli rayonlarının bir neçə yaşayış məntəqəsinin düşmən işğalından azad olunmasında fəal iştirak edib.

2020-ci il sentyabrın 28-də Nuzgar kəndi ərazisində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Əlisoltanov Vahid Tahir oğlu**
(1994-2020)

10 noyabr 1994-cü ildə Balakən rayonunun Gərəkli kəndində anadan olub. 15 yanvar 2013-cü ildən 4 iyul 2014-cü ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2016-cı ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 4 oktyabr 2016-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı manqanın (BTR-82A) komandiri – döyüş maşını komandiri, motoatıcı taborun (Marauder) motoatıcı taqımının döyüş maşını komandiri, mexanikləşdirilmiş taqımın (BTR-82A) döyüş maşınları heyətinin döyüş maşını komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən döyüşlərdə fərqlənib.

2020-ci il oktyabrın 19-da Füzuli rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.







**Əliyev Anar Vaqif oğlu**
(1980-2020)

28 avqust 1980-ci ildə Kəlbəcər rayonunda anadan olub. 1997-ci ildə Cəmşid Naxçıvanski adına İbtidai Hərbi Məktəbi (indiki Cəmşid Naxçıvanski adına hərbi lisey), 2001-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı hərbi hissədə xüsusi təyinatlı taqım komandiri, xüsusi təyinatlı qrup komandiri, xüsusi təyinatlı bölük komandiri, xüsusi təyinatlı taborun (daimi yerləşmə məntəqəsində) xüsusi təyinatlı bölüyünün komandiri, xüsusi təyinatlı dəstə komandirinin müavini, xüsusi təyinatlı dəstə komandiri, tabor komandirinin birinci müavini – qərargah rəisi, tabor komandiri, briqada komandirinin müavini, briqada komandiri vəzifələrində xidmət edib.

"Polkovnik-leytenant" hərbi rütbəsinədək yüksəlib.

2014-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasını bitirib.

Vətən müharibəsində komandiri olduğu hərbi hissənin şəxsi heyəti ilə birlikdə Azərbaycan hərb tarixinə parlaq səhifələr yazıb.

2020-ci il oktyabrın 23-də Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi

(1991-2001)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Vətən uğrunda", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Hərbi xidmətdə fərqlənməyə görə" 2-ci dərəcəli, "Şücaətə görə", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib, "Vətən uğrunda" medalı ilə təltif olunub.



***Şəhidlik əbədiyyət zirvəsidir!***





**Əliyev Asiman Vaqif oğlu**
(1987-2020)



1 fevral 1987-ci ildə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Düylün kəndində anadan olub. 2004-cü ildə Heydər Əliyev adına hərbi liseyi, 2008-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, mexanikləşdirilmiş taqımın komandiri, mexanikləşdirilmiş bölüyün komandiri, mexanikləşdirilmiş taborun qərargah bölüyünün komandiri, hərbi hissənin qərargah bölüyünün komandiri, hərbi hissənin qərargah rəisi-təlim mərkəzi rəisinin müavini, motoatıcı bölüyün komandiri, motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Snayper hazırlığı kursu" rəisinin müavini – baş təlimatçı, "Ehtiyat zabit hazırlığı kursu"nun bölük komandiri, xidmət və təminat bölüyünün (daimi yerləşmə məntəqəsinin) komandiri, Cəmşid Naxçıvanski hərbi liseyin tədris kurslarının kurs rəisi vəzifələrində xidmət edib. "Mayor" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində mexanikləşdirilmiş taborun (BTR-82A) komandiri kimi xidmətini davam etdirərək döyüşlərdə fəal iştirak edib.

2020-ci il noyabrın 7-də Xocavənd rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



***Ana torpaq candan əziz,***
***Candan keçdi ər oğullar.***
***Torpaq qanla suvarıldı,***
***Vətən oldu ana torpaq,***
***Qandan keçdi ər oğullar.***





**Əliyev**
**Atəm**
**Vaqif oğlu**
(1982-2020)



16 dekabr 1982-ci ildə Ağdaş rayonunun Abad kəndində anadan olub. 2000-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2004-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 iyun 2004-cü il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Naxçıvan Muxtar Respublikasında Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrində motoatıcı taborun motoatıcı bölüyünün motoatıcı taqım komandiri, mexanikləşdirilmiş taborun motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, motoatıcı taborun qərargah rəisinin maddi-texniki təminat üzrə köməkçisi, motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini, motoatıcı tabor komandirinin birinci müavini – qərargah rəisi, motoatıcı taborun (BMP-2) qərargah rəisi – tabor komandirinin müavini, motoatıcı tabor komandiri vəzifələrində xidmət edib. "Polkovnik-leytenant" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsinin ilk günlərindən böyük qələbə əzmi ilə respublikamızın ərazi bütövlüyünün bərpa olunması, işğal altındakı torpaqlarımızın azad edilməsi uğrunda döyüşlərə qatılıb.

2020-ci il oktyabrın 2-də Göygöl rayonunun Toğanalı kəndi istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Nəşi 2021-ci il yanvarın 23-də Murovdağın qarlı aşırımlarından

çıxarılaraq böyük izdihamın iştirakı ilə hərbi ənənələrə uyğun olaraq son mənzilə yola salınıb.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalları ilə təltif olunub.

Vətən müharibəsində xidmətlərinə görə mükafatlandırılması üçün aidiyyatı üzrə təqdimat göndərilib.



***Rəşadətli Azərbaycan Ordusunun qalib əsgərləri artıq Murovdağ aşırımları ilə Kəlbəcərə doğru irəliləyirlər. Ruhunuz şad olsun, Murovdağ şəhidləri!***





**Əliyev Dəyanət Ələsgər oğlu**
(1982-2020)



18 sentyabr 1982-ci ildə Ağcabədi rayonunun Hacıbədəlli kəndində anadan olub. 1999-cu ildə tam orta məktəbi bitirib. 16 aprel 2007-ci ildən 13 sentyabr 2008-ci ilədək Murovdağ istiqamətində müddətli həqiqi hərbi xidmət keçib.

Ehtiyata buraxıldıqdan bir il sonra, 2010-cu ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "MAHHXHQ hazırlığı kursu"na daxil olub və 2010-cu ildə oranı müvəffəqiyyətlə bitirib.

Tank taqımının mexanik-sürücüsü, tank bölüyünün baş mexanik-sürücüsü vəzifələrində xidmət edib.

2015-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib və "gizir" hərbi rütbəsi verilib.

Ermənistanın təxribatlarına cavab olaraq respublikamızın ərazi bütövlüyünü bərpa etmək uğrunda Azərbaycanın başladığı Vətən müharibəsində tank komandiri kimi döyüşlərdə fəal iştirak edib. Xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib.

2020-ci il oktyabrın 2-də Füzuli rayonunun Qaraxanbəyli kəndi istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında

iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



***Elə oğullar var bizim Orduda***
***Atından endirir şər qüvvələri.***
***Düşmənin üstünə atəş yağdırır***
***Hünər qüvvələri, ər qüvvələri.***





**Əliyev**
**Elçin**
**Rasim oğlu**
(1994-2020)



4 mart 1994-cü ildə Mingəçevir şəhərində anadan olub. 2014-cü ildə tam orta məktəbi bitirib. 10 aprel 2012-ci ildən 10 oktyabr 2013-cü ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2015-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müvafiq əmrinə əsasən "gizir" hərbi rütbəsi verilib.

Hərbi hissənin mexanikləşdirilmiş taborunun (BMP-1) mexanikləşdirilmiş taqımının döyüş maşını komandiri – mexanikləşdirilmiş manqanın komandiri, motoatıcı taborun (BMP-1) motoatıcı taqımının döyüş maşını komandiri – döyüş maşınları heyətinin rəisi vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündə döyüşlərdə fəal iştirak edib.

2020-ci il sentyabrın 27-də Tərtər rayonunun Talış və Suqovuşan kəndləri istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmənin artilleriya atəşi nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



**Əliyev**
**Əmirulla**
**Vahid oğlu**
(1996-2020)

7 oktyabr 1996-cı ildə Şamaxı rayonunun Mirikənd kəndində anadan olub. 2014-cü ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Silahlı Qüvvələrin Hərbi Akademiyasının "Xarici dil və tərəfdaşlıq mərkəzi"ndə keçirilən İntensiv ingilis dili kurslarında iştirak edib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyul 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin motoatıcı taborunun (BMP-2) motoatıcı taqımının komandiri, mexanikləşdirilmiş (BMP-2) taqımın komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsində şəxsi rəşadət və şücaət nümunələri göstərib.

2020-ci il sentyabrın 20-də Tərtər və Ağdərə rayonları istiqamətində hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" (ölümündən sonra) ordeni və "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif edilib.





**Əliyev**
**Ənvər**
**Nizami oğlu**
(1997-2020)



4 iyun 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Axaməd kəndində anadan olub.

2015-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2020-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2020-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin mühəndis-yol bölüyünün körpüquranlar taqımının komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsinin ilk günündən Tərtər və Ağdərə rayonları istiqamətində komandiri olduğu körpüquranlar taqımının şəxsi heyəti ilə birlikdə xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib. Mühəndis-istehkam işinin təşkilində, yol açılmasında fəal iştirak edib.

2020-ci il oktyabrın 15-də Tərtər və Talış kəndi ərazisində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.



**Əliyev**
**Fərmin**
**Fərman oğlu**
(1996-2020)

20 mart 1996-cı ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Şıxmahmud kəndində anadan olub.

2014-cü ildə Heydər Əliyev adına hərbi liseyi, 2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin motoatıcı taborunun motoatıcı taqımının komandiri, motoatıcı bölüyün (BTR-82A) motoatıcı taqımının komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündə komandiri olduğu taqımın şəxsi heyəti ilə birlikdə döyüşlərdə rəşadət nümunələri göstərib.

2020-ci il sentyabrın 29-da Tərtər və Ağdərə rayonları istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" (ölümündən sonra) ordeni və "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif edilib.







**Əliyev**
**Fəzail**
**Cahan oğlu**
(1990-2020)

5 noyabr 1990-cı ildə Zaqatala rayonunda anadan olub. 2008-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2012-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və "Zabit ixtisas kursu"nu bitirib.

Kəşfiyyat bölüyünün kəşfiyyat taqımının komandiri, Əməliyyat İmkanları Konsepsiyası kəşfiyyat bölüyünün dərin kəşfiyyat taqımının komandiri, Əməliyyat İmkanları Konsepsiyası kəşfiyyat bölüyü komandirinin kəşfiyyat məlumatlarının təhlili üzrə müavini, Əməliyyat İmkanları Konsepsiyası kəşfiyyat bölüyünün komandiri, hərbi hissənin kəşfiyyat bölməsi rəisinin məlumatların toplanılması üzrə köməkçisi vəzifələrində xidmət edib.

"Qoşun kəşfiyyatı taqım komandiri", Böyük Britaniyanın Azərbaycan Respublikasındakı səfirliyinin təşəbbüsü ilə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçuları üçün təşkil edilmiş "İngilis dili və İntensiv təməl» kurslarında iştirak edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 iyun 2019-cu il tarixli əmri ilə "kapitan" hərbi rütbəsi verilib.

Vətən müharibəsində təcrübəli kəşfiyyatçı kimi vəzifələrinin öhdəsindən layiqincə gəlib.

2020-ci il sentyabrın 27-də Füzuli rayonu istiqamətində aparılan hərbi əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında

iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



*Ərgünəşdə gur tonqallar çatılsın,*
*Yurd yerinə göylərdən nur ələnsin.*
*Dədəm Qorqud qalib Vətən əsgərin*
*"Zəfər günü" deyin salama gəlsin!*





**Əliyev**
**Fizuli**
**Vidadi oğlu**
(1985-2020)



27 yanvar 1985-ci ildə Bakı şəhərində anadan olub. 2003-cü ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2007-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2008-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, motoatıcı taborun (BMP-2) motoatıcı bölüyünün komandiri, mexanikləşdirilmiş taborun (BMP-2) mexanikləşdirilmiş bölüyünün komandiri, mexanikləşdirilmiş tabor (BMP-3) komandirinin müavini vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində vəzifə borcunu şərəflə yerinə yetirərək döyüşlərdə xüsusi fəallıq göstərib.

2020-ci il oktyabrın 8-də Tərtər və Ağdərə rayonları istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün

bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 3-cü dərəcəli "Rəşadət" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.



*Son qoyulub illərin həsrətinə,*
*Buz bulaqlar yenə coşub-çağlayır.*
*Göz yaşını silir şəhid anası,*
*Qız-gəlinlər dəstə güllər bağlayır.*

*Xan qızının gözü yoldan yığılır,*
*Yəhərlənir kəhər atlar bu səhər.*
*Cıdır düzü daş yuxudan oyanır,*
*Bizimkidir bu Qələbə, bu Zəfər!*







**Əliyev**
**İbrahim**
**Mustafa oğlu**
(1997-2020)

17 fevral 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Qabıllı kəndində anadan olub. 2014-cü ildə Heydər Əliyev adına hərbi liseyi, 2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin kəşfiyyat bölüyünün kəşfiyyat taqımının komandiri və kəşfiyyat bölüyünün komandiri vəzifələrində xidmət edib.

Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın ərazi bütövlüyünün bərpası və işğal olunmuş kənd və şəhərlərimizin azad edilməsi uğrunda başlanan Vətən müharibəsinin ilk günündən komandiri olduğu kəşfiyyat bölüyünün şəxsi heyəti ilə birlikdə qarşıya qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gəlib.

2020-ci il noyabrın 9-da Goranboy rayonunun Gülüstan kəndi ərazisində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



**Əliyev İmran Əli oğlu**
(1993-2020)

7 aprel 1993-cü ildə Göyçay rayonunda anadan olub. 2018-ci ildə Azərbaycan Texniki Universitetini "Kompüter mühəndisliyi" ixtisası üzrə və 2019-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı" kursunu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin ehtiyat komanda məntəqəsinin rabitə bölüyünün radio taqımının komandiri, motoatıcı taborun rabitə rəisi – rabitə taqımının komandiri vəzifələrində xidmət edib.

Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın öz ərazi bütövlüyünün bərpası və işğal edilmiş tarixi torpaqlarımızın azad edilməsi üçün başladığı Vətən müharibəsinin ilk günündən döyüşlərə qatılıb və vəzifə borcunu şərəflə yerinə yetirib.

2020-ci il sentyabrın 28-də Tərtər rayonunun Talış kəndi istiqamətində hərbi əməliyyatlar zamanı şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Suqovuşanın azad olunmasına görə" (ölümündən sonra), "Laçının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Əliyev Kərim Məhəmmədəli oğlu**
(1998-2020)

31 avqust 1998-ci ildə Ucar rayonunda anadan olub. 2015-ci ildə tam orta məktəbi bitirib. 6 oktyabr 2016-cı ildən 12 aprel 2018-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

Ehtiyata buraxıldıqdan sonra xüsusi təyinatlı hərbi hissənin nəzdində «Təməl Xüsusi Təyinatlı kursu»nu bitirib.

Motoatıcı taborda motoatıcı manqanın komandiri, motoatıcı taborun (BMP-1) motoatıcı manqasının komandiri, hərbi hissənin xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 14 fevral 2020-ci il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

"Dəmir Yumruq" əməliyyatı ilə başlanan 44 günlük Vətən müharibəsinin ilk günündən peşəkar kəşfiyyatçı kimi qarşısına qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gəlib.

2020-ci il oktyabrın 19-da Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlarda düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Əliyev**
**Məmməd**
**Cahangir oğlu**
(1993-2020)

28 yanvar 1993-cü ildə Gədəbəy rayonunun Novoivanovka kəndində anadan olub. 2014-cü ildə Azərbaycan Dövlət Aqrar Universitetini bitirib. 8 iyul 2014-cü ildən 18 iyul 2015-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

Ehtiyata buraxıldıqdan sonra, 2017-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Müdafiə nazirini müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölüyün (BTR-80) atəş dəstək taqımının komandiri, motoatıcı bölüyün (BTR-80) motoatıcı taqımının komandiri vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 30 may 2020-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

2020-ci il oktyabrın 2-də Göygöl rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən atılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.







**Əliyev**
**Mirzağa**
**Məmmədbağır oğlu**
(1996-2020)

15 iyun 1996-cı ildə Neftçala rayonunun Bankə qəsəbəsində anadan olub. 2014-cü ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin artilleriya divizionunun artilleriya batareyasının artilleriya taqımının komandiri, artilleriya taqımının komandiri – batareyanın baş zabiti, reaktiv batareyanın reaktiv taqımının komandiri – döyüş maşını komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsində komandiri olduğu reaktiv taqımın şəxsi heyəti ilə birlikdə düşmən hərbi obyektlərinin, qurğularının, texnikalarının və canlı qüvvəsinin darmadağın edilməsində xüsusi qəhrəmanlıqlar göstərib.

2020-ci il oktyabrın 7-də Cəbrayıl rayonunun Şükürbəyli kəndi ərazisində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən yanğınla və isti maddələrlə törədilmiş zədələnmələrdən hadisə yerində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdi-

yinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı "Azərbaycan Bayrağı" (ölümündən sonra) ordeni, "Vətən uğrunda" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif edilib.



*Qarabağdan qara duman çəkilir,*
*Ağ günlərə qovuşur od-ocağın.*
*Gözün aydın elim, obam, Vətənim,*
*Zirvələrdə dalğalanır Bayrağım!*
*Yad əllərdən qurtulub Qarabağım!*







**Əliyev**
**Nohəl**
**Əlqəmə oğlu**
(1989-2020)

13 avqust 1989-cu ildə Füzuli rayonunda anadan olub. 2006-cı ildə tam orta məktəbi bitirib. 7 oktyabr 2007-ci ildən 1 aprel 2009-cu ilədək cəbhə bölgəsindəki hərbi hissədə müddətli həqiqi hərbi xidmət keçib.

Ehtiyata buraxıldıqdan beş il sonra hərbi hissədə "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursunda təhsil alıb.

"Kiçik gizir" rütbəsində hərbi hissənin motoatıcı taborunun motoatıcı manqasının komandiri, tank əleyhinə batareyanın tank əleyhinə idarə olunan raketlər taqımının sürücüsü, tank əleyhinə bölüyün tank əleyhinə taqımının sürücüsü, rabitə taqımının idarəetmə manqasının (tabor qərargahının) sürücüsü-elektrik, motoatıcı bölüyün (BTR-82A) motoatıcı taqımının motoatıcı manqasının komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən motoatıcı manqanın komandiri kimi döyüşlərdə iştirak edib və qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlib.

2020-ci il oktyabrın 2-də Füzuli rayonunun Abdurəhmanlı kəndi ərazisində döyüş əməliyyatları zamanı xidməti borcunu yerinə yeti-rərkən igidlik göstərərək şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə

yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



*Füzulinin qaş-qabağı açılıb,*
*Qaçaq Nəbi Həcər ilə qol-qola.*
*Zəngilanda payız toyu başlanır,*
*Bəy anası, xonça tutub çıx yola.*

*Cəbrayılın gün doğubdu üstünə,*
*Cana gəlir yal-yamaclar, dərə, dağ.*
*Gözün aydın, Xan çinarım, kəhrizim,*
*Bizim olub, bizimkidir Qarabağ!*





**Əliyev**
**Ramil**
**Qurban oğlu**
(1996-2020)



22 mart 1996-cı ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Güznüt kəndində anadan olub.

2014-cü ildə Heydər Əliyev adına hərbi liseyi, 2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin motoatıcı taborunun (BMP-2) motoatıcı taqımının komandiri, mexanikləşdirilmiş taborun (BMP-2) mexanikləşdirilmiş taqımının komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günlərində komandiri olduğu taqımın şəxsi heyəti ilə birlikdə döyüşlərdə fəal iştirak edib və qarşıya qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gəlib.

2020-ci il sentyabrın 28-də Füzuli rayonu istiqamətində düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Əliyev Rəşad Əmiralı oğlu**
(1991-2020)

17 aprel 1991-ci ildə Salyan rayonunun Ərəbqardaşbəyli kəndində anadan olub. 2008-ci ildə kənd orta məktəbini, 2012-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrində motoatıcı taborun qərargah rəisinin kəşfiyyat üzrə köməkçisi – kəşfiyyat taqımının komandiri, mexanikləşdirilmiş taborun qərargah rəisinin kəşfiyyat üzrə köməkçisi – kəşfiyyat taqımının komandiri, motoatıcı taborun qərargah rəisinin kəşfiyyat üzrə köməkçisi – kəşfiyyat taqımının komandiri, kəşfiyyat bölüyünün kəşfiyyat taqımının komandiri, motoatıcı taborun (BMP-2) motoatıcı bölüyünün motoatıcı taqımının komandiri, xüsusi təyinatlı bölüyün komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifələrində xidmət edib.

Əlahiddə Ümumqoşun Ordu Komandanının 26 iyun 2020-ci il tarixli əmri ilə ona "kapitan" hərbi rütbəsi verilib.

Vətən müharibəsində iştirak edərək xüsusi təyinatlı bölüyün şəxsi heyətinin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının, qələbəyə inamının daha da yüksəldilməsində səylərini əsirgəməyib.

2020-ci il oktyabrın 21-də Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması uğrunda gedən döyüşlərdə Xocəvənd rayonunun Tuğ yaşayış məntəqəsi ərazisində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.





Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.



*Gənc ömrüm qurban olsun*
*Canım Azərbaycana!*
*Kəşfiyyata gedirəm,*
*Salamat qal, ay ana!*



**Əliyev**
**Samir**
**Əliheydər oğlu**
(1999-2020)

9 avqust 1999-cu ildə Bakı şəhərində anadan olub. 2016-cı ildə 55 nömrəli tam orta məktəbi, 2020-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2020-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin motoatıcı bölüyünün (BTR-82A) motoatıcı taqımının komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsinin ilk günündə komandiri olduğu motoatıcı taqımın şəxsi heyəti ilə birlikdə qarşıya qoyulmuş döyüş tapşırığını uğurla yerinə yetirib. Düşmənin atəş mövqelərinin susdurulmasında, canlı qüvvəsinin məhv edilməsində xüsusi fəallıq göstərib.

2020-ci il sentyabrın 29-da Goranboy rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 3-cü dərəcəli "Rəşadət" (ölümündən sonra) ordeni və "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif edilib.







**Əliyev**
**Səbuhi**
**Teyyub oğlu**
(1983-2020)

7 avqust 1983-cü ildə Beyləqan rayonunda anadan olub. 2001-ci ildə tam orta məktəbi bitirib. 16 oktyabr 2001-ci ildən 3 aprel 2003-cü ilədək müddətli həqiqi hərbi xidmət keçib.

Hərbi xidmətdə olarkən "baş kəşfiyyatçı", "sanitar-atıcı" vəzifələrinin öhdəsindən layiqincə gəlib.

Ehtiyata buraxıldıqdan sonra, 2008-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim Tədris Mərkəzinin "MAHHXHQ hazırlığı", 2017-ci ildə "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 13 aprel 2017-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Hərbi hissənin haubitsalı artilleriya batareyası haubitsalı artillleriya taqımının top komandiri, motoatıcı taborun minaatan batareyasının minaatan taqımının minaatan komandiri, tank əleyhinə artilleriya batareyasının tank əleyhinə artilleriya taqımının top komandiri, tank əleyhinə artilleriya batareyasının tank əleyhinə artilleriya taqımı komandirinin müavini-top komandiri, hərbi hissənin maddi-texniki təminat bölüyünün avtomobil taqımının (döyüş sursatı daşıyan) avtomobil manqasının sürücüsü, idarəetmə manqasının (divizion komandirinin) sürücüsü – elektrik, həmlə bölüyünün həmlə manqasının sürücüsü-elektrik, motoatıcı taborun maddi-texniki təminat taqımının texniki, həmlə bölüyünün texniki, motoatıcı bölüyün (BTR - 82A) motoatıcı taqımı komandirinin müavini, motoatıcı taborun (BTR-82A) motoatıcı taqımının döyüş maşını komandiri-döyüş maşınları heyətinin rəisi, mexanikləşdirilmiş taborun (BTR, Sand-

Cat) mexanikləşdirilmiş bölüyünün (BTR) mexanikləşdirilmiş taqımının döyüş maşını komandiri – döyüş maşınları heyətinin rəisi vəzifələrində xidmət edib.

Vətən müharibəsində komandiri olduğu döyüş maşım ilə düşmənə dağıdıcı zərbələr vurub.

2020-ci il oktyabrın 7-də Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



***Kül altından boy atacaq yurd yeri!***







**Əliyev Sənan Əlisəfa oğlu**
(1989-2020)

11 aprel 1989-cu ildə Beyləqan rayonunun Yeni Mil qəsəbəsində anadan olub. 2006-cı ildə tam orta məktəbi bitirib. 19 aprel 2007-ci ildən 16 oktyabr 2008-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2013-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "MAHHXHQ hazırlığı", 2017-ci ildə "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 13 aprel 2017-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Hərbi hissənin mexanikləşdirilmiş taborunun mexanikləşdirilmiş manqasının mexanik-sürücüsü, motoatıcı taborun (BMP-3) motoatıcı bölüyünün motoatıcı taqımının döyüş maşını komandiri – döyüş maşınları heyətinin rəisi, mexanikləşdirilmiş taborun (BMP-3) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının döyüş maşını komandiri – döyüş maşınları heyətinin rəisi vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən döyüşlərdə fəal iştirak edib.

2020-ci il sentyabrın 28-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı düşmən tərəfindən açılan atəş nəticəsində ağır yaralanıb. Helikopterlə təcili Bakı şəhərinə təxliyə edilsə də, sentyabrın 29-da Silahlı Qüvvələrin Baş Kilinik Hospitalında həkimlərin səylərinə baxmayaraq şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında

qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



***Yurd yerlərinin həsrətinə Sizlər son qoydunuz, Vətənin unudulmaz, əbədiyaşar Şəhidləri! Nə qədər ki, Azərbaycan var, qədirbilən Azərbaycan xalqı var, Siz də var olacaqsınız. Xatirələrdə, ürəklərdə yaşayacaqsınız, Şəhidlər!***





**Əliyev Xəqani Füzuli oğlu**
(1990-2020)



12 iyun 1990-cı ildə Yardımlı rayonunun Çanaxbulaq kəndində anadan olub. 2013-cü ildə tam orta məktəbi bitirib. 8 oktyabr 2011-ci ildən 5 mart 2013-cü ilədək müddətli həqiqi hərbi xidmətdə olub.

Ehtiyata buraxıldıqdan iki il sonra, 2015-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 8 may 2015-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Kəşfiyyat taqımı komandirinin müavini – qrup komandiri, kəşfiyyat manqasının komandiri, kəşfiyyat-müşahidə taqımının, texniki müşahidə qrupunun komandiri – operatoru vəzifələrində xidmət edib.

Ermənistanın təxribatlarına cavab olaraq respublikamızın ərazi bütövlüyünün bərpası və işğal edilmiş tarixi torpaqlarımızın azad edilməsi uğrunda başlanan Vətən müharibəsinin ilk günündən 2020-ci ilin oktyabr ayının 28-dək döyüşlərdə fəal iştirak edib.

Oktyabrın 28-də Tərtər və Ağdərə istiqamətində gedən hərbi əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



**Əlizadə**
**Fuad**
**Nazim oğlu**
(1994-2020)

5 iyul 1994-cü ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Kolanı kəndində anadan olub. 2011-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Azərbaycan Respublikası Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin “Zabit ixtisas kursu”nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2020-ci il tarixli əmri ilə “leytenant”, Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 iyun 2018-ci il tarixli əmri ilə “baş leytenant” hərbi rütbəsi verilib.

Hərbi hissənin motoatıcı taborunun motoatıcı taqımının komandiri vəzifəsində xidmət edib.

Komandiri olduğu motoatıcı taqımın şəxsi heyəti ilə birlikdə ilk gündən Vətən müharibəsi cəbhələrində döyüşlərə qatılıb və qarşıya qoyulmuş döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsinə nail olub.

2020-ci il noyabrın 7-də Laçın rayonu istiqamətində hərbi əməliyyatlar zamanı şəhid olub.

Sağlığında “Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)”, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Vətən uğrunda”, “Döyüşdə fərqlənməyə görə”, “Cəbrayılın azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə”, “Laçının azad olunmasına görə” medalları ilə təltif olunub.





**Əlizadə**
**Pərvin**
**Vüqar oğlu**
(1993-2020)



11 sentyabr 1993-cü ildə Bərdə rayonunda anadan olub. 2015-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını, 2018-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin “Ehtiyat zabit hazırlığı” kursunu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 13 avqust 2018-ci il tarixli əmri ilə “leytenant” hərbi rütbəsi verilib.

Hərbi hissənin motoatıcı taborunun motoatıcı taqımının komandiri vəzifəsində xidmət edib. Komandanlığın əmr və tapşırıqlarını layiqincə yerinə yetirib.

Ermənistanın dövlət sərhədində törətdiyi təxribatlara və mülki yaşayış məntəqələrini intensiv atəşə tutduğuna cavab olaraq 2020-ci il sentyabrın 27-də Azərbaycanın “Dəmir Yumruq” əməliyyatı ilə başladığı Vətən müharibəsinin ilk günündən döyüşlərdə fəal iştirak edib.

Komandiri olduğu motoatıcı taqımın şəxsi heyəti ilə birlikdə düşmənə hərbi texnika və canlı qüvvə sarıdan xeyli itki verib.

2020-ci il oktyabrın 20-də Tərtər və Ağdərə rayonları istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Vətən uğrunda” (ölümündən sonra) medalı ilə təltif olunub.



**Əlizadə**
**Qorxmaz**
**Arif oğlu**
(1995-2020)

27 yanvar 1995-ci ildə Qax rayonunun Cəlayir kəndində anadan olub. 2013-cü ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2017-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 13 avqust 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Kəşfiyyat bölüyünün kəşfiyyat taqımının komandiri, kəşfiyyat bölüyünün komandiri vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 13 iyun 2020-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın ərazi bütövlüyü uğrunda işğal edilmiş tarixi torpaqlarımızın azadlığı naminə başlanan Vətən müharibəsinin ilk günlərindən döyüşlərə qatılıb.

2020-ci il oktyabrın 17-də Füzuli rayonu istiqamətində aparılan hərbi əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Əlizadə**
**Tahir**
**Qəribəli oğlu**
(1994-2020)

21 iyun 1994-cü ildə Biləsuvar rayonunda anadan olub. 2012-ci ildə tam orta məktəbi bitirib.

2016-cı ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 5 iyul 2016-cı il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandirinin müavini, mexanikləşdirilmiş taborun (BMP-2) mexanikləşdirilmiş manqasının komandiri vəzifələrində xidmət edib.

Ermənistanın işğalı altında olan tarixi torpaqlarımızın azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi cəbhələrində Cəbrayıl, Füzuli, Qubadlı və Şuşa uğrunda gedən döyüşlərdə fəal iştirak edib.

2020-ci il noyabrın 8-də Şuşa döyüşləri zamanı ağır yaralanıb və dekabrın 6-da Mingəçevir şəhər Hərbi Hospitalında həkimlərin səylərinə baxmayaraq şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Əmənov
Məhəmməd
İltizam oğlu**
(1996-2020)

18 sentyabr 1996-cı ildə Biləsuvar rayonunun İsmətli kəndində anadan olub.

2014-cü ildə tam orta məktəbi bitirib. 8 oktyabr 2014-cü ildən 25 aprel 2016-cı ilədək müddətli həqiqi hərbi xidmət keçib.

Ehtiyata buraxıldıqdan sonra, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nda təhsil alıb və oranı müvəffəqiyyətlə başa vurub.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müvafiq əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Hərbi hissənin tank bölüyünün tank taqımının tank komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsində qəhrəman tankçı kimi tanınıb və düşmənə hərbi texnika, canlı qüvvə sarıdan xeyli itkilər verib.

2020-ci il oktyabrın 20-də Tərtər rayonunun Şıxarx qəsəbəsi ərazisində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" (ölümündən sonra) ordeni və "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.







**Ənvərli
Aqşin
Faiq oğlu**
(1994-2020)

10 oktyabr 1994-cü ildə Qəbələ şəhərində anadan olub.

2012-ci ildə tam orta məktəbi, 2018-ci ildə Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinin "Hərbi həkim ixtisası hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Qərargah bölüyünün tibb məntəqəsinin rəisi, qərargah və təchizat bölüyünün tibb məntəqəsinin rəisi vəzifələrində xidmət edib.

Əlahiddə Ümumqoşun Ordu Komandanının 3 noyabr 2020-ci il tarixli əmri ilə "tibb xidməti baş leytenantı" hərbi rütbəsi verilib.

Vətən müharibəsində yaralılara ilk tibbi yardım göstərilməsində, onların döyüş meydanınıdan təxliyə olunmasında fəal iştirak edib.

2020-ci il noyabrın 6-da Xocavənd rayonu ərazisində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" (ölümündən sonra) ordeni və "Vətən uğrunda" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif edilib.



**Əsədov**
**Emil**
**Balaqardaş oğlu**
(1998-2020)

11 yanvar 1998-ci ildə Salyan rayonunun Çuxanlı kəndində anadan olub. 2015-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı bölüyün (SandCat) motoatıcı taqımının komandiri, mexanikləşdirilmiş taborun (SandCat) mexanikləşdirilmiş taqımının komandiri, mexanikləşdirilmiş taborun (SandCat) tank əleyhinə taqımının komandiri vəzifələrində xidmət edib.

"Dəmir Yumruq" əməliyyatı ilə başalanan 44 günlük Vətən müharibəsində komandiri olduğu taqımın şəxsi heyəti ilə birlikdə döyüşlərdə fəal iştirak edib, igidlik nümunələri göstərib.

2020-ci il noyabrın 7-də Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsi istiqamətində hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" (ölümündən sonra) ordeni və "Vətən uğrunda" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Əsədov**
**Əsəd**
**Cəmaləddin oğlu**
(1978-2020)

29 mart 1978-ci ildə Neftçala rayonunda anadan olub. 1999-cu ildə Bakı Dövlət Universitetini bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 5 sentyabr 1999-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

13 mart 2004-cü ildən hərbi hissənin motoatıcı taqımının komandiri vəzifəsində xidmət edib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 14 dekabr 2004-cü il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

4 oktyabr 2005-ci ildə Azərbaycan Ordusu sıralarından ehtiyata buraxılıb.

Ermənistanın təxribatlarına qarşı Azərbaycanın öz ərazi bütövlüyünün bərpası və işğal edilmiş şəhər və kəndlərinin azad edilməsi uğrunda başladığı Vətən müharibəsinin ilk günü könüllü olaraq cəbhəyə yollanıb və motoatıcı taborun motoatıcı taqımının komandiri vəzifəsində döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 13-də Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.



**Əsədullayev Elnur İmran oğlu**
(1998-2020)

13 iyun 1998-ci ildə Lerik rayonunda anadan olub. 2015-ci ildə tam orta məktəbi bitirib. Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

Ehtiyata buraxıldıqdan az sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirib. "PDM tuşlayıcı-operatoru" ixtisası üzrə kursda peşəkarlığını daha da artırıb.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 7 avqust 2020-ci il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taborun (BMP-1) motoatıcı bölüyünün motoatıcı taqımının döyüş maşınları heyətinin tuşlayıcı-operatoru, mexanikləşdirilmiş taborun (BMP-1) mexanikləşdirilmiş taqımının döyüş maşınları heyətinin tuşlayıcı-operatoru, mexanikləşdirilmiş taborun (BTR, SandCat) mexanikləşdirilmiş bölüyünün (SandCat) mexanikləşdirilmiş taqımının döyüş maşınları heyətinin döyüş maşını komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günlərindən komandiri olduğu döyüş maşınları heyəti ilə birlikdə döyüşlərə atılıb və rəşadət nümunələri göstərib.

2020-ci il oktyabrın 8-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında





qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "İgidliyə görə" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



*Bayrağa and içərək, canımızdan keçərək,*
*Uğrunda qan tökərək, biz gəlmişik Qarabağ!*

*Səni hər an anmışıq, od tutmuşuq, yanmışıq.*
*Bağışla, yubanmışıq, biz gəlmişik Qarabağ!*

*Bahar, qışına qurban, qara daşına qurban,*
*O göz yaşına qurban, biz gəlmişik Qarabağ!*



**Əsgərli İntiqam Bayram oğlu**
(1990-2020)

16 avqust 1990-cı ildə Masallı rayonunun Kalinovka kəndində anadan olub. 2007-ci ildə tam orta məktəbi bitirib. 11 oktyabr 2008-ci ildən 3 aprel 2010-cu ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2011-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nda təhsil alıb.

Azərbaycan Respublikası Müdafiə nazirinin 27 oktyabr 2011-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Hərbi hissənin motoatıcı taborunun motoatıcı taqım komandirinin müavini, xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı komandasının kəşfiyyatçısı (atıcı), əməliyyat bölməsinin təlimatçısı (dağ hazırlığı üzrə), döyüş hazırlığı və tədris bölməsinin təlimatçısı (dağ hazırlığı üzrə) vəzifələrində xidmət edib.

Vətən müharibəsində şəxsi rəşadət və şücaət nümunələri göstərib. Hazırladığı peşəkar xüsusi təyinatlılar və şəxsən özü çətin relyefdə mühüm kəşfiyyat tapşırıqlarının yerinə yetirilməsində xüsusi rol oynayıb. Vətən müharibəsində qələbənin qazanılmasında müstəsna xidmətləri olub.

2020-ci il noyabrın 9-da Şuşa şəhəri ərazisində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib, "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.







*Şuşanın yastı yolu,*
*Su gəldi basdı yolu.*
*Getmişdim qisas alam,*
*Namərdlər kəsdi yolu.*

*Dağların qarı mənəm,*
*Gün vursa, ərimənəm.*
*Qəbrimi quzeydə qaz,*
*Cavanam, çürümənəm.*



**Əsgərli Tural Ələmdar oğlu**
(1993-2020)

20 aprel 1993-cü ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Qıvraq kəndində anadan olub. 2010-cu ildə Heydər Əliyev adına hərbi liseyi, 2014-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2015-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2014-cü il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin motoatıcı taborunun motoatıcı taqımının komandiri, dağ-atıcı taborunun dağ-atıcı taqımının komandiri, dağ-atıcı taborun dağ-atıcı bölüyünün komandiri vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 iyul 2017-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Vətən müharibəsində bölüyə peşəkarcasına rəhbərlik edib və şəxsi heyətlə birlikdə qələbənin əldə olunmasında səylərini əsirgəməyib.

2020-ci il oktyabrın 1-də "Laçın" döyüş mövqeyində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Əsgərov Asəf İlqar oğlu**
(1990-2020)

5 mart 1990-cı ildə Bərdə rayonunun Mustafaağalı kəndində anadan olub. 2007-ci ildə tam orta məktəbi bitirib. 3 aprel 2008-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb.

2009-cu ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "MAH-HXHQ hazırlığı", 2015-ci ildə "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 27 yanvar 2015-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Tank taqımının baş mexanik-sürücüsü, tank komandiri, tank bölüyünün baş texniki vəzifələrində xidmət edib.

Tərtər və Ağdərə döyüşlərində xüsusi ilə fərqlənib. Tankların daim döyüşə hazır vəziyyətdə saxlanılması üçün səylərini əsirgəməyib.

2020-ci il oktyabrın 1-də Talış kəndi istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkar-

lıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda" medalı ilə təltif olunub.



**Əsgərov**
**Elçin**
**Yalçın oğlu**
(1997-2020)

3 fevral 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Qıvraq kəndində anadan olub. 2014-cü ildə Heydər Əliyev adına hərbi liseyi, 2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Kəşfiyyat-müşahidə bölüyünün vizual müşahidə taqımının komandiri, motoatıcı taqım (BTR-82A) komandiri, motoatıcı bölük (BTR-82A) komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsində motoatıcı bölüyə bacarıqla rəhbərlik edib, döyüşlərdə şəxsi şücaət nümunələri göstərib.

2020-ci il oktyabrın 25-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" (ölümündən sonra) ordeni və "Vətən uğrunda" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif edilib.







**Əsgərov**
**Musa**
**Əlifağa oğlu**
(1997-2020)

17 fevral 1997-ci ildə Cəlilabad rayonunun Sabirabad kəndində anadan olub. 2014-cü ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin motoatıcı taborunun motoatıcı taqımının komandiri, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun baş kəşfiyyatçısı vəzifələrində xidmət edib.

Vətən müharibəsində xüsusi əməliyyat qrupunun baş kəşfiyyatçısı kimi qarşıya qoyulan mühüm tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsində fəal iştirak edib.

2020-ci il sentyabrın 28-də Göygöl rayonu ərazisində, Murovdağ zirvəsi uğrunda gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən igidlik nümunələri göstərərək şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Əsgərov Novruz Ələddin oğlu**
(1980-2020)

1 dekabr 1980-ci ildə Ağdam rayonunun Quzanlı kəndində anadan olub. 1997-ci ildə tam orta məktəbi, 2001-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi), 2002-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı taqım komandiri, xüsusi təyinatlı qrup komandiri, xüsusi təyinatlı taborun (daimi yerləşmə məntəqəsində) xüsusi təyinatlı bölüyünün qrup komandiri, xüsusi təyinatlı taborun qərargah və təchizat bölüyünün komandiri, xüsusi təyinatlı taborun qərargah rəisinin MTT üzrə köməkçisi, kəşfiyyat bölməsi rəisinin məlumatların toplanılması üzrə köməkçisi, hərbi hissənin kəşfiyyat rəisi - kəşfiyyat bölməsinin rəisi vəzifələrində xidmət edib.

"Mayor" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlib.

2020-ci il sentyabrın 28-də Tərtər və Ağdərə rayonları istiqamətlərində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xid-





mətə görə" 2-ci dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunub.



*İllərlə yol gözlədin, yağıya baş əymədin,*
*Nə susmusan, danış, din, biz gəlmişik, Qarabağ!*

*Tanı candan keçəni, Vətən andı içəni,*
*Unut olub-keçəni, biz gəlmişik, Qarabağ!*

*Ağrı-acına qurban, taxtı-tacına qurban,*
*Qardaş-bacına qurban, biz gəlmişik, Qarabağ!*



**Əsgərov**
**Rauf**
**Vaqif oğlu**
(1978-2020)

2 noyabr 1978-ci ildə Gəncə şəhərində anadan olub. 1998-ci ildə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 7 oktyabr 1999-cü il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

29 mart 2006-cı ildən 29 sentyabr 2007-ci ilədək müddətli həqiq hərbi xidmət keçib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 31 dekabr 2006-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

2007-ci ildə xidmət müddəti başa çatdığına görə Silahlı Qüvvələrdən ehtiyata buraxılıb.

Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək məqdəsilə başladığı Vətən müharibəsinin ilk günündə qismən səfərbərlik üzrə yenidən orduya çağırılıb və motoatıcı taborun motoatıcı bölüyünün komandiri kimi döyüşlərdə iştirak edib.

2020-ci il oktyabrın 26-da Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Döyüşdə fərqlənməyə görə" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Əsgərov**
**Rüfət**
**Mürvət oğlu**
(1981-2020)

29 avqust 1981-ci ildə Bakı şəhərində anadan olub. Əslən Qubadlı rayonunun Aşağı Mollu kəndindəndir. 1999-cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2003-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2004-cü ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 25 iyun 2003-cü il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun kəşfiyyat taqımının komandiri, kəşfiyyat bölüyünün komandiri, hərbi hissənin kəşfiyyat bölməsi rəisinin məlumatların toplanılması üzrə köməkçisi, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kəşfiyyat və radioelektron mübarizə kafedrasının radiokəşfiyyat və radioelektron mübarizə silsiləsinin tədris laboratoriyasının rəisi, kəşfiyyat və radioelektron mübarizə kafedrasının qoşun kəşfiyyatı silsiləsinin müəllimi, quru qoşunları fakültəsinin kəşfiyyat və radioelektron mübarizə kafedrasının qoşun kəşfiyyatı silsiləsinin müəllimi, cəbhə bölgəsindəki hərbi hissənin kəşfiyyat rəisi – kəşfiyyat bölməsinin rəisi vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 2 fevral 2016-cı il tarixli əmri ilə "mayor" hərbi rütbəsi verilib.

Vətən müharibəsində hərbi hissənin qarşısına qoyulan kəşfiyyat tapşırıqlarının həyata keçirilməsində fəal iştirak edib.

2020-ci il oktyabrın 13-də Tərtər və Ağdərə rayonları istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunub.



*Al günəşli səhər bizim,*
*Kəhər bizim, yəhər bizim,*
*Haqq yolunda zəfər bizim.*
*Ataş olub yağa-yağa*
*Biz gəlmişik Qarabağa!*





**Əsgərov**
**Samid**
**Gülmalı oğlu**
(1989-2020)



12 oktyabr 1989-cu ildə Neftçala rayonunun Boyad kəndində anadan olub. 2008-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2012-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2013-cü ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 iyun 2012-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun qərargah rəisinin kəşfiyyat üzrə köməkçisi - kəşfiyyat taqımının komandiri, kəşfiyyat bölüyünün komandiri, kəşfiyyat bölməsi rəisinin kəşfiyyatın planlaşdırılması üzrə köməkçisi vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 24 iyun 2019-cu il tarixli əmri ilə "kapitan" hərbi rütbəsi verilib.

"Dəmir Yumruq" əməliyyatı ilə başlanan 44 günlük Vətən müharibəsinin ilk günündən döyüşlərdə fəal iştirak edib. Kəşfiyyatın planlaşdırılması üzrə mühüm tapşırıqların uğurla yerinə yetirilməsi üçün səylərini əsirgəməyib.

2020-ci il oktyabrın 1-də Füzuli rayonu ərazisində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan artilleriya atəşi nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında

iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



*Yəhərlə kəhərini, Qıratın belinə qalx,*
*Kirsin zirvəsinə çıx, ordan yurd yerinə bax.*
*Ay-ulduzum bərq vurur, hər zirvədə bir bayraq!*
*Sevgisi, eşqi dəniz, ey doğma, əziz Şuşam!*

*Yaylaq yolu, el yolu daş yuxudan oyanır,*
*Günəş gülür, hər tərəf al şəfəqə boyanır.*
*Halaypozan igidin gözləri par-par yanır,*
*Qədəminə çiçək düz, ey doğma, əziz Şuşam!*







**Əyyubov Ceyhun Savalan oğlu**
(1992-2020)

16 avqust 1992-ci ildə Yevlax rayonunda anadan olub. 2010-cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2014-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2015-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2014-cü il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Dağ-atıcı taborun dağ-atıcı taqımının komandiri, dağ-atıcı taborun dağ-atıcı bölüyünün komandiri vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 10 avqust 2017-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib

2020-ci il sentyabrın 27-də Göygöl rayonu ərazisində, Murovdağ zirvəsində düşmənlə təmas xəttində, hərbi hissənin "Koroğlu-3" mövqeyində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Əzimov**
**Cavanşir**
**Calal oğlu**
(1997-2020)

23 may 1997-ci ildə Beyləqan rayonunda anadan olub. 2014-cü ildə tam orta məktəbi bitirib. Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2018-ci ildə "MAHHXHQ və QHQ hazırlığı", 2020-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 25 sentyabr 2020-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Hərbi hissənin motoatıcı taborunun motoatıcı manqasının komandiri, kəşfiyyat manqasının kəşfiyyatçısı, motoatıcı manqanın komandiri, mexanikləşdirilmiş manqanın komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günlərindən döyüşlərə atılıb və Füzuli rayonunun işğal olunmuş yaşayış məntəqələrinin azad edilməsi uğrunda döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 3-də Füzuli rayonu ərazisində hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Əzizov**
**Elgün**
**Elman oğlu**
(1990-2020)

8 yanvar 1990-cı ildə Kürdəmir rayonunun Beyi kəndində anadan olub. 2011-ci ildə Azərbaycan Müəllimlər İnstitutunun Şamaxı filialını bitirib. 11 iyul 2011-ci ildən 1 iyul 2012-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2017-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı" kursunu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 14 fevral 2017-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 14 fevral 2020-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Vətən müharibəsində şəxsi heyətin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının, vətənpərvərlik hissinin daha da yüksəldilməsi üçün səylərini əsirgəməyib və şəxsi heyətlə birlikdə döyüşlərdə iştirak edib.

2020-ci il oktyabrın 5-də Füzuli rayonu ərazisində xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

ilə "Vətən uğrunda" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Əzizov**
**Elvin**
**Əfrail oğlu**
(1986-2020)

25 mart 1986-cı ildə Masallı rayonunun Qarqalıq kəndində anadan olub. 2003-cü ildə tam orta məktəbi bitirib. 20 aprel 2004-cü ildən 7 oktyabr 2005-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2010-cu ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "MAH-HXHQ hazırlığı", 2011-ci ildə "Gizir hazırlığı" kurslarını bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 7 mart 2011-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Hərbi hissənin motoatıcı taborunun motoatıcı manqa komandiri, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Tədris prosesinin təminatı taborunun təlim-döyüş tankları taqımının tank komandiri- sürücülük üzrə təlimatçı, təlim-döyüş tankları taqımının tank komandiri - təlimatçı, tank taqımının tank komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsində peşəkar tankçı kimi döyüşlərdə fəal iştirak edib, qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirib.

2020-ci il oktyabrın 11-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən atılan mərmi partlayışı nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalları, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







*Tanklar cərgələnib sərhəd boyunca,*
*Bir azdan toz-duman qopacaq indi.*
*Sinəsi Vətənə sipər oğullar*
*Düşmənin üstünə çapacaq indi.*

*Komandir, əmr ver, hücum əmri ver,*
*Tanklar nərə çəksin, toplar gurlasın.*
*Anam Qarabağın başı üstündə*
*Müqəddəs Ulduzum, Ayım parlasın!*



**Əzizov**
**Teymur**
**Əli oğlu**
(1987-2020)

22 iyun 1987-ci ildə Sumqayıt şəhərində anadan olub. 2009-cu ildə Sumqayıt Dövlət Universitetini bitirib. 1 iyul 2009-cu ildən 3 iyul 2010-cu ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2017-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim Tədris Mərkəzinin “Gizir hazırlığı”, 2018-ci ildə “Ehtiyat zabit hazırlığı” kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 13 aprel 2017-ci il tarixli əmri ilə “gizir”, Azərbaycan Respublikası Müdafiə nazirinin 13 avqust 2018-ci il tarixli əmri ilə “leytenant” hərbi rütbəsi verilib.

Hərbi hissənin kütləvi qırğın silahlarından mühafizə bölüyünün səhra kimyəvi laboratoriyasının rəisi, motoatıcı taborun (Matador) motoatıcı bölüyünün motoatıcı taqımının komandiri vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 7-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında “Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)”, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif olunub.







**Əzizov**
**Xəyyam**
**Əli oğlu**
(1995-2020)

8 noyabr 1995-ci ildə Neftçala şəhərində anadan olub. 2013-cü ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2017-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və “Zabit ixtisas kursu”nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 13 iyun 2017-ci il tarixli əmri ilə “leytenant” hərbi rütbəsi verilib.

Xüsusi əməliyyat qrupunun baş kəşfiyyatçısı, xüsusi əməliyyat qrupu komandirinin müavini vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 13 iyun 2020-ci il tarixli əmri ilə “baş leytenant” hərbi rütbəsi verilib.

Vətən müharibəsində rəhbərlik etdiyi xüsusi əməliyyat qrupu ilə birlikdə bir çox mühüm tapşırıqları uğurla icra edib.

2020-ci il noyabrın 8-də Şuşa şəhəri ərazisində gedən hərbi əməliyyatlarda xidməti vəzifələrini yerinə yetirərkən şəhid olub.

Sağlığında “Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)”, “Hərbi xidmətdə fərqlənməyə görə” 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Azərbaycan Bayrağı” ordeni və “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edilib.



**Fərəcov**
**Kamran**
**Qılman oğlu**
(1978-2020)

14 yanvar 1978-ci ildə Astara rayonunda anadan olub.

1995-ci ildə tam orta məktəbi, 1999-cu ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin tank taborunun tank taqımı komandiri, tank təmiri taqımının komandiri, motoatıcı bölük komandiri, motoatıcı taborun qərargah rəisi – tabor komandirinin müavini vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

44 gün davam edən Vətən müharibəsində Cəbrayıl və Qubadlı rayonlarının bir neçə yaşayış məntəqəsinin düşmən işğalından azad edilməsi uğrunda döyüşlərdə fərqlənib və qarşıya qyoulmuş tapşırıqların öhdəsindən layiqincə gəlib.

2020-ci il oktyabrın 20-də Qubadlı rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.







**Fərəməzov**
**Nurlan**
**Əhliman oğlu**
(1992-2020)

1 may 1992-ci ildə Astara rayonunda anadan olub. 2009-cu ildə tam orta məktəbi və 2015-ci ildə Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsini bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 5 iyun 2015-ci il tarixli əmri ilə "tibb xidməti leytenantı" hərbi rütbəsi verilib.

5 iyun 2015-ci ildən 5 avqust 2020-ci ilədək hərbi hissənin motoatıcı taborunun tibb məntəqəsinin rəisi vəzifəsində xidmət edib və ehtiyata buraxılıb.

Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq səfərbərlik üzrə yenidən hərbi xidmətə çağırılıb və motoatıcı taborun tibb məntəqəsinin rəisi vəzifəsində döyüşlərdə iştirak edib. Yaralılara ilk tibbi yardım göstərilməsində və onların təxliyyə edilməsində fəallıq göstərib.

2020-ci il oktyabrın 9-da Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Cəbrayıl rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. "Tibb xidməti baş leytenantı" idi.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



**Fərzalıyev Samiq Misir oğlu**
(1992-2020)

8 iyul 1992-ci ildə Tovuz rayonunda anadan olub. 2014-cü ildə Azərbaycan Dövlət Aqrar Universitetinin Aqromühəndislik fakültəsini, 2017-ci ildə isə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı" kursunu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 30 may 2017-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin motoatıcı taborunun motoatıcı bölüyünün motoatıcı taqımının komandiri vəzifəsində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müvafiq əmrinə əsasən "baş leytenant" hərbi rütbəsi verilib.

Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması və Ermənistanın işğal etdiyi tarixi torpaqlarımızın azadlığı uğrunda erməni təcavüzkarlarına qarşı başlanan 44 günlük Vətən müharibəsinin ilk günündən qələbə əzmi ilə döyüş meydanlarına atılıb və taqım komandiri kimi xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib.

2020-ci il oktyabrın 3-də Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Feyziyev Sadiq Tahir oğlu**
(1993-2020)

1 sentyabr 1993-cü ildə Yardımlı rayonunun Zövün kəndində anadan olub. 2011-ci ildə tam orta məktəbi, 2013-cü ildə Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Məktəbini bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2013-cü il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Hərbi hissənin motoatıcı taborunun qərargah bölüyünün tibb məntəqəsinin feldşeri, motoatıcı taborun tibb məntəqəsinin feldşeri vəzifələrində xidmət edib.

44 günlük Vətən müharibəsinin ilk günündə qaynar döyüş meydanında yaralılara ilk tibbi yardım göstərilməsində və onların təxliyyə edilməsində mübarizliyi və cəsurluğu ilə fərqlənib. Şəxsi heyətin hörmət və məhəbbətini qazanıb.

2020-ci il sentyabrın 29-da Tərtər və Ağdərə rayonları istiqamətində gedən döyüş əməliyyatlarında düşmən tərəfindən atılan artilleriya mərmisinin partlayışı və qəlpələrlə törənmiş zədələnmələr nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



**Feyzullayev**
**Beyrək**
**Seyfulla oğlu**
(1997-2020)

30 aprel 1997-ci ildə Oğuz rayonunun Baş Daşağıl kəndində anadan olub. 2014-cü ildə tam orta məktəbi, 2017-ci ildə hərbi hissə nəzdində "MAHHXHQ hazırlığı" və 2018-ci ildə "Xüsusi təyinatlı təlim" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 fevral 2019-cu il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Radiotelefonçu-planşetçi, həmlə manqasının qumbaraatanı, motoatıcı bölüyün (BMP-3) motoatıcı taqımının motoatıcı manqasının qumbaraatanı, xüsusi təyinatlı kəşfiyyat qrupunun kəşfiyyatçısı (artilleriya koorekedicisi), xüsusi əməliyyat taborunun təminat manqasının komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən Füzuli rayonunun yaşayış məntəqələrinin düşmən işğalından azad olunması uğrunda döyüşlərə atılan xüsusi əməliyyat taborunun şəxsi heyətinin sıralarında olub və xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib.

2020-ci il oktyabrın 3-də Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Hərbi xidmətlərə görə" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.







**Feyzullayev**
**Zahir**
**Eyvaz oğlu**
(1992-2020)

24 dekabr 1992-ci ildə Oğuz rayonunun Muxas kəndində anadan olub. 2010-cu ildə tam orta məktəbi, 2014-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı", 2018-ci ildə hərbi hissə nəzdində təşkil olunmuş "Zabit hazırlığı" kurslarını bitirib. 4 yanvar 2011-ci ildən 27 iyun 2012-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

Xüsusi təyinatlı qrup komandiri, xüsusi təyinatlı qrup komandirinin müavini, xüsusi təyinatlı qrupun manqa komandiri, xüsusi təyinatlı bölüyün çevik hərəkət qrupunun manqa komandiri, xüsusi təyinatlı qrup komandirinin müavini vəzifələrində xidmət edib.

Əlahiddə Ümumqoşun Ordu Komandanının 2 iyul 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

2020-ci il oktyabrın 19-da Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.



**Göyüşov**
**Məzahir**
**Niyaz oğlu**
(1992-2020)

7 mart 1992-ci ildə Füzuli rayonunun Mirzəcamallı kəndində anadan olub.

2009-cu ildə tam orta məktəbi, 2017-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı" kursunu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 13 aprel 2017-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Ədliyyə Nazirliyinin mühafizə alayında müddətli həqiqi hərbi xidmət keçib.

Mexanikləşdirilmiş (BMP-2) taborun mexanikləşdirilmiş taqımının döyüş maşını komandiri – manqa komandiri, motoatıcı taqımın döyüş maşını komandiri – döyüş maşınları heyətinin rəisi vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündə Füzulinin yaşayış məntəqələrinin işğaldan azad olunması uğrunda döyüşlərdə fəal iştirak edib.

2020-ci il sentyabrın 30-da Füzuli rayonu ərazisində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Göyüşov**
**Sərvan**
**Mehman oğlu**
(1997-2020)

28 fevral 1997-ci ildə Bərdə rayonunun Türk «Qızıl Ay» çadır şəhərciyində anadan olub.

2014-cü ildə Ağdam rayonu 2 nömrəli köçkün tam orta məktəbini, 2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsinin ilk günündə Murovdağ silsiləsinin zirvələrində, neçə illərdir ki, Ermənistan silahlı qüvvələri bölmələrinin möhkəmləndirdikləri mövqelər uğrunda döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 1-də Göygöl rayonunun Toğanalı kəndi istiqamətində, "Qalxan" postu yaxınlığında hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Hərbi xidmətlərə görə" (ölümündən sonra), "Kəlbəcərin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Gülməmmədov**
**Amin**
**Mayis oğlu**
(1995-2020)

31 iyul 1995-ci ildə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Saltaq kəndində anadan olub. 2013-cü ildə Heydər Əliyev adına hərbi liseyi, 2017-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 13 iyun 2017-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsində Füzuli, Xocavənd və Cəbrayıl rayonlarının yaşayış məntəqələrinin işğalçılardan azad edilməsi uğrunda hərbi əməliyyatlara "baş leytenant" hərbi rütbəsində qatılıb. Komandiri olduğu motoatıcı taqımın şəxsi heyəti ilə birlikdə igidlik nümunələri göstərib, peşəkar komandir kimi fərqlənib.

Oktyabr ayının ortalarında Hadrut qəsəbəsi istiqamətində hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olsa da, nəşi 14 dekabr 2020-ci ildə döyüş meydanından çıxarılaraq doğma kəndinə aparılıb və böyük izdihamın iştirakı ilə son mənzilə yola salınıb.

Ölümündən sonra Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarını və texnikasını məhv etməklə qoşunlarımızın döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Cəsur döyüşçü" və "Vətən uğrunda" medalları ilə təltif olunub.







**Gülüşov**
**Tərlan**
**Salman oğlu**
(1994-2020)

16 oktyabr 1994-cü ildə Salyan rayonunda anadan olub. 2012-ci ildə Salyan rayonunun Yuxarı Xələc kənd İlqar İbrahimov adına 1 saylı orta məktəbini, 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2016-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Minaatan batareyanın idarəetmə taqımının komandiri, haubitsalı artilleriya taqımının komandiri – batareyanın baş zabiti, minaatan batareyanın idarəetmə taqımının komandiri, minaatan batareyanın komandiri, mexanikləşdirilmiş taborun (BTR-82A) minaatan batareyasının komandiri, artilleriya bölməsi rəisinin kəşfiyyat üzrə köməkçisi – kəşfiyyat rəisi vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 23 iyun 2019-cu il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

2020-ci il oktyabrın 21-də Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Hacıyev**
**Abakar**
**Məhəmməd oğlu**
(1979-2020)

11 aprel 1979-cu ildə Zaqatala rayonunun Dardoqqaz kəndində anadan olub. 1996-cı ildə tam orta məktəbi, 2000-ci ildə Bakı Ali Hərbi Dənizçilik Məktəbini bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 iyun 2000-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin tərbiyəvi işlər bölməsinin təlimatçısı, motoatıcı taqım komandiri, təlimatçı – klub rəisi, tabor komandirinin tərbiyəvi işlər üzrə müavini, haubitsalı özüyeriyən artilleriya divizionu komandirinin tərbiyəvi işlər üzrə müavini, haubitsalı özüyeriyən artilleriya divizionunun qərargah rəisinin tərbiyəvi işlər üzrə köməkçisi, qərargahın zabiti (tərbiyə işinin təşkili üzrə), tabor komandirinin şəxsi heyətlə iş üzrə müavini, arsenal rəisinin şəxsi heyətlə iş üzrə müavini, briqada komandirinin şəxsi heyətlə iş üzrə müavini – şəxsi heyətlə iş üzrə bölmənin rəisi, briqada komandirinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavini – ideoloji iş və mənəvi-psixoloji təminat bölməsinin rəisi vəzifələrində xidmət edib.

"Mayor" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində şəxsi heyətin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının və qələbəyə inam hissinin yüksəldilməsində müstəsna rolu olub.

2020-ci il oktyabrın 28-də Hadrut qəsəbəsi istiqamətində gedən döyüş əməliyyatları zamanı xidməti vəzifələrini yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi





(1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.



***Tunc borular gurlasın, cəng havası çalınsın,***
***Şəhidlərin qisası yağılardan alınsın!***
***Zəfərinlə sevindir bütün obanı, eli,***
***And iç Bayraq önündə, Azərbaycan əsgəri!***



**Hacıyev Elnur Yaqub oğlu**
(1979-2020)

12 iyun 1979-cu ildə Ucar şəhərində anadan olub. 1996-cı ildə tam orta məktəbi, 2002-ci ildə Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin radiasiya və kimyəvi kəşfiyyat taqımının komandiri, sülhməramlı qüvvələr taborunun radiasiya-kimyəvi mühafizə qrupunun komandiri, radiasiya və kimyəvi kəşfiyyat taqımının komandiri, hərbi hissənin kimya xidməti rəisi, əməliyyat bölməsinin zabiti (kütləvi qırğın silahlarından mühafizəyə cavabdeh mütəxəssis), hərbi hissənin əməliyyat bölməsi rəisinin kütləvi qırğın silahlarından mühafizə xidməti üzrə köməkçisi, motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini, mexanikləşdirilmiş tabor (BMP-3) komandirinin maddi-texniki təminat üzrə müavini vəzifələrində xidmət edib. "Mayor" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində vəzifələrinin öhdəsindən layiqincə gəlib. Döyüşlər zamanı şəxsi heyətin maddi-texniki təminatının yüksək səviyyədə təşkilində fərqlənib.

2020-ci il oktyabrın 17-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetriərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi





(1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.



*Ürəkli insandan ölüm də qorxar,*
*Ölümün üstünə ürəklə yeri!*
*Ey Odlar yurdunun qəhrəman oğlu,*
*Bir addım olsa da yol yoxdur geri,*
*Ölümün üstünə ürəklə yeri!*



**Hacıyev Hikmət Şubay oğlu**
(1984-2020)

7 dekabr 1984-cü ildə Şəmkir rayonunda anadan olub. 2002-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2006-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Mexanikləşdirilmiş bölüyün mexanikləşdirilmiş taqımının komandiri, əməliyyat imkanları konsepsiyası taborunun hərbi-mülki əlaqələr bölməsinin zabiti – bölmə rəisinin köməkçisi (hərbi-mülki fəaliyyət üzrə), əməliyyat imkanları konsepsiyası taqımının komandiri, motoatıcı taqım komandiri, mexanikləşdirilmiş taqım komandiri, mexanikləşdirilmiş bölük komandiri, qərargah bölüyünün komandiri, motoatıcı taborun (Marauder) motoatıcı bölüyünün komandiri, mühafizə və təminat bölüyünün komandiri, motoatıcı bölüyün komandiri vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 2-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı düşmən tərəfindən açılan atəş nəticəsində ağır yaralanıb və həkimlərin səylərinə baxmayaraq 9 noyabr 2020-ci ildə Respublika Neyro cərrahiyyə xəstəxanasında şəhadətə yetişib.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda





döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



***Vətənin üstündən qara buludlar***
***Qardaşım, tezliklə çəkiləcəkdir.***
***Cütçü haylayacaq qara kəlini,***
***Bu yallar, yamaclar əkiləcəkdir.***

***Yenə kaman səsi, yenə tar səsi***
***Gülüstan bağları bürüyəcəkdir.***
***Dağların döşündə şəhid qanları***
***Qızıl lalə olub göyərəcəkdir.***



**Hacıyev**
**İsmət**
**Şölət oğlu**
(1993-2020)

20 yanvar 1993-cü ildə Quba rayonunda anadan olub. 2011-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 26 iyun 2015-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Mexanikləşdirilmiş taborun (BMP) qərargah rəisinin kəşfiyyat üzrə köməkçisi – kəşfiyyat taqımının komandiri, kəşfiyyat bölüyünün kəşfiyyat-müşahidə taqımının komandiri, kəşfiyyat bölüyünün kəşfiyyat taqımının komandiri, kəşfiyyat bölüyünün komandiri vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 iyun 2018-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

2020-ci il sentyabrın 27-də Tərtər və Ağdərə rayonları istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən igidlik nümunələri göstərərək şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "İgidliyə görə" (ölümündən sonra), "Laçının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Hacıyev**
**Ramid**
**Nəriman oğlu**
(1987-2020)

11 fevral 1987-ci ildə Cəbrayıl rayonunun Mirək kəndində anadan olub. 2005-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2009-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və 2010-cu ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2009-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Qərargah bölüyünün tank əleyhinə taqımının komandiri, motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, mexanikləşdirilmiş taborun (BMP-2) mexanikləşdirilmiş bölüyünün komandiri, mexanikləşdirilmiş taborun (BMP-2) komandirinin maddi-texniki təminat üzrə müavini, motoatıcı taborun qərargah rəisi – tabor komandirinin müavini, motoatıcı taborun komandiri vəzifələrində xidmət edib. "Mayor " hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib. Komandirlik etdiyi motoatıcı taborun şəxsi heyəti ilə birlikdə düşmənə sarsıdıcı zərbələr endirib, son nəfəsinədək tabora bacarıqla rəhbərlik edib.

2020-ci il oktyabrın 17-də Tərtər rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordu-

sunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda" medalı ilə təltif olunub.



*Qələbə şəhidiyik, Allaha yaxınıq biz,*
*Düşmənlərə göz dağı, qoşunuq, axınıq biz.*
*Murov silsiləsi tək sıralanmış hasarıq,*
*Əsrlər keçsə də biz ürəklərdə yaşarıq.*
*Millətin and yeriyik, igidlərik, ərlərik,*
*Şəhid olsaq da yenə Vətən, sənə əsgərik!*





**Hacıyev**
**Şükür**
**Bayram oğlu**
(1999-2020)



25 avqust 1999-cu ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Babək qəsəbəsində anadan olub. 2016-cı ildə Heydər Əliyev adına hərbi liseyi, 2020-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2020-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Kəşfiyyat bölüyünün kəşfiyyat taqımının komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsinin ilk günündən komandiri olduğu taqımın şəxsi heyəti ilə birlikdə Ağdərə və Tərtər raonları istiqamətində bir çox kəşfiyyat tapşırıqlarını uğurla yerinə yetirib.

2020-ci il oktyabrın 16-da Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Döyüşdə fərqlənməyə görə" (ölümündən sonra), "Suqovuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Hacıyev Teymur Zaur oğlu**
(1991-2020)

28 yanvar 1991-ci ildə Qazax rayonunun Yuxarı Salahlı kəndində anadan olub. 2008-ci ildə tam orta məktəbi bitirdikdən sonra müddətli həqiqi hərbi xidmət keçib. 2010-cu ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib və ona "gizir" hərbi rütbəsi verilib.

Reaktiv artilleriya batareyasının döyüş maşını heyətinin baş sürücüsü – mexanik, haubitsalı özüyeriyən artilleriya divizionunun təminat taqımının emalatxana rəisi, motoatıcı taborun motoatıcı bölüyünün baş çavuşu vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 3 avqust 2019-cu il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilib.

2020-ci il oktyabrın 13-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən partlayış nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Haşımov Tərzan Qəhrəman oğlu**
(1989-2020)

13 aprel 1989-cu ildə Lerik rayonunun Bibiyani kəndində anadan olub.

2006-cı ildə tam orta məktəbi bitirb. 16 aprel 2007-ci ildən 2 oktyabr 2008-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2010-cu ildə Azərbaycan Respublikaı Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 06 mart 2010-cu il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandirinin müavini, xüsusi təyinatlı qrupun kəşfiyyatçısı (radioteleqrafçı), xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

Vətən müharibəsində komandiri olduğu xüsusi əməliyyat qrupunun şəxsi heyəti ilə birlikdə mühüm tapşırıqları uğurla yerinə yetirib, cəsur döyüşçü kimi fərqlənib.

2020-ci il oktyabrın 19-da Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlarda xidməti vəzifələrini yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və Azərbaycan Respublikası Müdafiə nazirinin əmri ilə "Şücaətə görə"medalları ilə təltif olunub.



**Həməşəyev**
**Qismət**
**Oruc oğlu**
**(1988-2020)**

3 noyabr 1988-ci ildə Rusiya Federasiyasında anadan olub. 2011-ci ildə Gəncə Dövlət Universitetini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 14 oktyabr 2011-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

14 aprel 2013-cü ilədək Azərbaycan Ordusunda motoatıcı taqım komandiri vəzifəsində müddətli həqiqi hərbi xidmət keçib.

Ermənistanın təxribatlarına cavab olaraq işğal edilmiş tarixi torpaqlarımızın azadlığı və respublikamızın ərazi bütövlüyünün bərpa olunması uğrunda Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq qismən səfərbərliklə yenidən hərbi xidmətə çağırılıb və 1 oktyabr 2020-ci ildən motoatıcı taqım komandiri vəzifəsində döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 26-da Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəxsi igidlik və mərdlik nümunələri göstərərək şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Döyüşdə fərqlənməyə görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Həmidov**
**Əmrah**
**Firavan oğlu**
**(1997-2020)**

12 yanvar 1997-ci ildə Salyan şəhərində anadan olub. 2014-cü ildə tam orta məktəbi bitirib. 23 aprel 2015-ci ildən 6 oktyabr 2016-cı ilədək Hərbi Dəniz Qüvvələrində matros kimi xidmət edib.

Ehtiyata buraxıldıqdan sonra Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "MAHHXHQ hazırlığı kursu"nda təhsil alıb.

Xüsusi təyinatlı dəstənin rabitə bölməsinin radiotelefonçusu, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

Komandiri olduğu xüsusi əməliyyat qrupunun kəşfiyyatçıları ilə birlikdə mühüm tapşırıqları uğurla yerinə yetirib. Murovdağın çətin və sərt aşırımları ilə irəliləyərək düşmənin illərdir möhkəmləndirdiyi mövqelər, onların canlı qüvvəsi, hərbi texnika və silah-sursat ehtiyatı ilə bağlı xeyli məlumatlar toplayıb.

2020-ci il oktyabrın 5-də Göygöl rayonu ərazisində gedən hərbi əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Hərbi xidmətlərə görə" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Həmidov**
**Mixail**
**Hamletoviç**
(1983-2020)

18 dekabr 1983-cü ildə Almaniya Demokratik Respublikasının Potsdam şəhərində anadan olub. 2001-ci ildə tam orta məktəbi, 2005-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2005-ci il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 24 iyun 2008-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı qrup komandiri vəzifəsində xidmət edib və 3 dekabr 2009-cu ildə ehtiyata buraxılıb.

Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq qismən səfərbərliklə yenidən hərbi xidmətə çağırılıb və kəşfiyyat bölüyünün komandiri kimi döyüşlərdə iştirak edib.

2020-ci il oktyabrın 22-də Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Həmidov**
**Rəsman**
**Mərdan oğlu**
(1998-2020)

1 iyul 1998-ci ildə Şamaxı rayonunun Adnalı kəndində anadan olub. 2015-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, mexanikləşdirilmiş (BMP-3) taqımın komandiri, mexanikləşdirilmiş (BMP-3) bölüyün komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən komandiri olduğu mexanikləşdirilmiş (BMP-3) bölüyün şəxsi heyəti ilə birlikdə Cəbrayıl və Füzuli rayonlarının bir çox yaşayış məntəqələrinin işğaldan azad edilməsində fəal iştirak edib, düşmənə texnika və canlı qüvvə sarıdan xeyli itkilər verib.

2020-ci il noyabrın 1-də Cəbrayıl rayonu ərazisində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Həmidov Şükür Nəriman oğlu**
(1975-2020)

1 aprel 1975-ci ildə Qubadlı rayonunun Armudluq kəndində anadan olub. 1993-cü ildə Cəmşid Naxçıvanski adına İbtidai Hərbi məktəbi (indiki Cəmşid Naxçıvanski adına hərbi lisey), 1995-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi), 2008-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasını bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini, motoatıcı taborun qərargah rəisi – tabor komandirinin müavini, motoatıcı tabor komandiri, mexanikləşdirilmiş taborun komandiri, hərbi hissənin qərargah rəisi – briqada komandirinin müavini, briqada komandiri, hərbi hissənin əməliyyat şöbəsi rəisinin gündəlik fəaliyyətin planlaşdırılmasına və qoşun xidmətinə nəzarət üzrə baş köməkçisi, hərbi hissənin əməliyyat şöbəsi rəisinin müavini, hərbi hissənin qərargah rəisi – briqada komandirinin müavini, briqada komandiri, korpus komandirinin müavini vəzifələrində xidmət edib. "Polkovnik" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 22-də Qubadlı rayonu istiqamətində gedən döyüş əməliyyatları zamanı xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən





göstərdiyi şəxsi igidliyə görə Azərbaycan Respublikası Prezidetinin Sərəncamı ilə ona "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib (2016-cı il).

"Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, "Hərbi xidmətdə fərqlənməyə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı", "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" medalları, ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə "Zəfər" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.



***Qubadlı uğrunda, Laçın uğrunda***
***Ucaldın şəhidlik zirvəsinə sən.***
***Nə qədər Həkəri, Bərgüşad varsa,***
***Daim qəlblərdəsən, ürəklərdəsən!***



**Həmzəyev
Mərhəmət
Rizvan oğlu**
(1997-2020)

24 fevral 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Keçili kəndində anadan olub. 2015-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı bölüyün (BMP-3) motoatıcı taqımının komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsinin ilk günündən döyüşlərdə fəal iştirak edib. Komandiri olduğu motoatıcı taqımın qarşısında qoyulmuş döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsində səylərini əsirgəməyib.

Cəbrayıl rayonu ərazisində xidməti vəzifəsinin icrası zamanı şəhid olub. Nəşi 2 ay sonra, 2020-ci il dekabr ayının 19-da işğaldan azad edilən ərazilərdən çıxarılaraq Naxçıvana göndərilib və doğma kəndində böyük izdihamın iştirakı ilə hərbi və dini ənənələrə uyğun olaraq son mənzilə yola salınıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.







**Həmzəyev
Novruz
Bəkir oğlu**
(1992-2020)

21 mart 1992-ci ildə İsmayıllı rayonunun İsmayıllı kəndində anadan olub. Tam orta məktəbi bitirib. 4 aprel 2010-cu ildən 30 sentyabr 2011-ci ilədək müddətli həqiqi hərbi xidmətdə olub. 2018-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 19 may 2018-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Kəşfiyyat qrupunun kəşfiyyatçısı, snayper manqasının snayperi, kəşfiyyat manqasının kəşfiyyatçısı-snayperi, kəşfiyyat manqasının baş kəşfiyyatçısı-istehkamçı, motoatıcı taborun (BTR-82A) motoatıcı bölüyünün motoatıcı taqımının döyüş maşını komandiri – döyüş maşınları heyəti rəisinin müavini, mexanikləşdirilmiş taqımın (BTR-82A) döyüş maşınları heyətinin döyüş maşını komandiri, maddi-texniki təminat bölüyünün raket-artilleriya silahlarının təmiri qrupunun rəisi – texnik vəzifələrində xidmət edib.

2020-ci il noyabrın 9-da Şuşa istiqamətində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Həsənli**
**Telman**
**Rafiq oğlu**
(1998-2020)

3 mart 1998-ci ildə Biləsuvar rayonunun Bağbanlar kəndində anadan olub. 2015-ci ildə tam orta məktəbi bitirib. 6 aprel 2016-cı ildən 2 oktyabr 2017-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2018-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 19 may 2018-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Tank taborunun tank taqımının tank komandiri, mexanikləşdirilmiş taborun (BTR-82A) tank taqımının tank komandiri vəzifələrində xidmət edib.

Füzuli və Cəbrayıl rayonlarının yaşayış məntəqələrinin düşmən işğalından azad edilməsi uğrunda döyüşlərdə fəal iştirak edib. Komandiri olduğu tankla düşmən üzərinə qələbə əzmi ilə irəliləyərək xeyli sayda hərbi texnika və erməni quldurunu məhv edib.

2020-ci il oktyabrın 17-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Həsənov**
**Aqil**
**Nofəl oğlu**
(1996-2020)

6 yanvar 1996-cı ildə Şabran rayonunun Pirəmsən kəndində anadan olub. 2014-cü ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım (BMP-1) komandiri, motoatıcı bölük (BMP-1) komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündə tankın üzərinə qalxaraq döyüşçüləri qələbəyə ruhlandırıb. Şəxsi heyət qarşısında çıxış edərək hər bir tankçını xalqımızın igid oğlu, əfsanəvi sərkərdə general Həzi Aslanovun Böyük Vətən müharibəsi illərində Azərbaycandan çox-çox uzaqlarda göstərdiyi qəhrəmanlıqları təkrarlamağa çağırıb.

2020-ci il sentyabrın 27-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Həsənov**
**Ceyhun**
**Aydın oğlu**
(1985-2020)

29 oktyabr 1985-ci ildə Tovuz rayonunun Çeşməli kəndində anadan olub. 2004-cü ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2008-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 27 iyun 2008-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, motoatıcı taborun qərargah bölüyünün tank əleyhinə taqımının komandiri, mexanikləşdirilmiş bölük komandiri, motoatıcı taborun qumbaraatan taqımının komandiri, mexanikləşdirilmiş taqım (BMP-1) komandiri, mexanikləşdirilmiş bölük (BMP-1) komandiri vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il sentyabrın 28-də Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Qubadlının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif edilib.







**Həsənov**
**Elşad**
**Paşa oğlu**
(1981-2020)

13 iyun 1981-ci ildə Ermənistan SSR (Qərbi Azərbaycan) Vardenis rayonunda anadan olub.

1998-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2002-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 26 iyul 2002-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, kəşfiyyat taqımının komandiri, motoatıcı bölük komandiri, motoatıcı taborun qərargah rəisinin maddi-texniki təminat üzrə köməkçisi, motoatıcı tabor komandirinin müavini, poliqonun atış meydanı rəisi, mexanikləşdirilmiş tabor (SandCat) komandiri vəzifələrində xidmət edib. "Mayor" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 1-də Göygöl rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan artilleriya atəşi nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



**Həsənov Əsəd Fərhad oğlu**
(1988-2020)

16 aprel 1988-ci ildə İmişli rayonunda anadan olub. 2006-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2010-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2010-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Artilleriya batareyasının idarəetmə taqımının komandiri, motoatıcı taborun tank əleyhinə artilleriya taqımının komandiri, özüyeriyən artilleriya batareyasının komandiri, reaktiv artilleriya divizionu komandirinin maddi – texniki təminat üzrə müavini, artilleriya divizionunun qərargah rəisi – divizion komandirinin müavini vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 1-də Ağdam rayonunun Əhmədağalı kəndi ərazisində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.







**Həsənov Nurlan Nadir oğlu**
(1991-2020)

19 may 1991-ci ildə Şuşa rayonunda anadan olub. 2012-ci ildə Azərbaycan Texnologiya Universitetini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 5 oktyabr 2012-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı bölüyün motoatıcı taqımının komandiri vəzifəsində xidmət edib.

5 aprel 2014-cü ildə ehtiyata buraxılıb.

Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq qismən səfərbərliklə hərbi xidmətə çağırılıb və motoatıcı bölüyün (SandCat) motoatıcı taqımının komandiri vəzifəsində döyüşlərdə iştirak edib.

Cəbrayıl, Xocavənd və Füzuli rayonlarının bir neçə yaşayış məntəqəsinin azad edilməsində şəxsi igidlik nümunələri göstərib.

2020-ci il oktyabrın 2-də Cəbrayıl rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Həsənov Sadiq Əli oğlu**
(1986-2020)

14 sentyabr 1986-cı ildə Naxçıvan şəhərində anadan olub. 2003-cü ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2007-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2008-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2007-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, qərargah rəisinin köməkçisi, nizami hissə rəisi – qərargah rəisinin şəxsi heyətin uçotu üzrə köməkçisi, hərbi hissənin İdeoloji iş və mənəvi-psixoloji təminat bölməsi rəisinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə baş köməkçisi, motoatıcı tabor komandirinin şəxsi heyətlə iş üzrə müavini, artilleriya divizionu komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifələrində xidmət edib. "Mayor" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 20-də Qubadlı rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.







**Həsənov Səddam Aydın oğlu**
(1992-2020)

15 oktyabr 1992-ci ildə Beyləqan rayonunun Yeni Mil qəsəbəsində anadan olub.

18 oktyabr 2010-cu ildən 1 aprel 2012-ci ilədək "kəşfiyyatçı-snayperçi" kimi müddətli həqiqi hərbi xidmət keçib.

2013-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 15 oktyabr 2013-cü il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Kəşfiyyat taqımı komandirinin müavini – qrup komandiri, xüsusi təyinatlı qrup komandirinin müavini, xüsusi təyinatlı qrupun manqa komandiri, xüsusi təyinatlı qrup komandirinin müavini, təminat manqasının komandiri vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 14-də Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Həsənzadə Famil Şiraslan oğlu**
(1994-2020)

22 mart 1994-cü ildə Beyləqan rayonunun Kəbirli kəndində anadan olub. 2011-ci ildə tam orta məktəbi bitirib. 9 aprel 2012-ci ildən 17 sentyabr 2013-cü ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2014-cü ildə "MAHHXHQ hazırlığı", 2020-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 25 sentyabr 2020-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Tank əleyhinə batareyanın tank əleyhinə idarə olunan raketlər taqımı komandirinin müavini – tank əleyhinə idarə olunan raketlər manqasının komandiri, motoatıcı tabor (MT-LB) motoatıcı taqım komandirinin müavini-motoatıcı manqa komandiri, tank əleyhinə idarə olunan raketlər manqasının komandiri-operator, motoatıcı taborun (MT-LB) minaatan batareyasının minaatan taqımının minaatan komandiri, motoatıcı taborun (BMP-2) minaatan batareyasının minaatan taqımının minaatan komandiri, mexanikləşdirilmiş taborun (BTR-82A) minaatan batareyasının idarəetmə taqımının komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsində Şuşa şəhərinə qədər şanlı döyüş yolu keçib. İşğal edilmiş yaşayış məntəqələrinin düşmənlərdən təmizlənməsində komandiri olduğu taqımın şəxsi heyəti ilə birlikdə fərqlənib.

2020-ci il noyabrın 8-də Şuşa şəhəri istiqamətində gedən hərbi əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.





Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.



*İnama, iradənə, gücünə arxalan sən,*
*Fırtına qopararaq dərya tək çalxalan sən.*
*Hoydu, Allahu-Əkbər, ya Məhəmməd, ya Əli,*
*İrəli hey, irəli, Azərbaycan əsgəri!*

*Bu sevgi, bu məhəbbət ürəkdən, candan gəlir,*
*Bu sevgi, bu məhəbbət damardan, qandan gəlir,*
*Bu sevgi, bu məhəbbət Azərbaycandan gəlir,*
*İrəli hey, irəli, Azərbaycan əsgəri!*



**Həşimli Cəmil Əflatun oğlu**
(1995-2020)

11 avqust 1995-ci ildə Kürdəmir rayonunun Şahsevən kəndində anadan olub.

18 oktyabr 2013-cü ildən 16 aprel 2015-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2017-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 28 sentyabr 2017-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandirinin müavini vəzifəsində xidmət edib.

Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın işğal edilmiş tarixi torpaqlarımızın azad edilməsi və respublikamızın ərazi bütövlüyünün bərpa olunması uğrunda başladığı Vətən müharibəsində xidməti vəzifəsinin öhdəsində layiqincə gəlib.

2020-ci il oktyabrın 5-də Füzuli rayonu ərazisində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəxsi fədakarlıq və igidlik nümunələri göstərərək şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Həşimov Fərrux Mirzəmməd oğlu**
(1988-2020)

24 mart 1988-ci ildə Sumqayıt şəhərində anadan olub. 2006-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2010-ci ildə Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbini, 2011-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin "Zabitlər kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2010-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Hərbi Dəniz Qüvvələrində hərbi hissənin DGD desant gəmiləri divizionunun orta desant gəmisinin (D431) şturmanı, DGD desant gəmiləri divizionunun orta desant gəmisi (D431) komandirinin köməkçisi, hərbi hissənin naviqasiya və okean xidməti hidrometeorologiya bölməsinin zabiti-bölmə rəisinin köməkçisi, hərbi hissənin hidrometeorologiya bölməsi rəisinin köməkçisi, hidroqrafiya gəmiləri divizionu qərargah rəisinin naviqasiya üzrə köməkçisi, xüsusi təyinatlı dəstənin (sualtı müdafiə) xüsusi təyinatlı qrupunun zabiti (qrup komandirinin köməkçisi)-dalğıc, xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı qrup komandiri – dalğıc, xüsusi təyinatlı taborun (xüsusi əməliyyatlar) gəmi əməliyyatları dəstəsinin xüsusi təyinatlı qrup komandiri – dalğıc, gəmi əməliyyatları dəstəsinin xüsusi təyinatlı qrup komandiri – dalğıc vəzifələrində xidmət edib.

"Kapitan-leytenant" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində fəal iştirak edib. Xüsusi təyinatlı qrup komandiri kimi döyüşlərdə fərqlənib və mühüm tapşırıqları peşəkarcasına yerinə yetirib.

2020-ci il oktyabrın 31-də Xocavənd rayonu ərazisində döyüş tapşı-

rığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)”, “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)”, “Qüsursuz xidmətə görə” 3-cü dərəcəli, “Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)”, ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Qarabağ” ordeni, “Vətən uğrunda”, “Xocavəndin azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə” medalları ilə təltif olunub.



***Müqəddəs şəhid ruhları hər birimizi Vətənimizin təhlükəsizliyi və müdafiəsi naminə hər an ayıq-sayıq olmağa səsləyir.***





**Həşimov**
**Nağı**
**Anar oğlu**
**(1998-2020)**



20 avqust 1998-ci ildə Gəncə şəhərində anadan olub.

2015-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakultəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin “Zabit ixtisas kursu”nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə “leytenant” hərbi rütbəsi verilib.

Hərbi hissənin artilleriya divizionunun haubitsalı artilleriya batareyasının haubitsalı artilleriya taqımının komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsinin ilk günündə Xocavənd rayonu yaşayış məntəqələrinin düşmən işğalından azad edilməsi uğrunda müqəddəs döyüşlərə atılıb. Komandiri olduğu haubitsalı artilleriya taqımı düşmənin bir neçə atəş mövqeyini susdurub, xeyli canlı qüvvə və hərbi texnikasını məhv edib.

2020-ci il sentyabrın 29-da saat Xocavənd rayonu istiqamətində gedən hərbi əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Vətən uğrunda” (ölümündən sonra) medalı ilə təltif olunub.



**Heydərov**
**Amid**
**Rəbbil oğlu**
(1988-2020)

20 may 1988-ci ildə Lerik rayonunda anadan olub. 2006-cı ildə V.İbrahimov adına Lerik qəsəbə orta internat məktəbini, 2010-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2011-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2010-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Tank bölüyünün tank taqım komandiri, tank bölük komandiri, hərbi hissənin qərargah rəisi – tabor komandirinin müavini, tabor komandiri vəzifələrində xidmət edib. "Mayor" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsinin ilk günündə komandiri olduğu taborun şəxsi heyəti ilə birlikdə Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə rəşadət və şücaət nümunələri göstərib. Hərbi hissənin qarşısına qoyulmuş döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsində müstəsna rol oynayıb. Peşəkar, təcrübəli zabit kimi fərqlənib.

2020-ci il sentyabrın 27-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi





üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



*Türk qanıdır damarda donan qanım,*
*Öncə Vətən, Vətənə qurban canım!*
*Əmr et bizə, Ali Baş Komandanım,*
*Hər birimiz Mübarizik, Fəridik!*

*Qoy eşitsin qəsbkarlar, yağılar,*
*Bu torpağın neçə igid, əri var.*
*Nərənizdən düşmən bağrı yarılar,*
*Hər birimiz Mübarizik, Fəridik!*



**Heydərov**
**Sabir**
**Ceyhun oğlu**
(1998-2020)

27 iyun 1998-ci ildə Şamaxı rayonunun Sərədil kəndində anadan olub. 2015-ci ildə tam orta məktəbi bitirib. 11 iyul 2016-cı ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2017-ci ildə XTQTM-də "MAHHXHQ hazırlığı" və «Təməl Xüsusi Təyinatlı» kurslarını müvəffəqiyyətlə başa vuraraq xüsusi təyinatlı dəstənin rabitə bölməsinin radiotelefonçusu, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmətini davam etdirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 24 aprel 2019-cu il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Vətən müharibəsinin ilk günündən Füzuli və Cəbrayıl rayonlarının işğal olunmuş yaşayış məntəqələrinin azad edilməsi uğrunda döyüşlərdə peşəkar kəşfiyyatçı kimi üzərinə düşən mühüm tapşırıqların uğurla yerinə yetirilməsi üçün səylərini əsirgəməyib.

2020-ci il oktyabrın 2-də Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Hərbi xidmətlərə görə" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Heydərov**
**Vasif**
**Nazim oğlu**
(1997-2020)

5 yanvar 1997-ci ildə Tovuz rayonunun Yanıqlı kəndində anadan olub. 2015-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun (BMP-1) motoatıcı bölüyünün motoatıcı taqım komandiri, mexanikləşdirilmiş taqım komandiri, mexanikləşdirilmiş taborun (BMP-1) tank əleyhinə taqımının komandiri, motoatıcı bölüyün (BTR-82A) motoatıcı taqımının komandiri vəzifələrində xidmət edib.

Ermənistanın təxribatlarına cavab olaraq "Dəmir Yumruq" əməliyyatı ilə başlanan Vətən müharibəsinin ilk şəhidlərindəndir.

2020-ci il sentyabrın 27-də Füzuli rayonunun Yuxarı Abdurəhmanlı kəndi istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.



**Hümbətov**
**Azad**
**Arif oğlu**
(1996-2020)

24 yanvar 1996-ci ildə Bakı şəhərində anadan olub. 2013-cü ildə 291 saylı Ekologiya Liseyini, 2017-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 13 iyun 2017-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Tank taqımının komandiri, tank bölüyünün komandiri vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 13 iyun 2020-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Vətən müharibəsinin ilk günündən döyüşlərdə xüsusilə fərqlənib. Komandiri olduğu tank bölüyünün şəxsi heyəti ilə birlikdə qarşıya qoyulmuş tapşırıqları uğurla yerinə yetirib, texnika və canlı qüvvə sarıdan düşmənə xeyli itkilər verib.

Füzuli və Xocavənd rayonlarının bir neçə yaşayış məntəqəsinin işğaldan azad olunması uğrunda döyüşlərdə xüsusilə fərqlənərək şəxsi igidlik və mərdlik nümunələri göstərib.

2020-ci il oktyabrın 27-də Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi





qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" (ölümündən sonra) adı verilib.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



***Düşməndən qənimət götürülmüş bu tanklar bir azdan öz sahiblərinə tərəf tuşlanacaq!***



**Hümbətov Ruslan Səlim oğlu**
(1987-2020)

20 may 1987-ci ildə Samux rayonunun Əhmədbəyli kəndində anadan olub. 2006-cı ildə tam orta məktəbi bitirib. 8 iyul 2006-cı ildən 7 yanvar 2008-ci ilədək müddətli həqiqi hərbi xidmətdə keçib.

2011-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müvafiq əmrinə əsasən "gizir" hərbi rütbəsi verilib.

Rabitə bölüyünün radio taqımının radiostansiya rəisi, xüsusi təyinatlı dəstənin rabitə bölməsinin rəisi (qərargah rəisinin rabitə üzrə köməkçisi) vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən xüsusi təyinatlı dəstənin rabitə vasitələrinin daim işlək olması üçün səylərini əsirgəməyib.

2020-ci il oktyabrın 6-da Cəbrayıl rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Şücaətə görə", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Hüseynli Əmrah Namik oğlu**
(1994-2020)

12 oktyabr 1994-cü ildə Cəlilabad rayonunda anadan olub.

2013-cü ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2017-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 13 iyun 2017-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun baş kəşfiyyatçısı vəzifəsində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 13 iyun 2020-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilmişdi.

2020-ci il oktyabrın 26-da Xocavənd rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018), "Şücaətə görə", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Hüseynli Etiram Həsən oğlu**
(1977-2020)

17 aprel 1977-ci ildə Lənkəran şəhərində anadan olub. 1997-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetini bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 29 iyul 1997-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

16 mart 2002-ci ildən 13 sentyabr 2003-cü ilədək motoatıcı taqım komandiri vəzifəsində xidmət edib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 13 dekabr 2002-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Vətən müharibəsi başlananda qismən səfərbərliklə yenidən hərbi xidmətə çağırılıb. Cəbrayıl və Qubadlı rayonlarının yaşayış məntəqələrinin düşmən işğalından azad olunması uğrunda döyüşlərdə motoatıcı taqım komandiri kimi fəal iştirak edib və qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlib.

2020-ci il oktyabrın 22-də Qubadlı rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra), "Qubadlının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Hüseynli İlqar Şəmiyyət oğlu**
(1976-2020)

6 oktyabr 1976-cı ildə Xaçmaz rayonunun Pirquluoba kəndində anadan olub. 1994-cü ildə Texniki Peşə Məktəbini bitirib. 21 oktyabr 1994-cü ildən 30 yanvar 1998-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2000-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müvafiq əmrinə əsasən "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandirinin müavini – döyüş maşınının komandiri, motoatıcı taqımın döyüş maşınının komandiri – manqa komandiri, mexanikləşdirilmiş taborun təlim – döyüş maşınları manqasının döyüş maşını komandiri – sürücülük üzrə təlimatçı, mexanikləşdirilmiş təlim taqımının döyüş maşını komandiri – mexanikləşdirilmiş təlim manqasının komandiri, motoatıcı taborun (BMP-2) motoatıcı taqımının döyüş maşını komandiri – döyüş maşınları heyəti rəisinin müavini, mexanikləşdirilmiş taqımın döyüş maşınları heyətinin döyüş maşını komandiri vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 3 iyun 2015-ci il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilib.

Vətən müharibəsinin ilk günündə komandiri olduğu döyüş maşını ilə düşmənə sarsıdıcı zərbələr vurub, şəxsi rəşadət və şücaət nümunələri göstərib.

2020-ci il sentyabrın 27-də Tərtər və Ağdərə rayonları istiqamətində hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olub.

Sağlığında “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)”, “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)”, “Qüsursuz xidmətə görə” 3-cü dərəcəli, “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)”, “Qüsursuz xidmətə görə” 2-ci dərəcəli, “Qüsursuz xidmətə görə” 1-ci dərəcəli, “Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)”, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni və “Vətən uğrunda” medalı ilə təltif edilib.



*Gecə də, gündüz də yalnız irəli,*
*Düşmən sədlərini dağıdın, keçin!*
*Xalq ilə Ordunun bir şüarı var:*
*“Hər şey cəbhə üçün, Qələbə üçün!”*





**Hüseynov**
**Aslan**
**Malik oğlu**
(1988-2020)



6 oktyabr 1988-ci ildə Rusiya Federasiyasının Orenburq şəhərində anadan olub. 2006-cı ildə tam orta məktəbi bitirib. 6 oktyabr 2006-cı ildən 13 aprel 2008-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

18 mart 2014-cü ildən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi tank əleyhinə raket taqımının manqa komandiri, tank əleyhinə raket komplekslərinin baş operatoru vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 19 may 2018-ci il tarixli əmri ilə “gizir” hərbi rütbəsi verilib.

Reaktiv taqımın maşın komandiri (nəqliyyat doldurucu maşınların), tank əleyhinə raket kompleksləri taqımının döyüş maşını komandiri – tank əleyhinə raket kompleksləri manqasının komandiri vəzifələrində xidmətini davam etdirib.

2020-ci il sentyabrın 29-da Goranboy rayonunun Gülüstan kəndi ərazisində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında “Hərbi xidmətdə fərqlənməyə görə” 3-cü dərəcəli, “Şücaətə görə”, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Azərbaycan Bayrağı” ordeni və “Vətən uğrunda” medalı ilə təltif edilib.



**Heydərov**
**Anar**
**Bəhruz oğlu**
(1988-2020)

1 iyun 1988-ci ildə Şamaxı rayonunda anadan olub. Əslən Masallı rayonundandır. 2006-cı ildə Sumqayıt şəhər C.Səfərov adına 10 saylı tam orta məktəbi, 2010-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2010-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, motoatıcı taborun (Marauder) motoatıcı bölüyünün komandiri, mühafizə bölüyünün komandiri vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 2 də Goranboy rayonu Tapqaraqoyunlu kəndinin Kəhrilər xarabalığı istiqamətində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan artileriya atəşi nəticəsində şəhid olub. Nəşi 30 dekabrda ərazidən çıxarılıb və böyük izdihamın iştirakı ilə son mənzilə yola salınıb.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" medalları ilə təltif olunub.

Vətən müharibəsində göstərdiyi xidmətlərə görə ölümündən sonra təltif olunması üçün təqdimatı göndərilib.







**Hüseynov**
**Əfşan**
**Əbülfəz oğlu**
(1996-2020)

16 mart 1996-cı ildə Tovuz rayonunun Əsrik Cırdaxan kəndində anadan olub. 2013-cü ildə Tovuz rayonu, M.Hümbətov adına Ağbulaq kənd tam orta məktəbini, 2017-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 18 avqust 2017-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, həmlə bölüyünün atəş dəstək taqımının komandiri, motoatıcı bölüyün (BMP-3) atəş dəstək taqımının komandiri, avtomatik qumbaraatanlar taqımının komandiri, motoatıcı bölüyün (BTR-82A) motoatıcı taqımının komandiri, motoatıcı bölüyün (BMP-3) komandiri vəzifələrində xidmət edib.

Silahlı QÜvvələrin Baş Qərargah rəisin 13 iyun 2020-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Vətən müharibəsində komandiri olduğu motoatıcı bölüyün şəxsi heyəti ilə birlikdə düşmənin dəfələrlə müqaviməti ilə üzləşmələrinə baxmayaraq onların məhv edilməsində xüsusi qəhrəmanlıqlar göstərib, düşmənə tutarlı zərbələr vurub.

2020-ci il oktyabrın 26-da Füzuli rayonunun Yuxarı Abdurəhmanlı kəndi istiqamətində hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümün-

dən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.



***Ölən ağlar, itən ağlar,***
***Qəbrim üstdə bitən ağlar,***
***Sən ağlama, Vətən ağlar,***
***Ağlama, Şəhid balası!***





**Hüseynov**
**Eldost**
**Asəf oğlu**
**(1996-2020)**



16 dekabr 1996-cı ildə Şamaxı rayonunda anadan olub.

2018-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirib.

2020-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı" kursunu keçib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 5 iyun 2020-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri vəzifəsində xidmət edib.

"Dəmir Yumruq" əməliyyatı ilə başlanan Vətən müharibəsinin ilk günlərindən Tərtər və Ağdərə rayonları istiqamətində hərbi əməliyyatlarda fəal iştirak edib və döyüşlərdə komandiri olduğu motoatıcı taqımın qarşısına qoyulan döyüş tapşırıqlarının müvəffəqiyyətlə icrasına nail olub. Şəxsi igidlik və mərdlik nümunələri göstərərək komandanlığın rəğbətini qazanıb.

2020-ci il oktyabrın 7-də Tərtər və Ağdərə istiqamətində xidməti vəzifələrinin icrası zamanı düşmən tərəfindən atılan artilleriya mərmisinin partlayışı nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.



**Hüseynov**
**Fərrux**
**Baxış oğlu**
(1995-2020)

29 aprel 1995-ci ildə Kürdəmir rayonunun Şilyan kəndində anadan olub.

2012-ci ildə Kürdəmir şəhəri, R.Quliyev adına 5 saylı orta məktəbi, 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2016-cı il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Tank taqımının komandiri, tank bölüyünün komandiri vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 23 iyun 2019-cu il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

2020-ci il noyabrın 9-da Xocavənd rayonu istiqamətində hərbi əməliyyatlar zamanı düşmən tərəfindən atılan mərmi partlayışı nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018), ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif olunub.







**Hüseynov**
**Kərim**
**Tərlan oğlu**
(1989-2020)

30 dekabr 1989-cu ildə Qusar rayonunun Piral kəndində anadan olub. Tam orta məktəbi bitirib. 4 yanvar 2008-ci ildən 4 iyul 2009-cu ilədək Hərbi Dəniz Qüvvələrində hərbi xidmət keçib. 2018-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində "Gizir hazırlığı" kursunu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 19 may 2018-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqımın (Matador) döyüş maşını komandiri, motoatıcı taborun (BTR-82A) motoatıcı bölüyünün motoatıcı taqımının döyüş maşını komandiri – döyüş maşınları heyətinin rəisi vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən Füzulinin yaşayış məntəqələrinin düşmən işğalından azad edilməsi uğrunda döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 9-da Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018), ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Hüseynov Mətin Ramiz oğlu**
(1997-2020)

27 oktyabr 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Düylün kəndində anadan olub.

2016-cı ildə Heydər Əliyev adına hərbi liseyi, 2020-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2020-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsinin ilk günlərindən Füzuli rayonunun işğal edilmiş yaşayış məntəqələrinin azad edilməsi uğrunda döyüşlərdə şəxsi igidlik və mərdlik nümunələri göstərərək son gülləsinədək düşmən üzərinə od ələyib.

2020-ci il noyabrın əvvəllərində döyüş mövqeyində şəhid olub. Nəşi ayın 21-də azad edilən ərazilərdən çıxarılıb, böyük izdihamın iştirakı ilə hərbi və dini ənənələrə uyğun olaraq son mənzilə yola salınıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "İgidliyə görə" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Hüseynov Nazim Yaqub oğlu**
(1977-2020)

1 oktyabr 1977-ci ildə Beyləqan rayonunda anadan olub. 1994-cü ildə tam orta məktəbi, 2000-ci ildə Pakistan Silahlı Qüvvələrinin Hərbi Məktəbini bitirib və ona "leytenant" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı taqım komandiri, kəşfiyyat taqımının komandiri, motoatıcı taborun qərargah rəisinin kəşfiyyat üzrə köməkçisi – taqım komandiri, motoatıcı bölük komandiri, motoatıcı bölüyün komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifələrində xidmət edib. "Mayor" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 8-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərəkən igidlik və mərdlik nümunələri göstərərək şəhid olub.

Sağlığında "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Hüseynov**
**Nəbi**
**Hacıbala oğlu**
(1992-2020)

9 iyul 1992-ci ildə Qazax rayonunun Birinci Şıxlı kəndində anadan olub. 2010-cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2014-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini, 2015-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2014-cü il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Dağ-atıcı taborun minaatan batareyasının minaatan taqımının komandiri – batareyanın baş zabiti, motoatıcı taborun (BTR-82A) minaatan batareyasının minaatan taqımının komandiri - batareyanın baş zabiti, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun baş kəşfiyyatçısı, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupu komandirinin müavini vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 7 avqust 2017-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Vətən müharibəsində xüsusi əməliyyat qrupu komandiri kimi xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib, şəxsi rəşadət və şücaət nümunələri göstərib.

2020-ci il oktyabrın 9-da Füzuli rayonu ərazisində hərbi əməliyyatlar zamanı döyüş tapşırığın yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi





(1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.



*Bu yol çətin, şərəfli, gedəri, gəlməzi var,*
*Əgər geri dönməsəm ay ana, gəl ağlama!*
*Şəhidlər ölməyirlər, başını dik tut hər an,*
*Ah-fəryad da eləmə, sən qaralar bağlama!*
*Əgər geri dönməsəm ay ana, gəl ağlama!*



**Hüseynov Nurlan Madər oğlu**
(1992-2020)

3 iyul 1992-ci ildə İmişli rayonunun Göbəktala kəndində anadan olub. 2009-cu ildə tam orta məktəbi bitirib.

4 iyul 2010-cu ildən 28 dekabr 2011-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2011-ci ildə hərbi hissənin nəzdində "Gizir hazırlığı kursu"nu bitirib və xüsusi təyinatlı qrupun kəşfiyyatçısı (atıcı silahlar üzrə mütəxəssis), xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı, xüsusi təyinatlı taborun snayper qrupunun kəşfiyyatçısı (snayper) vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 8 iyun 2017-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

44 gün davam edən Vətən müharibəsinin ilk günündən Azərbaycanın ərazi bütövlüyü uğrunda, işğal edilmiş tarixi torpaqlarımızın azad edilməsi naminə döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 14-də Füzuli rayonu ərazisində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhidlik zirvəsinə ucalıb.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018), ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.





**Hüseynov Orxan Bəhmən oğlu**
(1991-2020)



25 iyul 1991-ci ildə Bakı şəhərində anadan olub. 2008-ci ildə Bakı şəhəri S.Rəhimov adına 146 nömrəli tam orta məktəbi, 2013-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini, 2014-cü ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 27 iyun 2013-cü il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Dağ-atıcı taqım komandiri, mexanikləşdirilmiş bölük (BMP-2) komandiri vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 12 aprel 2017-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

2020-ci il sentyabrın 27-də Tərtər və Ağdərə rayonları istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.



**Hüseynov**
**Ramin**
**Qüdrət oğlu**
(1993-2020)

8 avqust 1993-cü ildə Ağsu rayonunun Çaparlı kəndində anadan olub. Tam orta məktəbi bitirib. 5 oktyabr 2011-ci ildən 12 mart 2013-cü ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2014-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı" kursunu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 may 2014-cü il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Rabitə bölüyünün (taktiki komanda məntəqəsinin rabitə qovşağı) radio taqımının radiostansiya rəisi, qarnizon rabitə qovşağının radio bölməsinin rəisi, rabitə qovşağının (stasionar) avtomatik idarəetmə sistemləri bölməsinin növbə rəisi vəzifələrində xidmət edib.

Vətən müharibəsi cəbhələrində döyüşən hərbi hissənin stasionar rabitə qovşağının avtomatik idarəetmə sistemələrinin daim saz olması üçün səylərini əsirgəməyib.

2020-ci il oktyabrın 8-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş zamanı şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Hüseynov**
**Raqib**
**Adil oğlu**
(1993-2020)

3 iyul 1993-cü ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Mərəlik kəndində anadan olub.

2011-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini, 2016-cı ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 26 iyun 2015-ci il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 avqust 2018-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, hərbi hissənin qərargah bölüyünün komandiri, tabor komandirinin maddi-texniki təminat üzrə müavini, motoatıcı taborun qərargah rəisi – tabor komandirinin müavini vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 29-da Tərtər rayonu istiqamətində hərbi əməliyyatlar zamanı düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018), ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub.



**Hüseynov Rəhim Qədir oğlu**
(1984-2020)



1 iyul 1984-cü ildə Zərdab rayonunun Gəlmə kəndində anadan olub. 2001-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2005-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini, 2006-cı ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2005-ci il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 30 iyun 2016-cı il tarixli əmri ilə "mayor" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı taborun MAB (Əməliyyat İmkanları Konsepsiyası üzrə) motoatıcı taqım komandiri, Əməliyyat İmkanları Konsepsiyası bölüyü komandirinin müavini, bölük komandiri, əməliyyat bölməsinin rəisi – qərargah rəisinin müavini, tabor komandirinin müavini, tabor komandiri, Sülhməramlı qüvvələr taborunun komandiri vəzifələrində xidmət edib.

Çexiya, Almaniya, Macarıstan, Amerika Birləşmiş Ştatları, Türkiyə, Bolqarıstan, Rumıniya, Bosniya və Hersoqovinada beynəlxalq səviyyəli kurslarda iştirak edib.

İngilis, rus, erməni dillərini mükəmməl bilən igid zabit NATO təlimləri və kursları çərçivəsində keçirilən tədbirlərdə Azərbaycan Silahlı Qüvvələrini layiqincə təmsil edərək Azərbaycan Bayrağını həmişə şərəflə daşıyıb.

Əfqanıstan İslam Respublikasında həyata keçirilən "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasında 21 yanvar 2020-ci ildən 12 avqust 2020-ci ilədək Azərbaycan sülhməramlı kontingentinin, eyni zamanda, Hamid Karzai





Beynəlxalq Hava Limanında "NKIA" Qüvvə Mühafizəsi Qrupu Taborunun komandir müavini və komandiri vəzifələrini müvəffəqiyyətlə icra edib. NATO-nun Baş Katibi Jems Stolberq onu 2020-ci ilin yekunlarına görə "Layaqətli Xidmət Medalı" ilə təltif edib (Həmin medal kitab çapa hazırlanan ərəfədə təntənəli şəkildə şəhidin ailəsinə təqdim olunub).

Vətən müharibəsində tabeçiliyində olan şəxsi heyətə bacarıqla rəhbərlik edib, qarşıya qoyulmuş döyüş tapşırıqlarının öhdəsindən layiqincə gəlib, qələbənin əldə olunmasında müstəsna xidmətlər göstərib.

2020-ci il oktyabrın 20-də Qubadlı rayonunda hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.



*Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev mayor Hüseynova növbəti döyüş tapşırığını verir.*



**Hüseynov**
**Şahnur**
**Şahin oğlu**
(1991-2020)

30 noyabr 1991-ci ildə Polşa Respublikasının Beloqard şəhərində anadan olub. 2009-cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2013-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini, 2014-cü ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 27 iyun 2013-cü il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 27 iyun 2020-ci il tarixli əmri ilə "kapitan" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, hərbi hissənin və təchizat bölüyünün komandiri, motoatıcı taborun (BMP-2) qərargah rəisi – tabor komandirinin müavini, mexanikləşdirilmiş taborun (BMP-2) komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündə, 2020-ci il sentyabrın 27-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018), "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Hüseynov**
**Şirbala**
**Hüseynbala oğlu**
(1990-2020)

6 may 1990-cı ildə Sumqayıt şəhərində anadan olub. 2008-ci ildə tam orta məktəbi, 2012-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini, 2013-cü ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 iyun 2012-ci il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 iyun 2019-cu il tarixli əmri ilə "kapitan" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, mexanikləşdirilmiş taborun (BMP-2) mexanikləşdirilmiş bölüyünün komandiri vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 1-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Hüseynov**
**Ülvü**
**Möhsün oğlu**
(1988-2020)

16 aprel 1988-ci ildə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Sabir kəndində anadan olub. 2006-cı ildə Heydər Əliyev adına hərbi liseyi, 2010-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini, 2011-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2010-cu il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 iyun 2017-ci il tarixli əmri ilə "kapitan" hərbi rütbəsi verilib.

Qərargah bölüyünün tank əleyhinə taqımının komandiri, motoatıcı bölüyün motoatıcı taqımının komandiri, motoatıcı bölüyün komandiri, motoatıcı taborun (BMP-2) motoatıcı bölüyünün komandiri, mexanikləşdirilmiş taborun (BMP-2) mexanikləşdirilmiş bölüyünün komandiri, mexanikləşdirilmiş taborun (BTR-82A) qərargah rəisi – tabor komandirinin müavini vəzifələrində xidmət edib.

Vətən müharibəsində qələbənin qazanılmasında müstəsna rolu olub. Döyüşlərdə xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib. Şəxsi rəşadət və şücaət nümunələri göstərib.

2020-ci il noyabrın 7-də Şuşa şəhəri istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Şücaətə görə" medalları ilə, ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda" medalı ilə təltif olunub.







*Köksünə xal düşüb xarıbülbülün,*
*Kəsilmir naləsi sarı bülbülün,*
*Gözünü yoldan yığ ağır bir elin*
*Get oğlum, yaxşı yol, Şuşa çağırır!*

*Bütün aləm bilir, Şəhidlər ölməz,*
*Adı tarixlərdən heç vaxt silinməz,*
*Vətən müqəddəsdir, Vətən bölünməz,*
*Get oğlum, yaxşı yol, Şuşa çağırır!*



**Hüseynov**
**Zaur**
**Vaqif oğlu**
(1995-2020)

24 iyun 1995-ci ildə Masallı rayonunun Hişkədərə kəndində anadan olub.

2014-cü ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini, 2019-cu ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun (BMP-1) motoatıcı bölüyünün motoatıcı taqımının komandiri, mexanikləşdirilmiş (BMP-1) taqımın komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündə, 2020-ci il sentyabrın 27-də Füzuli rayonu istiqamətində torpaqların işğaldan tezliklə azad ediləcəyinə böyük əminliklə döyüşlərə atılsa da, hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən igidlik və şücaət nümunəsi göstərərək şəhidlik zirvəsinə ucalıb.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018), ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Hüseynzadə**
**Həmidağa**
**Bağı oğlu**
(1990-2020)

13 avqust 1990-cı ildə Bakı şəhərində anadan olub. 2008-ci ildə tam orta məktəbi, 2012-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini, 2013-cü ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 iyun 2012-ci il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 25 iyun 2019-cu il tarixli əmri ilə "kapitan" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı taborun qərargah bölüyünün tank əleyhinə taqımının komandiri, xüsusi təyinatlı taborun xüsusi təyinatlı dəstəsinin xüsusi təyinatlı qrupunun baş kəşfiyyatçısı, xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı komandasının baş kəşfiyyatçısı, xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı komanda komandirinin müavini, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupu komandirinin müavini vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündə xüsusi əməliyyatda fəallıq göstərib, üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlib, qələbənin əldə olunması naminə son nəfəsinə, son gülləsinədək döyüşüb.

2020-ci il sentyabrın 28-də Göygöl rayonu istiqamətində, Murovdağ zirvələri uğrunda xüsusi əməliyyat zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü

dərəcəli medalları ilə, ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.



*Yol ver dağlar, yol ver gedim,*
*Kəlbəcərə tələsirəm!*







**Xasıyev**
**Röyal**
**Abuzər oğlu**
(1993-2020)

19 aprel 1993-cü ildə Şəki rayonunun İkinci Biləcik kəndində anadan olub. 2012-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2016-cı il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 23 iyun 2019-cu il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Artilleriya taqımının komandiri, artilleriya taqımının komandiri - batareyanın baş zabiti, minaatan batareyanın minaatan taqımının komandiri – batareyanın baş zabiti, mexanikləşdirilmiş taborun (BMP-1) minaatan batareyasının minaatan taqımının komandiri – batareyanın baş zabiti, mexanikləşdirilmiş taborun (BTR, SandCat) minaatan batareyasının komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsində komandiri olduğu minaatan batareyanın şəxsi heyəti ilə birlikdə düşmənə xeyli təlafat verib. Qarşıya qoyulmuş döyüş tapşırıqlarını uğurla yerinə yetirib.

2020-ci il oktyabrın 7-də Füzuli rayonu istiqamətində aparılan hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edil-

məsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.



*Bir anan Vətəndir, bir anan da mən,*
*Get oğlum, yaxşı yol, Vətən çağırır!*
*İntiqam, qisas al yağı düşməndən,*
*Get oğlum, yaxşı yol, Vətən çağırır!*

*Qarabağ deməkdən dil qabar oldu,*
*Cıdırın çəməni, çiçəyi soldu,*
*Bu yol şərəfli yol, uğurlu yoldu,*
*Get oğlum, yaxşı yol, Vətən çağırır!*







**Xəlilbəyli**
**Turqut**
**Nadir oğlu**
**(1993-2020)**

4 iyul 1993-cü ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Yengicə kəndində anadan olub. 2011-ci ildə «Şərur türk liseyi»ni, 2018-ci ildə Azərbaycan Tibb Universiteti Hərbi Tibb Fakültəsinin "Hərbi həkim ixtisası hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 28 iyun 2018-cu il tarixli əmri ilə "tibb xidməti leytenantı" hərbi rütbəsi verilib.

Hərbi hissənin tibb məntəqəsinin həkimi, hərbi hissənin tibb xidməti rəisi – tibb məntəqəsinin rəisi vəzifələrində xidmət edib.

Vətən müharibəsində yaralılara ilk yardım göstərilməsində, onların təxliyyə olunmasında şəxsən iştirak edib. Dəfələrlə mərmilər altında döyüş meydanlarına daxil olub və xidməti vəzifələrini şərəflə yerinə yetirərək mərdlik və igidlik nümunələri göstərib.

2020-ci il oktyabrın 8-də Füzuli rayonu ərazisində gedən döyüşlərdə yaralıların təxliyyəsi zamanı düşmən tərəfindən atılan artilleriya mərmisinin partlayışı nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni (ölümündən sonra) və "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif edilib.



**Xəlilli**
**Namiq**
**Həsən oğlu**
(1994-2020)

25 fevral 1994-cü ildə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Azad kəndində anadan olub.

2012-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2016-cı il tarixli əmri ilə "leytenant", Əlahiddə Ümumqoşun Ordu Komandanının 26 iyun 2019-cu il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı taborun qərargah bölüyünün tank əleyhinə taqımının komandiri, motoatıcı bölük komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsi cəbhələrində komandiri olduğu motoatıcı bölüyün qarşısında qoyulan döyüş tapşırıqlarını layiqincə yerinə yetirib.

2020-ci il oktyabrın 23-də Tərtər və Ağdərə rayonları istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Laçının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Xəlilov**
**Coşqun**
**Mikayıl oğlu**
(1998-2020)

29 oktyabr 1998-ci ildə Neftçala rayonunun Xolqaraqaşlı kəndində anadan olub. 2015-ci ildə Xolqaraqaşlı kənd tam orta məktəbini, 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun (BMP-2) motoatıcı bölüyünün motoatıcı taqımının komandiri, mexanikləşdirilmiş taborun (BMP-2) mexanikləşdirilmiş taqımının komandiri, mexanikləşdirilmiş taborun (BMP-2) mexanikləşdirilmiş bölüyünün komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsində komandiri olduğu bölüyün şəxsi heyəti ilə birlikdə qarşıya qoyulmuş döyüş tapşırıqlarını layiqincə yerinə yetirib.

2020-ci il oktyabrın 5-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Xəlilov**
**Nadir**
**Ağadadaş oğlu**
(1984-2020)

3 noyabr 1984-cü ildə Astara rayonunda anadan olub. 2002-ci ildə tam orta məktəbi bitirib. 16 yanvar 2003-cü ildən 6 iyul 2004-cü iləədək müddətli həqiqi hərbi xidmət keçib. 2005-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 20 avqust 2005-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Tank taqımının tank komandiri, tank taborunun rabitə taqımının tank komandiri – idarəetmə manqasının komandiri, tank bölüyünün tank komandiri vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 30-da Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən atılan mərmi partlayışı nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Xəlilov**
**Namiq**
**İlyas oğlu**
(1992-2020)

15 iyun 1992-ci ildə Əli-Bayramlı (indiki Şirvan) şəhərində anadan olub.

2009-cu ildə tam orta məktəbi bitirib. 8 iyul 2010-cu ildən Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçməyə başlayıb. 2011-ci ildə hərbi hissə nəzdində "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 5 iyul 2011-ci il tarixli əmri ilə "kiçik gizir", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 8 iyun 2017-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı alayın xüsusi təyinatlı qrupunun kəşfiyyatçısı (radioteleqrafçı), xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 16-da Füzuli rayonu ərazisində xüsusi əməliyyat tapşırığını yerinə yetirərkən igidlik göstərərək şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Kəlbəcərin azad olunmasına görə" və Azərbaycan Respublikası Müdafiə nazirinin əmri ilə "Şücaətə görə" medalları ilə təltif olunub.



**Xəlilov**
**Vidadi**
**Vaqif oğlu**
(1982-2020)

16 iyul 1982-ci ildə Göyçay rayonunda anadan olub. 1999-cu ildə Göyçay şəhər 3 saylı orta məktəbini, 2003-cü ildə Azərbaycan Ali Hərbi Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi), 2004-cü ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 25 iyul 2003-cü il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, motoatıcı taborun qərargah rəisinin maddi-texniki təminat üzrə köməkçisi, motoatıcı taborun komandirinin maddi-texniki təminat üzrə müavini, motoatıcı taborun qərargah rəisi – tabor komandirinin müavini, hərbi hissənin əməliyyat bölməsi rəisinin döyüş və komandir hazırlığı üzrə köməkçisi, hərbi hissənin əməliyyat bölməsi rəisinin qərargahın planlaşdırma fəaliyyəti üzrə müavini, hərbi hissənin döyüş hazırlığı bölməsi rəisinin baş köməkçisi, hərbi hissənin döyüş hazırlığı bölməsinin rəisi vəzifələrində xidmət edib.

"Polkovnik-leytenant" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 30-da Laçın rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918 - 2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)",





"Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub.



***"Əziz Şuşa, sən azadsan!" – dedi, Ali Baş Komandan,***
***Gözün aydın, elim-obam, gözün aydın, Azərbaycan!***
***Qayıdırıq Şuşaya biz, güllənsin yaylaq yolları,***
***Tikək, quraq, yaradaq biz, bəzəsin Bayraq yolları.***
***Qoy bir daha dünya bilsin, Qarabağ Azərbaycandır,***
***Uğrunda biz qan tökmüşük, Vətənə canlar qurbandı!***



**Xıdırov Elgün Fuad oğlu**
(1989-2020)

23 dekabr 1989-cu ildə Goranboy rayonunun Xoylu kəndində anadan olub. 2011-ci ildə Gəncə Dövlət Universitetini bitirib.

2 iyul 2011-ci ildən 4 iyul 2012-ci ilədək Ədliyyə Nazirliyi Mühafizə alayında müddətli həqiqi hərbi xidmət keçib. 2015-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 11 fevral 2015-ci il tarixli əmri ilə "leytenant", 12 fevral 2018-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Mühafizə və texniki bölük komandirlərinin şəxsi heyətlə iş üzrə müavini, mühafizə bölüyünün komandiri, motoatıcı və mexanikləşdirilmiş bölüklərin (BMP-3) komandiri vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 27-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Xosizadə Müşfiq Zakir oğlu**
(1993-2020)

14 aprel 1993-cü ildə Biləsuvar rayonunun Günəşli kəndində anadan olub.

2009-cu ildə tam orta məktəbi bitirib. 18 aprel 2011-ci ildən 25 sentyabr 2012-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2014-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 25 yanvar 2014-cü il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Mexanikləşdirilmiş taqımın döyüş maşını komandiri – mexanikləşdirilmiş manqanın komandiri, motoatıcı taborun (BMP-3) motoatıcı bölüyünün motoatıcı taqımının döyüş maşını komandiri – döyüş maşınları heyətinin rəisi, mexanikləşdirilmiş taqımın döyüş maşınları heyətinin döyüş maşını komandiri vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 27-də Füzuli rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**İbadov Aqşin Nazim oğlu**
(1984-2020)

24 avqust 1984-cü ildə Lənkəran rayonunun Boladi kəndində anadan olub.

2011-ci ildə tam orta məktəbi, 2005-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini, 2020-ci ildə Türkiyə Respublikası Quru Qoşunları Hərbi Akademiyasını bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2005-ci il tarixli əmri ilə "leytenant hərbi rütbəsi verilib.

Kəşfiyyat taqım və bölüyünün komandiri, kəşfiyyat bölməsinin rəisi – kəşfiyyat rəisi, əməliyyat bölməsi rəisinin planlaşdırma üzrə baş köməkçisi vəzifələrində xidmət edib. "Mayor" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 19-da Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlarda düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.







**İbadov Murad Yusif oğlu**
(1993-2020)

29 dekabr 1993-cü ildə Qobustan rayonunun Cəyirli kəndində anadan olub. 2011-ci ildə Cəyirli kənd Ayaz Quliyev adına tam orta məktəbini, 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 26 iyun 2015-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 iyun 2018-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Vətən müharibəsinin ilk günündən komandiri olduğu motoatıcı bölüyün şəxsi heyəti ilə birlikdə döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 17-də Tərtər və Ağdərə rayonları istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Hərbi xidmətlərə görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**İbayev**
**Elmar**
**Hikmət oğlu**
(1978-2020)

29 yanvar 1978-ci ildə Lənkəran rayonunda anadan olub. 1998-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasını bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən “leytenant” hərbi rütbəsi verilib.

Vətən müharibəsi başlananda qismən səfərbərlik üzrə yenidən orduya çağırılıb və “baş leytenant” rütbəsində motoatıcı taqım komandiri kimi döyüşlərdə iştirak edib.

Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın “Dəmir Yumruq” əməliyyatı ilə başladığı Vətən müharibəsinin ilk günündən Füzuli və Xocavənd rayonlarının işğal edilmiş yaşayış məntəqələrinin azad edilməsi və respublikamızın ərazi bütövlüyünün bərpa olunması uğrunda döyüşlərdə komandiri olduğu motoatıcı taqımın şəxsi heyəti ilə birlikdə qarşıya qoyulan döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsi üçün səylərini əsirgəməyib.

2020-ci il oktyabrın 12-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Vətən uğrunda” (ölümündən sonra) medalı ilə təltif olunub.







**İbrahimli**
**Adil**
**Asəm oğlu**
(1992-2020)

9 sentyabr 1992-ci ildə Sumqayıt şəhərində anadan olub. 2011-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini, 2016-cı ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin “Zabit ixtisas kursu”nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 26 iyun 2015-ci il tarixli əmri ilə “leytenant hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı komandasının baş kəşfiyyatçısı, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun baş kəşfiyyatçısı, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupu komandirinin müavini vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 iyun 2018-ci il tarixli əmri ilə “baş leytenant” hərbi rütbəsi verilib.

Vətən müharibəsinin ilk günündən xüsusi əməliyyatlarda fəal iştirak edib. Şəxsi rəşadət və şücaət nümunələri göstərib.

2020-ci il noyabrın 2-də Xocavənd rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)”, “Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)”, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını

yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.



*Şuşanın üstündən çəkilib duman,*
*Bayrağa bürünüb hər tərəf, hər yan.*
*Uğurla çıxmısan haqq savaşından*
*Unutmaz obalar, bu ellər səni!*







**İbrahimli Elməddin Zeynəddin oğlu**
**(1999-2020)**

19 noyabr 1999-cu ildə Cəlilabad rayonunun Hacıcavad kəndində anadan olub. 2017-ci ildə tam orta məktəbi bitirib. 8 yanvar 2018-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. "Kəşfiyyatçı-pulemyotçu" və "kəşfiyyatçı-qumbaraatan" vəzifələrində xidmət edib.

2020-ci ildə hərbi hissə nəzdində "Təməl Xüsusi Təyinatlı kursu"nu bitirib.

Birlik komandirinin müvafiq əmrinə əsasən "kiçik gizir" hərbi rütbəsi verilib.

Xüsusi əməliyyat taborunun tibb məntəqəsinin sanitar təlimatçısı, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmətini davam etdirib.

Müharibənin ilk günündən özünü mahir kəşfiyyatçı kimi göstərib. Füzuli və Xocavənd rayonlarının işğaldan azad olunması uğrunda döyüşlərdə xüsusi əməliyyat tapşırıqlarını uğurla yerinə yetirib.

2020-ci il oktyabrın 16-da Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlarda xidməti vəzifələrini yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Kəlbəcərin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**İbrahimov Xeyrulla Mais oğlu**
(1971-2020)

19 aprel 1971-ci ildə Bakı şəhərində anadan olub. 1988-ci ildə Cəmşid Naxçıvanski adına İbtidai Hərbi Məktəbi (indiki Cəmşid Naxçıvanski adına hərbi lisey), 1992-ci ildə Xmelnitski adına Ali Artilleriya Komandanlıq Məktəbini, 2000-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasını bitirib.

Ukrayna Respublikası Müdafiə nazirinin 21 iyun 1992-ci il tarixli əmri ilə "leytenant hərbi rütbəsi verilib.

Haubitsalı artilleriya divizionunun qərargah rəisi, zenit-artilleriya divizionunun komandiri, artilleriya divizionunun komandiri, haubitsalı artilleriya divizionunun komandiri, hərbi hissənin artilleriya rəisi, briqada komandirinin müavini, briqada komandirinin maddi-texniki təminat üzrə müavini – maddi-texniki təminat bölməsinin rəisi, briqada komandiri, əməliyyat bölməsinin zabiti – bölmə rəisinin baş köməkçisi vəzifələrində xidmət etdikdən sonra 27 oktyabr 2011-ci ildə ehtiyata buraxılıb.

"Polkovnik-leytenant" hərbi rütbəsinə qədər yüksəlib.

Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq yenidən hərbi xidmətə çağırılıb və hərbi hissənin artilleriya rəisi – artilleriya şöbəsinin rəisi vəzifəsində döyüşlərdə iştirak edib.

Ermənistan silahlı birləşmələrinin işğal etdiyi bir çox yaşayış məntəqələrinin azad olunmasında üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlib.

2020-ci il oktyabrın 26 Xocavənd rayonunun Zoğalbulaq kəndi ərazisində döyüş əməliyyatları zamanı qəhrəmancasına şəhid olub.





Sağlığında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Hərbi xidmətlərə görə", Müdafiə nazirinin əmrinə əsasən "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)" medalları ilə təltif olunub.

Ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda" "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.



***Topların səsindən dağlar diksinir,***
***Düşmən al qanına boyanır bu gün!***



**İbrahimov Zamanət Gülhəsən oğlu**
(1989-2020)

11 may 1989-cu ildə Salyan rayonunun Sarvan kəndində anadan olub. 2005-ci ildə 9-cu sinfi bitirib. 9 iyul 2007-ci ildən 3 yanvar 2009-cu ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2009-cu ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "MAHHXHQ hazırlığı", 2019-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı" kurslarını bitirib.

Mühəndis-kəşfiyyat manqasının komandiri, motoatıcı taqım komandirinin müavini vəzifələrində xidınət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 18 may 2019-cu il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

2020-ci il sentyabrın 27-də Tərtər rayonunun Talış kəndi istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub.







**İbrəhimov Əlövsəd Seyidxan oğlu**
(1995-2020)

21 aprel 1995-ci ildə Şamaxı rayonunda anadan olub. 2010-cu ildə 9-cu sinfi bitirib. 14 oktyabr 2016-cı ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2018-ci ildə "MAHHXHQ hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 14 fevral 2020-ci il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı taqımın atəş dəstək manqasının minaatan qrupunun heyət nəfəri, xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündə Murovdağ zirvələrinin düşməndən azad edilməsi uğrunda xüsusi əməliyyatlara cəlb edilib və kəşfiyyatçı kimi üzərinə düşən vəzifəni uğurla yerinə yetirib.

Çətin relyef şəraitində, sərt sıldırım və qayalarla hərəkət edərək düşmən mövqeləri və canlı qüvvəsi barədə ətraflı məlumat toplayaraq aidiyyatı üzrə çatdırıb.

2020-ci il sentyabrın 28-də Murovdağın Kəlbəcər rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.



**İmaməliyev
Sərraf
Murtuzəli oğlu**
(1996-2020)

10 sentyabr 1996-cı ildə Qusar rayonunun Əniq kəndində anadan olub. 2014-cü ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Kəşfiyyat bölüyünün kəşfiyyat-müşahidə taqımının komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsində komandiri olduğu kəşfiyyat-müşahidə taqımının şəxsi heyəti ilə birlikdə mühüm tapşırıqları uğurla yerinə yetirib və Füzuli rayonunun bir neçə yaşayış məntəqəsinin düşmən işğalından azad edilməsində fəallıq göstərib.

2020-ci il noyabrın 1-də Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən odlu silahdan açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**İmanzadə
Ayaz
Daşqın oğlu**
(1996-2020)

3 dekabr 1996-cı ildə Neftçala şəhərində anadan olub. 2015-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri vəzifəsində xidmət edib.

Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsində Füzuli rayonunun yaşayış məntəqələrinin azad edilməsi uğrunda döyüşlərdə xüsusilə fərqlənib.

2020-ci il oktyabrın 2-də Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**İsayev**
**Təbriz**
**İsabala oğlu**
**(1993-2020)**

12 mart 1993-cü ildə Cəlilabad rayonunun Bacirəvan kəndində anadan olub. 2008-ci ildə 9-cu sinfi bitirib. 30 aprel 2011-ci ildən 28 oktyabr 2012-ci ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib. 2014-cü ildə hərbi hissə nəzdində “MAHHXHQ hazırlığı” kursunu bitirib.

Xüsusi Təyinatlı Qüvvələrin Komandanının əmri ilə “kiçik çavuş”, Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 14 fevral 2020-ci il tarixli əmri ilə “kiçik gizir” hərbi rütbəsi verilib.

Motoatıcı manqa komandiri, kəşfiyyat taqımının kəşfiyyat manqasının kəşfiyyatçısı-pulemyotçu, xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı komandasının kəşfiyyatçısı (pulemyotçu), xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı komandasının kəşfiyyatçısı (atıcı), xüsusi kəşfiyyat dəstəsinin xüsusi kəşfiyyat qrupunun kəşfiyyatçısı (istehkamçı), çevik kəşfiyyat taqımının çevik kəşfiyyat qrupunun kəşfiyyatçısı (istehkamçı), xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

Vətən müharibəsində cəsur kəşfiyyatçı kimi tanınıb, döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 10-da Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetir-





diyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Vətən uğrunda” (ölümündən sonra), “Kəlbəcərin azad olunmasına görə” (ölümündən sonra) və Azərbaycan Respublikası Müdafiə nazirinin əmrinə əsasən “Şücaətə görə” (ölümündən sonra) medalları ilə təltif olunub.



***Bütün dünya gördü güc-qüdrətini,***
***Qarabağ uğrunda şücaətini,***
***Qazandın millətin məhəbbətini***
***Vətənin qəhrəman, igid əsgəri!***

***Heç vaxt unutmadın əsgər andını,***
***Daim uca tutdun əsgər adını,***
***Doğrultdun Vətənin etimadını***
***Vətənin qəhrəman, igid əsgəri!***



**İsgəndərov Arzu Seymur oğlu**
(1988-2020)

27 oktyabr 1988-ci ildə Şəmkir rayonunun Zəyəm qəsəbəsində anadan olub. 2006-cı ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2010-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2011-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində "Quru Qoşunlarının idarə edilməsinin avtomatlaşdırılması" kursunu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2010-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Rabitə bölüyünün avtomatik idarəetmə sistemləri taqımının mühəndis – proqramçısı, qarnizon rabitə qovşağı və AİS bölüyünün avtomatik idarəetmə sistemləri bölməsinin rəisi, hərbi hissənin rabitə bölməsinin zabiti (AİS-nə nəzarət və informasiya əlaqəsinə cavabdeh), rabitə bölməsi rəisinin köməkçisi (avtomatik idarəetmə sistemlərinə nəzarət və informasiya əlaqəsi üzrə), rabitə bölüyünün rabitə qovşağının (stasionar) rəisi – bölük komandirinin müavini, qarnizon rabitə qovşağının avtomatik idarəetmə sistemləri bölməsinin rəisi – qovşaq rəisinin müavini vəzifələrində xidmət edib.

"Kapitan" hərbi rütbəsinədək yüksəlib.

2016-cı ilin Aprel döyüşləri zamanı, eləcə də Vətən müharibəsində qardaşı Amin İsgəndərov da onunla birlikdə döyüşlərdə fəal iştirak edib (A.İsgəndərov "Günay" sığortanın Şəmkir filialının rəhbəri vəzifəsindən könüllü olaraq Vətən müharibəsinə yollanmışdı).

2020-ci il noyabrın 13-də Xocavənd uğrunda hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.





Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



***Düşmən keçə bilməz bu səngərlərdən,***
***Bu yerdə oğullar canavardılar!***



**İsgəndərov**
**Əsəd**
**Bəybala oğlu**
(1990-2020)

27 oktyabr 1990-cı ildə Göygöl rayonunun Topalhəsənli kəndində anadan olub. 2008-ci ildə tam orta məktəbi bitirib. 27 oktyabr 2008-ci ildən 1 aprel 2010-cu ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2010-cu ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "MAH-HXHQ hazırlığı", 2018-ci ildə "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 19 may 2018-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Tank taqımının mexanik-sürücüsü, tank taqımının baş mexanik-sürücüsü, özüyeriyən artilleriya taqımının top komandiri vəzifələrində xidmət edib.

Ermənistanın təxribatlarına cavab olaraq respublikamızın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsinin ilk günündən döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 2-də Füzuli rayonunun Şükürbəyli kəndi istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**İskəndərov**
**Elvin**
**Akif oğlu**
(1988-2020)

14 avqust 1988-ci ildə Dəvəçi rayonunda anadan olub. 2006-cı ildə tam orta məktəbi bitirib. 8 oktyabr 2006-cı ildən 20 mart 2008-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2009-cu ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "MAH-HXHQ hazırlığı", 2011-ci ildə hərbi hissənin nəzdində "Gizir hazırlığı" kurslarını bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 11 fevral 2011-ci il tarixli əmri ilə "kiçik gizir", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 23 yanvar 2018-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı manqa komandiri, xüsusi təyinatlı qrupun kəşfiyyatçısı (radioteleqrafçı), xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı, çevik kəşfiyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 5-də Cəbrayıl rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**İskəndərov Elvin Mətləb oğlu**
(1989-2020)

6 noyabr 1989-cu ildə Mingəçevir şəhərində anadan olub. 2007-ci ildə tam orta məktəbi bitirib. 4 yanvar 2008-ci ildən 3 iyul 2009-cu ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2015-ci ildə hərbi hissənin nəzdində "MAHHXHQ hazırlığı" kursunu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 1 oktyabr 2016-cı il tarixli əmri ilə "kiçik gizir", 9 aprel 2019-cu il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı manqa komandiri, kəşfiyyat qrupunun kəşfiyyatçısı, kəşfiyyat manqasının kəşfiyatçısı, xüsusi təyinatlı kəşfiyyat bölüyünün xüsusi təyinatlı kəşfiyyat qrupunun kəşfiyyatçısı – istehkamçı, kəşfiyyat manqasının komandiri, motoatıcı taqım komandirinin müavini vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 27-də Tərtər rayonunun Talış kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən igidliklə şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub.







**İslamov Bəxtiyar Saleh oğlu**
(1997-2020)

11 iyun 1997-ci ildə Şirvan şəhərində anadan olub.

2015-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun baş kəşfiyyatçısı vəzifəsində xidmət edib.

Vətən müharibəsinin ilk günündən Füzuli və Cəbrayıl rayonlarının işğaldan edilməsi uğrunda döyüşlərdə peşəkar kəşfiyyatçı kimi bir çox xüsusi əməliyyat tapşırıqlarını uğurla yerinə yetirib.

2020-ci il oktyabrın 11-də Füzuli rayonu ərazisində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən mərdlik və igidlik nümunələri göstərərək şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Cəsur döyüşçü" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**İslamov Samir Xalıq oğlu**
(1983-2020)

5 fevral 1983-cü ildə Sumqayıt şəhərində anadan olub. 2000-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2004-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 iyun 2004-cü il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı minaatan taqımı komandiri – batareyanın baş zabiti, minaatan batareya komandiri, haubitsalı artilleriya batareyasının komandiri, hərbi hissənin əməliyyat bölməsi rəisinin qərargahın gündəlik fəaliyyətinin planlaşdırılması və qoşun xidməti üzrə köməkçisi vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 9-da Tərtər rayonunun Talış kəndi ərazisində döyüş tapşırığını yerinə yetirərkən mina partlayışı nəticəsində şəhid olub.

Sağlığında "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.







**İsmayılov Abbasəli İmamqulu oğlu**
**(1995-2020)**

20 sentyabr 1995-ci ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Qahab kəndində anadan olub. 2013-cü ildə Heydər Əliyev adına hərbi liseyi, 2017-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və "Zabit ixtisas hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrlərinə əsasən "leytenant" və "baş leytenant" hərbi rütbələri verilib.

Kəşfiyyat taqımının komandiri, kəşfiyyat bölüyünün komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsində mühüm kəşfiyyat tapşırıqlarını uğurla yerinə yetirib.

2020-ci il oktyabrın 22-də Qubadlı rayonu istiqamətində Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" (ölümündən sonra) ordeni və "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif edilib.



**İsmayılov**
**Aqil**
**Əli oğlu**
(1996-2020)

18 iyul 1996-cı ildə Naxçıvan Muxtar Respublikasını Şərur rayonunun Çomaxtur kəndində anadan olub.

2014-cü ildə Heydər Əliyev adına hərbi liseyi, 2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Azərbaycan Res-publikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Kəşfiyyat dəstəsinin çevik kəşfiyyat taqımının çevik kəşfiyyat qrupunun komandiri, xüsusi kəşfiyyat taqımının xüsusi kəşfiyyat qrupunun komandiri vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 28-də Göygöl rayonu istiqamətində, Murovdağ zirvələrinin düşməndən azad edilməsi uğrunda hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunub.





**İsmayılov**
**Aslan**
**Əvəz oğlu**
(1993-2020)



1 iyun 1993-cü ildə Salyan rayonunun Sarvan kəndində anadan olub. 2011-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 26 iyun 2015-ci il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 iyun 2018-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölüyün (BTR-82A) motoatıcı taqımının komandiri, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun baş kəşfiyyatçısı vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 9-da Füzuli rayonu ərazisində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən mərdlik və igidlik nümunələri göstərərək şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "İgidliyə görə" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra), "Kəlbəcərin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**İsmayılov Camal Vidadi oğlu**
**(1984-2020)**

7 iyul 1984-cü ildə Neftçala rayonunun Sovetabad kəndində anadan olub. 2001-ci ildə tam orta məktəbi bitirib. 23 iyul 2002-ci ildən 30 avqust 2003-cü ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2004-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müvafiq əmrinə əsasən "gizir" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı alayın xüsusi təyinatlı qrupunun kəşfiyyatçısı (radioteleqrafçı), xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

Vətən müharibəsində təcrübəli, bacarıqlı kəşfiyyatçı kimi tanınıb, döyüşlərdə komandiri olduğu xüsusi əməliyyat qrupu ilə birlikdə bir çox mühüm tapşırıqları uğurla yerinə yetirib. Yaşayış məntəqələrinin azad edilməsində onların vaxtında ötürdüyü məlumatlar xüsusi əhəmiyyət kəsb edib.

2020-ci il oktyabrın 19-da Füzuli rayonu ərazisində hərbi əməliyyatlar zamanı xüsusi kəşfiyyat tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)" "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi





bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və Müdafiə nazirinin əmrinə əsasən "Hərbi xidmətdə fərqlənməyə görə" 2-ci dərəcəli medallarla təltif olunub.



***Döyüşlərdə şəhidlik zirvəsinə ucalsaq da, qədirbilən xalqımız bizi və bizim xidmətlərimizi heç vaxt unutmayacaq! Gələcək nəsillər bizi hörmət və ehtiramla yad edəcək. Bizi qələbədən-qələbəyə aparan da bu inam idi.***



**İsmayılov Ceyhun Abbas oğlu**
(1985-2020)

30 dekabr 1985-ci ildə Gəncə şəhərində anadan olub. 2004-cü ildə tam orta məktəbi bitirib. 15 iyul 2004-cü ildən 14 yanvar 2006-cı ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2009-cu ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "MAHHXHQ" hazırlığı, 2015-ci ildə "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 8 may 2015-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Artilleriya taqımının top komandiri, haubitsalı artilleriya taqımı komandirinin müavini – top komandiri, mexanikləşdirilmiş və motoatıcı taqımların döyüş maşını komandiri – döyüş maşınları heyətinin rəisi vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 1-də Füzuli rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.





**İsmayılov Elçin Mübariz oğlu**
(1989-2020)



30 may 1989-cu ildə Ucar rayonunda anadan olub. 2006-cı ildə tam orta məktəbi, 2010-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2010-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, xüsusi təyinatlı qrup komandirinin müavini, xüsusi əməliyyat qrupu komandirinin müavini, xüsusi əməliyyat qrupunun komandiri, xüsusi əməliyyat taborunun əməliyyat zabiti vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 7-də Cəbrayıl rayonu ərazisində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.



**İsmayılov Əmrah Xudaverdi oğlu**
(1994-2020)

10 noyabr 1994-cü ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda anadan olub. 2014-cü ildə hərbi hissənin nəzdində "Gizir hazırlığı kursu"nu bitirib.

Əlahiddə Ümumqoşun Ordu Komandanının 16 avqust 2014-cü il tarixli əmri ilə "gizir", 9 noyabr 2020-ci il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı qrupun manqa komandiri, kəşfiyyat manqasının qrup komandiri, kəşfiyyat manqasının komandiri, xüsusi təyinatlı bölüyün xüsusi təyinatlı qrup komandirinin müavini vəzifələrində xidmət edib.

44 günlük Vətən müharibəsinin ilk günündən Cəbrayıl, Füzuli, Xocavənd və Şuşa rayonlarının yaşayış məntəqələrinin, eləcə də bir çox strateji yüksəkliyin düşmənlərdən azad edilməsi uğrunda döyüşlərdə kəşfiyyat tapşırıqlarını uğurla yerinə yetirib.

2020-ci il noyabrın 10-da Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması uğrunda gedən döyüşlərdə Şuşa şəhəri ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən atılan mərminin partlaması nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.







**İsmayılov Fuad Murad oğlu**
(1986-2020)

26 oktyabr 1986-cı ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Qıvraq qəsəbəsində anadan olub. 2005-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2009-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2009-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

SQ TTM-in təlim komandiri, tədris prosesinin təminatı taborunun mühafizə bölüyünün komandiri, təlim maşınları və silahları bölüyü komandirinin müavini, "Gizir və MAHHXHQ hazırlığı kursu"nun bölük komandiri, motoatıcı taborun (BMP-1) qərargah rəisi – tabor komandirinin müavini, motoatıcı taborun komandiri vəzifələrində xidmət edib. "Mayor" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 4-də Tərtər rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalları ilə təltif olunub.



**İsmayılov İmamverdi Yoloğlu oğlu**
(1989-2020)

1 may 1989-cu ildə Qazax rayonunun Aşağı Əskipara kəndində anadan olub. 2006-cı ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2010-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2010-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, qərargah bölüyünün komandiri, motoatıcı taborun (BTR-82A) motoatıcı bölüyünün komandiri, həmlə bölüyünün komandiri, tabor komandirinin maddi-texniki təminat üzrə müavini – maddi-texniki təminat bölməsinin rəisi, hərbi hissənin qərargah rəisi – tabor komandirinin müavini vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

Ermənistanın intensiv təxribat əməllərinə cavab olaraq Azərbaycanın işğal altında olan yaşayış məntəqələrinin azad olunması və respublikamızın ərazi bütövlüyünün bərpası uğrunda "Dəmir Yumruq" əməliyyatı ilə başladığı Vətən müharibəsinin ilk günündə döyüşlərə atılıb və şücaət nümunələri göstərərək xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib.

2020-ci il sentyabrın 29-da Goranboy istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordu-





sunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 3-cü dərəcəli "Rəşadət" ordeni və "Vətən uğrunda medalı ilə təltif edilib.




*Səsimə səs versin ellər, obalar,*
*Kükrəyib bəndləri yıxmaq vaxtıdır!*
*Yurduma uzanan qara əlləri*
*Dağlamaq, yandırmaq, yaxmaq vaxtıdır!*

*Haçandır çağlamır şır-şır bulaqlar,*
*Kəsilir pöhrələr, fidan budaqlar,*
*Yaman qəribsəyib oba-oymaqlar,*
*Arandan yaylağa qalxmaq vaxtıdır!*



**İsmayılov Kamran Vaqif oğlu**
(1991-2020)

9 fevral 1991-ci ildə Yevlax rayonunda anadan olub. 2008-ci ildə tam orta məktəbi, 2012-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2013-cü ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 iyun 2012-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun qərargah bölüyünün tank əleyhinə taqımının komandiri, motoatıcı taqım komandiri, motoatıcı taborun (BTR-82A) motoatıcı bölüyünün motoatıcı taqımının komandiri, mexanikləşdirilmiş taqımın (BTR-82A) komandiri, mexanikləşdirilmiş bölüyün (BTR-82A) komandiri vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində komandiri olduğu mexanikləşdirilmiş bölüyə bacarıqla rəhbərlik edib, qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlib, şəxsi şücaət nümunələri göstərib, bir çox yaşayış məntəqələrinin azad edilməsində xüsusilə fərqlənib.

2020-ci il oktyabrın 10-da Talış və Suqovuşan kəndləri istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və





döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda medalı ilə təltif edilib.



*Həsrət Qırxqızımın qəddini əyib,*
*Bülbülün köksünə güllələr dəyib,*
*Qəzəbi, nifrəti şimşək eləyib,*
*Düşmənin başına çaxmaq vaxtıdır!*

*Hoydu Misri qılınc, hoydu Koroğlu,*
*Hoydu Vətənimin igid, ər oğlu,*
*Ey Odlar Yurdunun hünərvər oğlu,*
*Murovdan Göyçəyə axmaq vaxtıdır!*



**İsmayılov Natiq Əjdər oğlu**
(1980-2020)

5 mart 1980-ci ildə Qəbələ rayonunda anadan olub. 1997-ci ildə Cəmşid Naxçıvanski adına İbtidai Hərbi Məktəbi (indiki Cəmşid Naxçıvanski adına hərbi lisey), 2001-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) və 2002-ci ildə "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı taborun kəşfiyyat taqımının komandiri, motoatıcı bölük komandiri, motoatıcı taborun (BTR T-82A) motoatıcı bölük komandiri, motoatıcı tabor (BTR-82A) komandirinin maddi-texniki təminat üzrə müavini, motoatıcı taborun (Matador) qərargah rəisi – tabor komandirinin müavini, dağ-atıcı taborun qərargah rəisi – tabor komandirinin müavini, mexanikləşdirilmiş taborun (BMP-3) komandiri vəzifələrində xidmət edib.

"Mayor" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində tabora peşəkarlıqla rəhbərlik edib, döyüşlərdə şəxsi şücaət və rəşadət nümunələri göstərib. Qarşıya qoyulmuş vəzifələri uğurla icra edib.

2020-ci il oktyabrın 17-də Xocavənd rayonu istiqamətində hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olub.

Sağlığında "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 3-cü dərəcəli "Rəşadət" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.







***Dağlar cana gəlsin, dağlar oyansın,***
***Hər yan al şəfəqə, nura boyansın,***
***Sönmüş ocaqların çırağı yansın,***
***Tankçılar atılır cəng meydanına!***



**İsmayılov Nizaməddin İsmayıl oğlu**
(1981-2020)

10 yanvar 1981-ci ildə Füzuli rayonunun Bala Bəhmənli kəndində anadan olub. 1998-ci ildə tam orta məktəbi bitirib. 15 yanvar 1999-cu ildən 1 iyul 2000-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2003-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 20 oktyabr 2015-ci il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilib.

Sülhməramlı qüvvələr taqımı komandirinin müavini, manqa komandiri, motoatıcı taqım komandirinin müavini, maddi-texniki təminat taqımının komandiri, motoatıcı bölüyün baş çavuşu, minaatan batareyasının baş çavuşu vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 27-də Füzuli rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**İsmayılov Rabil Elbrus oğlu**
(1980-2020)

12 fevral 1980-ci ildə Gəncə şəhərində anadan olub. 2001-ci ildə Bakı Dövlət Universitetini bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 sentyabr 2001-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

9 iyul 2003-cü ildən 9 yanvar 2005-ci ilədək Azərbaycan Ordusunda motoatıcı taborun tank əleyhinə taqımının komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq qismən səfərbərlik üzrə yenidən xidmətə çağırılıb.

Motoatıcı bölüyün (SandCat) motoatıcı taqımının komandiri vəzifəsində Cəbrayıl, Füzuli və Xocavənd uğrunda döyüşlərdə fəal iştirak edib.

2020-ci il noyabrın 7-də Cəbrayıl rayonu istiqamətində gedən hərbi əməliyyat zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**İsmayılov Tahir Niyazi oğlu**
(1988-2020)

30 yanvar 1988-ci ildə Qazax rayonunun Soflu kəndində anadan olub. 2006-cı ildə Qazax Dövlət Sosial İqtisadi Kollecini bitirib. 20 aprel 2006-cı ildən 15 sentyabr 2007-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2009-cu ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "MAHHXHQ hazırlığı", 2018-ci ildə "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 19 may 2018-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı manqa komandiri, pulemyot manqasının komandiri, kəşfiyyat manqasının kəşfiyyatçısı-sanitar, motoatıcı taqım komandirinin müavini, motoatıcı bölüyün (BMP-3) motoatıcı taqım komandirinin müavini vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 25-də Füzuli rayonunun Yuxarı Abdurəhmanlı kəndi istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**İsmayılov Vüsal Nəbi oğlu**
(1980-2020)

9 aprel 1980-ci ildə Oğuz rayonunun Xalxal kəndində anadan olub. 1997-ci ildə tam orta məktəbi bitirib. 4 oktyabr 1998-ci ildən 16 mart 1999-cu ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2003-cü ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 1 fevral 2003-cü il tarixli əmri ilə "gizir", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 21 dekabr 2018-ci il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqımın döyüş maşınının komandiri - manqa komandiri, mexanikləşdirilmiş taqımın döyüş maşını komandiri - manqa komandiri, motoatıcı taqımın (BMP-2) döyüş maşını komandiri- döyüş maşınları heyətinin rəisi vəzifələrində xidmət edib.

2020-ci il oktyabrm 2-də Füzuli rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**İsmayılzadə Səməndər Vahid oğlu**
(1990-2020)

25 avqust 1990-cı ildə Yevlax rayonunda anadan olub. 2007-ci ildə tam orta məktəbi bitirib. 2 oktyabr 2008-ci ildən 26 fevral 2010-cu ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2016-cı ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 12 aprel 2016-cı il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı manqa (BTR-82A) komandiri – döyüş maşını komandiri, həmlə manqasının döyüş maşını komandiri – həmlə manqasının komandiri, həmlə taqımı komandirinin müavini, motoatıcı taqım (BMP-3) komandirinin müavini vəzifələrində xidmət edib.

Cəbrayıl, Xocavənd və Füzuli rayonlarının yaşayış məntəqələrinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə iştirak edib.

2020-ci il oktyabrın 30-da Xocavənd rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**İsrafilov Kənan Faiq oğlu**
(1990-2020)

8 noyabr 1990-cı ildə Şəki şəhərində anadan olub. 2008-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2012-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və "Zabit ixtisas kursu"nu, 2020-ci ildə isə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasını bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 iyun 2012-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun qərargah bölüyünün tank əleyhinə taqımının komandiri, motoatıcı bölüyün komandiri, tank əleyhinə bölüyün komandiri, taborun qərargah rəisi – tabor komandirinin müavini, motoatıcı taborun komandiri vəzifələrində xidmət edib.

"Kapitan" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 5-də Goranboy rayonunun Tapqaraqoyunlu kəndinin Kəhrilər xarabalığı istiqamətində gedən döyüşlərdə xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunub.



**İzzətli**
**Fərid**
**Aydın oğlu**
(1994-2020)

21 mart 1994-cü ildə Şəki şəhərində anadan olub. 2011-ci ildə Şəki şəhəri 17 saylı orta məktəbini, 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2016-cı ildə isə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 26 iyun 2015-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Minaatan taqımın komandiri, motoatıcı taborun (Marauder) minaatan batareyasının minaatan taqımının komandiri, motoatıcı taborun (Matador) minaatan batareyasının minaatan taqımının komandiri, Reaktiv artilleriya batareyasının idarəetmə taqımının komandiri, mexanikləşdirilmiş taborun (SandCat) minaatan batareyasının minaatan taqımının komandiri – batareyanın baş zabiti, mexanikləşdirilmiş taborun (SandCat) minaatan batareyasının minaatan taqımının komandiri vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 20-də Xocavənd rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən igidlik göstərərək şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Kazımov**
**Elvin**
**Ədalət oğlu**
(1987-2020)

3 dekabr 1987-ci ildə Bakı şəhərində anadan olub. 2006-cı ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2010-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2011-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2010-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Mexanikləşdirilmiş taborun qərargah rəisinin kəşfiyyat üzrə köməkçisi – kəşfiyyat taqımının komandiri, motoatıcı taqım komandiri, dağ-atıcı bölüyünün komandiri, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursant taqım komandiri – müəllim köməkçisi, cəbhə bölgəsindəki hərbi hissənin motoatıcı bölük komandiri vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 5-də Tərtər rayonunun Talış kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub.



**Kazımov**
**İlkin**
**Xanməmməd oğlu**
(1995-2020)

4 avqust 1995-ci ildə Astara rayonunun Artupa kəndində anadan olub. 2013-cü ildə tam orta məktəbi bitirib. 11 oktyabr 2013-cü ildən 4 aprel 2015-ci ilədək Ədliyyə Nazirliyinin mühafizə alayında müddətli həqiqi hərbi xidmət keçib.

2017-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "MAH-HXHQ hazırlığı", 2020-ci ildə "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 8 may 2020-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı manqa (BTR-82A) komandiri, motoatıcı manqa (Matador) komandiri, motoatıcı taqım komandirinin müavini vəzifələrində xidmət edib.

44 gün davam edən Vətən müharibəsinin ilk şəhidlərindəndir.

2020-ci il sentyabrın 27-də Tərtər və Ağdərə rayonları istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarmda iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Suqovuşanın azad olunmasına görə" (ölümündən sonra), "Laçının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Kazımov**
**Rusif**
**Yusif oğlu**
(1997-2020)

29 mart 1997-ci ildə Cəlilabad şəhərində anadan olub. 2015-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2020-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Kəşfiyyat-müşahidə bölüyünün vizual müşahidə taqımının komandiri, kəşfiyyat taqımının komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günlərindən döyüşlərə qatılıb və bir çox yaşayış məntəqələrinin düşmən işğalında azad edilməsində kəşfiyyat taqımının komandiri kimi üzərinə düşən döyüş tapşırıqlarını layiqincə yerinə yetirib

2020-ci il noyabrın 4-də Şuşa rayonunun azad edilməsi uğrunda gedən hərbi əməliyyatlar zamanı kəşfiyyat tapşırığını yerinə yetirərkən düşmənin açdığı artilleriya atəşi nəticəsində şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra), "Kəlbəcərin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Kazımov Vüsal Kamran oğlu**
(1990-2020)

17 dekabr 1990-cı ildə Lənkəran şəhərində anadan olub. 2011-ci ildə Lənkəran Dövlət Universitetini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 14 oktyabr 2011-ci il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 25 may 2015-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

14 oktyabr 2011-ci ildən 16 aprel 2016-cı ilədək Azərbaycan Ordusunda tank əleyhinə taqımın komandiri, hərbi hissənin mühafizə və təchizat bölüyü komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifələrində xidmət edib.

Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq səfərbərlik üzrə yenidən hərbi xidmətə çağırılıb və 1 oktyabrdan motoatıcı bölüyün komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsində döyüşlərdə iştirak edib.

2020-ci il oktyabrın 27-də Şuşa şəhəri istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Kəlbalıyev Səyavuş Hümbət oğlu**
(1987-2020)

16 oktyabr 1987-ci ildə Cəbrayıl rayonunun Horovlu kəndində anadan olub. 2005-ci ildə Şuşa rayonu 6 saylı qaçqın orta məktəbini, 2009-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2010-cu ildə "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2009-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, mexanikləşdirilmiş taqım komandiri, xüsusi təyinatlı qrup komandiri, hərbi hissənin əməliyyat bölməsi rəisinin köməkçisi, kəşfiyyat bölüyünün (ümumi dəstək) komandiri, kəşfiyyat-müşahidə bölüyünün komandiri, döyüş hazırlığı bölməsinin rəisi, hərbi hissənin kəşfiyyat rəisi – kəşfiyyat bölməsinin rəisi vəzifələrində xidmət edib. "Mayor" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsinin ilk günündən döyüşlərdə fəallıq göstərib.

2020-ci il sentyabrın 29-da Füzuli rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən igidliklə şəhid olub.

Sağlığında "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Kəlbiyev Telman Yadigar oğlu**
(1988-2020)

24 mart 1988-ci ildə Neftçala rayonunun Bankə qəsəbəsində anadan olub.

2005-ci ildə tam orta məktəbi bitirib. 14 aprel 2006-cı ildən 1 oktyabr 2007-ci ilədək cəbhə bölgəsindəki hərbi hissələrdən birində müddətli həqiqi hərbi xidmət keçib.

2018-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 19 may 2018-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Dağ-atıcı taborun dağ-atıcı bölüyünün dağ-atıcı taqım komandirinin müavini, motoatıcı bölüyün (BMP-3) motoatıcı taqım komandirinin müavini vəzifələrində xidmət edib.

Vətən müharibəsində Füzuli, Xocavənd, Cəbrayıl və Şuşa uğrunda döyüşlərdə fəal iştirak edib, uzun müddət ondan xəbər alınmayıb.

2020-ci il dekabrın 27-də nəşi azad edilmiş ərazidən çıxarılaraq Neftçala rayonunda hərbi və dini ənənələrə uyğun olaraq böyük izdihamın iştirakı ilə son mənzilə yola salınıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.







**Kərimov Asif Məmməd oğlu**
(1989-2020)

25 mart 1989-cu ildə Cəlilabad rayonunda anadan olub. 2010-cu ildə Azərbaycan Dövlət Neft Akademiyasını və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 10 oktyabr 2010-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

10 oktyabr 2010-cu ildən 10 aprel 2012-ci ilədək Azərbaycan Ordusunda dağ-atıcı taqım komandiri vəzifəsində xidmət edib.

Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək məqsədilə "Dəmir Yumruq" əməliyyatı ilə başladığı Vətən müharibəsinin ilk günündən könüllü olaraq hərbi xidmətə yollanıb.

Mexanikləşdirilmiş taborun (BTR, SandCat) mexanikləşdirilmiş taqımının komandiri vəzifəsində Qubadlı, Laçın rayonlarının yaşayış məntəqələrinin azad edilməsində, eləcə də Şuşa şəhəri uğrunda döyüşlərdə fəal iştirak edib.

2020-ci il noyabrın 2-də Şuşa şəhəri istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Qubadlının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Kərimov
Sənan
Rəhman oğlu**
(1991-2020)

29 mart 1991-ci ildə Ağdam rayonunda anadan olub. 2009-cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2013-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2014-cü ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 27 iyun 2013-cü il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 7 oktyabr 2016-cı il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Dağ-atıcı taqım komandiri, motoatıcı taqım komandiri, motoatıcı bölük (SandCat) komandiri, mexanikləşdirilmiş bölük (SandCat) komandiri vəzifələrində xidmət edib. Vətən müharibəsində şəxsi şücaət və rəşadət nümunələri göstərib. Komandiri olduğu mexanikləşdirilmiş bölük döyüşlərdə qarşısına qoyulan vəzifələri uğurla yerinə yetirib.

2020-ci il oktyabrın 7-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda, "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.







**Kərimov
Taleh
Adil oğlu**
(1985-2020)

6 mart 1985-ci ildə Sumqayıt şəhərində anadan olub. 2003-cü ildə Sumqayıt şəhərindəki "İstedad" liseyini, 2007-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2008-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2007-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun qərargah rəisinin kəşfiyyat üzrə köməkçisi- kəşfiyyat taqımının komandiri, kəşfiyyat bölməsi rəisinin məlumatların toplanılması üzrə köməkçisi, hərbi hissənin kəşfiyyat rəisi – kəşfiyyat bölməsinin rəisi, Kəşfiyyat Baş İdarəsinin Kəşfiyyat İdarəsinin Planlaşdırma və əlaqələndirmə şöbəsinin qoşun kəşfiyyatı bölməsinin baş zabiti vəzifələrində xidmət edib.

"Mayor" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində hərbi hissənin kəşfiyyat rəisi – kəşfiyyat bölməsinin rəisi vəzifəsində döyüşlərə qatılıb və xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib. Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının azad edilməsi uğrunda döyüşlərdə mahir kəşfiyyatçı kimi tanınıb.

2020-ci il oktyabrın 31-də Qubadlı rayonu istiqamətində gedən döyüş əməliyyatlarında döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Azərbaycan Respublikası Silahlı Qüv-

vələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.



***Vaxtilə sevgililərin bir-birlərinə təqdim etdikləri, qızların çələng hördükləri Qarabağımızın tacı olan Şuşanın simvolu xarıbülbül indi Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan qəhrəman, igid oğullarımızın ölməzlik rəmzinə çevrilib.***





**Kərimov Tərlan Daşqın oğlu**
(1992-2020)



8 avqust 1992-ci ildə Dəvəçi rayonunda anadan olub. 2010-cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2014-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2015-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2014-cü il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 23 oktyabr 2017-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Kəşfiyyat taqım komandiri, motoatıcı taborun qərargah rəisinin kəşfiyyat üzrə köməkçisi – kəşfiyyat taqımının komandiri, kəşfiyyat-müşahidə taqımının komandiri, qərargah və təchizat bölüyünün komandiri, mexanikləşdirilmiş tabor (BMP-2) komandirinin müavini, mexanikləşdirilmiş taborun (BMP-2) qərargah rəisi – tabor komandirinin müavini vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 1-də Füzuli rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Kərimov Tofiq Dadaş oğlu**
(1973-2020)

7 iyul 1973-cü ildə Bakı şəhərində anadan olub. 1990-ci ildə Cəmşid Naxçıvanski adına İbtidai Hərbi Məktəbi (indiki Cəmşid Naxçıvanski adına hərbi lisey) bitirib. 1 avqust 1990-cı ildən 27 dekabr 1991-ci ilədək Riqa Ali Hərbi-Siyasi Komandanlıq Məktəbində təhsil alıb, sonra isə təhsilini Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) davam etdirirək oranı 1993-cü ildə bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 2 noyabr 1993-cü il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, xüsusi təyinatlı taborun taqım komandiri, xüsusi təyinatlı bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini, motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini, motoatıcı tabor komandirinin müavini, mexanikləşdirilmiş tabor komandirinin müavini, hərbi hissənin qərargah bölüyünün komandiri vəzifələrində xidmət edib.

"Mayor" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində mexanikləşdirilmiş tabor (BMP-2) komandirinin müavini vəzifəsində döyüşlərdə iştirak edib.

2020-ci il noyabrın 6-da Şuşa şəhəri istiqamətində xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.







***Bizim bir məqsədimiz var: "Tarixi torpaqlarımızı işğalçılardan azad edərək xalqımızı Qələbə müjdəsi ilə sevindirək!"***



**Qanıyev**
**İsaxan**
**İsaman oğlu**
(1985-2020)

11 noyabr 1985-ci ildə Şamaxı rayonunda anadan olub. 2003-cü ildə tam orta məktəbi bitirib.

7 yanvar 2004-cü ildən 3 iyul 2005-ci ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2014-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 25 yanvar 2014-cü il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taborun qərargah bölüyünün kəşfiyyat taqımı komandirinin müavini – qrup komandiri, kəşfiyyat bölüyünün kəşfiyyat taqımının kəşfiyyat manqasının komandiri, kəşfiyyat bölüyünün kəşfiyyat-müşahidə taqımı komandirinin müavini, kəşfiyyat bölüyünün kəşfiyyat taqımı komandirinin müavini vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 27-də Tərtər və Ağdərə rayonları istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən odlu silahdan açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Laçının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.





**Qasımov**
**Baba**
**Əhməd oğlu**
(1989-2020)



1 noyabr 1989-cu ildə Astara rayonunun Ərçivan kəndində anadan olub. 2007-ci ildə tam orta məktəbi bitirib. 3 yanvar 2008-ci ildən 1 iyul 2009-cu ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2014-cü ildə hərbi hissə nəzdində "MAHHXHQ hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 1 oktyabr 2016-cı il tarixli əmri ilə "kiçik gizir", 30 may 2019-cu il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taborun kəşfiyyat taqımının kəşfiyyat manqasının komandiri, kəşfiyyat dəstəsinin (dərin kəşfiyyat dəstəyi) kəşfiyyat qrupunun kəşfiyyatçısı, xüsusi təyinatlı kəşfiyyat bölüyünün xüsusi təyinatlı kəşfiyyat qrupunun kəşfiyyatçısı – pulemyotçu vəzifələrində xidmət edib.

Vətən müharibəsində şəxsi rəşadət və şücaət nümunələri göstərib, düşmənə hərbi texnika və canlı qüvvə sarıdan xeyli itkilər verib.

2020-ci il oktyabrın 21-də Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fə-

dakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.



*Bulaq səsə gəlsin, çay səsə gəlsin,*
*Çəmənlər sevinsin, güllər sevinsin!*
*Qubadlı elinin köçü qayıtsın,*
*Obalar sevinsin, ellər sevinsin!*

*Qaranquş bahardan soraq gətirsin,*
*Bağçalar güllə yox, güllər bitirsin,*
*Əkinçi bir əkib, on qat götürsün,*
*Zəmilər sevinsin, çöllər sevinsin!*







**Qasımov**
**Faiq**
**Mayıl oğlu**
(1983-2020)

27 noyabr 1983-cü ildə Beyləqan rayonunda anadan olub. 2001-ci ildə tam orta məktəbi bitirib. 14 yanvar 2002-ci ildən 23 dekabr 2003-cü ilədək Azərbaycan Ordusunda Hərbi Dəniz Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçib.

2007-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "MAHHXHQ hazırlığı" və 2017-ci ildə "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 13 aprel 2017-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı manqa komandiri, motoatıcı taborun maddi-texniki təminat taqımı komandirinin müavini – avtomobil manqasının komandiri, motoatıcı taborun minaatan batareyasının minaatan taqımı komandirinin müavini – minaatan komandiri, mexanikləşdirilmiş taborun (BMP-2) mexanikləşdirilmiş manqasının döyüş komandirinin müavini – tuşlayıcı-operator, motoatıcı taborun (BTR-82A) motoatıcı taqım komandirinin müavini, motoatıcı bölüyün (BTR-82A) motoatıcı taqımının döyüş maşını komandiri – döyüş maşınları heyətinin rəisi, qərargah və təchizat bölüyünün rabitə taqımının döyüş maşını komandiri – idarəetmə manqasının (tabor qərargahının) komandiri, mexanikləşdirilmiş taborun (BMP-2) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının döyüş maşınları heyətinin döyüş maşını komandiri vəzifələrində xidmət edib.

2020-ci il noyabrın 9-da Şuşa şəhəri istiqamətində hərbi əməliyyatlar

zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.



***Bayrağım sancılsın Xudafərinə,***
***İgidlər zəfərlə geri qayıtsın.***
***Beşıkdə körpəni top səsi deyil,***
***Ana laylasının səsi oyatsın!***







**Qasımov**
**Faiq**
**Qaçay oğlu**
(1974-2020)

10 fevral 1974-cü ildə Qubadlı rayonunun Qayalı kəndində anadan olub. 1991-ci ildə tam orta məktəbi, 1995-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini (İndiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 7 iyun 1995-ci il tarixli əmri ilə "kiçik leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini, motoatıcı taborun qərargah rəisinin maddi-texniki təminat üzrə köməkçisi, motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini, əməliyyat bölməsi rəisinin döyüş və komandir hazırlığı üzrə köməkçisi, döyüş hazırlığı bölməsi rəisinin baş köməkçisi, döyüş hazırlığı bölməsinin rəisi vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 27-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Azərbaycan Ordusunun 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" medalları ilə təltif olunub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində

xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" (ölümündən sonra) adı verilib, "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



*Burada tökülüb şəhid qanları,*
*Yaz gəlsin, qırmızı lalələr bitsin.*
*Qaranquş yuvasın hörsün təzədən,*
*Bağçalar gül açsın, bülbüllər ötsün!*







**Qasımov**
**Hafis**
**Cavanşir oğlu**
(1998-2020)

18 iyul 1998-ci ildə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Camaldın kəndində anadan olub.

2015-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı bölük (BMP-1) komandirinin şəxsi heyətlə iş üzrə müavini, mexanikləşdirilmiş taborun (BMP-1) mexanikləşdirilmiş bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifələrində xidmət edib.

Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək naminə başladığı Vətən müharibəsinin ilk günündən döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 14-də Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018), ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Qasımov Həmid Oruc oğlu**
(1994-2020)

11 dekabr 1994-cü ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun İbadulla kəndində anadan olub. 2012-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2016-cı il tarixli əmri ilə "leytenant", Silhalı Qüvvələrin Baş Qərargah rəisinin 23 iyun 2019-cu il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, mühafizə və təminat bölüyünün mühafizə və təminat taqımının komandiri, motoatıcı bölük komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən qələbə əzmi ilə döyüş meydanına atılıb.

2020-ci il oktyabrın 3-də Tərtər rayonunun Talış kəndi istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən igidlik göstərərək şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "İgidliyə görə" (ölümündən sonra), "Suqovuşanın azad olunmasına görə", (ölümündən sonra), "Laçının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Qasımov Hüseyn Kamil oğlu**
(1984-2020)

13 may 1984-cü ildə Füzuli rayonunun Qaraxanbəyli kəndində anadan olub. 2018-ci ildə Ağcabədi Pedaqoji Texnikumunu bitirib. 9 iyul 2002-ci ildən 1 yanvar 2004-cü ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2012-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "MAH-HXHQ hazırlığı", 2015-ci ildə "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 8 may 2015-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taborun maddi-texniki təminat taqımının təsərrüfat manqasının aşpazı, qərargah və təchizat bölüyünün maddi-texniki təminat taqımının yeməkxanasının baş aşpazı, qərargah və təchizat bölüyünün maddi-texniki təminat taqımının komandiri, motoatıcı taqım komandirinin müavini, xüsusi təyinatlı kəşfiyyat bölüyünün xüsusi təyinatlı kəşfiyyat qrupunun kəşfiyyatçısı, kəşfiyyat-müşahidə bölüyünün texniki müşahidə taqımının texniki müşahidə qrupunun komandiri – operatoru, kəşfiyyat-müşahidə bölüyünün texniki müşahidə taqımının komandiri vəzifələrində xidmət edib.

44 günlük Vətən müharibəsinin ilk günündən Füzuli və Xocavənd rayonlarının yaşayış məntəqələrinin düşmən işğalından azad edilməsi uğrunda döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 2-də Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi

uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Hərbi xidmətlərə görə" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



*Son döyüşdən, son savaşdan,*
*Oddan, sudan, dağdan, daşdan,*
*Qandan keçir, candan keçir*
*Qələbəyə gedən yollar!*

*"Cəngi", "Misri" havasından,*
*Anaların duasından,*
*Hər ocaqdan, közdən keçir*
*Qələbəyə gedən yollar!*







**Qasımov Qoşqar Atakişi oğlu**
(1995-2020)

16 yanvar 1995-ci ildə Beyləqan rayonunun Aşağı Çəmənli kəndində anadan olub. 2012-ci ildə tam orta məktəbi bitirib. 26 yanvar 2013-cü ildən 10 iyun 2014-cü ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2015-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 8 may 2015-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Qərargah bölüyünün taktiki komanda məntəqəsinin komendantı, rabitə bölüyünün telefon taqımının radiorele stansiyasının rəisi, rabitə bölüyünün radio taqımının radio manqasının komandiri-radiostansiya rəisi, rabitə bölüyünün radio taqımının radioretranslyasiya stansiyasının radiostansiya rəisi vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 24-də Füzuli rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra), "Qubadlının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Qasımov Ramiz Vaqif oğlu**
(1975-2020)

17 fevral 1975-ci ildə Beyləqan rayonunda anadan olub. 1992-ci ildə tam orta məktəbi, 1999-cu ildə Uçuş Hazırlığı Təlim Mərkəzini, 2008-ci ildə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbini bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 15 oktyabr 1999-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Vertolyot eskadrilyasının axtarış-xilasetmə xidmətinin aviasiya manqasının şturmanı, vertolyot eskadriliyasının manqa təyyarəçisi-operator, vertolyot eskadrilyasının vertolyot manqasının təyyarəçisi, vertolyot eskadrilyasının vertolyot manqasının baş təyyarəçisi, vertolyot eskadrilyasının vertolyot manqasının şturmanı, aviasiya eskadrilyasının aviasiya manqasının şturmanı, əməliyyat bölməsinin zabiti-bölmə rəisinin baş köməkçisi (hava atış taktiki hazırlığı üzrə), hərbi hissənin əməliyyat bölməsinin rəisi-qərargah rəisinin əməliyyat və döyüş hazırlığı üzrə köməkçisi, aviasiya eskadrilyasının (Mi-8) qərargah rəisi – eskadrilya komandirinin müavini, aviasiya eskadrilyasının (Mi-17-1V) qərargah rəisi – eskadriliya komandirinin müavini, aviasiya bazası komandirinin uçuşların təhlükəsizliyi üzrə müavini – uçuşların təhlükəsizliyi bölməsinin rəisi vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən döyüşlərə qatılıb. 2020-ci il sentyabrın 27-də Tərtər rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində vertolyot vurulduğundan paraşüt tullanışı yerinə yetirərkən xəsarət alıb, təcili olaraq





Silahlı Qüvvələrin Baş Klinik Hospitalına çatdırılsa da, həkimlərin səylərinə baxmayaraq 2020-ci il oktyabrın 22-də şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalları ilə təltif olunub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" (ölümündən sonra) adı verilib, "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.



*Təbilçi, çal təbili,*
*Bu il Qələbə ili!*
*Ya Məhəmməd, ya Əli,*
*İgid şahinlər gəlir!*



**Qasımov Rəmal Saleh oğlu**
(1992-2020)

15 aprel 1992-ci ildə Gəncə şəhərində anadan olub. 2009-cu ildə tam orta məktəbi bitirib. 20 aprel 2010-cu ildən 5 oktyabr 2011-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2013-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 15 oktyabr 2013-cü il tarixli əmri ilə "gizir", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 4 may 2020-ci il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilib.

Tank taqımının tank komandiri, tank bölüyünün tank komandiri, tank taborunun təlim - döyüş tankları bölüyünün tank taqımının tank komandiri - sürücülük üzrə təlimatçı vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 29-da Tərtər rayonunun Talış kəndi istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunələri göstərərək şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "İgidliyə görə" (ölümündən sonra), "Suqovuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Qasımov Şöhrət Şakir oğlu**
(1992-2020)

16 avqust 1992-ci ildə Gədəbəy rayonunda anadan olub. 2009-cu ildə tam orta məktəbi, 2015-ci ildə Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsini bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 5 iyun 2015-ci il tarixli əmri ilə "tibb xidməti leytenantı", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 5 iyun 2018-ci il tarixli əmri ilə "tibb xidməti baş leytenantı" hərbi rütbəsi verilib.

Hərbi hissənin tibb məntəqəsinin həkimi, motoatıcı taborun tibb məntəqəsinin rəisi, hərbi hissənin tibb xidməti rəisi – tibb məntəqəsinin rəisi, hərbi hissənin tibb xidməti rəisi vəzifələrində xidmət edib.

Yaralılara ilk yardım göstərilməsi və onların təxliyyə edilməsində fəal iştirak edib. Dəfələrlə özünün yaralanmasına baxmayaraq yenidən döyüş meydanlarına can atıb.

2020-ci il oktyabrın 8-də döyüş meydanında şəxsi igidlik nümunəsi göstərərək şəhidlik zirvəsinə ucalıb.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.



**Qasımov**
**Xaspolad**
**Fikrət oğlu**
(1993-2020)

14 dekabr 1993-cü ildə Xızı rayonunda anadan olub. 2011-ci ildə tam orta məktəbi bitirib. Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib. 2016-cı ildə hərbi hissə nəzdində "MAHHXHQ hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 15 noyabr 2019-cu il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı komandasının atıcısı-qumbaraatan köməkçisi, xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı taqımının xüsusi təyinatlı manqasının atıcısı, xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı taqımının xüsusi təyinatlı manqasının qumbaraatanı, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 6-da Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Hərbi xidmətlərə görə" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Qədimov**
**Güloğlan**
**Nurəddin oğlu**
(1997-2020)

18 iyul 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Qıvraq kəndində anadan olub.

2014-cü ildə Heydər Əliyev adına hərbi liseyi, 2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım (BMP-2) komandiri, mexanikləşdirilmiş taborun (BMP-2) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının komandiri, mexanikləşdirilmiş taborun (BMP-2) mexanikləşdirilmiş bölüyünün komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən hərbi əməliyyatlarda fəal iştirak edib və 2020-ci il oktyabrın 1-də Füzuli rayonu istiqamətində şəhid olub. Nəşi 2020-ci il dekabrın 10-da işğaldan azad edilən ərazidən çıxarılaraq hərbi və dini ənənələrə uyğun olaraq böyük izdihamın iştirakı ilə son mənzilə yola salınıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.



**Qədirov**
**Şahin**
**Bayram oğlu**
(1990-2020)

3 yanvar 1990-cı ildə Bakı şəhərində anadan olub. 2005-ci ildə 9-cu sinfi bitirib. 6 yanvar 2008-ci ildən 23 oktyabr 2008-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib. Xidmətdə olarkən hərbi hissə nəzdində "Gizir hazırlığı kursu"na daxil olub və oranı 2009-cu ildə başa vurub.

Azərbaycan Respublikası Müdafiə nazirinin 16 iyul 2009-cu il tarixli əmri ilə "kiçik gizir", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 18 may 2018-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı alayın xüsusi təyinatlı qrupunun kəşfiyyatçısı, xü-susi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 5-də Cəbrayıl rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən mərdlik və igidlik nümunələri göstərərək şəhidlik zirvəsinə ucalıb.

Sağlığında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medallarla, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.







**Qəfərov**
**Rəvan**
**Elxan oğlu**
(1991-2020)

10 iyul 1991-ci ildə Ağstafa rayonunun Dağ Kəsəmən kəndində anadan olub. 2008-ci ildə tam orta məktəbi bitirib. 10 iyul 2009-cu ildən 17 dekabr 2010-cu ilədək Hərbi Dəniz Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçib. 2012-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 27 aprel 2012-ci il tarixli əmri ilə "gizir", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 12 sentyabr 2017-ci il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilib.

Tank komandiri, haubitsalı artilleriya divizionunun təminat taqımının texniki, hərbi hissəninn kadrlar bölməsi rəisinin köməkçisi, motoatıcı bölüyün baş çavuşu, minaatan batareyanın baş çavuşu vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 29-da Füzuli istiqamətində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medallarla, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Qəfərov Saməddin Rasim oğlu**
(1993-2020)

23 yanvar 1993-cü ildə İsmayıllı rayonunun Qubaxəlilli kəndində anadan olub. 2011-ci ildə tam orta məktəbi, 2013-cü ildə Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Məktəbini bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2013-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taborun qərargah bölüyünün tibb məntəqəsinin feldşeri, hərbi hissənin tibb məntəqəsinin feldşeri, motoatıcı taborun tibb məntəqəsinin feldşeri, motoatıcı taborun (BMP-3) tibb məntəqəsinin feldşeri, mexanikləşdirilmiş taborun (BMP-3) tibb məntəqəsinin feldşeri vəzifələrində xidmət edib.

Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın öz əzəli tarixi torpaqlarının işğaldan azad edilməsi və respublikamızın ərazi bütövlüyünün bərpası naminə başladığı Vətən müharibəsinin birinci günündə yaralılara ilk yardım göstərilməsi və onların döyüş meydanından təxliyyə olunmasında fəal iştirak edib.

2020-ci il sentyabrın 28-də Tərtər və Ağdərə rayonları istiqamətində xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.







**Qəhrəmanov Elməddin Niyaməddin oğlu**
(1997-2020)

10 fevral 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Qıvraq kəndində anadan olub.

2014-cü ildə Heydər Əliyev adına hərbi liseyi, 2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun (BMP-1) motoatıcı bölüyünün motoatıcı taqımının komandiri, motoatıcı taborun motoatıcı bölüyünün motoatıcı taqımının komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən qələbə əzmi ilə döyüşlərə qatılıb və komandiri olduğu motoatıcı taqımın şəxsi heyəti ilə birlikdə döyüşlərdə fəallıq göstərib.

2020-ci il oktyabrın 6-da Ağdam rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmənin artilleriya atəşi nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.



**Qəhrəmanov**
**Ruslan**
**Mehman oğlu**
(1988-2020)

6 oktyabr 1988-ci ildə Almaniya Respublikasının Maqdeburq şəhərində anadan olub. 2007-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2011-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbininin Quru Qoşunları fakültəsini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 iyun 2011-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı taborun qərargah və təchizat bölüyünün rabitə taqım komandiri, radio taqımının komandiri, tədris şöbəsinin xüsusi əməliyyat hazırlığı bölməsinin müəllimi (rabitəçi hazırlığı üzrə) vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində hərbi əməliyyatlar zamanı vəzifəsinin öhdəsindən layiqincə gəlib, mahir rabitəçi kimi tanınıb.

2020-ci il oktyabrın 5-də Füzuli rayonu ərazisində döyüşlərdə xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Sağlığında "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.







**Qənbərli**
**Elton**
**Baba oğlu**
(1997-2020)

1 fevral 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Ələkli kəndində anadan olub.

2014-cü ildə Heydər Əliyev adına hərbi liseyi, 2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini, 2020-ci ildə Xüsusi Təyinatlı Qüvvələrin Tədris Mərkəzinin "Təməl Xüsusi Təyinatlı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun motoatıcı bölüyünün motoatıcı taqımının komandiri, xüsusi təyinatlı kəşfiyyat bölüyünün xüsusi təyinatlı kəşfiyyat qrupunun komandiri, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun baş kəşfiyyatçısı vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 19-da Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən odlu silahdan açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" medalı, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.



**Qənbərov**
**Mehman**
**Nəriman oğlu**
(1981-2020)

27 may 1981-ci ildə Ağdam rayonunun Maqsudlu kəndində anadan olub. 1998-ci ildə tam orta məktəbi, 2020-ci ildə Azərbaycan Ali Hərbi Məktəbinin (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 26 iyul 2002-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin tədris prosesinin təminatı taborunun təlim maşınları bölüyünün təlim piyada döyüş maşınları taqımının komandiri, motoatıcı taborun qərargah bölüyünün komandiri, motoatıcı taborun motoatıcı bölüyünün komandiri, mexanikləşdirilmiş taborun qərargah rəisinin maddi-texniki təminat üzrə köməkçisi, motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini, motoatıcı taborun qərargah rəisi – tabor komandirinin müavini, motoatıcı taborun komandiri, briqada komandirinin maddi-texniki təminat üzrə müavini – maddi-texniki təminat bölməsinin rəisi vəzifələrində xidmət edib.

"Polkovnik-leytenant" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində vəzifəsinin öhdəsindən layiqincə gəlib, döyüşlər zamanı briqadanın maddi-texniki təminatının yüksək səviyyədə təşkili üçün səylərini əsirgəməyib.

2020-ci il sentyabrın 30-da Füzuli rayonu istiqamətində xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.





Sağlığında "Azərbaycan Ordusunun 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarma yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



***Hər şey Ordu üçün, hər şey Qələbə üçün!***



**Qənimətov**
**Ətraf**
**Oktay oğlu**
(1997-2020)

20 mart 1997-ci ildə Şəki rayonunda anadan olub. 2018-ci ildə Sumqayıt Dövlət Universitetini, 2020-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 5 iyun 2020-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun motoatıcı bölüyünün motoatıcı taqımının komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsinin ilk günündən Füzuli rayonunun işğal edilmiş yaşayış məntəqələrinin azad olunması uğrunda döyüşlərdə fəal iştirak edib və komandiri olduğu motoatıcı taqımın qarşısına qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gəlib.

2020-ci il oktyabrın 30-da Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən mərdlik və igidlik nümunələri göstərərək şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Döyüşdə fərqlənməyə görə" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Qəniyev**
**Cahid**
**Şaiq oğlu**
(1994-2020)

18 fevral 1994-cü ildə Lerik rayonunun Sors kəndində anadan olub. 2011-ci ildə tam orta məktəbi bitirib. Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2014-cü ildə hərbi hissə nəzdində "MAHHXHQ hazırlığı", 2018-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 19 may 2018-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Tank bölüyünün tank taqımının tuşlayıcı-operatoru, tank bölüyünün tank taqımının tank komandiri vəzifələrində xidmət edib.

Ermənistan silahlı qüvvələrinin təxribat törədərək Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmasına cavab olaraq Azərbaycanın başladığı Vətən müharibəsinin ilk günündən döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 2-də Tərtər rayonunun Talış kəndi ərazisində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.



**Qorçuyev Anar Nadir oğlu**
(1987-2020)

4 yanvar 1987-ci ildə Sumqayıt şəhərində anadan olub. 2009-cu ildə Azərbaycan Universitetini bitirib. 22 iyul 2009-cu ildən 3 iyul 2010-cu ilədək Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarında müddətli həqiqi hərbi xidmət keçib.

4 iyul 2017-ci ildən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Azərvbaycan Ordusunda xidmətini davam etdirib.

2020-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 5 iyun 2020-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Komendant taqımının komendant manqasının komandiri, hərbi polis bölüyünün nizamlayıcılar taqımının nizamlayıcılar manqasının komandiri-nizamlayıcı, mexanikləşdirilmiş taborun (SandCat) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının komandiri vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 7-də Füzuli rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Qubatov Zülfüqar İsmi oğlu**
(1975-2020)

25 sentyabr 1975-ci ildə Ağsu rayonunda anadan olub. 1992-ci ildə tam orta məktəbi, 1995-ci ildə Azərbaycan Ali Hərbi Birləşmiş Komandanlıq Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 7 iyun 1995-ci il tarixli əmri ilə "kiçik leytenant" hərbi rütbəsi verilib.

Tank bölüyünün taqım komandiri, tank bölüyünün komandiri, mexanikləşdirilmiş taborun (BTR-82A) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının komandiri vəzifələrində xidmət edib.

"Kapitan" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 14-də Talış və Suqovuşan kəndləri istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 90 illiyi (1918-2008)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarmda iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif olunub.



**Quliyev**
**Aqşin**
**Dilavər oğlu**
(1966-2020)

12 dekabr 1966-cı ildə Sabirabad rayonunun Çiçəkli kəndində anadan olub. 2014-cü ildə tam orta məktəbi bitirib. 8 yanvar 2015-ci ildən 25 aprel 2016-cı ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2016-cı ildə hərbi hissə nəzdində "Təməl Xüsusi Təyinatlı kursu"nu bitirib.

Xüsusi Təyinatlı Qoşunlar Komandanının 31 yanvar 2017-ci il tarixli əmri ilə "kiçik çavuş", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 19 aprel 2019-cu il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı komandasının kəşfiyyatçısı (atıcı), xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı taqımının xüsusi təyinatlı manqasının atıcısı, xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı taqımının xüsusi təyinatlı manqasının baş atıcısı, kəşfiyyat dəstəsinin xüsusi kəşfiyyat taqımının xüsusi kəşfiyyat qrupunun kəşfiyyatçısı (istehkamçı) vəzifələrində xidmət edib.

Vətən müharibəsində şəxsi mərdlik və igidlik nümunələri göstərib, xidməti vəzifəsinin öhdəsindən layiqincə gəlib.

2020-ci il oktyabrın 16-da Füzuli rayonu ərazisində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla





yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda" medalı və Azərbaycan Respublikası Müdafiə nazirinin əmri ilə "Şücaətə görə" medalı ilə təltif edilib.



*Əziz anam, sən uca tut başını,*
*Gəl ağlama, sil gözünün yaşını.*
*Unudarmı qardaş öz qardaşını,*
*Hər birimiz Mübarizik, Fəridik!*

*Qoy eşitsin işğalçılar, yağılar,*
*Bu torpağın neçə igid əri var.*
*Nərəmizdən düşmən bağrı yarılar,*
*Hər birimiz Mübarizik, Fəridik!*



**Quliyev**
**Aqşin**
**Mehdi oğlu**
(1992-2020)

9 iyun 1992-ci ildə Goranboy rayonunda anadan olub. 2009-cu ildə tam orta məktəbi bitirib. Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2016-cı ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 13 dekabr 2016-cı il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Kəşfiyyat bölüyünün kəşfiyyat taqımı komandirinin müavini, hərbi hissənin tankodrom rəisi – avtodrom rəisi vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündə könüllü olaraq ön səngərdə olmaq arzusunu təkidlə hərbi hissə komandirinə bildirib və Tərtər-Ağdərə uğrunda döyüşlərə göndərilib.

2020-ci il sentyabrın 30-da Tərtər rayonunun Talış kəndi ərazisində döyüş mövqeyində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən atılan əl qumbarasının partlaması nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.







**Quliyev**
**Əli**
**Tədbir oğlu**
(1984-2020)

9 sentyabr 1984-cü ildə İmişli rayonunun Otuzikilər kəndində anadan olub.

2001-ci ildə tam orta məktəbi bitirib. 5 oktyabr 2002-ci ildən 20 noyabr 2003-cü ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2003-cü ildə hərbi hissə nəzdində "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 30 noyabr 2003-cü il tarixli əmri ilə "kiçik gizir", 11 yanvar 2010-cu il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Vətən müharibəsində mahir kəşfiyyatçı, cəsur döyüşçü kimi tanınıb, döyüşlərdə mərdlik və igidlik nümunələri göstərib.

2020-ci il oktyabrın 27-də Xocavənd rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 90 illiyi (1918-2008)"," Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.



**Quliyev**
**Əvdil**
**Qardaşxan oğlu**
(1972-2020)

31 iyul 1972-ci ildə Beyləqan rayonunda anadan olub. 1994-cü ildə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını və "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 27 sentyabr 1994-cü il tarixli əmri ilə "leytenant", 24 may 1999-cu il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

27 avqust 1996-cı ildən 26 sentyabr 1999-cu ilədək Azərbaycan Ordusunda motoatıcı taqım komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsinin başlanması ilə əlaqədar qismən səfərbərlik üzrə yenidən hərbi xidmətə çağırılıb və mexanikləşdirilmiş taborun (BMP-2) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının komandiri vəzifəsində döyüşlərdə fəal iştirak edib, komandiri olduğu mexanikləşdirilmiş taqımın qarşısına qoyulmuş döyüş tapşırıqlarını layiqincə yerinə yetirib.

2020-ci il noyabrın 7-də Şuşa şəhəri istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Şuşamn azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Quliyev**
**Elnur**
**Eldar oğlu**
(1984-2020)

25 iyul 1984-cü ildə Füzuli rayonunda anadan olub. 2002-ci ildə tam orta məktəbi, 2006-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 20 iyun 2006-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Özüeriyən artilleriya divizionunun özüyeriyən minaatan taqımı komandiri, artilleriya divizionunun artilleriya taqımının komandiri, haubitsalı artilleriya batareyasının haubitsalı artilleriya taqımının komandiri – batareyanın baş zabiti, hərbi hissənin maddi-texniki təminat bölüyü komandirinin şəxsi heyətlə iş üzrə müavini, hərbi hissənin qərargah batareyası komandirinin şəxsi heyətlə iş üzrə müavini, motoatıcı taborun (BTR-82A) motoatıcı bölüyü komandirinin şəxsi heyətlə iş üzrə müavini, haubitsalı özüyeriyən artilleriya divizionu komandirinin şəxsi heyətlə iş üzrə müavini, tabor komandirinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavini vəzifələrində xidmət edib.

"Mayor" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 2-də Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 90 illiyi (1918-2008)"," Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, ölümündən sonra isə

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



***– Birazdan siz döyüş meydanına atılacaqsınız. Unutmayın ki, ümumi qələbəmiz hər birinizin göstərəcəyiniz şəxsi igidlikdən, vətənpərvərlikdən, şücaət və qəhrəmanlıqlardan çox asılıdır.***

***Vətən sizə arxalanır, xalqımız sizə güvənir! Siz döyüşlərdə son nəfəsinə, son gülləsinədək vuruşaraq ən yüksək zirvəyə, şəhidlik məqamına yetişən döyüşçülərimizin intiqamını almalısınız və düşmənə sübut etməlisiniz ki, Azərbaycan əsgəri yenilməzdir, mübarizdir və Vətən uğrunda canından, qanından keçməyə hər an hazırdır. Təki Vətən sağ olsun!***





**Quliyev**
**Həsən**
**İbrahim oğlu**
**(1996-2020)**



30 sentyabr 1996-cı ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Qarahəsənli kəndində anadan olub.

2015-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri vəzifəsində xidmət edib.

"Dəmir Yumruq" əməliyyatı ilə başlanan Vətən müharibəsinin ilk günündə döyüşlərə qələbə əzmi ilə, işğal altında olan torpaqlarımızın tezliklə azad ediləcəyinə böyük ümidlərlə atılıb. "Mən Naxçıvana ya şəhid, ya da qazi kimi qayıdacam, mən ölməyəcəm!" – deyə, komandiri olduğu motoatıcı taqımın şəxsi heyəti qarşısında söz verib.

2020-ci il sentyabrın 29-da Goranboy rayonunun Gülüstan kəndi istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.



**Quliyev Hətəmxan Məti oğlu**
(1990-2020)

24 mart 1990-cı ildə Sumqayıt şəhərində anadan olub. 2008-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2012-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 iyun 2012-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, mexanikləşdirilmiş taborun (BMP-1) mexanikləşdirilmiş bölüyünün komandiri, motoatıcı taborun (BMP-2) motoatıcı bölüyünün komandiri, motoatıcı taborun (BTR-82A) komandirinin maddi-texniki təminat üzrə müavini, motoatıcı taborun (BTR-82A) qərargah rəisi – tabor komandirinin müavini, mexanikləşdirilmiş taborun (BTR-82A) qərargah rəisi – tabor komandirinin müavini, motoatıcı taborun qərargah rəisi – tabor komandirinin müavini vəzifələrində xidmət edib.

"Kapitan" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il sentyabrın 29-da Tərtər və Ağdərə rayonları istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında





iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunub.



***Torpaq yamr, od ələnir,***
***Gül ömürlər güllələnir.***
***Karvan gedir, qandan keçir***
***Qələbəyə gedən yollar!***

***Mərmi səsi, güllə səsi,***
***İgidlərin od nəfəsi.***
***Tüstü-duman, çəndən keçir***
***Qələbəyə gedən yollar!***



**Quliyev İlqar Akif oğlu**
(1973-2020)

3 fevral 1973-cü ildə Goranboy rayonunun Faxralı kəndində anadan olub. 1996-cı ildə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını və "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 8 sentyabr 1996-cı il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

18 oktyabr 1999-cu ildən 28 may 2001-ci ilədək Azərbaycan Ordusunda motoatıcı taqım komandiri vəzifəsində xidmət edib.

10 aprel 2005-ci ildə könüllü olaraq yenidən ordu sıralarına qayıdıb və motoatıcı taqım komandiri, motoatıcı taborun qərargah rəisinin tərbiyə işləri üzrə köməkçisi, motoatıcı tabor komandirinin şəxsi heyətlə iş üzrə müavini, mexanikləşdirilmiş taborun (BMP-3) mexanikləşdirilmiş bölüyün komandirinin şəxsi heyətlə iş üzrə müavini, artilleriya divizionu komandirinin şəxsi heyətlə iş üzrə müavini, motoatıcı tabor komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifələrində xidmət edib.

"Mayor" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsinin ilk şəhidlərindəndir.

2020-ci il sentyabrın 27-də Füzuli rayonu ərazisində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerini yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliy-





yatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



***Azərbaycan əsgərinin düşmənə necə dağıdıcı və sarsıdıcı zərbələr vurduğunu, düşmən əsgərlərinin silah-sursatlarını ataraq, həlak olmuş və yaralanmış silahdaşlarını geridə buraxaraq qaçdıqlarını seyr etmək həqiqətən qürurvericidir.***



**Quliyev**
**Ramil**
**Nuralı oğlu**
(1981-2020)

28 yanvar 1981-ci ildə Kürdəmir rayonunda anadan olub. 1998-ci ildə tam orta məktəbi bitirib. 20 aprel 1999-cu ildən 24 sentyabr 2000-ci ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib. 2001-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı" kursunu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 28 iyul 2001-ci il tarixli əmri ilə "gizir", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 24 iyul 2014-cü il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandirinin müavini, rabitə bölüyünün baş çavuşu, hərbi hissənin qərargah və təchizat bölüyünün baş çavuşu, hərbi hissənin qərargah və təchizat bölüyünün maddi-təminat taqımının yeməkxana rəisi, qərargah və təchizat bölüyünün baş çavuşu, qərargah və təchizat bölüyünün mühafizə taqımının komandiri vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 29-da Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən igidlik nümunələri göstərərək şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların





icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.



*Adsız şəhid, adsız məzar,*
*Hər oğul bir tarix yazar.*
*Anddan keçir, sözdən keçir*
*Qələbəyə gedən yollar.*

*Başını sən dik tut ana,*
*Kədərini unut ana!*
*Səndən, məndən, bizdən keçir*
*Qələbəyə gedən yollar.*



**Quliyev Ramin Rizvan oğlu**
(1998-2020)

7 noyabr 1998-ci ildə Bakı şəhərində anadan olub.

2016-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2020-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin “Zabit ixtisas kursu”nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2020-ci il tarixli əmri ilə “leytenant” hərbi rütbəsi verilib.

Motoatıcı taborun motoatıcı bölüyünün komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsində xidmət edib.

Vətən müharibəsinin ilk günündən şəxsi heyətin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının, vətənpərvərlik hissinin daha da yüksəldilməsi, onların qələbəyə ruhlanlandırılması istiqamətində var qüvvəsi ilə çalışıb və şəxsi nümunə göstərib.

2020-ci il oktyabrın 4-də Tərtər rayonunun Talış kəndi istiqamətində əks-hücum əməliyyatları zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan artilleriya atəşi nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Vətən uğrunda” (ölümündən sonra) medalı ilə təltif olunub.





**Quliyev Rəşad Əfras oğlu**
(1988-2020)



5 iyul 1988-ci ildə Cəlilabad rayonunun Uzuntəpə kəndində anadan olub. 2005-ci ildə E.Yusubov adına kənd 1 saylı orta məktəbini, 2009-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin “Zabit ixtisas kursu”nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2009-cu il tarixli əmri ilə “leytenant” hərbi rütbəsi verilib.

Mexanikləşdirilmiş taqım komandiri, mexanikləşdirilmiş bölük komandiri, motoatıcı taborun motoatıcı bölüyünün komandiri, hərbi hissənin qərargah rəisi – təlim mərkəzi rəisinin müavini, hərbi hissənin qərargah rəisi – tabor komandirinin müavini, motoatıcı taborun qərargah rəisi – tabor komandirinin müavini vəzifələrində xidmət edib. “Kapitan” hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 4-də Tərtər rayonunun Talış kəndi istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən açılan artilleriya atəşi nəticəsində şəhid olub.

Sağlığında “Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)”, “Qüsursuz xidmətə görə” 3-cü dərəcəli, ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Vətən uğrunda” medalları ilə təltif olunub.



**Quliyev**
**Rəşad**
**Rəşid oğlu**
(1983-2020)

23 sentyabr 1983-cü ildə Bakı şəhərində anadan olub. 2000-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2004-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 iyun 2004-cü il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, motoatıcı tabor komandirinin şəxsi heyətlə iş üzrə müavini, hərbi hissənin əməliyyat bölməsi rəisinin döyüş və komandir hazırlığı üzrə baş köməkçisi, hərbi hissənin əməliyyat bölməsi rəisinin qərargahın planlaşdırma fəaliyyəti üzrə müavini, Maddi-Texniki Təminat Baş İdarəsinin hərbi daşımalar şöbəsinin baş zabiti, Maddi-Texniki Təminat Baş İdarəsinin planlaşdırma şöbəsinin baş zabiti, Maddi-Texniki Təminat Baş İdarəsinin əlaqələndirmə şöbəsinin baş zabiti (kontraktlar üzrə), Maddi-Texniki Təminat Baş İdarəsinin xüsusi alışlar şöbəsinin baş zabiti, motoatıcı tabor komandiri vəzifələrində xidmət edib. "Polkovnik-leytenant" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 7-də Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbay-





can Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalları ilə təltif olunub.



*And olsun ruhuna Şəhid qardaşım,*
*Qisasın yağıdan alınacaqdır!*
*Nifrətim süngü tək düşmən bağrına,*
*Bayrağım Şuşaya sancılacaqdır!*



**Quliyev Şahmar Kəmaləddin oğlu**
(1991-2020)

7 noyabr 1991-ci ildə Naxçıvan şəhərində anadan olub.

2009-cu ildə Heydər Əliyev adına hərbi liseyi, 2013-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 27 iyun 2013-cü il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, tank əleyhinə taqımın komandiri, mexanikləşdirilmiş taborun (BMP-2) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının komandiri, motoatıcı taborun (BMP-2) motoatıcı bölüyünün komandiri vəzifələrində xidmət edib.

"Kapitan" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il sentyabrın 28-də Tərtər rayonunun Çaylı kəndi istiqamətində gedən döyüşlər zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.







**Quliyev Şəhriyar Nəsib oğlu**
(1990-2020)

25 may 1990-cı ildə Ağdam rayonunun Xaçındərbənd kəndində anadan olub. 2008-ci ildə tam orta məktəbi bitirib. 13 yanvar 2009-cu ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb və Azərbaycan Ordusunda kəşfiyyatçı kimi xidmət edib. 2010-cu ildə hərbi hissənin nəzdində "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 9 avqust 2010-cu il tarixli əmri ilə "kiçik gizir", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 14 iyun 2019-cu il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifəsində xidmətini davam etdirib.

Döyüşlərdə xüsusi əməliyyat tapşırıqlarını uğurla yerinə yetirib.

2020-ci il oktyabrın 21-də Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.



**Quliyev**
**Vəli**
**Vəli oğlu**
(1997-2020)

30 avqust 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Qazançı kəndində anadan olub. 2014-cü ildə Heydər Əliyev adına hərbi liseyi, 2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, mühafizə və təminat bölüyünün mühafizə və təminat taqımının komandiri, motoatıcı taborun motoatıcı bölüyünün komandiri vəzifələrində xidmət edib.

Cəbrayıl və Qubadlı rayonlarının yaşayış məntəqələrinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 22-də Qubadlı rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra), "Qubadlının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Quliyev**
**Vüsal**
**Tahir oğlu**
(1985-2020)

5 iyun 1985-ci ildə Lənkəran rayonunda anadan olub. 2002-ci ildə tam orta məktəbi, 2006-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 20 iyun 2006-cı il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Artilleriya taqımı komandiri, haubitsalı artilleriya batareyasının komandiri, hərbi hissənin əməliyyat bölməsi rəisinin qərargahın gündəlik fəaliyyətinin planlaşdırılması və qoşun xidməti üzrə köməkçisi, kəşfiyyat bölməsi rəisinin məlumatların toplanılması üzrə köməkçisi, artilleriya bölməsi rəisinin kəşfiyyat üzrə köməkçisi – kəşfiyyat rəisi vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il sentyabrın 28-də Tərtər və Ağdərə rayonları istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalları ilə təltif olunub.



**Quluzadə Əlimərdan Fəttah oğlu**
(1993-2020)

14 fevral 1993-cü ildə Masallı rayonunun Yeddioymaq kəndində anadan olub. 2011-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 26 iyun 2015-ci il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 iyun 2018-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Tank taborunun tank bölüyünün tank taqımının komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsinin ilk günündən Cəbrayıl və Füzuli rayonlarının yaşayış məntəqələrinin düşmən işğalından azad edilməsu uğrunda döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 6-da Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təlt if olunub.







**Quluzadə Kamran Pərviz oğlu**
(1998-2020)

14 avqust 1998-ci ildə Ağsu rayonunun Gəgəli kəndində anadan olub. 2015-ci ildə Bakı şəhər Z.Əhmədov adına 64 nömrəli tam orta məktəbi, 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Kəşfiyyat taqımının komandiri, motoatıcı taborun qərargah rəisinin kəşfiyyat üzrə köməkçisi – kəşfiyyat taqımının komandiri, xüsusi təyinatlı bölüyün xüsusi təyinatlı qrup komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən Xocavənd və Şuşa uğrunda döyüşlərdə xüsusi kəşfiyyat tapşırıqlarını uğurla yerinə yetirib.

2020-ci il oktyabrın 21-də Xocavənd rayonunun Tuğ yaşayış məntəqəsi ərazisində düşmən tərəfindən atılan mərminin partlaması nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Hərbi xidmətlərə görə" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" ölümündən sonra) medalları ilə təltif olunub.



**Qurbanəliyev Tapdıq Dövlətxan oğlu**
**(1978-2020)**

21 dekabr 1978-ci ildə Şəki rayonunun Aydınbulaq kəndində anadan olub. 1996-cı ildə tam orta məktəbi bitirib. 18 oktyabr 1998-ci ildən Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib. 2000-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 13 may 2000-ci il tarixli əmri ilə "gizir", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 14 iyul 2016-cı il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandirinin müavini – döyüş maşınının komandiri, motoatıcı taqımın döyüş maşınının komandiri-manqa komandiri, hərbi hissənin təlim-Döyüş maşınları bölüyünün təlim-döyüş maşınları taqımının döyüş maşını komandiri-sürücülük üzrə təlimatçı, mexanikləşdirilmiş taborun (BMP) təlim-döyüş maşınları taqımının döyüş maşın komandiri – sürücülük üzrə təlimatçı, mexanikləşdirilmiş taborun (BMP-1) mexanikləşdirilmiş təlim bölüyünün mexanikləşdirilmiş təlim taqımının döyüş maşın komandiri – mexanikləşdirilmiş təlim manqasının komandiri, motoatıcı taborun (BMP-2) motoatıcı bölüyünün motoatıcı taqımının döyüş maşını komandiri – döyüş maşınları heyətinin rəisi vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 30-da Tərtər rayonunun Çaylı kəndi istiqamətində gedən döyüşlər zamanı xidməti vəzifəsini yerinə yetirərkən igidlik göstərərək şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi





(1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə" medalları ilə təltif olunub.



***İllər həsrətinə son qoyan əsgər,***
***Gələcək nəsillər unutmaz səni!***



**Qurbanov**
**Emil**
**Vaqif oğlu**
**(1980-2020)**

25 avqust 1980-ci ildə Lənkəran rayonunda anadan olub. 2002-ci ildə Lənkəran Dövlət Universitetini, 2003-cü ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

6 oktyabr 2003-cü ildən 6 aprel 2005-ci iladək Azərbaycan Ordusunda motoatıcı rtaqım komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq qismən səfərbərlik üzrə yenidən hərbi xidmətə çağırılıb və motoatıcı taqım komandiri vəzifəsində döyüşlərdə fəal iştirak edib.

Vətən müharibəsində Cəbrayıl və Qubadlı rayonlarının yaşayış məntəqələrinin azad olunması uğrunda döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 31-də Qubadlı rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra), "Qubadlının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Qurbanov**
**İmran**
**İlqar oğlu**
**(1989-2020)**

23 may 1989-cu ildə Bakı şəhərində anadan olub.

2007-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2011-ci ildə iHeydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 iyun 2011-ci il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 24 iyun 2014-cü il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Tank taqımının komandiri, tank bölüyünün komandiri, mexanikləşdirilmiş tabor (BMP-2) komandirinin müavini vəzifələrində xidmət edib.

Füzuli və Xocavənd rayonlarının yaşayış məntəqələrinin işğaldan azad olunması uğrunda döyüşlərdə fəal iştirak edib və itkin düşüb.

Nəşi 2020-ci il dekabrın 10-da Xocavənd istiqamətində ağır döyüşlər getmiş ərazidən çıxarılaraq böyük izdihamın iştirakı ilə son mənzilə yola salınıb.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalları ilə təltif olunub.



**Qurbanov**
**Ramil**
**Sudeyif oğlu**
(1987-2020)

6 yanvar 1987-ci ildə Beyləqan rayonunun Dünyamalılar kəndində anadan olub. 2004-cü ildə tam orta məktəbi bitirib. 11 yanvar 2005-ci ildən 13 iyun 2006-cı ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 7 mart 2009-cu il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Mexanikləşdirilmiş taqımın döyüş maşını komandiri-manqa komandiri, motoatıcı taqım komandirinin müavini, motoatıcı taborun (BTR-82A) motoatıcı bölüyünün motoatıcı taqımının döyüş maşını komandiri- döyüş maşınları heyətinin rəisi vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 27-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Qurbanov**
**Rauf**
**Vahid oğlu**
(1995-2020)

5 oktyabr 1995-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Ələkli kəndində anadan olub. 2014-cü ildə Heydər Əliyev adına hərbi liseyi, 2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, tank əleyhinə bölüyün tank əleyhinə taqımının komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən qələbə qazanacaqlarına böyük inam hissi ilə döyüşlərə atılıb. Xocavənd və Füzuli rayonları uğrunda döyüşlərdə igidlik nümunələri göstərib.

2020-ci il oktyabrın 18-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Qureşli**
**Firuz**
**Əli oğlu**
(1993-2020)

3 dekabr 1993-cü ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Külüs kəndində anadan olub. 2012-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2016-cı il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 23 iyun 2019-cu il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Artilleriya divizionunun artilleriya batareyasının idarəetmə taqımının komandiri, artilleriya batareyasının komandiri, haubitsalı artilleriya batareyasının komandiri, mexanikləşdirilmiş taborun (BMP-1) minaatan batareyasının komandiri vəzifələrində xidmət edib.

2020-ci il oktaybrın 10-da Füzuli rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Mahmudov**
**Cavid**
**Hilal oğlu**
(1989-2020)

6 fevral 1989-cu ildə Biləsuvar rayonunun Aşağı Cürəli kəndində anadan olub. 2006-cı ildə O.Babayev adına Aşağı Cürəli kənd orta məktəbini, 2010-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu və 2020-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasını bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2010-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini, dağ-atıcı taborun qərargah rəisi – tabor komandirinin müavini, mexanikləşdirilmiş taborun (SandCat) komandiri vəzifələrində xidmət edib.

"Kapitan" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində komandiri olduğu taborun şəxsi heyəti ilə birlikdə Füzuli rayonunun bir neçə yaşayış məntəqəsinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə peşəkar zabit kimi vəzifələrinin öhdəsindən layiqincə gəlib, düşmənə hərbi texnika və canlı qüvvə sarıdan xeyli itkilər verib.

2020-ci il oktyabrın 4-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respub-

likasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.



***"Şəhid olmaq şərəf, şandır!"***
***"Oğul Vətənə qurbandır!"***
***"Qarabağ Azərbaycandır!"***
***Oxuyun bu məktubları!***







**Mahmudov**
**Emin**
**Pünhan oğlu**
(1994-2020)

1 iyun 1994-cü ildə Tovuz rayonunun Abulbəyli kəndində anadan olub.

2011-ci ildə Y.Sadıqov adına Bozalqanlı kənd orta məktəbini, 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2016-cı ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 26 iyun 2015-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, həmlə taqımının komandiri, motoatıcı taqımın (BMP-3) komandiri, hərbi hissənin qərargah rəisinin əməliyyat və döyüş hazırlığı üzrə köməkçisi, motoatıcı bölüyün komandiri, hərbi hissənin döyüş hazırlığı bölməsi rəisinin köməkçisi vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 iyun 2018-ci il tarixli əmri ilə ona "baş leytenant" hərbi rütbəsi verilib.

2020-ci il oktyabrın 12-də Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



**Mailov**
**Namiq**
**Abış oğlu**
(1983-2020)

29 aprel 1983-cü ildə Biləsuvar rayonunda anadan olub. 1999-cu ildə tam orta məktəbi bitirib. 5 iyul 2001-ci ildən 3 iyul 2003-cü ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2006-cı ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "T-72 tank komandiri", 2015-ci ildə "Ehtiyat zabit hazırlığı", 2019-cu ildə "Tank bölük komandiri" kurslarını bitirib.

"Gizir" hərbi rütbəsindən "baş leytenant" hərbi rütbəsinədək yüksəlib.

Tank komandiri, tank bölüyünün baş çavuşu, tank taqım komandiri, tank bölük komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk şəhidlərindəndir.

2020-ci il sentyabrın 27-də Füzuli rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Mansurov**
**Elçin**
**Elşən oğlu**
(1984-2020)

25 noyabr 1984-cü ildə Bakı şəhərində anadan olub. 2003-cü ildə tam orta məktəbi, 2007-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2008-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2007-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun qərargah rəisinin kəşfiyyat üzrə köməkçisi- kəşfiyyat taqımının komandiri, kəşfiyyat taqımının komandiri, kəşfiyyat bölüyünün komandiri, motoatıcı bölük komandiri, hərbi hissənin qərargah bölüyünün komandiri, hərbi hissənin döyüş hazırlığı bölməsi rəisinin baş köməkçisi vəzifələrində xidmət edib.

"Mayor" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində fəal iştirak edib, döyüş əməliyyatlarının hazırlanmasında və uğurla başa çatmasında müstəsna xidmətləri olub, xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib.

Füzuli və Cəbrayıl rayonları uğrunda döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 11-də Füzuli rayonu ərazisində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün

bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



***Yenə mərmi səsi, yenə toz-duman,***
***Şərəflə çıxırıq hər imtahandan.***







**Maşıyev**
**Asəf**
**Volodya oğlu**
**(1982-2020)**

26 noyabr 1982-ci ildə Göygöl rayonunun Füzuli kəndində anadan olub. 2001-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2005-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2006-cı ildə "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2005-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun qərargah rəisinin kəşfiyyat üzrə köməkçisi, hava kəşfiyyatı qrupunun komandiri, kəşfiyyat bölüyünün komandiri, kəşfiyyat bölməsi rəisinin məlumatların toplanılması üzrə köməkçisi, hərbi hissənin kəşfiyyat rəisi – kəşfiyyat bölməsinin rəisi vəzifələrində xidmət edib. "Mayor" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il sentyabrın 30-da Goranboy rayonunun Gülüstan kəndinin Kəhrilər xarabalığı istiqamətində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



**Məcidov
Aqil
Aydın oğlu**
(1998-2020)

3 aprel 1998-ci ildə Tovuz şəhərində anadan olub.

2016-cı ildə Tovuz şəhəri, A.S.Puşkin adına tam orta məktəbi, 2020-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2020-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Mexanikləşdirilmiş taborun (BMP-1) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının komandiri vəzifəsində xidmət edib.

"Dəmir Yumruq" əməliyyatı ilə başlanan Vətən müharibəsinin ilk günündə komandiri olduğu mexanikləşdirilmiş taqımın şəxsi heyəti ilə birlikdə döyüşlərə qələbə əzmi ilə atılsa da, müharibənin ikinci günündə ömrü yarıyolda qırılıb.

2020-ci il sentyabrın 28-də Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.





**Məcidov
Rafiq
Rasim oğlu**
(1996-2020)



2 iyul 1996-cı ildə Xızı rayonunun Giləzi qəsəbəsində anadan olub. 2014-cü ildə tam orta məktəbi bitirdikdən sonra müddətli həqiqi hərbi xidmət keçib. 2016-cı ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 13 dekabr 2016-cı il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Hərbi hissənin kəşfiyyat bölüyünün məlumatların toplanılması qrupunun komandiri – tərcüməçi vəzifəsində xidmət edib.

Vətən müharibəsinin ilk günündən Cəbrayıl uğrunda döyüşlərdən başlayaraq Şuşanın azad olunmasınadək şərəfli döyüş yolu keçib. Komandanlıq tərəfindən verilən tapşırıqları uğurla yerinə yetirib. Kəşfiyyat məlumatlarının toplanılmasında ciddi səylər göstərib.

2020-ci il noyabrın 9-da Şuşa rayonu istiqamətində Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Məcidzadə
Teymur
Tehran oğlu**
(1992-2020)

10 oktyabr 1992-ci ildə Füzuli rayonunda anadan olub. 2017-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetini, 2019-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 29 yanvar 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun (Matador) motoatıcı bölüyünün motoatıcı taqımının komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsinin ilk günündən döyüşlərə qatılıb. Füzuli, Cəbrayıl və Şuşa rayonlarının bir çox yaşayış məntəqələrinin düşmən işğalından azad edilməsi uğrunda döyüşlərdə fəal iştirak edib.

2020-ci il noyabrın 9-da Şuşa şəhəri istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Hərbi xidmətlərə görə" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Mədətov
Röyal
Şahin oğlu**
(1992-2020)

14 may 1992-ci ildə Qazax rayonunun Əzizbəyli kəndində anadan olub. Tam orta məktəbi bitirib.

3 iyul 2010-cu ildən 12 dekabr 2011-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2012-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "MAHHXHQ hazırlığı kursu" nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 19 aprel 2019-cu il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı taborun (daimi yerləşmə məntəqəsində) xüsusi təyinatlı bölüyünün xüsusi təyinatlı qrupunun kəşfiyyatçısı – snayper, xüsusi təyyinatlı dəstənin xüsusi təyinatlı komandasının kəşfiyyatçısı (snayperi), xüsusi təyinatlı manqanın snayperi, xüsusi təyinatlı manqanın komandiri vəzifələrində xidmət edib.

Şuşa istiqamətində bir çox yaşayış məntəqələrinin işğaldan azad edilməsində fəal iştirak edib, cəsurluğu və şücaəti ilə fərqlənib.

2020-ci il oktyabrın 22-də Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) və "Şücaətə görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Mehbalıyev Elşən Təvəkgül oğlu**
(1994-2020)

23 iyun 1994-cü ildə Bərdə rayonunun Otuzikilər kəndində anadan olub. 2011-ci ildə tam orta məktəbi bitirib. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra, 2016-cı ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Minaatan komandiri", 2018-ci ildə hərbi hissə nəzdində "Xüsusi təyinatlı təlim" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 fevral 2019-cu il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqımın tuşlayıcısı-minaatan, həmlə bölüyünün atəş dəstək manqasının tuşlayıcısı-minaatan, həmlə taqımının həmlə manqasının atıcısı, həmlə manqasının atıcısı-qumbaraatan köməkçisi, motoatıcı bölüyün (BMP-3) motoatıcı manqasının atıcısı-qumbaraatan köməkçisi, motoatıcı bölüyün (BTR-82A) manqasının atıcısı-qumbaraatan köməkçisi, xüsusi təyinatlı kəşfiyyat bölüyünün xüsusi təyinatlı kəşfiyyat qrupunun kəşfiyyatçı – sanitarı vəzifələrində xidmət edib.

2020-ci il noyabrın 4-də Tərtər rayonunun Suqovuşan kəndi ərazisində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Suqovuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Mehbalıyev Vasif Gülhəsən oğlu**
(1994-2020)

26 mart 1994-cü ildə Neftçala rayonunun Aşağı Surra kəndində anadan olub.

2011-ci ildə tam orta məktəbi bitirib. 4 aprel 2012-ci ildən 30 sentyabr 2013-cü ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2016-cı ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 12 aprel 2016-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Tank taqımının tank komandiri, xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı manqasının komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsində xüsusi təyinatlı manqa komandiri kimi vəzifələrinin öhdəsindən layiqincə gəlib, şəxsi şücaət nümunələri göstərib.

2020-ci il oktyabrın 15-də Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda" və Azərbaycan Respublikası Müdafiə nazirinin əmri ilə "Şücaətə görə" medalları ilə təltif edilib.



**Mehdiyev**
**Samir**
**Valeh oğlu**
(1990-2020)

11 dekabr 1990-cı ildə Şirvan şəhərində anadan olub. 2008-ci ildə Salyan rayonunun Şirinov adına orta məktəbini, 2012-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini, 2013-cü ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 iyun 2012-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Mexanikləşdirilmiş taqım komandiri, motoatıcı bölük komandiri, mexanikləşdirilmiş taborun (BMP-1) mexanikləşdirilmiş bölüyünün komandiri, mexanikləşdirilmiş tabor (BMP-1) komandirinin maddi-texniki təminat üzrə müavini vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 4-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Mehdiyev**
**Samir**
**Vaqif oğlu**
(1993-2020)

8 noyabr 1993-cü ildə Bakı şəhərində anadan olub. 2003-cü ildə Bakı Peşə Liseyini bitirib. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra, 20 fevral 2017-ci ildən 10 aprel 2017-ci ilədək Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində kəşfiyyat ixtisası üzrə kurs keçib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 aprel 2019-cu il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Tank bölüyünün tank taqımının mexanik-sürücüsü, xüsusi təyinatlı dəstənin atəş dəstək taqımının qumbaraatan manqasının tuşlayıcısı, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

Cəbrayıl-Füzuli cəbhəsindən Şuşa şəhərinədək döyüş yolu keçib.

2020-ci il noyabrın 9-da Şuşa şəhəri ərazisində gedən hərbi əməliyyatlar zamanı xüsusi kəşfiyyat tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra), "Kəlbəcərin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Mehdiyev**
**Zahir**
**Zakir oğlu**
(1984-2020)

27 aprel 1984-cü ildə Kürdəmir rayonunda anadan olub. 2001-ci ildə tam orta məktəbi bitirib. Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib. 2010-cu ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 29 avqust 2010-cu il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

16 dekabr 2016-cı ilədək motoatıcı taqım komandirinin müavini vəzifəsində xidmət edib və ehtiyata buraxılıb.

Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq 30 sentyabr 2020-ci ildə səfərbərlik üzrə yenidən hərbi xidmətə çağırılıb və motoatıcı taqım komandirinin müavini vəzifəsində döyüşlərdə fəal iştirak edərək şəhidlik zirvəsinə ucalıb.

2020-ci il dekabrın 3-də nəşi Xocavənd rayonunun işğaldan azad edilən yaşayış məntəqəsi ərazisindən çıxarılaraq hərbi və dini ənənələrə uyğun şəkildə son mənzilə yola salınıb.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.







**Mehdizadə**
**Mərdan**
**Əhməd oğlu**
**(1979-2020)**

25 mart 1979-cu ildə Şəki rayonunun Göybulaq kəndində anadan olub. 1996-cı ildə tam orta məktəbi bitirib. 05 iyul 1997-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. Hərbi Dəniz Qüvvələrində matros kimi xidmət edib. 1999-cu ildə Bakı Ali Hərbi Dənizçilik Məktəbi nəzdində "Xüsusi təyinatlı gizir və miçmanlar kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 1 avqust 1999-cu il tarixli əmri ilə "kiçik miçman" hərbi rütbəsi verilib.

Dəniz dalğıc gəmisi dalğıc postunun rəisi, axtarış xilasedici gəmilər divizionunun dəniz dalğıc gəmisinin (DDG-109) dalğıc postunun rəisi, xüsusi təyinatlı dəstənin Xüsusi təyinatlı qrupunun dalğıcı-qrup komandirinin müavini, hərbi hissənin anbar rəisi (istehkam əmlakı üzrə), hərbi hissənin qərargah və təchizat bölüyünün təsərrüfat taqımının anbar rəisi, xüsusi təyinatlı dəstənin (sualtı müdafiə) xüsusi təyinatlı qrupunun dalğıcı-kəşfiyyatçı, xüsusi təyinatlı taborun (xüsusi əməliyyatlar) gəmi əməliyyatları dəstəsinin xüsusi təyinatlı qrupunun dalğıcı - kəşfiyyatçısı, xüsusi təyinatlı taborun (sualtı hücum) xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı qrupunun dalğıcı – kəşfiyyatçısı vəzifələrində xidmət edib.

"Baş miçman" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlılarının tərkibində döyüşlərdə iştirak edib, şəxsi igidlik və şücaət nümunələri göstərib.

2020-ci il oktyabrın 12-də Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.



*Araza, Kürə dönmüşük,*
*Ocağa, pirə dönmüşük,*
*Ölümü də öldürmüşük,*
*Biz əbədi Şəhidlərik!*





**Məhəmmədli**
**İsmayıl**
**Mahir oğlu**
**(1996-2020)**



1 yanvar 1996-cı ildə Gəncə şəhərində anadan olub. 2013-cü ildə tam orta məktəbi bitirib. 7 yanvar 2014-cü ildən 1 iyul 2015-ci ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2018-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 19 may 2018-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı bölüyün (BTR-80) motoatıcı taqım komandirinin müavini vəzifəsində xidmət edib.

Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan ordusunun mövqeləri və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmasına cavab olaraq Azərbaycanın başladığı Vətən müharibəsinin ilk günündə Murovdağ zirvələri uğrunda döyüşlərə yollanıb.

2020-ci il oktyabrın 1-də Göygöl rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.



**Məhərrəmov**
**Fuad**
**İmaməddin oğlu**
**(1994-2020)**

5 aprel 1994-cü ildə Goranboy rayonunun Zeyvə kəndində anadan olub.

2011-ci ildə S.Məmmədov adına Zeyvə kənd orta məktəbini, 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2016-cı ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 26 iyun 2015-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, mexanikləşdirilmiş taborun (BTR, Sand-Cat) mexanikləşdirilmiş bölüyünün (BTR) mexanikləşdirilmiş taqımının komandiri vəzifəsində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 iyun 2018-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

2020-ci il oktyabrın 27-də Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Məhərrəmov**
**Ülvü**
**Tahir oğlu**
**(1997-2020)**

5 iyul 1997-ci ildə Sumqayıt şəhərində anadan olub.

2015-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə ona "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun (BMP-2) motoatıcı taqımının komandiri, mexanikləşdirilmiş taborun (BMP-2) mexanikləşdirilmiş bölüyünün komandiri vəzifələrində xidmət edib.

Xocavənd, Füzuli və Şuşa rayonlarının bir çox yaşayış məntəqələrinin işğaldan azad edilməsində fəal iştirak edib.

2020-ci il oktyabrın 14-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Məhərrəmov**
**Vüsal**
**Aslan oğlu**
**(1979-2020)**

10 dekabr 1979-cu ildə Masallı rayonunda anadan olub. 2001-ci ildə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 9 oktyabr 2001-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

28 sentyabr 2003-cü ildən 28 mart 2005-ci ilədək Azərbaycan Ordusunda motoatıcı taborun minaatan batareyasının idarəetmə taqımının komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq 3 oktyabr 2020-ci ildə qismən səfərbərlik üzrə yenidən hərbi xidmətə çağırılıb və mexanikləşdirilmiş taborun (BMP-2) minaatan batareyasının minaatan taqımının komandiri – batareyanın baş zabiti vəzifəsində döyüşlərdə fəal iştirak edib.

Füzuli-Cəbrayıl cəbhəsindən Qarabağın tacı olan Şuşa şəhərinədək şərəfli döyüş yolu keçib.

2020-ci il noyabrın 6-da Şuşa rayonu istiqamətində gedən döyüş əməliyyatlarında döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.







**Mehtiyev**
**Paşa**
**Ehtibar oğlu**
**(1978-2020)**

24 noyabr 1978-ci ildə Füzuli rayonunun Dövlətyarlı kəndində anadan olub. 1996-cı ildə tam orta məktəbi bitirib. Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

Ehtiyata buraxıldıqdan sonra Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit Heyətinin Təkmilləşdirilməsi" və "Gizir hazırlığı" kurslarını bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 1 sentyabr 1999-cu il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Tank taqımının tank komandiri, hərbi hissənin qərargah və təchizat bölüyünün rabitə taqımının tank komandiri – idarəetmə manqasının (tabor komandirinin) komandiri vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 25 may 2015-ci il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilib.

2016-cı il Aprel döyüşləri zamanı Füzuli və Cəbrayıl rayonları istiqamətində hərbi əməliyyatlarda fəal iştirak edib. Bu əməliyyatlar nəticəsində uzun illər ərzində işğal altında qalan torpaqların işğaldan azad edilməsində və Lələtəpə zirvəsinin alınmasında müstəsna xidmətləri olub.

2020-ci il sentyabrın 27-də Füzuli rayonu istiqamətində xidməti vəzifəsini yerinə yetirərkən igidlik göstərərək şəhidlik zirvəsinə ucalıb.

Sağlığında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "İgidliyə görə", Azərbaycan Respublikası Müdafiə nazirinin əmrinə əsasən "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)",

"Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.



*Tankçı peşəsini özün seçmisən,*
*Vətənə sədaqət andı içmisən,*
*Alovdan keçmisən, oddan keçmisən,*
*Unutmaz bu ellər, bu Vətən səni!*





**Məlikov**
**Aqil**
**Niyaz oğlu**
(1986-2020)



6 aprel 1986-cı ildə Quba rayonunda anadan olub. 2005-ci ildə E.Bayramov adına Alpan kənd orta məktəbini, 2009-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2009-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, qərargah bölüyünün komandiri, hərbi hissənin maddi-texniki təminat bölüyünün komandiri, motoatıcı bölüyün (BMP-1) komandiri, mexanikləşdirilmiş bölüyün (BMP-1) komandiri, mexanikləşdirilmiş tabor (BMP-1) komandirinin müavini vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il sentyabrın 28-də Füzuli rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən igidlik nümunəsi göstərərək şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Məlikov**
**Mahmud**
**Təhmasib oğlu**
(1994-2020)

3 aprel 1994-cü ildə Neftçala rayonunun Xolqaraqaşlı kəndində anadan olub. 2011-ci ildə Q.Nuralıyev adına kənd orta məktəbini, 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 26 iyun 2015-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, mexanikləşdirilmiş (BMP-2) taqımının komandiri, motoatıcı taborun (BMP-2) motoatıcı bölüyünün komandiri, mexanikləşdirilmiş taborun (BMP-2) mexanikləşdirilmiş bölüyünün komandiri, mexanikləşdirilmiş taborun (BTR, SandCat) mexanikləşdirilmiş bölüyünün (SandCat) komandiri, mexanikləşdirilmiş tabor (BMP-1) komandirinin maddi-texniki təminat üzrə müavini vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 iyun 2018-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Vətən müharibəsi başlanan ilk gündən Füzuli rayonunun yaşayış məntəqələrinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə iştirak edən mexanikləşdirilmiş taborun maddi-texniki təminatı məsələlərinin vaxtl-vaxtında yüksək səviyyədə təşkili üçün səylərini əsirgəməyib.

2020-ci il oktyabrın 27-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







***"Ölüm sevinməsin qoy! Ömrünü vermir bada***
***El qədrini canından daha əziz bilənlər.***
***Şirin bir xatirə tək qalacaqdır dünyada***
***Sevərək yaşayanlar, sevilərək ölənlər!"***



**Məmişli**
**Sahil**
**Ağaverdi oğlu**
(1991-2020)

21 avqust 1991-ci ildə Biləsuvar rayonunun Çaylı kəndində anadan olub. 2009-cu ildə tam orta məktəbi bitirib. 3 oktyabr 2009-cu ildən 1 aprel 2011-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

16 noyabr 2011-ci ildən 29 noyabr 2014-cü ilədək Daxili Qoşunlarda müddətdən artıq həqiqi hərbi xidmətdə olub.

2016-cı ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 13 dekabr 2016-cı il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Hərbi hissənin kəşfiyyat bölüyünün məlumatların toplanılması qrupunun komandiri – tərcüməçi, kəşfiyyat taqımı komandirinin müavini, kəşfiyyat bölüyünün kəşfiyyat-müşahidə taqımının komandiri vəzifələrində xidmət edib.

2020-ci il noyabrın 11-də Şuşa şəhəri istiqamətində düşmənlə təmas xəttində döyüş tapşırığını yerinə yetirərkən odlu silahdan açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.





**Məmiyev**
**Valeh**
**İsbat oğlu**
(1994-2020)



27 mart 1994-cü ildə Yardımlı rayonunun Kürəkçi kəndində anadan olub. 2011-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 26 iyun 2015-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Tank bölüyünün tank taqımının komandiri, tank bölüyünün komandiri vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 iyun 2018-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

2020-ci il oktyabrın 19-da Qubadlı rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən düşmən tərəfindən atılan mərmi partlayışı nəticəsində ağır yaralanıb və Silahlı Qüvvələrin Baş Klinik Hospitalında həkimlərin səylərinə baxmayaraq oktyabrın 23-də şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.



**Məmmədli**
**Nicat**
**Rizvan oğlu**
(1999-2020)

31 iyul 1999-cu ildə Naxçıvan Muxtar Respublikasının Culfa şəhərində anadan olub. 2016-cı ildə Heydər Əliyev adına hərbi liseyi, 2020-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2020-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı bölüyün motoatıcı taqımının komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsinin birinci günündən oktyabr ayının 8-dək Tərtər və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin düşmən işğalından azad edilməsi uğrunda döyüşlərdə komandiri olduğu motoatıcı taqımın döyüşçüləri ilə birlikdə fəal iştirak edib və qarşıya qoyulan vəzifələrin şərəflə yerinə yetirilməsinə nail olub.

2020-ci il oktyabrın 8-də Tərtər rayonunun Talış kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən düşmənin artilleriya atəşi nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.







**Məmmədli**
**Rüfət**
**Vidadi oğlu**
(1993-2020)

23 noyabr 1993-cü ildə Ağstafa rayonunda anadan olub. 2011-ci ildə tam orta məktəbi bitirib. Müddətli həqiqi hərbi xidmət keçib. 2014-cü ildə hərbi hissədə kəşfiyyat ixtisası üzrə tam kurs bitirib.

Kəşfiyyat bölüyünün kəşfiyyat manqasının kəşfiyyatçı-snayperi vəzifəsində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 11 yanvar 2019-cu il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Vətən müharibəsinin ilk günündən döyüşlərdə mahir kəşfiyyatçı-snayper kimi tanınıb, canlı qüvvə sarıdan düşmənə xeyli itikilər verib.

Cəbrayıl və Füzuli cəbhəsindən başlayaraq Şuşa şəhərinə qədər şanlı döyüş yolu keçib.

2020-ci il noyabrın 7-də Şuşa şəhəri ərazisində gedən hərbi əməliyyatlar zamanı düşmən tərəfindən açılan artilleriya atəşi nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Məmmədli Sənan Səlim oğlu**
(1997-2020)

14 sentyabr 1997-ci ildə Tərtər rayonunun Qaradağlı kəndində anadan olub. 2016-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2020-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2020-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Mexanikləşdirilmiş taborun (BMP-2) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının komandiri vəzifəsində xidmət edib.

Ermənistanın təxribatlarına cavab olaraq respublikamızın ərazi bütövlüyünün bərpa olunması uğrunda Azərbaycanın "Dəmir Yumruq" əməliyyatı ilə başladığı Vətən müharibəsinin ilk günündən Füzuli və Xocavənd döyüşlərində fəal iştirak edib.

2020-ci il oktyabrın 15-də Füzuli rayonu istiqamətində xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Məmmədli Sübhan Səbuhi oğlu**
(1994-2020)

12 avqust 1994-cü ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Xıncab kəndində anadan olub. 2012-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2016-cı il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Mexanikləşdirilmiş bölüyün (BMP-3) mexanikləşdirilmiş taqımının komandiri, mexanikləşdirilmiş taborun (BMP-1) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının komandiri, motoatıcı taborun (BMP-2) motoatıcı bölüyünün motoatıcı taqımının komandiri, motoatıcı bölük komandiri, motoatıcı taborun (BTR-82A) motoatıcı bölüyünün komandiri, motoatıcı taborun (SandCat) motoatıcı bölüyünün komandiri, mexanikləşdirilmiş taborun (SandCat) mexanikləşdirilmiş bölüyünün komandiri vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 23 iyun 2019-cu il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Vətən müharibəsində komandiri olduğu mexanikləşdirilmiş bölüyə bacarıqla rəhbərlik edib. Qarşıya qoyulmuş döyüş tapşırıqlarını uğurla yerinə yetirib. Şəxsi igidlik və rəşadət nümunələri göstərib.

2020-ci il oktyabrın 7-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 3-cü dərəcəli "Rəşadət" ordeni və "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.



*Dağlardan çən-duman yox olacaqdır,*
*Düşmən öz qanında boğulacaqdır,*
*Şəhidlər yenidən doğulacaqdır*
*Ağlama, ağlama Şəhid anası!*





**Məmmədli Turan Raqif oğlu**
(1993-2020)



7 dekabr 1993-cü ildə Ağstafa rayonunun Yuxarı Göycəli kəndində anadan olub.

2011-ci ildə tam orta məktəbi bitirib. 16 yanvar 2012-ci ildən 7 iyun 2013-cü ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2016-cı ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 12 aprel 2016-cı il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taborun (BTR-82A) motoatıcı manqasının komandiri – döyüş maşını komandiri, həmlə manqasının döyüş maşını komandiri – həmlə manqasının komandiri, həmlə taqımı komandirinin müavini, motoatıcı bölüyün (SandCat) motoatıcı taqımı komandirinin müavini vəzifələrində xidmət edib.

2020-ci il noyabrın 7-də Füzuli uğrunda hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub, nəşi 23 gün sonra azad edilən ərazidən çıxarılıb.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Məmmədov Amid Müqabil oğlu**
(1987-2020)

2 aprel 1987-ci ildə Qazax rayonunun Musaköy kəndində anadan olub. 2004-cü ildə tam orta məktəbi bitirib. 10 aprel 2005-ci ildən 15 sentyabr 2006-cı ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2012-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 oktyabr 2012-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Mexanikləşdirilmiş taqımın döyüş maşını komandiri – manqa komandiri, motoatıcı taqımın döyüş maşını komandiri – döyüş maşınları heyətinin rəisi, mexanikləşdirilmiş taqımın döyüş maşını komandiri – döyüş maşınları heyətinin rəisi vəzifələrində xidmət edib.

2020-ci il noyabrın 3-də Şuşa şəhəri istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.







**Məmmədov Anar Elşad oğlu**
(1986-2020)

2 may 1986-cı ildə Sabirabad rayonunda anadan olub. 2003-cü ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2007-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini, 2008-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2007-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölüyün komandiri, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində kursant taqımının komandiri – müəllim köməkçisi, kursant bölüyünün komandiri - müəllim, hərbi hissənin motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini, motoatıcı bölüyün komandiri, mexanikləşdirilmiş tabor (BMP-2) komandirinin maddi-texniki təminat üzrə müavini, mexanikləşdirilmiş taborun (BMP-2) qərargah rəisi – tabor komandirinin müavini vəzifələrində xidmət edib.

"Mayor" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində Xocavənd, Füzuli və Şuşa uğrunda döyüşlərdə fəal iştirak edib. Taborun qarşısına qoyulmuş vəzifələrin uğurla nəticələnməsi üçün səylərini əsirgəməyib, döyüşlərdə fərqlənib.

2020-ci il noyabrın 9-da Şuşa şəhəri istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Res-

publikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.



*Şəhidsən, adına, sanına qurban,*
*Şöhrətinə qurban, şanına qurban.*
*Dostların qaliblər ziyarətinə,*
*Sənin qövr eləyən yarana qurban.*





**Məmmədov**
**Anar**
**Kərəm oğlu**
(1984-2020)



6 iyun 1984-cü ildə Bakı şəhərində anadan olub. 2003-cü ildə tam orta məktəbi, 2009-cu ildə Azərbaycan Tibb Universitetinin Hərbi Tibb fakültəsini bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2009-cu il tarixli əmri ilə "tibb xidməti leytenantı" hərbi rütbəsi verilib.

Motoatıcı taborun qərargah bölüyünün tibb məntəqəsinin rəisi, mexanikləşdirilmiş taborun qərargah bölüyünün tibb məntəqəsinin rəisi, motoatıcı taborun tibb məntəqəsinin rəisi, hərbi hissənin tibb məntəqəsinin rəisi, hərbi hissənin tibb xidməti rəisi – tibb məntəqəsinin rəisi, motoatıcı taborun (BTR-82A) tibb məntəqəsinin rəisi vəzifələrində xidmət edib. "Tibb xidməti kapitanı" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il noyabrın 3-də Xocavənd rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində həlak olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Məmmədov**
**Ayxan**
**Rəfail oğlu**
(1998-2020)

14 sentyabr 1998-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Xanlıqlar kəndində anadan olub.

2016-cı ildə Heydər Əliyev adına hərbi liseyi, 2020-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2020-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Mexanikləşdirilmiş taborun (BMP-3) mexanikləşdirilmiş taqımının komandiri, xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı taqımı komandirinin müavini vəzifələrində xidmət edib.

Vətən müharibəsində şəxsi igidlik və şücaət nümunələri göstərib. 2020-ci il oktyabrın 21-də Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" (ölümündən sonra) ordeni, "Vətən uğrunda" (ölümündən sonra) medalı və Azərbaycan Respublikası Müdafiə nazirinin əmri ilə "Şücaətə görə" (ölümündən sonra) medalı ilə təltif edilib.





**Məmmədov**
**Cavad**
**Səfiyar oğlu**
(1980-2020)



25 may 1980-ci ildə Ermənistan Respublikasının Vardenis rayonunun Qoşabulaq kəndində anadan olub. 2000-ci ildə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 30 oktyabr 2000-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

19 mart 2002-ci ildə 13 sentyabr 2003-cü ilədən müddətli həqiqi hərbi xidmət keçib.

Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq 2020-ci ildə qismən səfərbərlik üzrə yenidən hərbi xidmətə çağırılıb və motoatıcı taqımın komandiri kimi döyüşlərdə iştirak edib.

Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın işğal edilmiş tarixi torpaqlarının azad edilməsi uğrunda başladığı Vətən müharibəsinin ilk günündən döyüşlərdə fəal iştirak edib.

2020-ci il sentyabrın 28-də Goranboy rayonunun Yuxarı Ağcakənd kəndi ərazisində «Yaylaq» döyüş mövqeyində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən atılmış artilleriya mərmisinin partlaması nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunub.



**Məmmədov Cavid İlham oğlu**
(1990-2020)

18 oktyabr 1990-cı ildə Şəmkir rayonunun Yeniabad kəndində anadan olub. Kənd tam orta məktəbini bitirib.

19 oktyabr 2008-ci ildən 1 aprel 2010-cu ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2017-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 13 aprel 2017-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandirinin müavini vəzifəsində xidmət edib.

Vətən müharibəsinin ilk günündə Tərtər və Ağdərə rayonlarının yaşayış məntəqələrinin düşmən işğalından azad olunması uğrunda savaş meydanına atılıb və qarşıya qoyulmuş döyüş tapşırıqlarının uğurla nəticələnməsi üçün səylərini əsirgəməyib.

2020-ci il sentyabrın 28-də Tərtər rayonunun Talış kəndi istiqamətində xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Hərbi xidmətlərə görə" (ölümündən sonra), "Suqovuşanın azad olunmasına görə" (ölümündən sonra), "Laçının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Məmmədov Çingiz İlham oğlu**
(1992-2020)

9 iyul 1992-ci ildə Şəmkir rayonunun Yeniabad kəndində anadan olub. 2010-cu ildə tam orta məktəbi bitirib. 12 iyul 2010-cu ildən 1 yanvar 2012-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2012-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 oktyabr 2012-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Mexanikləşdirilmiş taqımın döyüş maşını komandiri – manqa komandiri, motoatıcı taqım komandirinin müavini, motoatıcı taqımın (BMP-3) döyüş maşını komandiri – döyüş maşınları heyətinin rəisi, motoatıcı bölüyün (MT-LB) motoatıcı taqımı komandirinin müavini vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 1-də Göygöl rayonu istiqamətində Murovdağ zirvələrinin azad olunması uğrunda hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



**Məmmədov**
**Elcan**
**Zöhrab oğlu**
(1989-2020)

9 avqust 1989-cu ildə Tərtər rayonunda anadan olub.

2011-ci ildə Azərbaycan Texniki Universitetini, 2018-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 13 avqust 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Dağ-atıcı taqım komandiri, motoatıcı taqım komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündə qələbə əzmi, işğal altındakı tarixi torpaqlarımızın tezliklə azad ediləcəyinə böyük əminliklə döyüşlərə atılsa da, Qarabağın tacı olan Şuşa qalasının azad olunmasını və Qələbə gününü görmək ona qismət olmayıb.

2020-ci il sentyabrın 27-də Tərtər və Ağdərə rayonları istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Suqovuşanın azad olunmasına görə" (ölümündən sonra), "Laçının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Məmmədov**
**Elmir**
**Nadir oğlu**
(1988-2020)

5 oktyabr 1988-ci ildə Cəlilabad rayonunun Göytəpə şəhərində anadan olub. 2006-cı ildə tam orta məktəbi bitirib, Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nda təhsil alıb.

Azərbaycan Respublikası Müdafiə nazirinin 7 mart 2011-ci il tarixli əmri ilə "gizir", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 24 mart 2020-ci il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilib.

Tank taqımının tank komandiri, tank bölüyünün baş çavuşu, tank bölüyünün baş texniki vəzifələrində xidmət edib.

"Dəmir Yumruq" əməliyyatı ilə başlanan 44 günlük Vətən müharibəsinin ilk şəhidlərindəndir.

2020-ci il sentyabrın 27-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.



**Məmmədov Əlövsət Əli oğlu**
(1988-2020)

28 fevral 1988-ci ildə Goranboy rayonunda anadan olub.

2005-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2009-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2009-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Hərbi hissənin rabitə bölüyünün avtomatik idarəetmə sistemləri taqımının komandiri, hərbi hissənin əməliyyat imkanları konsepsiyası taborunun rabitə bölməsinin zabiti (mühəndis-sistem proqramçı), hərbi hissənin rabitə bölüyünün avtomatik idarəetmə sistemləri taqımının mühəndis-proqramçısı, hərbi hissənin rabitə bölməsi rəisinin köməkçisi (avtomatik idarəetmə sistemlərinə nəzarət və informasiya əlaqəsi üzrə), hərbi hissənin rabitə rəisi – rabitə bölməsinin rəisi vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Quru Qoşunlarının idarə edilməsinin avtomatlaşdırılması kursu"nu bitirib.

"Mayor" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il noyabrın 8-də Xocavənd rayonu istiqamətində düşmənlə təmas xəttində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.





Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



***Ömür keçən, gün keçən,***
***Duman keçən, çən keçən,***
***Bir-birindən şən keçən***
***Çağlar yadıma düşdü.***

***Bir səs gəlir "Pərim, hey...***
***Ay eşqimin Kürü, hey..."***
***Yeddi qızın biri hey***
***Ağlar, yadıma düşdü...***



**Məmmədov
Elşad
Əvəz oğlu**
(1990-2020)

2 iyul 1990-cı ildə Beyləqan rayonunun Təzəkənd kəndində anadan olub. 2007-ci ildə tam orta məktəbi bitirib. 19 iyul 2008-ci ildən 1 yanvar 2010-cu ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2012-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 oktyabr 2012-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandirinin müavini, motoatıcı taqımının döyüş maşını komandiri, hərbi hissədə nizami hissənin məsul icraçısı vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk şəhidlərindəndir.

2020-ci il sentyabrın 27-də Füzuli rayonu istiqamətində xidməti vəzifələrini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.





**Məmmədov
Elşən
Əziz oğlu**
(1999-2020)



21 aprel 1999-cu ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şəhid Məmməd kəndində anadan olub.

2016-cı ildə Heydər Əliyev adına hərbi liseyi, 2020-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2020-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsinin ilk günündən Xocavənd və Füzuli rayonlarının yaşayış məntəqələrinin işğaldan azad olunması uğrunda döyüşlərdə fərqlənib. Komandiri olduğu motoatıcı taqım qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlib.

2020-ci il oktyabrın 21-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Məmmədov**
**Elvin**
**Etibar oğlu**
(1997-2020)

1 oktyabr 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Nəzərabad kəndində anadan olub. 2015-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, mexanikləşdirilmiş taqımın komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsi döyüşlərində cəmi beş gün iştirak etsə də, cəsurluğu və mərdliyi silahdaşlarının yaddaşından heç vaxt silinməyəcək. Füzuli rayonunun bir neçə kəndinin düşmən işğalından azad edilməsi uğrunda döyüşlərdə şəxsi igidlik və mərdlik nümunələri göstərərək komandirlərinin rəğbətini qazanıb.

2020-ci il oktyabrın 1-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Məmmədov**
**Emin**
**Vətən oğlu**
(1992-2020)

15 avqust 1992-ci ildə Beyləqan rayonunun Qəhramanlı qəsəbəsində anadan olub. 2009-cu ildə tam orta məktəbi bitirib. 5 oktyabr 2010-cu ildən 16 mart 2012-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2014-cü ildə hərbi hissənin nəzdində "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 1 oktyabr 2016-cı il tarixli əmri ilə "kiçik gizir", 30 may 2019-cu il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Kəşfiyyat bölüyünün (ümumi dəstək) atəş dəstək taqımının snayperlər qrupunun snayperi – kəşfiyyatçı, kəşfiyyat bölüyünün (radiokəşfiyyat və radioelektron mübarizə) radiomaneə taqımının radiomaneə stansiyasının baş operatoru, xüsusi təyinatlı kəşfiyyat bölüyünün xüsusi təyinatlı kəşfiyyat qrupunun kəşfiyyatçı – snayperi vəzifələrində xidmət edib.

Vətən müharibəsində döyüş əməliyyatlarında şəxsi igidlik və şücaət nümunələri göstərib. Qarşıya qoyulmuş döyüş tapşırıqlarını uğurla yerinə yetirib, düşmənə canlı qüvvə sarıdan xeyli itkilər verib, şəxsi heyət arasında mahir kəşfiyyatçı-snayper kimi tanınıb.

2020-ci il sentyabrın 27-də Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və

döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.



*Adı doğmadır, əzizdir,*
*Eşqi, duyğusu təmizdir,*
*Çingiz, Fərid, Mübarizdir*
*Bizim əsgər, bizim əsgər!*







**Məmmədov Fərid Vəlhad oğlu**
(1990-2020)

29 aprel 1990-cı ildə Abşeron rayonunun Xırdalan qəsəbəsində anadan olub. Tam orta məktəbi bitirdikdən sonra hərbi xidmətə çağırılıb və 7 oktyabr 2008-ci ildən 2 aprel 2010-cu ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2017-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı", 2019-cu ildə "Ehtiyat zabit hazırlığı" kurslarını bitirib. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının məzunudur.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 13 aprel 2017-ci il tarixli əmri ilə "gizir", Azərbaycan Respublikası Müdafiə nazirinin 30 dekabr 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Tədris prosesinin təminatı taborunun rabitə bölüyünün telefon taqımının aparat rəisi- təlimatçı (kanalyaratma), motoatıcı taqım komandiri vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 25-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



**Məmmədov**
**İbrahim**
**Nakam oğlu**
(1985-2020)

3 aprel 1985-ci ildə Şəki rayonunda anadan olub. 2002-ci ildə tam orta məktəbi, 2004-cü ildə hərbi hissənin nəzdində "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 18 oktyabr 2004-cü il tarixli əmri ilə "kiçik gizir", 25 iyun 2013-cü il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı alayın xüsusi təyiantlı taborunun kəşfiyyatçısı (radioteleqrafçı), xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı, xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı manqasının komandiri, xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 25-də Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 90 illiyi (1918-2008)", "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.







**Məmmədov**
**İsmət**
**Hikmət**
(1993-2020)

2 avqust 1993-cü ildə Kürdəmir rayonunun Sor-sor kəndində anadan olub. 2010-cu ildə tam orta məktəbi bitirib. 10 oktyabr 2011-ci ildən 3 aprel 2014-cü ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2014-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 25 yanvar 2014-cü il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandirinin müavini, motoatıcı bölüyün baş çavuşu, mexanikləşdirilmiş taborun (BTR-82A) mexanikləşdirilmiş bölüyünün baş çavuşu vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən döyüşlərdə fəal iştirak edib. Baş çavuş kimi mexanikləşdirilmiş bölüyün şəxsi heyətinin təminat və təchizat məsələlərinin atəşlər altında yüksək səviyyədə təşkilində səylərini əsirgəməyib.

2020-ci il oktyabrın 8-də Talış və Suqovuşan kəndləri istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.



**Məmmədov Kənan Hüseyn oğlu**
(1993-2020)

17 iyul 1993-cü ildə Mingəçevir şəhərində anadan olub. 2011-ci ildə tam orta məktəbi bitirib. 22 iyul 2011-ci ildən 24 may 2014-cü ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2014-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 may 2014-cü il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Mexanikləşdirilmiş manqanın döyüş maşını komandiri, mexanikləşdirilmiş manqa komandiri, motoatıcı taqımın (BMP-3) döyüş maşını komandiri – döyüş maşınları heyətinin rəisi, motoatıcı bölüyün (BMP-3) motoatıcı taqımının döyüş maşınları heyətinin döyüş maşını komandiri, mexanikləşdirilmiş taborun (BTR-82A) mexanikləşdirilmiş manqasının komandiri vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 28-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunub.







**Məmmədov Kənan Nifdalı oğlu**
(1993-2020)

22 oktyabr 1993-cü ildə Ucar rayonunda anadan olub. Tam orta məktəbi bitirdikdən sonra 25 oktyabr 2011-ci ildən 1 aprel 2013-cü ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2017-ci ildə Bakı Dövlət Universitetini, 2018-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 12 mart 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

12 mart 2018-ci ildən Azərbaycan Ordusunda motoatıcı taborun (BMP-2) motoatıcı taqım komandiri, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun baş kəşfiyyatçısı vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk şəhidlərindəndir.

2020-ci il sentyabrın 28-də Göygöl rayonu ərazisində, Murovdağ zirvələrinin azad olunması uğrunda hərbi əməliyyatlar zamanı xüsusi kəşfiyyat tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "İgidliyə görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Məmmədov**
**Kərim**
**Namil oğlu**
(1989-2020)

5 aprel 1989-cu ildə Gəncə şəhərində anadan olub. 2006-cı ildə tam orta məktəbi bitirib. 6 aprel 2007-ci ildən 16 oktyabr 2008-ci ilədək Daxili Qoşunlarda müddətli həqiqi hərbi xidmət keçib.

2016-cı ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 13 dekabr 2016-cı il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandirinin müavini vəzifəsində xidmət edib.

Vətən müharibəsinin ilk gününü ön səngərdə qarşılayıb. Bütün şəxsi heyətlə birlikdə and içərək, düşmən təxribatlarına son qoymaq və strateji yüksəklikləri işğaldan azad etmək üçün qələbə əzmi ilə əks-hücuma keçiblər.

2020-ci il oktyabrın 1-də Goranboy rayonunun Buzluq kəndi yaşayış məntəqəsi istiqamətində, düşmənlə təmas xəttində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən atılan artilleriya mərmisinin partlayışı nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Hərbi xidmətlərə görə" (ölümündən sonra), "Kəlbəcərin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Məmmədov**
**Maarif**
**Məmməd oğlu**
(1986-2020)

28 fevral 1986-cı ildə Beyləqan rayonunun Təzəkənd kəndində anadan olub. 2004-cü ildə tam orta məktəbi bitirib. 3 iyul 2004-cü ildən 1 iyul 2005-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2013-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 26 aprel 2013-cü il tarixli əmri ilə "gizir", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 21 fevral 2020-ci il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilib.

Haubitsalı özüyeriyən artilleriya taqımı komandirinin müavini – top komandiri, hərbi hissənin rabitə bölüyünün baş texniki vəzifələrində xidmət edib.

Bir çox yaşayış məntəqələrinin azad edilməsi uğrunda döyüşlərdə rabitə bölüyünün baş texniki kimi çətin və məsuliyyətli vəzifənin öhdəsindən layiqincə gəlib, mərmi atəşləri və güllələr altında rabitənin daim işlək vəziyyətdə saxlanılması üçün səylərini əsirgəməyib.

2020-ci il noyabrın 5-də Şuşa şəhəri istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.



**Məmmədov**
**Mahir**
**Ağasəlim oğlu**
(1981-2020)

28 yanvar 1981-ci ildə Xaçmaz rayonunun Şıx-haput kəndində anadan olub.

1998-ci ildə tam orta məktəbi bitirib. 31 yanvar 2000-ci ildən 16 fevral 2003-cü ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2003-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 1 avqust 2003-cü il tarixli əmri ilə "gizir", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 31 avqust 2018-ci il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandirinin müavini, hərbi hissənin əməliyyat bölməsinin operatoru vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 19-da Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 90 illiyi (1918-2008)", "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.





**Məmmədov**
**Məhəmməd**
**Zakir oğlu**
(1994-2020)



27 yanvar 1994-cü ildə Qazax rayonunda anadan olub. 2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Qazax filialının Tarix və coğrafiya müəllimliyi fakültəsini bitirib. 9 iyul 2016-cı ildən 4 iyul 2017-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2018-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 12 mart 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, qərargah bölüyünün taktiki komanda məntəqəsinin rəisi, tank əleyhinə bölüyün tank əleyhinə taqımının komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günlərindən İşğal olunmuş tarixi torpaqlarımızın düşmən əsarətindən tezliklə azad ediləcəyinə böyük ümidlərlə döyüş meydanına atılıb və vəzifəsinin öhdəsindən layiqincə gəlib.

2020-ci il oktyabrın 4-də Tərtər və Ağdərə rayonları istiqamətlərində hərbi əməliyyatlar zamanı şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Laçının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Məmmədov
Natiq
Sahib oğlu**
(1997-2020)

30 avqust 1997-ci ildə Biləsuvar rayonunun Aşağı Cürəli kəndində anadan olub. 2015-ci ildə tam orta məktəbi bitirib. 15 oktyabr 2015-ci ildən 9 aprel 2007-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2018-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 19 may 2018-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Tank taqımının tank komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsində Füzuli və Xocavənd rayonlarının yaşayış məntəqələrinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə komandiri olduğu tankın heyəti ilə birlikdə ilk döyüşlərdən fərqlənib.

2020-ci il oktyabrın 26-da Xocavənd rayonu istiqamətində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində ağır yaralanıb və Silahlı Qüvvələrin Baş Klinik Hospitalında həkimlərin səylərinə baxmayaraq 30 oktyabrda şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Döyüşdə fərqlənməyə görə" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Məmmədov
Pərvin
Rza oğlu**
(1994-2020)

30 mart 1994-cü ildə Göyçay rayonunun Yeniarx kəndində anadan olub.

Tam orta məktəbi bitirdikdən sonra, 5 aprel 2012-ci ildən 10 oktyabr 2013-cü ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2017-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 13 aprel 2017-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taborun (BTR-82A) motoatıcı bölüyünün baş texniki – döyüş maşını komandiri, motoatıcı taborun (BTR-82A) motoatıcı bölüyünün motoatıcı taqımının döyüş maşını komandiri – döyüş maşınları heyətinin rəisi, motoatıcı bölüyün (BTR-82A) motoatıcı taqımının döyüş maşınları heyətinin döyüş maşını komandiri vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 1-də Tərtər və Ağdərə rayonları istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə" medalları ilə təltif olunub.



**Məmmədov**
**Pərviz**
**Ələddin oğlu**
(1989-2020)

9 avqust 1989-cu ildə Bakı şəhərində anadan olub.

2006-cı ildə Qaradağ rayonu 288 saylı tam orta məktəbini, 2010-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2010-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı taborun qərargah bölüyünün komandiri, motoatıcı bölüyün komandiri, tank əleyhinə bölüyün komandiri vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsinin ilk günündə komandiri olduğu tank əleyhinə bölüyün qarşısına qoyulmuş döyüş tapşırıqlarını uğurla yerinə yetirib.

2020-ci il sentyabrın 30-da Xocavənd rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.







**Məmmədov**
**Rəşad**
**Asif oğlu**
(1987-2020)

28 aprel 1987-ci ildə Bakı şəhərində anadan olub. 2006-cı ildə 2 saylı Bakı Peşə Liseyini bitirib. Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2011-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 7 mart 2011-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Mexanikləşdirilmiş taqımın döyüş maşını komandiri – manqa komandiri, nizami hissənin məsul icraçısı, mexanikləşdirilmiş taqımın döyüş maşınları heyətinin döyüş maşını komandiri vəzifələrində xidmət edib.

Füzuli, Xocavənd, Cəbrayıl və Qubadlı rayonlarının bir çox yaşayış məntəqələrinin işğaldan azad olunmasında fəal iştirak edib və şəhidlik zirvəsinə ucalıb.

Nəşi 2020-ci il dekabrın 3-də azad edilmiş ərazilərdən çıxarılaraq böyük izdihamın iştirakı ilə son mənzilə yola salınıb.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.



**Məmmədov Ruslan Ramiz oğlu**
(1997-2020)

6 yanvar 1997-ci ildə Sumqayıt şəhərində anadan olub. 2018-ci ildə AzərbaycanTexnologiya Universitetini, 2020-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 5 iyun 2020-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Minaatan batareyanın minaatan taqımının komandiri vəzifəsində xidmət edib.

Komandiri olduğu minaatan taqımının şəxsi heyəti ilə birlikdə Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın öz ərazi bütövlüyünün bərpası naminə başladığı Vətən müharibəsinin ilk günlərində Suqovuşanın işğaldan azad edilməsi uğrunda düşmənə tutarlı zərbələr vurub və döyüşlərdə fərqlənib.

2020-ci il oktyabrın 1-də Tərtər və Ağdərə rayonları istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Suqovuşanın azad olunmasına görə" (ölümündən sonra) medallar ilə təltif olunub.







**Məmmədov Sadiq Sadəddin oğlu**
(1981-2020)

23 iyun 1981-ci ildə Qax rayonunda anadan olub. 1998-ci ildə tam orta məktəbi, 2002-ci ildə Azərbaycan Ali Hərbi Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi), 2003-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 26 iyul 2002-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı taqım komandiri, xüsusi təyinatlı qrup komandiri, hərbi hissənin hava kəşfiyyatı dəstəsinin hava kəşfiyyatı qrupunun baş operatoru, hava kəşfiyyatı qrupunun komandiri, hərbi hissənin əməliyyat bölməsi rəisinin döyüş və komandir hazırlığı üzrə köməkçisi, hərbi hissənin əməliyyat bölməsi rəisinin qərargahın planlaşdırma fəaliyyəti üzrə müavini, əməliyyat bölməsinin rəisi – qərargah rəisinin müavini vəzifələrində xidmət edib.

"Polkovnik-leytenant" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində vəzifələrinin öhdəsindən layiqincə gəlib.

2020-ci il oktyabrın 26-da Hadrut qəsəbəsi istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatla-

rına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.



*Bir çopur qara daşın, dağ başında qalanam,*
*Əgər odun tükənsə, ocağına qalannam.*
*Yağılara göz dağı, sənin əsgər balanam,*
*Düşmənin yuvasına od vuracam, ay ana,*
*Qələbə, zəfər ilə qayıdacam, ay ana!*





**Məmmədov**
**Sahil**
**Ədalət oğlu**
(1996-2020)



12 iyul 1996-cı ildə Ağcabədi rayonunun Qiyaməddinli kəndində anadan olub. 2014-cü ildə tam orta məktəbi bitirib. Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2016-cı ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 13 dekabr 2016-cı il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandirinin müavini, tank əleyhinə taqım komandirinin müavini – qumbaraatan manqasının komandiri, motoatıcı bölüyün (BMP-3) motoatıcı manqasının komandiri vəzifələrində xidmət edib.

Cəbrayıl və Füzuli rayonlarının yaşayış məntəqələrinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 24-də Füzuli rayonunun Yuxarı Abdurəhmanlı kəndi istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Məmmədov Sahil Rasim oğlu**
(1995-2020)

7 iyun 1995-ci ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Cavidabad kəndində anadan olub.

2012-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2016-cı il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Snayper taqımının komandiri, motoatıcı bölüyün (BTR-80) motoatıcı taqımının komandiri, motoatıcı bölük (BTR-80) komandirinin müavini, motoatıcı bölüyün (BMP-3) motoatıcı taqımının komandiri vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 23 iyun 2019-cu il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

2020-ci il sentyabrın 29-da Kəlbəcər rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən düşmən tərəfindən odlu silahdan açılmış atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.





**Məmmədov Səbuhi Hümbət oğlu**
(1995-2020)



6 mart 1995-ci ildə Qazax rayonunun Çaylı kəndində anadan olub. 2012-ci ildə tam orta məktəbi bitirib.

3 aprel 2013-cü ildən 1 oktyabr 2014-cü ilədək Milli Qvardiyada müddətli həqiqi hərbi xidmət keçib.

2017-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 13 aprel 2017-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Haubitsalı özüyeriyən artilleriya taqımının top komandiri, tank əleyhinə idarə olunan raketlər taqımının döyüş maşını komandiri-operator, təminat taqımının komandiri, xüsusi təyinatlı kəşfiyyat qrupunun kəşfiyyatçısı, təminat manqasının komandiri vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 28-də Göygöl rayonu ərazisində hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Məmmədov**
**Şəhriyar**
**Müzəffər oğlu**
(1999-2020)

22 fevral 1999-cu ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Kalbaoruc kəndində anadan olub. 2016-cı ildə Heydər Əliyev adına hərbi liseyi, 2020-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2020-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, mexanikləşdirilmiş taborun (BMP-2) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının komandiri vəzifələrində xidmət edib.

Xocavənd rayonunun işğal edilmiş yaşayış məntəqələrinin azad olunması uğrunda döyüşlərdə fəal iştirak edib. Hadrut qəsəbəsinə doğru inamla irəliləyən hərbçilərin sıralarında igidlik nümunələri göstərib.

2020-ci il oktyabrın 15-də Hadrut yaşayış məntəqəsi istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" (ölümündən sonra)  medalları ilə təltif olunub.





**Məmmədov**
**Soltan**
**Akif oğlu**
(1981-2020)



21 iyul 1981-ci ildə Yevlax rayonunun Səmədabad kəndində anadan olub. 1999-cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2003-cü ildə Azərbaycan Ali Hərbi Məktəbinin (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) Quru Qoşunları fakültəsini və 2003-cü ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 25 iyul 2003-cü il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı taborun qərargah bölüyünün komandiri, motoatıcı taborun motoatıcı bölüyünün komandiri, motoatıcı taborun qərargah rəisinin maddi-texniki təminat üzrə köməkçisi, motoatıcı taborun tabor komandirinin birinci müavini – qərargah rəisi, motoatıcı tabor (MT-LB) komandirinin birinci müavini – qərargah rəisi, motoatıcı tabor komandirinin birinci müavini – qərargah rəisi, mexanikləşdirilmiş taborun komandiri, motoatıcı taborun (BMP-2) komandiri, motoatıcı taborun komandiri vəzifələrində xidmət edib.

"Polkovnik-leytenant" hərbi rütbəsinədək yüksəlib.

Komandiri olduğu motoatıcı taborun şəxsi heyəti ilə birlikdə Vətən müharibəsinin ilk günündən döyüşlərdə fəal iştirak edib. Taborun qarşısında qoyulan döyüş tapşırıqlarını uğurla yerinə yetirib.

2020-ci il oktyabrın 10-da Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü

dərəcəli, "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.



***Qisasını almalıyıq, neçə nakam şəhidim var,***
***Polad kimi generalım, Muradın var, Samidim var!***





**Məmmədov**
**Tural**
**Arif oğlu**
(1995-2020)



1 may 1995-ci ildə Oğuz rayonunun Sincan kəndində anadan olub. 2010-cu ildə 9-cu sinfi bitirib. 13 iyul 2013-cü ildən 8 dekabr 2014-cü ilədək müddətli həqiqi hərbi xidmət keçib.

Ehtiyata buraxıldıqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Azərbaycan Ordusunda xidmətini davam etdirib.

2018-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 19 may 2018-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Reaktiv batareyanın reaktiv taqımının mexaniki-sürücü, tank taqımının tank komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günlərindən Ağdərə və Tərtər rayonlarının yaşayış məntəqələrinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktybarın 28-də Tərtər rayonunun Talış kəndi istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Laçının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Məmmədov Turan Nadir oğlu**
(1993-2020)

29 avqust 1993-cü ildə Qazax rayonunda anadan olub. 2010-cu ildə tam orta məktəbi bitirib. Hərbi Dəniz Qüvvələrində matros kimi müddətli həqiqi hərbi xidmət keçib.

2013-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 15 oktyabr 2013-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Cəbhə bölgəsindəki hərbi hissədə kəşfiyyat taqımı komandirinin müavini – qrup komandiri, motoatıcı taborun snayper taqımının komandiri, zenit-raket artilleriya batareyasının baş çavuşu, motoatıcı bölüyün motoatıcı taqım komandirinin müavini, xüsusi təyinatlı kəşfiyyat bölüyünün xüsusi təyinatlı kəşfiyyat qrupunun baş kəşfiyyatçısı vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 5-də Suqovuşan istiqamətində hərbi əməliyyatlar zamanı kəşfiyyat tapşırığını yerinə yetirərkən şəhid olub. Nəşi dekabrın 5-də işğaldan azad edilmiş ərazilərdən çıxarılıb və böyük izdihamın iştirakı ilə son mənzilə yola salınıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Suqovuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Məmmədov Ümid Fərman oğlu**
(1999-2020)

14 mart 1999-cu ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Nehrəm kəndində anadan olub.

2016-cı ildə Heydər Əliyev adına hərbi liseyi, 2020-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2020-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Tank bölüyünün tank taqımının komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsinin ilk günündən komandiri olduğu tank taqımının şəxsi heyəti ilə birlikdə hərbi əməliyyatlara qatılıb və qarşıya qoyulmuş döyüş tapşırıqlarının uğurla həyata keçirilməsi üçün səy və bacarığını əsirgəməyib.

2020-ci il oktyabrın 5-də Tərtər və Ağdərə rayonları istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəlsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



**Məmmədov**
**Ürfan**
**Çingiz oğlu**
(1994-2020)

28 iyun 1994-cü ildə Quba rayonunun Çartəpə kəndində anadan olub. 2012-ci ildə tam orta məktəbi bitirib. 20 iyul 2012-ci ildən 1 yanvar 2014-cü llədək müddətli həqiqi hərbi xidmət keçib.

2017-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 13 aprel 2017-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taborun (BTR-82A) motoatıcı bölüyünün motoatıcı taqım komandirinin müavini – döyüş maşınları manqasının komandiri, motoatıcı taqımın döyüş maşını komandiri – döyüş maşınları heyətinin rəisi, mexanikləşdirilmiş taqımın döyüş maşını komandiri – döyüş maşınları heyətinin rəisi vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk şəhidlərindəndir.

2020-ci il sentyabrın 28-də Tərtər rayonunun Talış və Suqovuşan kəndləri istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.







**Məmmədov**
**Vüqar**
**Xaləddin oğlu**
(1990-2020)

23 yanvar 1990-cı ildə Beyləqan rayonunun Qəhrəmanlı qəsəbəsində anadan olub. 2005-ci ildə tam orta məktəbi bitirib. 4 iyul 2008-ci ildən 26 noyabr 2009-cu ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2010-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "MAHHXHQ hazırlığı", 2020-ci ildə "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 8 may 2020-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Tank taqımının mexanik-sürücüsü, təxliyyə manqasının komandiri – mexanik-sürücü, haubitsalı özüyeriyən artilleriya taqımının mexanik-sürücüsü, motoatıcı taborun maddi-texniki təminat taqımının texniki, haubitsalı özüyeriyən artilleriya divizionunun haubitsalı özüyeriyən artilleriya batareyasının texniki vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 20-də Cəbrayıl rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



**Məmmədov**
**Vüsal**
**Qüdrət oğlu**
(1990-2020)

3 iyun 1990-cı ildə Füzuli rayonunun Musabəyli kəndində anadan olub. 2013-cü ildə tam orta məktəbi bitirib. 7 iyul 2010-cu ildən 2 yanvar 2012-ci ilədək Hərbi Dəniz Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçib. 2015-ci ildə hərbi hissə nəzdində "Təməl Xüsusi Təyinatlı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 17 avqust 2015-ci il tarixli əmri ilə "kiçik miçman", Hərbi Dəniz Qüvvələri Komandanının 5 oktyabr 2017-ci il tarixli əmri ilə "miçman" hərbi rütbəsi verilib.

Dəniz piyadası taqımının manqa komandiri, xüsusi təyinatlı qrupun dalğıcı-kəşfiyyatçı vəzifəsində ümidləri doğruldub.

Vətən müharibəsində Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlı piyadalarının tərkibində hərbi əməliyyatlarda əsl qəhrəmanlıq nümunələri göstərib. Peşəkar kəşfiyyatçı kimi qarşıya qoyulan əmr və göstərişləri, döyüş tapşırıqlarını uğurla yerinə yetirib.

2020-ci il oktyabrın 12-də Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.







**Məmmədov**
**Xəyal**
**Ağabəy oğlu**
(1986-2020)

18 noyabr 1986-cı ildə Şəki rayonunda anadan olub. 2004-cü ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2008-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 27 iyun 2008-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, tabor komandirinin maddi-texniki təminat üzrə müavini – maddi-texniki təminat bölməsinin rəisi, hərbi hissənin səyyar tibb qrupunun mobil hərbi hospital təminat bölməsinin rəisi, hospital rəisinin maddi-texniki təminat üzrə müavini – maddi-texniki təminat bölməsinin rəisi, motoatıcı taborun komandiri vəzifələrində xidmət edib.

Komandiri olduğu motoatıcı taborun şəxsi heyəti ilə birlikdə Vətən müharibəsinin ilk günündən döyüşlərdə fəal iştirak edib. Taborun qarşısında qoyulan döyüş tapşırıqlarını uğurla yerinə yetirib.

2020-ci il oktyabrın 20-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə

və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.



***Hamıya gərək tək gərəkləşin siz,***
***Birləşin, şirləşin, pələngləşin siz,***
***Qazan xan olun siz, Beyrəkləşin siz,***
***Xalqımız güvənir sizə igidlər!***





**Məmmədzadə**
**Cahan**
**Saleh oğlu**
(1994-2020)



24 avqust 1994-cü ildə Sumqayıt şəhərində anadan olub. 2011-ci ildə tam orta məktəbi bitirib. Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2015-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 27 yanvar 2015-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandirinin müavini, motoatıcı taborun (BTR-82A) motoatıcı manqasının komandiri – döyüş maşını komandiri vəzifələrində xidmət edib.

44 günlük Vətən müharibəsində Cəbrayıl, Füzuli rayonlarının işğal edilmiş yaşayış məntəqələrinin azad olunması uğrunda döyüşlərdə fəal iştirak edərək Şuşa şəhərinədək şərəfli döyüş yolu keçib.

2020-ci il noyabrın 9-da Şuşa şəhəri istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Hərbi xidmətlərə görə" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Məmmədzadə
Elvin
İlham oğlu**
(1996-2020)

22 noyabr 1996-cı ildə Samux rayonunun Nəbiağalı kəndində anadan olub. 2015-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2009-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2009-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, mexanikləşdirilmiş taborun (BTR, Sand-Cat) mexanikləşdirilmiş bölüyünün (BTR) komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsində Xocavənd, Cəbrayıl, Füzuli rayonlarının yaşayış məntəqələrinin azad edilməsi uğrunda döyüşlərdə fəal iştirak edib və şəhidlik zirvəsinə ucalıb.

2020-ci il noyabrın 9-da nəşi Şuşa yaxınlığından, Daşaltı kəndi ərazisindən çıxarılıb və noyabrın 12-də hərbi-dini ənənələrə uyğun olaraq dövlət himninin müşayiəti və əsgəri ehtiramla, böyük izdihamın iştirakı ilə son mənzilə yola salınıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Qubadlının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Məmmədzadə
İlkin
Əzizağa oğlu**
(1991-2020)

19 dekabr 1991-ci ildə Sumqayıt şəhərində anadan olub. 2013-cü ildə Azərbaycan Dövlət Aqrar Universitetini bitirib. 19 oktyabr 2013-cü ildən 1 oktyabr 2014-cü ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2017-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 30 may 2017-ci il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 30 may 2020-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri vəzifəsində xidmət edib.

Azərbaycanın öz ərazi bütövlüyünün bərpası üçün başladığı Vətən müharibəsinin ilk günündən komandiri olduğu motoatıcı manqanın şəxsi heyəti ilə birlikdə döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 7-də Tərtər və Ağdərə istiqamətində döyüş əməliyyatları zamanı xidməti vəzifələrini yerinə yetirərkən düşmən tərəfindən atılan artilleriya mərmisinin partlayışı nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



**Məmmədzadə Mikayıl İlqar oğlu**
(1994-2020)

10 oktyabr 1994-cü ildə Sumqayıt şəhərində anadan olub. 2012-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2016-ci il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 23 iyun 2019-cu il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Mexanikləşdirilmiş taborun (BMP-3) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının komandiri, motoatıcı taqımının komandiri vəzifələrində xidmət edib.

Cəbhənin müxtəlif istiqamətlərində döyüşlərdə fəal iştirak edib və Goranboy rayonunun Buzluq kəndi yaxınlığında strateji yüksəklik uğrunda döyüşdə şəhidlik zirvəsinə ucalıb.

Nəşi 2020-ci il dekabrın 28-də işğaldan azad edilən ərazilərdən çıxarılıb və hərbi-dini ənənələrə uyğun olaraq dövlət himninin müşayiəti ilə, yaylım atəşi altında son mənzilə yola salınıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.







**Mənəfov Şahmar Vidadi oğlu**
(1990-2020)

20 mart 1990-cı ildə Neftçala rayonunun Cəngən kəndində anadan olub. 2007-ci ildə tam orta məktəbi bitirib. 12 aprel 2008-ci ildən 10 sentyabr 2009-cu ilədək cəbhə bölgəsində müddətli həqiqi hərbi xidmət keçib.

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 19 fevral 2019-cu il tarixli "kiçik gizir" hərbi rütbəsi verilib.

Motoatıcı manqa komandiri, əməliyyat imkanları konsepsiyası taborunun kəşfiyyat bölməsinin operatoru, şəxsi heyət bölməsinin kargüzarı, məxfi hissənin operatoru, xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı komandasının kəşfiyyatçısı (atıcı), xüsusi təyinatlı manqanın baş atıcısı, xüsusi təyinatlı manqanın komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsində hərbi əməliyyatlar zamanı rəşadət və şücaət nümunələri göstərib. Komandiri olduğu xüsusi təyinatlı manqanın şəxsi heyəti ilə birlikdə mühüm tapşırıqları uğurla yerinə yetirib.

2020-ci il oktyabrın 21-də Xocavənd rayonu ərazisində gedən hərbi əməliyyatlarda xidməti vəzifələrini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün

bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda" medalı və Azərbaycan Respublikası Müdafiə nazirinin əmri ilə "Şücaətə görə" medalı ilə təltif olunub.




***Erməni təcavüzkarları işğal etdikləri tarixi Azərbaycan torpaqlarından qovularaq çıxarıldı. İndi də, onların ağır fəsadları aradan qaldırılır.***

***Şəhid qanları ilə suvarılan bu yerlər yenə də, laləzara çevriləcək.***







**Mikayıllı Mikayıl Miğfər oğlu**
(1993-2020)

24 sentyabr 1993-cü ildə Qəbələ rayonunun Mıxlıqovaq kəndində anadan olub. 2011-ci ildə tam orta məktəbi bitirib. 3 oktyabr 2011-ci ildən 12 mart 2013-cü ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2013-cü ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "MAH-HXHQ hazırlığı", 2018-ci ildə hərbi hissə nəzdində «Təməl Xüsusi Təyinatlı» kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 6 aprel 2018-ci il tarixli "kiçik gizir", 28 aprel 2020-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Əməliyyat imkanları konsepsiyası taborunun qərargah bölüyünün kəşfiyyat taqımının kəşfiyyat manqasının kəşfiyyatçısı – istehkamçı, motoatıcı taborun (BTR T-82A) motoatıcı manqasının tuşlayıcısı-operator, xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı komandasının kəşfiyyatçısı (atıcı), xüsusi təyinatlı taqımın xüsusi təyinatlı manqasının atıcısı-sanitar, xüsusi təyinatlı taqımın xüsusi təyinatlı manqasının komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsində şəxsi igidlik nümunələri göstərib, cəsur döyüşçü kimi tanınıb.

2020-ci il sentyabrın 30-da Göygöl rayonu istiqamətində, Murovdağ zirvələri uğrunda gedən hərbi əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edil-

məsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü" və Azərbaycan Respubliaksı Müdafiə nazirinin əmri ilə "Şücaətə görə" medalları ilə təltif olunub.



***"İgidlərim, bu gün dava günüdür,***
***Düşmən al qanına boyansın gərək!"***







**Mikayıllı**
**Samir**
**Sabir oğlu**
(1993-2020)

1 yanvar 1993-cü ildə Ağcabədi rayonunda anadan olub. 2010-cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2014-ci ildə Türkiyə Respublikasında Quru Qoşunları Hərbi Məktəbini, 2015-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 4 oktyabr 2014-cü il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, xüsusi təyinatlı qrup komandiri, qərargah və təchizat bölüyünün komandiri, xüsusi təyinatlı bölüyün komandiri vəzifələrində xidmət edib.

"Kapitan" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il noyabrın 9-da Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması uğrunda gedən hərbi əməliyyatlar zamanı Şuşa rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən atılan mərminin partlaması nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Hərbi xidmətlərə görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Mikayılov**
**Azər**
**Əmrah oğlu**
(1980-2020)

1 avqust 1980-ci ildə Kəlbəcər rayonunda anadan olub. 1997-ci ildə tam orta məktəbi, 2002-ci ildə Azərbaycan Ali Hərbi Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 26 iyul 2002-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, kəşfiyyat bölüyünün kəşfiyyat taqımı komandiri, kəşfiyyat bölüyünün komandiri, kəşfiyyat bölməsinin rəisi-qərargah rəisinin kəşfiyyat üzrə köməkçisi, kəşfiyyat bölməsinin zabiti – bölmə rəisinin müavini (kəşfiyyatın planlaşdırılması üzrə), hərbi hissənin Kəşfiyyat bölməsinin rəisi, hərbi hissənin qərargah rəisinin əməliyyat üzrə baş köməkçisi, tabor komandirinin müavini, hərbi hissənin döyüş hazırlığı bölməsinin rəisi, hərbi hissənin qərargah rəisi – tabor komandirinin müavini vəzifələrində xidmət edib.

"Mayor" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində hərbi əməliyyatlar zamanı rəşadət və şücaət nümunələri göstərib. Qərargaha bacarıqla rəhbərlik edib.

2020-ci il oktyabrın 8-də Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında Azərbaycan Respublikasının "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Şücaətə görə", "Azərbaycan Ordusunun 90 illiyi (1918 – 2008)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli medalları ilə təltif olunub.





Ölümündən sonra Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medallarına layiq görülüb.



***Əvvəl-axır Zəfər bizim olacaq,***
***Düşmən üstə gülə-gülə gedirik.***
***30 ildir ağlar qalan torpağın***
***Göz yaşını silə-silə gedirik!***



**Mikayılov Nahid Soqat oğlu**
(1982-2020)

25 aprel 1982-ci ildə Kürdəmir rayonunun Şilyan kəndində anadan olub. 1999-cu ildə tam orta məktəbi bitirib. 11 iyul 2000-ci ildən 25 dekabr 2001-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2003-cü ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 1 fevral 2003-cü il tarixli əmri ilə "gizir", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 19 mart 2019-cu il tarixli "baş gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandirinin müvaini, artilleriya divizionunun idarəetmə taqımının radiolokasiya stansiyasının rəisi, motoatıcı taborun (BMP-1) motoatıcı bölüyünün baş çavuşu vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 30-da Ağdam rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmənin artilleriya atəşi nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.







**Mikayılov Ramiq Namiq oğlu**
(1993-2020)

25 yanvar 1993-cü ildə Şamaxı rayonunun Ovçulu kəndində anadan olub.

2010-cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2014-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və 2015-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2014-cü il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 31 avqust 2017-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini, motoatıcı taborun qərargah rəisi – tabor komandirinin müavini vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 30-da Xocavənd rayonu istiqamətində gedən döyüşlər zamanı xidməti vəzifələrini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018), ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



**Mikayılov Rahim Qalib oğlu**
(1990-2020)

3 sentyabr 1990-cı ildə Quba rayonunun İkinci Nügədi kəndində anadan olub. 2008-ci ildə 3 saylı kənd tam orta məktəbini, 2013-cü ildə Azərbaycan Texnologiya Universitetini, 2014-cü ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 2 aprel 2014-cü il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 23 iyun 2017-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Murovdağ istiqamətində hərbi hissənin motoatıcı taborunun motoatıcı bölüyünün motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri vəzifələrində xidmət edib.

Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın öz ərazi bütövlüyünün bərpası və respublikamızın işğal edilmiş tarixi torpaqlarının azadlığı uğrunda "Dəmir Yumruq" əməliyyatı ilə başladığı Vətən müharibəsinin ilk günündə komandiri olduğu motoatıcı bölüyün şəxsi heyəti ilə birlikdə Goranboy rayonunun Buzluq kəndi istiqamətində hərbi əməliyyatlara qoşularaq düşmən mövqelərinin məhv edilməsində fəal iştirak edib.

Vətənpərvər zabitin döyüş yolu uzun çəkməyib. İşğal altındakı yaşayış məntəqələrini rəşadətli Azərbaycan Ordusunun azad edəcəyi günü görmək ona qismət olmayıb.

2020-ci il sentyabrın 27-də hərbi əməliyyatlar zamanı düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Nəşi 117 gün sonra sərt dağ aşırımlarından çıxarılaraq doğulduğu





rayona aparılıb, böyük izdihamın iştirakı ilə hərbi ənənələrə uyğun olaraq son mənzilə yola salınıb.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif olunub.

Vətən müharibəsində xidmətlərinə görə mükafatlandırılması üçün aidiyyatı üzrə təqdimat göndərilib.



*Onlar sahib çıxdı yurd yerlərinə,*
*Onları bir ruhdu, eşqdi yaşadan.*
*Dayanıb əl edir biri-birinə*
*Biri Cəbrayıldan, biri Şuşadan.*



**Mirzəli**
**Rəşad**
**Hafiz oğlu**
(1995-2020)

26 may 1995-ci ildə Tərtər rayonunun Hacıqərvənd kəndində anadan olub. 2011-ci ildə tam orta məktəbi bitirib, 4 iyul 2013-cü ildən 8 dekabr 2014-cü ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2019-cu ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzi rəisinin 26 dekabr 2015-ci il tarixli əmri ilə "kiçik çavuş", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 18 may 2019-cu il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Təminat taborunun xidmət və təminat taqımının manqa komandiri, motoatıcı taqım komandirinin müavini vəzifələrində xidmət edib.

Vətən müharibəsi başlanan ilk gündən könüllü olaraq döyüş meydanına atılaraq düşmənlərə qarşı mərdliklə vuruşub.

2020-ci il sentyabrın 30-da Goranboy rayonunun Tapqaraqoyunlu kəndinin Kəhrilər xarabalığı istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən atılan mərminin partlayışı nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.





**Mirzəyev**
**Elmar**
**Şahin oğlu**
(1995-2020)



1 may 1995-ci ildə Biləsuvar rayonunun Ağalıkənd kəndində anadan olub. 2013-cü ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2017-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 13 iyun 2017-ci il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 13 iyun 2020-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun baş kəşfiyyatçısı, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupu komandirinin müavini vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 12-də Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində igidlik və mərdlik nümunələri göstərərək şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018), ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Möhsümov**
**Elmar**
**Rövşən oğlu**
(1997-2020)

3 dekabr 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Xok kəndində anadan olub. 2015-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2019-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun (BTR-82A) motoatıcı bölüyünün motoatıcı taqımının komandiri, mexanikləşdirilmiş taborun (BTR-82A) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündə komandiri olduğu mexanikləşdirilmiş taqımın şəxsi heyəti ilə birlikdə döyüşlərə atılıb.

2020-ci il sentyabrın 29-da Tərtər və Ağdərə rayonları istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Döyüşdə fərqlənməyə görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Muradlı**
**İlkin**
**İlyas oğlu**
(1995-2020)

27 sentyabr 1995-ci ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda anadan olub. 2013-cü ildə Heydər Əliyev adına hərbi liseyi, 2017-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 13 iyun 2017-ci il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 13 iyun 2020-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Kəşfiyyat bölüyünün kəşfiyyat-müşahidə taqımının komandiri, kəşfiyyat bölüyünün kəşfiyyat taqımının komandiri, xüsusi təyinatlı kəşfiyyat qrupunun komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsi cəbhələrində komandiri olduğu kəşfiyyat qrupu ilə birlikdə xüsusi tapşırıqları uğurla yerinə yetirərək döyüşlərdə fərqlənib.

2020-ci il oktyabrın 13-də Şuşa istiqamətində xüsusi kəşfiyyat tapşırığını yerinə yetirərkən şəhid olub və nəşi noyabr ayının 26-da çıxarılaraq böyük izdihamın iştirakı ilə son mənzilə yola salınıb.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018), ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Muradov Siyavuş Akif oğlu**
(1991-2020)

25 avqust 1991-ci ildə Beyləqan rayonunun Əmirzeyidli kəndində anadan olub. 2012-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirib.

18 iyul 2012-ci ildən 7 iyun 2013-cü ilədək Azərbaycan Ordusunda həqiqi hərbi xidmət keçib.

14 noyabr 2013-cü ildən 23 noyabr 2016-cı ilədək müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Azərbaycan Ordusunda xidmətini davam etdirib.

2018-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 13 avqust 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri vəzifəsində xidmət edib.

2020-ci il oktyabrın 25-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Muradov Turan Vaqif oğlu**
(1994-2020)

5 dekabr 1994-cü ildə Zərdab rayonunun Körpükənd kəndində anadan olub.

2012-ci ildə tam orta məktəbi bitirib, Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2020-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 8 may 2020-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Mexanikləşdirilmiş taborun (BMP-2) mexanikləşdirilmiş manqasının komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsinin ilk günündən böyük ruh yüksəkliyi ilə, qələbə əzmi ilə döyüşlərə atılsa da Zəfər gününü görmək ona nəsib olmayıb. Lakin şəhid olduğu gün silahdaşları manqa komandirlərinin qisasını düşməndən qat-qat artıqlaması ilə alaraq böyük qələbəyə doğru inamla irəliləyiblər.

2020-ci il oktyabrın 14-də Tərtər rayonunun Talış və Suqovuşan kəndləri istiqamətində döyüş əməliyyatları zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.



**Muradov**
**Vüsal**
**Cəsarət**
**(1999-2020)**

19 may 1999-cu ildə Sumqayıt şəhərində anadan olub. 2017-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2020-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini (eksternlə) bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 30 sentyabr 2020-ci il tarixli əmri ilə "kiçik leytenant" hərbi rütbəsi verilib.

Vətən müharibəsində kəşfiyyat bölüyünün kəşfiyyat taqımının komandiri vəzifəsində döyüşlərdə iştirak edib.

Kursant auditoriyasından birbaşa döyüşlərə yollanan gənc zabit Hadrut qəsəbəsinə qədər çətin və ağır, eyni zamanda, şərəfli döyüş yolu keçib. Cəsur döyüşçü, qorxmaz kəşfiyyatçı və qarşıya qoyulan döyüş tapşırıqlarını uğurla yerinə yetirən, xidməti vəzifələrinin öhdəsindən layiqincə gələn bir hərbçi kimi tanınıb.

2020-ci il oktyabrın 30-da Xocavənd rayonunun Hadrut qəsəbəsinin Ziyarətgah dağı istiqamətində gedən döyüşlərdə xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) və "Cəsur döyüşçü" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Mürsəliyev**
**Sübhi**
**Balamirzə oğlu**
**(1979-2020)**

28 dekabr 1979-cu ildə İsmayıllı rayonunun Qurbanəfəndi kəndində anadan olub. 2001-ci ildə Bakı Dövlət Universitetini bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 sentyabr 2001-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

28 sentyabr 2003-cü ildən Azərbaycan Ordusunda motoatıcı taborun minaatan batareyasının minaatan taqımının komandiri, motoatıcı taborun minaatan batareyasının idarəetmə taqımı komandiri, motoatıcı taborun minaatan batareyasının komandiri, hərbi hissənin kəşfiyyat bölməsi rəisinin məlumatların toplanılması üzrə köməkçisi, hərbi hissənin artilleriya bölməsi rəisinin kəşfiyyat üzrə köməkçisi-kəşfiyyat rəisi, mexanikləşdirilmiş tabor (BMP-3) komandirinin artilleriya üzrə köməkçisi vəzifələrində xidmət edib. "Mayor" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlib, düşmənə dağıdıcı zərbələr vurulmasında xüsusilə fərqlənib.

2020-ci il sentyabrın 30-da Tərtər və Ağdərə rayonları istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 90 illiyi (1918-2008)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş tex-

nikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.



*Atilla tək qırmacdılar,*
*Qayalara dırmaşdılar,*
*Sıldırımdan yol açdılar*
*Oddan keçən mərd oğullar.*

*Əsib küləyə döndülər,*
*Çaxıb şimşəyə döndülər,*
*Axır Şuşaya döndülər*
*Oddan keçən mərd oğullar.*





**Musayev**
**Ramil**
**Aydın oğlu**
(1991-2020)



6 may 1991-ci ildə İsmayıllı şəhərində anadan olub. 2008-ci ildə İsmayıllı Peşə Məktəbini bitirib. 3 iyul 2009-cu ildən 6 yanvar 2010-cu ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2013-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "MAHHXHQ hazırlığı kursu"nu bitirib.

Xüsusi təyinatlı bölüyün xüsusi təyinatlı qrupunun baş kəşfiyyatçısı, xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı kəşfiyyatçısı, xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı komandasının kəşfiyyatçısı (pulemyotçu), xüsusi təyinatlı taqımın xüsusi təyinatlı manqasının baş atıcısı, xüsusi təyinatlı taqımın xüsusi təyinatlı manqasının komandiri vəzifələrində xidmət edib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 19 fevral 2019-cu il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Vətən müharibəsində rəşadət və şücaət nümunələri göstərib. Komandiri olduğu xüsusi təyinatlı manqanın şəxsi heyəti ilə birlikdə bir çox mühüm tapşırıqları uğurla yerinə yetirərək düşmənin məhv edilməsində xüsusi səylər göstərib.

2020-ci il oktyabrın 4-də Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni (ölümündən sonra), "Vətən

uğrunda" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) və Azərbaycan Respublikası Müdafiə nazirinin əmri ilə "Şücaətə görə" medalları (ölümündən sonra) ilə təltif olunub.



*Üzü gülür, gözü gülür əsgərin,*
*Düşmən üstə od ələyir "Bayraktar".*
*Şəhid qardaş, intiqamın alınır,*
*Hər zirvədə, hər ürəkdə bayraq var.*





**Musayev**
**Sahib**
**Musa oğlu**
(1984-2020)



21 iyul 1984-cü ildə Qax rayonunun Şotavar kəndində anadan olub. 2001-ci ildə tam orta məktəbi bitirib. Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

19 oktyabr 2002-ci ildən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olaraq kəşfiyyatçı-istehkamçı, baş kəşfiyyatçı, manqa komandiri vəzifələrində xidmətini davam etdirib.

2006-cı ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 4 mart 2006-cı il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı alayın xüsusi təyinatlı qrupunun kəşfiyyatçısı (sanitar), xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

Vətən müharibəsində xüsusi əməliyyat tapşırıqlarının uğurla yerinə yetirilməsində şəxsi şücaət nümunələri göstərib. Qarşıya qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gəlib. Bir çox yaşayış məntəqələrinin işğaldan azad edilməsində xüsusilə fərqlənib.

2020-ci il noyabrın 10-da Şuşa şəhəri ərazisində kəşfiyyat-döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 90 illiyi (1918-2008)", "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Şücaətə görə", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün

bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.



*Hər şəhid iz, hər şəhid yol,*
*Bircədi yol, birgədi yol.*
*Savaş torpaq savaşıdır,*
*Ya Qazi ol, ya Şəhid ol!*







**Musayev**
**Sədi**
**Süleyman oğlu**
(1978-2020)

1 aprel 1978-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda anadan olub. 1996-cı ildə tam orta məktəbi, 2000-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyul 2000-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, motoatıcı taborun qərargah rəisinin şəxsi heyət üzrə köməkçisi, motoatıcı taborun qərargah rəisinin tərbiyə işləri üzrə köməkçisi, motoatıcı tabor komandirinin şəxsi heyətlə iş üzrə müavini, hərbi hissənin əməliyyat bölməsi rəisinin döyüş və komandir hazırlığı üzrə baş köməkçisi, hərbi hissənin döyüş hazırlığı bölməsinin rəisi, hərbi hissənin əməliyyat bölməsinin rəisi – qərargah rəisinin müavini, hərbi hissənin əməliyyat şöbəsi rəisinin təlimlərin hazırlığı üzrə baş köməkçisi vəzifələrində xidmət edib.

"Polkovnik-leytenant" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsinin ilk günündə əməliyyatların hazırlanması və uğurla başa çatması üçün üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlib.

2020-ci il sentyabrın 28-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Azərbaycan Ordusunun 90 illiyi (1918-2008)", "Azərbay-

can Ordusunun 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.



*Dan yeri sökülür...*
*Səhər görünür.*
*Şərur yola salır Şəhidlərini.*
*Bu gün hər baxışda Zəfər görünür,*
*Şərur yola salır Şəhidlərini.*

*Vətən, Vətən deyir hər ötən anım,*
*Əzəldən beşikdi ruhuma canım.*
*Bu da bir tarixdi, Azərbaycanım,*
*Şərur yola salır Şəhidlərini...*







**Musibov Veysəl Yadullayeviç**
(1989-2020)



15 fevral 1989-cu ildə Qazaxıstan Respublikasının Kirovskiy rayonunda anadan olub. 2007-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2011-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 iyun 2011-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, xüsusi təyinatlı alayın xüsusi təyinatlı qrup komandirinin müavini, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupu komandirinin müavini, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun komandiri, xüsusi əməliyyat taborunun əməliyyat zabiti vəzifələrində xidmət edib.

"Kapitan" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində hərbi əməliyyatların təşkilində və uğurla nəticələnməsində xüsusilə fərqlənib, şücaət və rəşadət nümunələri göstərib.

2020-ci il oktyabrın 7-də Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında Azərbaycan Respublikası Müdafiə nazirinin əmri ilə "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" (ölümündən sonra) adı verilib, "Vətən uğrunda" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra), "Kəlbəcərin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



***Şəhid olsalar da cəng meydanında***
***Hər birindən bir nur, bir işıq qalır.***
***Burda ömürləri yarımçıq deyil,***
***Burda əkinləri yarımçıq qalır...***





**Mustafayev**
**Nurlan**
**Hamlet oğlu**
(1990-2020)



22 iyul 1990-cı ildə Sumqayıt şəhərində anadan olub. 2008-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2013-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini, Almaniya Federativ Respublikasının «Alman dili və Piyada Qoşunları üzrə zabit hazırlığı» kursunu və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 27 iyun 2013-cü il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Dağ-atıcı taqım komandiri, motoatıcı bölüyün motoatıcı taqımının komandiri, xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı komandasının baş kəşfiyyatçısı, xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı taqımının komandirinin müavini, xüsusi təyinatlı dəstənin qərargah rəisinin kəşfiyyat üzrə köməkçisi, hərbi hissənin tədris şöbəsinin kəşfiyyat və dağ hazırlığı bölməsinin müəllimi (dağ hazırlığı üzrə) vəzifələrində xidmət edib.

Vətən müharibəsində döyüşlər zamanı kəşfiyyatçı bacarığı ilə xüsusilə fərqlənib. Mühüm tapşırıqların yerinə yetirilməsi zamanı şücaət və mərdlik nümunələri göstərib.

2020-ci il oktyabrın 12-də Hadrut qəsəbəsi ərazisində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatları-

na yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.



*Hadrutda günəşi dağlar tanıdı,*
*Bu anlar tarixin qürur anıdı.*
*Şəhid sevgisidir axan bulaqlar,*
*Qırmızı lalələr şəhid qanıdı,*
*Bu anlar tarixin qürur anıdı!*







**Mütəllimov Qəzənfər Ədalət oğlu**
(1992-2020)

27 yanvar 1992-ci ildə Sumqayıt şəhərində anadan olub. Tam orta məktəbi bitirdikdən sonra Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2013-cü ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "MAH-HXHQ hazırlığı", 2020-ci ildə "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 8 may 2020-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Əməliyyat imkanları konsepsiyası taborunun manqa komandiri-qrup komandiri, Əməliyyat İmkanları Konsepsiyası bölüyü taqımının sanitarı-atıcı, motoatıcı taborun (BTR T-82A) motoatıcı bölüyünün motoatıcı taqımının motoatıcı manqasının tuşlayıcısı-operator, xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı komandasının kəşfiyyatçısı (atıcı), xüsusi təyinatlı dəstənin təminat taqımının baş texniki, xüsusi təyinatlı dəstənin təminat bölməsinin texniki, maddi-texniki təminat bölüyünün xüsusi təyinatlı nəqliyyat vasitələrinin saxlama bölməsinin texniki-təlimatçı (kvadrosikl və xizəkli motosikletlər üzrə), maddi-texniki təminat bölüyünün təmir taqımının (avtomobil texnikasının) təmir manqasının (çilingər-mexaniki işlərin və aqreqatların cari təmiri üzrə) komandiri, maddi-texniki təminat bölüyünün xüsusi təyinatlı nəqliyyat vasitələrinin saxlama bölməsinin texniki – təlimatçı (kvadrosikl və xizəkli motosikletlər üzrə) vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 5-də Cəbrayıl rayonu ərazisində gedən hərbi əməliyyatlarda xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" "Cəbrayılın azad olunmasına görə medalları ilə təltif olunub.



*Od-alovdan, qan-qadadan keçərək,*
*Zülmətlərə nur saçmağa gəlmişik.*
*Qarabağın həsrətinə son qoyub,*
*Bu dağlardan yol açmağa gəlmişik.*







**Nadirli**
**Ərtoğrul**
**Hümbət oğlu**
(1997-2020)

31 mart 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Qaraağac kəndində anadan olub. 2015-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, dağ-atıcı taqım komandiri vəzifələrində xidmət edib.

Daşkəsən dağlarının çətin və sərt aşırımlarından keçərək düşmənin mövqe qurduğu strateji yüksəkliyin ələ keçirilməsi uğrunda döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 2-də Kəlbəcər istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. Nəşi 26 noyabrda qarlı zirvələrdən çıxarılıb və böyük izdihamın iştirakı ilə son mənzilə yola salınıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Döyüşdə fərqlənməyə görə" (ölümündən sonra), "Kəlbəcərin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Nağıyev**
**Anar**
**Sahib oğlu**
(1989-2020)

30 oktyabr 1989-cu ildə Gəncə şəhərində anadan olub. 2005-ci ildə 9-cu sinfi bitirib. 5 yanvar 2008-ci ildən 3 iyul 2009-cu ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2010-cu ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "MAH-HXHQ hazırlığı", 2013-cü ildə hərbi hissənin nəzdində "Gizir hazırlığı" kurslarını bitirib.

Azərbaycan Respublikasının Müdafiə nazirinin 22 iyul 2013-cü il tarixli əmri ilə "kiçik gizir", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 14 iyun 2019-cu il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taborun minaatan batareyasının minaatan taqımının minaatan komandiri, motoatıcı taborun minaatan batareyasının minaatan taqımı komandirinin müavini- minaatan komandiri, xüsusi təyinatlı alayın xüsusi təyinatlı qrupunun kəşfiyyatçısı (radioteleqrafçı), rabitə bölüyünün reqlament və texniki xidmət manqasının komandiri-texniki, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

Vətən müharibəsində qələbənin qazanılmasında müstəsna xidmətləri olub. Xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı kimi mühüm tapşırıqları uğurla yerinə yetirib, şəxsi şücaət, peşəkarlıq, mərdlik və igidlik nümunələri göstərib.

2020-ci il noyabrın 8-də Şuşa şəhəri ərazisində gedən hərbi əməliyyatlarda xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Şücaətə görə", ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.







***Molla Pənah Vaqifin sözü gülür bu səhər***
***Üzeyirin, Bülbülün izi gülür bu səhər,***
***Nəvvabın, Xan əminin üzü gülür bu səhər,***
***Üzün ağ olsun əsgər, ruhun şad olsun əsgər!***



**Nağıyev**
**Elfaq**
**Azad oğlu**
(1996-2020)

26 dekabr 1996-cı ildə Gədəbəy rayonunun Parakənd kəndində anadan olub.

2016-cı ildə Şamaxı Humanitar Kollecini bitirib. Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib. 2019-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kurs"unu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 18 may 2019-cu il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandirinin müavini, mexanikləşdirilmiş taqımın mexanikləşdirilmiş manqasının komandiri vəzifələrində xidmət edib.

Cəbrayıl, Xocavənd və Füzuli rayonlarının ərazisində gedən ağır döyüşlərdə fəal iştirak edərək bir çox yaşayış məntəqəsinin işğaldan azad edilməsində şəxsi igidlik və fədakarlıq nümunələri göstərib.

2020-ci il oktyabrın 22-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "İgidliyə görə" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Nağıyev**
**Murad**
**Mayıl oğlu**
(1997-2020)

9 fevral 1997-ci ildə Qazax rayonunun Çaylı kəndində anadan olub. 2015-ci ildə Türkiyə Respublikasının Kuleli Askeri lisesini, 2020-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2020-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Tank taborunun tank bölüyünün tank taqımının komandiri vəzifəsində xidmət edib.

"Dəmir Yumruq" əməliyyatı ilə başlanan Vətən müharibəsinin ilk günlərindən Cəbrayıl rayonunun yaşayış məntəqələrinin işğaldan azad edilməsində qəhrəman tankçıları ilə birlikdə qarşılarına qoyulmuş döyüş tapşırıqlarını uğurla yerinə yetirib.

2020-ci il oktyabrın 11-də Cəbrayıl rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən atılan mərmi nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Nağıyev Vüsal Əmirastan oğlu**
(1990-2020)

10 yanvar 1990-cı ildə Goranboy rayonunun Başqışlaq kəndində anadan olub. 2007-ci ildə tam orta məktəbi bitirib. 12 yanvar 2008-ci ildən 5 may 2009-cu ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2009-cu ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "MAHHXHQ hazırlığı", 2018-ci ildə "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 8 dekabr 2018-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taborun maddi-texniki təminat taqımının avtomobil manqasının sürücüsü, kəşfiyyat bölüyünün kəşfiyyat-müşahidə taqımının texniki müşahidə qrupunun sürücüsü-radiotelefonçu, hərbi hissənin rabitə bölüyünün avtomatik idarəetmə sistemləri taqımının növbə rəisi, rabitə bölüyünün rabitə qovşağının (stasionar) avtomatik idarəetmə sistemləri bölməsinin növbə rəisi vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 30-da Murovdağ silsiləsi istiqamətində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən atılmış mərminin partlayışı nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.





**Namazov Orxan Ceyhun oğlu**
(1994-2020)



24 noyabr 1994-cü ildə Gəncə şəhərində anadan olub. 2012-ci ildə tam orta məktəbi və Gəncə Dövlət Regional Kollecini bitirib. 22 yanvar 2013-cü ildən 1 iyul 2014-cü ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2017-ci ildə hərbi hissədə "MAHHXHQ hazırlığı" kursunu bitirib.

Ordu korpusu komandirinin əmri ilə "kiçik çavuş", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 22 avqust 2020-ci il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Həmlə manqasının baş atıcısı, motoatıcı bölüyün (BMP-3) motoatıcı manqasının komandiri, motoatıcı manqanın atıcısı-qumbaraatan köməkçisi vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günlərindən Suqovuşan uğrunda döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 6-da Tərtər və Ağdərə rayonları istiqamətində gedən döyüş əməliyyatlarında xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Suqovuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Nayıbov**
**Devran**
**Fazil oğlu**
(1993-2020)

29 noyabr 1993-cü ildə Bərdə şəhərində anadan olub. 2009-cu ildə 9-cu sinfi bitirib. 6 yanvar 2012-ci ildən 1 iyul 2013-cü ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib. 2014-cü ildə hərbi hissə nəzdində "MAHHXHQ hazırlığı" kursunu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 24 aprel 2019-cu il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Kəşfiyyat bölüyünün mühafizə manqasının komandiri, xüsusi təyinatlı komandanın tuşlayıcısı-operator, xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı komandasının kəşfiyyatçısı (avtomatik qumbaraatan), xüsusi təyinatlı manqanın qumbaraatanı, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 7-də Cəbrayıl rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Nəbiyev**
**Cilingir**
**Azad oğlu**
(1996-2020)

1 sentyabr 1996-cı ildə Tovuz rayonunun Şıxheybət kəndində anadan olub.

2015-ci ildə Azərbaycan Dövlət Pedaqoji Kollecini bitirib. 6 iyul 2011-ci ildən 11 yanvar 2017-ci ilədək Ədliyyə Nazirliyi Mühafizə alayında müddətli həqiqi hərbi xidmət keçib.

2017-ci ildən Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 28 sentyabr dekabr 2017-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Tank taqımının tank komandiri, mexanikləşdirilmiş taborun (BTR-82A) tank taqımının tank komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən Füzuli və Cəbrayıl rayonlarının yaşayış məntəqələrinin işğaldan azad olunması uğrunda döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 28-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarmda iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Nəbiyev
Orxan
Rza oğlu**
(1995-2020)

22 yanvar 1995-ci ildə Şamaxı rayonunun Novo-Dmitrovka kəndində anadan olub.

2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universiteti Şamaxı filialının Azərbaycan dili və ədəbiyyat müəllimliyi fakültəsini bitirib. 16 iyul 2016-cı ildən 7 iyun 2017-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2018-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı" kursunu bitirib.

Azərbaycan Respublikasının Müdafiə nazirinin 12 mart 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun (BMP-2) motoatıcı bölüyünün motoatıcı taqımının komandiri, mexanikləşdirilmiş taborun (BMP-2) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının komandiri vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 14-də Tərtər rayonunun Talış və Suqovuşan kəndləri istiqamətində döyüş əməliyyatları zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Döyüşdə fərqlənməyə görə" (ölümündən sonra) medalları ilə təltif olunub.





**Nəcəfli
Sadiq
Nüsrət oğlu**
(2000-2020)



22 iyun 2000-ci ildə Biləsuvar rayonunda anadan olub. 2017-ci ildə tam orta məktəbi,

2020-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini (eksternlə) bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 30 sentyabr 2020-ci il tarixli əmri ilə "kiçik leytenant" hərbi rütbəsi verilib.

Ali hərbi məktəb auditoriyasından birbaşa cəbhəyə yollansa da, nə mərmilərin gurultusu, nə güllə səsi, heç nə onu qorxutmayıb. Müəllim və komandirlərindən öyrəndiyi nəzəri biliklər və təlimlərdə qazandığı təcrübə döyüşlərdə onun köməyinə yetişib.

Şuşa şəhərinədək şanlı döyüş yolu keçib. Motoatıcı taqım komandiri vəzifəsində döyüşlərdə fəal iştirak edib və cəsur döyüşçü kimi tanınıb. Komandiri olduğu motoatıcı taqımın şəxsi heyəti ilə birlikdə qarşılarına qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gəlib.

2020-ci il noyabrın 8-də Şuşa şəhəri istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Cəsur döyüşçü" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Nəcəfov**
**Cəmil**
**Nəcəf oğlu**
(1993-2020)

24 iyun 1993-cü ildə Bakı şəhərinin Binəqədi rayonunda anadan olub. 2011-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 26 iyun 2015-ci il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 iyun 2018-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, sülhməramlı bölüyünün sülhməramlı taqımın komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsində qələbənin qazanılmasında müstəsna xidmətləri olub. Şəxsi şücaət, peşəkarlıq və igidlik nümunələri göstərib.

2020-ci il oktyabrın 10-da Cəbrayıl rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.







**Nəcəfov**
**Fuad**
**Taleh oğlu**
(1990-2020)

1 oktyabr 1990-cı ildə İsmayıllı rayonunda anadan olub. 2008-ci ildə tam orta məktəbi bitirib. 3 oktyabr 2008-ci ildən 1 oktyabr 2009-cu ilədək Hərbi Dəniz Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçib.

2010-cu ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 29 avqust dekabr 2010-cu il tarixli əmri ilə "miçman" hərbi rütbəsi verilib.

Radiokəşfiyyat taqımının «REM-T» qrup rəisi, xüsusi təyinatlı qrupun dalğıcı – kəşfiyyatçı vəzifələrində xidmət edib.

Vətən müharibəsində Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlılarının tərkibində döyüşlərdə fəal iştirak edib və qələbənin qazanılmasında müstəsna xidmətləri olub. 2020-ci il oktyabrın 7-də Cəbrayıl rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.



**Nəcəfov**
**İlkin**
**Misir oğlu**
(1989-2020)

17 noyabr 1989-cu ildə Salyan rayonunun Şikarlı kəndində anadan olub. 2007-ci ildə S.Cəfərov adına Yenikənd orta məktəbini, 2011-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 iyun 2011-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Haubitsalı artilleriya taqımının komandiri, minaatan taqımının komandiri, haubitsalı artilleriya taqımının komandiri – batareyanın baş zabiti, minaatan batareyanın minaatan taqımının komandiri – batareyanın baş zabiti, minaatan batareyanın komandiri, motoatıcı taborun (SandCat) minaatan batareyasının komandiri vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 16-da Füzuli rayonunun Musabəyli kəndi istiqamətində gedən döyüş əməliyyatlarında xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Nəcəfov**
**Vüqar**
**Aydın oğlu**
(1988-2020)

10 avqust 1988-ci ildə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Dırnıs kəndində anadan olub.

2006-cı ildə N.Məmmədov adına Dırnıs kənd orta məktəbini, 2010-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2010-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, atəş dəstək taqımının (SandCat) komandiri vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

Cəbrayıl, Xocavənd və Füzuli rayonlarının yaşayış məntəqələrinin azad edilməsi uğrunda döyüşlərdə şəxsi şücaət nümunələri göstərib.

Cəbrayıl, Xocavənd və Füzuli rayonlarının yaşayış məntəqələrinin işğaldan azad edilməsində fəal iştirak edib.

2020-ci il oktyabrın 2-də Cəbrayıl rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 90 illiyi (1918-2008), ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Nəcəfov Yaqub Məhəmməd oğlu**
(2000-2020)

7 iyul 2000-ci ildə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda anadan olub. 2017-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2020-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini (eksternlə) bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 30 sentyabr 2020-ci il tarixli əmri ilə "kiçik leytenant" hərbi rütbəsi verilib.

Vətən müharibəsində motoatıcı taqım komandiri kimi döyüşlərdə fəal iştirak edib.

Füzuli rayonunun yaşayış məntəqələrinin düşmən işğalından azad edilməsi uğrunda döyüşlərdən başlayaraq Şuşa şəhərinə qədər şərəfli döyüş yolu keçib. Taqıma peşəkarlıqla komandirlik etməklə yanaşı, həm də cəsur döyüşçü kimi tanınıb. Komandanlığın və döyüş yoldaşlarının etimadını əməli fəaliyyəti ilə doğruldub.

2020-ci il noyabrın 9-da Şuşa şəhəri istiqamətində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən atılmış mərmi partlayışı nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Cəsur döyüşçü" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Naciyev Xalid Qabil oğlu**
(1992-2020)

3 iyul 1992-ci ildə Saatlı rayonunda anadan olub. 2013-cü ildə Gəncə Dövlət Universitetini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı" kursunu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 12 oktyabr 2013-cü il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

12 oktyabr 2013-cü ildən 12 aprel 2015-ci ilədək Azərbaycan Ordusunda motoatıcı taqım komandiri vəzifəsində xidmət etdikdən sonra ehtiyata buraxılıb.

Vətən müharibəsinin başlanması ilə əlaqədar 2020-ci il oktyabrın 29-da qismən Səfərbərlik üzrə yenidən hərbi xidmətə çağırılıb və motoatıcı taqım komandiri vəzifəsində döyüşlərdə fəal iştirak edərək şəhidlik zirvəsinə ucalıb.

Şiddətli savaşın getdiyi bir vaxtda şəhidi döyüş meydanından çıxarmaq mümkün olmasa da, onun nəşi 2020-ci il noyabrın 27-də çıxarılaraq böyük izdihamın iştirakı ilə son mənzilə yola salınıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Döyüşdə fərqlənməyə görə" (ölümündən sonra), "Laçının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Nəhmətov Vüsal Üzeyir oğlu**
(1987-2020)

2 oktyabr 1987-ci ildə Astara rayonunun Səncərədi kəndində anadan olub. 2005-ci ildə tam orta məktəbi bitirib. 29 yanvar 2006-cı ildən 19 iyun 2007-ci ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2017-ci ildə hərbi hissə nəzdində "MAHHXHQ hazırlığı", 2020-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 25 sentyabr 2020-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Mühəndis-istehkam bölüyünün maneə ləğvetmə manqasının komandiri, pilotsuz uçuş aparatlarına qarşı mübarizə heyətinin (İHASAVAR) tuşlayıcısı-operator, zenit raket taqımının zenit raket manqasının komandiri, mexanikləşdirilmiş taborun (BMP-1) mexanikləşdirilmiş manqasının komandiri vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 4-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Nəsibov Elmar Şirzad oğlu**
(1987-2020)

19 sentyabr 1987-ci ildə Sumqayıt şəhərində anadan olub. 2005-ci ildə tam orta məktəbi bitirib. 7 oktyabr 2005-ci ildən 3 aprel 2007-ci ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2011-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "MAHHXHQ hazırlığı", 2020-ci ildə "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 17 sentyabr 2020-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

2 noyabr 2012-ci ildən 22 noyabr 2014-cü ilədək Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Vətənə xidmət edib və ehtiyata buraxılıb.

15 iyul 2015-ci ildən yenidən Azərbaycan Ordusuna qayıdıb və xdimətini davam etdirib.

Snayper taqımının snayper manqasının snayperi, snayper manqasının snayperi-müşahidəçi, tank əleyhinə taqımın pulemyot manqasının komandiri, avtomatik qumbaraatanlar taqımının avtomatik qumbaraatanlar manqasının komandiri-tuşlayıcı, həmlə bölüyünün həmlə taqımının snayperi, snayper manqasının snayperi-müşahidəçi, dağ-atıcı manqasının snayperi, kəşfiyyat manqasının kəşfiyyatçısı, dağ-atıcı manqanın atıcısı-qumbaraatan köməkçisi, kəşfiyyat manqasının kəşfiyyatçısı-snayper, mexanikləşdirilmiş taborun (BMP-2) mexanikləşdirilmiş manqasının komandiri vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 12-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



***Gedin, azad edin yad caynağından***
***İllərdir odlara qalanmış kəndi.***
***Sizin evləriniz dağılmış şəhər,***
***Sizlərin villası talanmış kənddi.***





**Nəsibov**
**Nicat**
**Qəşəm oğlu**
(1998-2020)



1 yanvar 1998-ci ildə Qazax rayonunun Cəfərli kəndində anadan olub. 2015-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Kəşfiyyat bölüyünün kəşfiyyat taqımının komandiri, motoatıcı taqım komandiri vəzifələrində xidmət edib.

Xocavənd və Füzuli rayonunun bir neçə yaşayış məntəqəsinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə fərqlənib.

2020-ci il oktyabrın 18-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Nəsibov Xaliddin Vaqif oğlu**
(1998-2020)

17 iyul 1998-ci ildə Qazax rayonunun Qarapapaq kəndində anadan olub. 2015-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə "leytenant", 3 noyabr 2020-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Cəbhə bölgəsindəki hərbi hissədə motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günlərindən Xocavənd rayonunun bir çox yaşayış məntəqələrinin işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə komandiri olduğu motoatıcı bölüyün şəxsi heyəti ilə birlikdə fəal iştirak edib və qarşıya qoyulmuş döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsi üçün səylərini əsirgəməyib.

2020-ci il noyabrın 6-da Xocavənd rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən atılan mərminin partlayışı nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.







**Nəsirov İlyas Arzuman oğlu**
(1985-2020)

4 iyul 1985-ci ildə Beyləqan rayonunun Milabad qəsəbəsində anadan olub. 2003-cü ildə tam orta məktəbi bitirib. Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib. 2007-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "MAHHXHQ hazırlığı", kursunu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 30 may 2019-cu il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Kəşfiyyat dəstəsinin (dərin kəşfiyyat dəstəyi) kəşfiyyat qrupunun kəşfiyyatçısı, kəşfiyyat dəstəsinin (dərin kəşfiyyat dəstəyi) kəşfiyyat qrupunun baş kəşfiyyatçısı, xüsusi təyinatlı kəşfiyyat bölüyünün xüsusi təyinatlı kəşfiyyat qrupu komandirinin müavini vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən kəşfiyyat qrupu komandiri kimi vəzifələrinin öhdəsindən layiqincə gəlib. Bir çox mühüm kəşfiyyat tapşırıqlarının yerinə yetirilməsində fədakarlıqlar göstərib, hərbi hissənin qarşısına qoyulmuş döyüş tapşırıqlarının yerinə yetirilməsində xüsusilə fərqlənib.

2020-ci il oktyabrın 21-də Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "İgidliyə görə", "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 90 illiyi (1918-2008)", "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı

döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.



*"Qan itirə-itirə elə bil qan tapmışam,*
*Allahdan nazil olan Quran, iman tapmışam,*
*Bütün dərdləri enən təzə dərman tapmışam*
*Mən ayağa qalxacam, yarama torpaq tökün".*





**Niftəliyev**
**Ceyhun**
**Bahadur oğlu**
(1972-2020)



5 noyabr 1972-ci ildə Ermənistan Respublikasının Vardenis rayonunun Böyük Mərzə kəndində anadan olub. 1994-cü ildə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 27 sentyabr 1994-cü il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

10 iyul 2005-ci ildən 10 yanvar 2007-ci ilədək Azərbaycan Ordusunda minaatan taqımın komandiri, artilleriya batareyasının idarəetmə taqımının komandiri vəzifələrində xidmət edib və ehtiyata buraxılıb.

Vətən müharibəsinin başlanması ilə əlaqədar qismən səfərbərlik üzrə yenidən orduya çağırılıb və haubitsalı artilleriya batareyasının idarəetmə taqımının komandiri vəzifəsində döyüşlərdə iştirak edib.

2020-ci il sentyabrın 29-da dağ-atıcı briqadanın dağ-atıcı taborunun "Şahin-93" döyüş mövqeyində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən atılan mərminin partlaması nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Döyüşdə fərqlənməyə görə" (ölümündən sonra), "Kəlbəcərin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Niftəliyev**
**İlyas**
**Güloğlan oğlu**
(1999-2020)

12 aprel 1999-cu ildə Qusar rayonunun Bədrqala kəndində anadan olub. 2016-cı ildə Balaqusar kənd tam orta məktəbini, 2020-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2020-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun baş kəşfiyyatçısı vəzifəsində xidmət edib.

Füzuli və Cəbrayıl rayonları uğrunda döyüşlərdə xüsusi əməliyyat tapşırıqlarını uğurla yerinə yetirib, baş kəşfiyyatçı kimi qrup üzvlərinin rəğbətini qazanıb.

2020-ci il oktyabrın 14-də Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.







**Niftəliyev**
**Mehrab**
**Söhrab oğlu**
(1985-2020)

13 may 1985-ci ildə Quba rayonunda anadan olub. 2002-ci ildə tam orta məktəbi bitirib. 7 iyul 2003-cü ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb, "T-72" tankının tuşlayıcısı vəzifəsində xidmət edib.

2005-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 18 fevral 2005-ci il tarixli əmri ilə "gizir", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 29 may 2020-ci il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı alayın xüsusi təyinatlı qrupunun kəşfiyyatçısı (istehkamçı), xüsusi təyinatlı taborun dalğıc qrupunun kəşfiyyatçısı (dalğıc) vəzifələrində xidmət edib.

Vətən müharibəsində qələbənin qazanılmasında müstəsna xidmətləri olub. Peşəkar kəşfiyyatçı kimi döyüşlərdə xüsusilə fərqlənib, şücaət və rəşadət nümunələri göstərib.

2020-ci il noyabrın 9-da Şuşa şəhəri ərazisində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında Azərbaycan Respublikası Müdafiə nazirinin əmri ilə "Azərbaycan Ordusunun 90 illiyi (1918-2008)", "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalları ilə təltif olunub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində

xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" (ölümündən sonra) adı verilib.

"Vətən uğrunda" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.




*Gərək hər gün poladdan qolum-qanadım olsun,*
*Vətənin dar günləri məhşər saatım olsun.*
*Xalqımın qarşısında bu əsgər andım olsun:*
*"Şəhid olsam ağlama, başını dik tut Ana!"*







**Niftullayev**
**Elşən**
**Əfqan oğlu**
(1999-2020)

27 may 1999-cu ildə Cəlilabad rayonunun Ləkin kəndində anadan olub. 2016-cı ildə tam orta məktəbi bitirib.

4 iyul 2017-ci ildən 1 yanvar 2019-cu ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 18 may 2019-cu il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandirinin müavini vəzifəsində xidmət edib.

Ermənistanın intensiv təxribatlarına cavab olaraq Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək üçün "Dəmir Yumruq" əməliyyatı ilə başladığı Vətən müharibəsində ilk döyüşlərə Tərtər və Ağdərə istiqamətlərindən başlayıb və komandanlıq tərəfindən qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsi üçün səylərini əsirgəməyib.

2020-ci il oktyabrın 6-da Tərtər və Ağdərə istiqamətində xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən atılan artilleriya mərmisinin partlayışı nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.



**Noçuyev Surxay Əbdul oğlu**
(1988-2020)

19 dekabr 1988-ci ildə Zəngilan rayonunun Məmmədbəyli kəndində anadan olub. 2006-cı ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2010-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2010-cu il tarixli əmri ilə "leytenant"hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, mexanikləşdirilmiş taqım komandiri, motoatıcı bölük komandiri, motoatıcı taborun qərargah bölüyünün komandiri, mexanikləşdirilmiş taborun (BMP-1) mexanikləşdirilmiş bölüyünün komandiri, mexanikləşdirilmiş taborun (BMP-3) mexanikləşdirilmiş bölüyünün komandiri, qərargah bölüyünün komandiri, motoatıcı bölük komandiri, motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini, motoatıcı taborun qərargah rəisi – tabor komandirinin müavini, motoatıcı taborun komandiri, mexanikləşdirilmiş taborun (BTR, SandCat) komandiri vəzifələrində xidmət edib.

"Kapitan" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində qələbənin qazanılmasında müstəsna xidmətləri olub. Komandiri olduğu mexanikləşdirilmiş taborun şəxsi heyəti ilə birlikdə döyüşlərdə xüsusilə fərqlənib, şücaət və rəşadət nümunələri göstərib.

2020-ci il noyabrın 9-da Şuşa şəhəri ərazisində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.





Sağlığında Azərbaycan Respublikası Müdafiə nazirinin əmri ilə "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" medalları ilə təltif olunub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" (ölümündən sonra) adı verilib, "Vətən uğrunda" (ölümündən sonra), "Qubadlının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



*Hər duyan ürəkdə söz olub gəlir,*
*Yanmalı ocağa köz olub gəlir,*
*Adı tarixlərə yazılıb gəlir,*
*Naxçıvan, qarşıla Şəhidlərini!*



**Novruzlu**
**Ümid**
**Bahadur oğlu**
(1992-2020)

7 iyun 1992-ci ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Babək qəsəbəsində anadan olub. 2009-cu ildə tam orta məktəbi bitirib. Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib. 2019-cu ildə hərbi hissə nəzdində "MAHHXHQ hazırlığı", 2020-ci ildə "Gizir hazırlığı" kurslarını bitirib.

Əlahiddə Ümumqoşun Ordu Komandanının 3 iyul 2020-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Qərargah və təchizat bölüyünün maddi-texniki təminat taqımının avtomobil manqasının sürücüsü, xüsusi təyinatlı bölüyün xüsusi təyinatlı qrup komandirinin müavini vəzifələrində xidmət edib.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası və işğal olunmuş tarixi torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərdə fəal iştirak edib.

2020-ci il noyabrın 7-də Şuşa şəhəri ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.





**Nudirəliyev**
**Zaur**
**İsmayıl oğlu**
(1978-2020)



1 sentyabr 1978-ci ildə Bakı şəhərində anadan olub. 1995-ci ildə Cəmşid Naxçıvanski adına İbtidai Hərbi Məktəbi (indiki Cəmşid Naxçıvanski adına hərbi lisey), 1999-cu ildə Türkiyə Respublikası Hərbi Təyyarəçilik Məktəbini bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 7 noyabr 1999-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Aviasiya eskadriliyası aviasiya manqasının təyyarəçisi, aviasiya eskadriliyası aviasiya manqasının baş təyyarəçisi, aviasiya eskadrilyasının aviasiya manqasının komandiri, aviasiya eskadrilyası komandirinin müavini-şturman, aviasiya eskadrilyasının (SU-25) qərargah rəisi – eskadrilya komandirinin müavini, aviasiya eskadrilyasının (SU-25) komandiri, aviasiya bazası komandirinin uçuş hazırlığı üzrə müavini – uçuşların planlaşdırma bölməsinin rəisi, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Hərbi Hava Qüvvələri fakültəsinin uçuş hazırlığı kafedrası rəisinin müavini – uçuş fənləri silsiləsi rəisi vəzifələrində xidmət edib.

"Polkovnik" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində qələbənin qazanılmasında müstəsna xidmətləri olub. Düşmənin hərbi obyektlərinin, döyüş mövqelərinin darmadağın edilməsində şəxsi igidlik, şücaət və rəşadət nümunələri göstərib.

2020-ci il oktyabrın 4-də Füzuli rayonu ərazisində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Azər-

baycan Ordusunun 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, "Hərbi xidmətdə fərqlənməyə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalları ilə təltif olunub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" (ölümündən sonra) adı verilib, "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



***Uçun şahinlərim, Vətən dardadır,***
***Cənnət Qarabağım sizi gözləyir!***







**Nurmətov**
**Çoban**
**Razaddin oğlu**
(1984-2020)

23 noyabr 1984-cü ildə Qusar rayonunun Cibir kəndində anadan olub. 2003-cü ildə tam orta məktəbi bitirib. 21 iyul 2003-cü ildən 14 iyun 2005-ci ilədək Hərbi Dəniz Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçib.

2007-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 1 mart 2007-ci il tarixli əmri ilə "gizir", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 25 may 2015-ci il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandirinin müavini, kəşfiyyat bölüyünün baş çavuşu, motoatıcı bölüyün baş çavuşu, təlim bölüyünün baş çavuşu, kəşfiyyat bölüyünün baş texniki vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 23-də Xocavənd rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 90 illiyi (1918-2008)", "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medallarla təltif olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Nuruyev**
**Cavid**
**Əşirəf oğlu**
(1998-2020)

3 mart 1998-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Oğuzkənd kəndində anadan olub. 2015-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun (BMP-3) motoatıcı bölüyünün motoatıcı taqımının komandiri, mexanikləşdirilmiş taborun (BMP-3) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsində şəxsi rəşadət və şücaət nümunələri göstərib. Qarşıya qoyulmuş döyüş tapşırıqlarını uğurla yerinə yetirib.

2020-ci il oktyabrın 15-də Tərtər və Ağdərə rayonları istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsinin icrası zamanı qəhrəmancasına şəhid olub.

Ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.







**Nurzadə**
**Rövşən**
**Əli oğlu**
(1975-2020)

24 mart 1975-ci ildə Sumqayıt şəhərində anadan olub.

1992-ci ildə 10-cu sinfi, 1998-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 17 iyul 1998-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri vəzifələrində xidmət edib. 13 may 2002-ci ildə ehtiyata buraxılıb.

Vətən müharibəsinin başlanması ilə əlaqədar qismən səfərbərlik üzrə yenidən hərbi xidmətə çağırılıb, mexanikləşdirilmiş taqımın (BTR, SandCat) komandiri vəzifəsində Xocavənd və Füzuli rayonlarının azad olunması uğrunda döyüşlərdə fəal iştirak edərək mərdlik, igidlik nümunələri göstərib və şəhidlik zirvəsinə ucalıb.

"Baş leytenant" hərbi rütbəsində idi.

2020-ci il noyabrın 13-də nəşi döyüş meydanından çıxarılaraq Bakı şəhərinə gətirilib və böyük izdihamın iştirakı ilə son mənzilə yola salınıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "İgidliyə görə" (ölümündən sonra), "Qubadlının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Omarov Vüsal Şəmsəddinoviç**
(1989-2020)

7 iyul 1989-cu ildə Rusiya Federasiyasının Kemerovski vilayətində anadan olub. 2006-cı ildə tam orta məktəbi bitirib. 4 yanvar 2008-ci ildən 1 iyul 2009-cu ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2012-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 oktyabr 2012-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Tank bölüyünün tank taqımının tank komandiri vəzifəsində xidmət edib.

2020-ci il sentyabrın 28-də Cəbrayıl rayonunun Nuzgar kəndi ərazisində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında Azərbaycan Respublikası Müdafiə nazirinin əmri ilə "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Orucov Ceyhun Namaz oğlu**
(1996-2020)

17 dekabr 1996-cı ildə Şamaxı rayonunun Göylər kəndində anadan olub.

2016-cı ildə Şamaxı Peşə Liseyini bitirib. Azərbaycan Ordusunda həqiqi hərbi xidmət keçib. 2019-cu ildə "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 18 may 2019-cu il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taborun (SandCat) motoatıcı bölüyünün motoatıcı taqım komandirinin müavini, motoatıcı taborun (BTR-82A) motoatıcı bölüyünün motoatıcı taqımının döyüş maşını komandiri - döyüş maşınları heyətinin rəisi, mexanikləşdirilmiş taborun (BTR-82A) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının döyüş maşını komandiri – döyüş maşınları heyətinin rəisi vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 28-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən atılan mərmi partlayışı nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Hərbi xidmətlərə görə" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Orucov**
**Elşən**
**Yavər oğlu**
(1985-2020)

11 avqust 1985-ci ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Arınc kəndində anadan olub.

2004-cü ildə Heydər Əliyev adına hərbi liseyi, 2008-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 27 iyun 2008-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Tank əleyhinə taqımın komandiri, qərargah bölüyünün komandiri, motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini, motoatıcı taborun qərargah rəisi – tabor komandirinin müavini vəzifələrində xidmət edib. "Mayor" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 22-də Qubadlı rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 90 illiyi (1918-2008)", "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.





**Orucov**
**Elvin**
**Rövşən oğlu**
(1991-2020)



18 dekabr 1991-ci ildə Qazax şəhərində anadan olub. 2009-cu ildə tam orta məktəbi bitirib. 4 yanvar 2010-cu ildən 27 may 2011-ci ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib. 2012-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 27 aprel 2012-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Tank taqımının tank komandiri, mexanikləşdirilmiş taborun (BMP-1) tank taqımının tank komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündə Füzuli rayonunun işğal edilmiş yaşayış məntəqələrinin azad olunması uğrunda döyüşlərə atılsa da, arzu etdiyi Zəfər gününü görmək ona qismət olmayıb.

2020-ci il sentyabrın 27-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Orucov**
**Nail**
**Rəfail oğlu**
(1978-2020)

11 iyun 1978-ci ildə Astara rayonunun Məçitməhəllə kəndində anadan olub. 1995-ci ildə Cəmşid Naxçıvanski adına İbtidai Hərbi Məktəbi (indiki Cəmşid Naxçıvanski adına hərbi lisey), 1999-cu ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini (İndiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 20 iyul 1999-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini, motoatıcı taborun qərargah rəisinin maddi-texniki təminat üzrə köməkçisi, motoatıcı taborun (qısaldılmış tərkibli) qərargah rəisi – tabor komandirinin müavini, hərbi hissənin maddi-texniki təminat bölməsinin rəisi – qərargah rəisinin maddi-texniki təminat üzrə köməkçisi, motoatıcı taborun komandiri, briqada komandirinin maddi-texniki təminat üzrə müavini – maddi-texniki təminat bölməsinin rəisi vəzifələrində xidmət edib.

"Polkovnik-leytenant" hərbi rütbəsinədək yüksəlib.

31 dekabr 2015-ci ildə ehtiyata buraxılıb.

Vətən müharibəsinin başlanması ilə əlaqədar yenidən hərbi xidmətə çağırılıb və motoatıcı tabor komandiri vəzifəsində döyüşlərdə fəal iştirak edib. Bir çox yaşayış məntəqələrinin düşmən işğalından azad edilməsində xüsusilə fərqlənib, qarşıya qoyulmuş döyüş tapşırıqlarının uğurla həyata keçirilməsinə nail olub.





2020-ci il oktyabrın 31-də Qubadlı rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.



***Ucadır bayrağımız,***
***Yanardır çırağımız.***
***Yağılara pay olmaz***
***Müqəddəs torpağımız!***



**Orucov**
**Nemət**
**Əkbər oğlu**
(1994-2020)

15 noyabr 1994-cü ildə Goranboy rayonunda anadan olub. 2016-cı ildə Azərbaycan Texnologiya Universitetini, 2018-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 13 iyul 2016-cı il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun (BMP-3) motoatıcı bölüyünün motoatıcı taqımının komandiri vəzifəsində xidmət edib.

Təcavüzkar Ermənistanın 30 ilə yaxın davam etdirdiyi təxribatlara cavab olaraq Azərbaycanın öz ərazi bütövlüyünün təmin olunması naminə "Dəmir Yumruq" əməliyyatı ilə başladığı 44 günlük Vətən müharibəsinin ilk günündə Xocavənd rayonu uğrunda savaş meydanına atılıb və qarşıya qoyulan ilk döyüş tapşırığını uğurla yerinə yetirib.

2020-ci il sentyabrın 27-də Xocavənd rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.







**Orucov**
**Xalid**
**Saleh oğlu**
(1996-2020)

7 avqust 1996-cı ildə Neftçala rayonunun Aşağı Surra kəndində anadan olub. 2014-cü ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Mühəndis-istehkam bölüyünün mühəndis-istehkam taqımının komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsi döyüşlərində komandiri olduğu mühəndis-istehkam taqımının şəxsi heyəti ilə birlikdə sahələri minalardan təmizləyərək irəliləyən döyüşçülər üçün cığır və yolların açılması, eləcə də, zəruri mühəndis-istehkam tədbirlərinin təşkilində fəal iştirak edib.

2020-ci il oktyabrın 12-də Ağcabədi rayonu istiqamətində, düşmənlə təmas xəttində Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə xidməti vəzifəsini uğurla yerinə yetirib və igidlik nümunəsi göstərərək şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.



**Ömərov**
**Elvin**
**Xeybər oğlu**
(1991-2020)

18 avqust 1991-ci ildə Kürdəmir rayonunun Şilyan kəndində anadan olub. 2008-ci ildə tam orta məktəbi, 2012-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 oktyabr 2012-ci il tarixli əmri ilə "gizir", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 21 dekabr 2018-ci il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandirinin müavini, mexanikləşdirilmiş (BMP-2) taborun mexanikləşdirilmiş bölüyünün baş çavuşu vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündə "Şəhid qardaşlarımızın intiqamını almayınca bir addım da geriyə yol yoxdur!" – deyərək, döyüş meydanına atılıb və özü də şəhadətə yetişib.

2020-ci il oktyabrın 11-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında Azərbaycan Respublikası Müdafiə nazirinin əmri ilə "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Paşayev**
**Daşdəmir**
**Əlizaman oğlu**
(1982-2020)

28 yanvar 1982-ci ildə Bakı şəhərində anadan olub. 1999-cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2003-cü ildə Azərbaycan Ali Hərbi Məktəbinin (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) Quru Qoşunları fakültəsini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 25 iyul 2003-cü il tarixli əmri ilə "leytenant", 7 noyabr 2005-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

29 may 2007-ci ildə ehtiyata buraxılıb.

Vətən müharibəsinin başlaması ilə əlaqədar olaraq qismən səfərbərlik üzrə yenidən hərbi xidmətə çağırılıb və kəşfiyyat bölüyünün kəşfiyyat taqımının komandiri vəzifəsində döyüşlərdə iştirak edib.

Cəbhənin Füzuli və Cəbrayıl rayonları ərazisində mühüm kəşfiyyat tapşırıqlarını uğurla yerinə yetirib.

2020-ci il noyabrın 8-də Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan artilleriya atəşi nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Hərbi xidmətlərə görə" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Paşayev Elsevər Vaqif oğlu**
(1988-2020)

1 iyul 1988-ci ildə Cəbrayıl rayonunun Qovşudlu kəndində anadan olub. 2006-cı ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2010-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2010-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun qərargah bölüyünün tank əleyhinə taqımının komandiri, mexanikləşdirilmiş taborun motoatıcı bölüyünün motoatıcı taqım komandiri, əməliyyat imkanları konsepsiyası taborunun qərargah bölüyünün atəş dəstəyi taqımının komandiri, əməliyyat imkanları konsepsiyası taborunun qərargah bölüyünün komandiri, sülhməramlı qüvvələr taborunun (əməliyyat imkanları konsepsiyasının) qərargah bölüyünün komandiri, mühafizə taborunun komandirinin maddi-texniki təminat üzrə müavini, avtomobil taborunun komandirinin maddi-texniki təminat üzrə müavini, sülhməramlı qüvvələr taborunun (əməliyyat imkanları konsepsiyasının) qərargah rəisi – tabor komandirinin müavini vəzifələrində xidmət edib.

"Mayor" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində döyüşlərdə fəal iştirak edib və qələbənin qazanılmasında müstəsna xidmətləri olub. Şəxsi şücaət, peşəkarlıq, mərdlik və igidlik nümunələri göstərib.

2020-ci il oktyabrın 20-də Qubadlı rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.



***Döyüşdə bir an da vaxtları yoxdu,***
***Düşməni biçirlər, biçindədilər.***
***Vətənin uğrunda şəhid olanlar***
***Cənnətdə, gülüstan içindədilər!***



**Pənahov Rövşən Mahmud oğlu**
(1989-2020)

2 oktyabr 1989-cu ildə Qazax rayonunun Birinci Şıxlı kəndində anadan olub.

2006-cı ildə M.Həsənov adına Birinci Şıxlı kənd orta məktəbini, 2010-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2010-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, mexanikləşdirilmiş taqım (BMP-1) komandiri, mexanikləşdirilmiş bölük (BMP-1) komandiri vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 2-də Göygöl rayonunun Toğanalı kəndi yaşayış məntəqəsi istiqamətində Murovdağ zirvələrinin azad olunması uğrunda hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən atılan artilleriya mərmisinin partlayışı nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Piriyev Səttar Fuad oğlu**
(1998-2020)

25 oktyabr 1998-ci ildə Quba rayonunun Zərdabi kəndində anadan olub. 2015-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun (BMP-2) motoatıcı bölüyünün motoatıcı taqımının komandiri, mexanikləşdirilmiş taborun (BMP-2) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının komandiri, motoatıcı taqım komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsində qarşıya qoyulan döyüş tapşırıqlarını uğurla yerinə yetirib. 2020-ci il noyabrın 9-da Xocavənd rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunələri göstərərək şəhidlik zirvəsinə ucalıb.

Sağlığında "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Pirseyidov Elnur Nasir oğlu**
(1993-2020)

25 noyabr 1993-cü ildə Qusar rayonunun Avaran kəndində anadan olub. 2011-ci ildə tam orta məktəbi bitirib. 4 yanvar 2012-ci ildən 3 iyul 2013-cü ilədək Azərbaycan Ordusunda kəşfiyyatçı kimi müddətli həqiqi hərbi xidmət keçib. 2014-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 may 2014-cü il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Rabitə bölüyünün telefon taqımının aparatxanasının aparat rəisi, telefon taqımının kabel-xətt manqasının komandiri, rabitə qovşağının avtomatik idarəetmə sistemləri bölməsinin növbə rəisi, radiokəşfiyyat taqımının radiokəşfiyyat stansiyasının rəisi (avtomatlaşdırılmış), radiokəşfiyyat və radioelektron mübarizə bölüyünün radiokəşfiyyat taqımının radiokəşfiyyat manqasının komandiri – stansiya rəisi, xüsusi təyinatlı kəşfiyyat bölüyünün xüsusi təyinatlı kəşfiyyat qrupunun kəşfiyyatçı – radioteleqrafçısı vəzifələrində xidmət edib.

Suqovuşan uğrunda döyüşlərdə şəhid olub və nəşi 2020-ci il dekabrın 1-də çıxarılıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.







**Poladov Aynur Şıxbaba oğlu**
(1980-2020)

20 oktyabr 1980-ci ildə Dəvəçi rayonunda anadan olub. 1998-ci ildə tam orta məktəbi bitirib. Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib. 2000-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 13 may 2000-ci il tarixli əmri ilə "gizir", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 8 iyun 2015-ci il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqımın döyüş maşınının komandiri-manqa komandiri, mexanikləşdirilmiş taborun mexanikləşdirilmiş taqımının döyüş maşını komandiri-mexanikləşdirilmiş manqa komandiri, zenit-raket artilleriya batareyasının özüyeriyən zenit artilleriya taqımı komandirinin müavini – özüyeriyən zenit qurğusunun komandiri, zenit raket-artilleriya batareyasının baş çavuşu, motoatıcı taborun (BMP-1) motoatıcı bölüyünün motoatıcı taqımının döyüş maşını komandiri – döyüş maşınları heyətinin rəisi, mexanikləşdirilmiş taborun (BMP-1) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının döyüş maşını komandiri – döyüş maşınları heyətinin rəisi vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 2-də Füzuli rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 90 illiyi (1918-2008)", "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)",

"Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



*Necə baxım mən o yana,*
*Ellər qaçqın, yurd virana.*
*Qəm eləmə, atam oğlu,*
*Tezlik ilə son qoyarıq*
*Bu həsrətə, bu hicrana.*







**Ramaldanov**
**Babək**
**Meyvəddin oğlu**
(1982-2020)

9 avqust 1982-ci ildə Bakı şəhərində anadan olub. 1999-cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2003-cü ildə Azərbaycan Ali Hərbi Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi), 2004-cü ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu, 2019-cu ildə Rusiya Federasiyasında Müdafiə Nazirliyinin Ümumqoşun Akademiyasını bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 25 iyul 2003-cü il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, motoatıcı taborun qərargah rəisinin maddi-texniki təminat üzrə köməkçisi, mexanikləşdirilmiş taborun qərargah rəisi – tabor komandirinin müavini, motoatıcı taborun komandiri, hərbi hissənin əməliyyat bölmə rəisinin qərargahın planlaşdırma fəaliyyəti üzrə müavini, motoatıcı taborun komandirinin müavini, motoatıcı taborun (BTR T-82A) komandiri, hərbi hissənin qərargah rəisi – briqada komandirinin müavini vəzifələrində xidmət edib.

"Polkovnik-leytenant" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 16-da Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", Rusiya Federasiyası Müdafiə Nazirliyinin Ümumqoşun Akademiyasını əlaçı bitirdiyinə görə "Əlaçı" medalı, ölümündən sonra isə

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.



*Halaldır çörəyimiz,*
*Bir vurur ürəyimiz.*
*Son döyüşə gedirik,*
*Allahdır köməyimiz!*





**Ramazanov Fərid Ömər oğlu**
(1991-2020)



23 dekabr 1991-ci ildə Qax rayonunun Qum kəndində anadan olub. 2009-cu ildə tam orta məktəbi bitirib. 7 oktyabr 2010-cu ildən 11 iyul 2011-ci ilədək Milli Qvardiyada müddətli həqiqi hərbi xidmət keçib. 2014-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "MAHHXHQ hazırlığı" və 2017-ci ildə "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 28 sentyabr 2017-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Hərbi polis taqımının nizamlayıcılar manqasının komandiri, motoatıcı manqa komandiri, mexanikləşdirilmiş taborun (BMP-2) mexanikləşdirilmiş rabitə taqımının idarəetmə manqasının (tabor komandirinin) mexaniki-sürücü, həmlə bölüyünün həmlə taqımı komandirinin müavini, motoatıcı bölüyün (BTR-82A) motoatıcı taqım komandirinin müavini vəzifələrində xidmət edib.

Vətən müharibəsində xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib, şəxsi igidlik və mərdlik nümunələri göstərib.

2020-ci il oktyabrın 10-da Tərtər və Ağdərə rayonları istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi

zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.



*Yarımçıq qalsa da toyu... vuruşsun,*
*Vətən, millət deyib, qoyun vuruşsun!*
*Oğullar döyüşdə, ön səngərdədir,*
*Qoy yerə girməsin boyu, vuruşsun!*







**Rəcəbov Ruslan Rəcəb oğlu**
(1984-2020)

1 avqust 1984-cü ildə Sumqayıt şəhərində anadan olub. 2001-ci ildə tam orta məktəbi bitirib. 15 aprel 2003-cü ildən 17 sentyabr 2004-cü ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2005-ci ildə hərbi hissə nəzdində "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 7 fevral 2006-cı il tarixli əmri ilə "kiçik gizir", Hərbi Dəniz Qüvvələri Komandanının 22 iyun 2008-ci il tarixli əmri ilə "miçman" hərbi rütbəsi verilib.

Radioteleqrafçıların manqa komandiri, xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı qrupunun dalğıcı – kəşfiyyatçı, gəmi əməliyyatları dəstəsinin xüsusi təyinatlı qrupunun dalğıcı – kəşfiyyatçısı vəzifələrində xidmət edib.

Vətən müharibəsində Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlılarının tərkibində döyüşlərdə fəal iştirak edərək şəxsi rəşadət və şücaət nümunələri göstərib.

2020-ci il oktyabrın 31-də Xocavənd rayonu ərazisində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 90 illiyi (1918-2008)", "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi

göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.



*Od ələ yağının üstünə qardaş,*
*Düşmən al qanına boyansın bu gün!*
*Sənin atəşindən, güllə səsindən*
*Dağlar da, daşlar da oyansın bu gün!*

*Qala gərək, bürc gərək,*
*Darvazası tunc gərək,*
*Güzəştə çox getmişik,*
*Dəmir yumruq, güc gərək!*







**Rəhimli**
**Kamil**
**Vəli oğlu**
(1993-2020)



19 aprel 1993-cü ildə Bakı şəhərində anadan olub. 2011-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 26 iyun 2015-ci il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 iyun 2018-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun qərargah rəisinin rabitə üzrə köməkçisi – taqım komandiri, motoatıcı taborun (BMP-2) qərargah rəisinin rabitə üzrə köməkçisi – rabitə taqımının komandiri, motoatıcı taborun rabitə rəisi – rabitə taqımının komandiri, mexanikləşdirilmiş taborun (BMP-3) rabitə rəisi – rabitə taqımının komandiri vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 28-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018), ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Rəhimov
Elvin
Ehtiram oğlu**
(1991-2020)

20 noyabr 1991-ci ildə Füzuli rayonunun Zərgar kəndində anadan olub. 2010-cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2014-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2014-cü il tarixli əmri ilə "leytenant", Əlahiddə Ümumqoşun Ordu komandanının 26 iyun 2017-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı bölüyün xüsusi təyinatlı qrup komandiri, təlim taborunun təlim bölüyünün (kəşfiyyat ixtisası hazırlığı üzrə) taqım komandiri, hərbi hissənin qərargah rəisinin köməkçisi, motoatıcı taborun (MT-LB) motoatıcı bölüyü komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifələrində xidmət edib.

Vətən müharibəsində şəxsi igidlik və mərdlik nümunələri göstərib, xidməti vəzifəsinin öhdəsindən layiqincə gəlib.

2020-ci il noyabrın 4-də Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması uğrunda gedən hərbi əməliyyatlar zamanı Xocavənd rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində





fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.



*Əziziyəm qaralmaz,*
*Dağlar başın qar almaz.*
*Şəhid verən millətin*
*Od-ocağı qaralmaz!*



**Rəhimov Rəşad İlqar oğlu**
(1985-2020)

16 iyul 1985-ci ildə Tərtər rayonunda anadan olub. 2006-cı ildə Azərbaycan Beynəlxalq Universitetini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı" kursunu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 12 oktyabr 2006-cı il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

12 oktyabr 2006-cı ildən 12 aprel 2008-ci ilədək Azərbaycan Ordusunda motoatıcı taqım komandiri vəzifəsində xidmət edib və ehtiyata buraxılıb.

Vətən müharibəsi başlananda qismən səfərbərlik üzrə yenidən hərbi xidmətə çağırılıb və mexanikləşdirilmiş taborun (BTR, SandCat) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının komandiri vəzifəsində döyüşlərdə iştirak edib.

Qubadlı rayonunun düşmən işğalından azad edilməsi uğrunda döyüşlərdə fəal iştirak edərək Şuşa şəhərinə qədər döyüş yolu keçib.

2020-ci il noyabrın 9-da Şuşa şəhəri istiqamətində hərbi əməliyyatlar zamanı düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Qubadlının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Rəhimov Tural Arif oğlu**
(1993-2020)

1 yanvar 1993-cü ildə Cəlilabad rayonunda anadan olub. 2014-cü ildə Lənkəran Dövlət Universitetini, 2015-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı" kursunu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 11 fevral 2015-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

11 fevral 2015-ci ildən 20 avqust 2016-cı ilədək motoatıcı taborun motoatıcı bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsində xidmət edib və ehtiyata buraxılıb.

Vətən müharibəsi başlananda qismən səfərbərlik üzrə yenidən hərbi xidmətə çağırılıb və motoatıcı taborun motoatıcı bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsində döyüşlərdə iştirak edib.

2020-ci il oktyabrın 22-də Qubadlı rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra), "Qubadlının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Rəşidov İlham Tahir oğlu**
(1983-2020)

1 mart 1983-cü ildə Xaçmaz rayonunun Xudat şəhərində anadan olub. 2000-ci ildə tam orta məktəbi bitirib. 15 aprel 2001-ci ildən 12 oktyabr 2002-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2003-cü ildə "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 1 avqust 2003-cü il tarixli əmri ilə "gizir", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 24 mart 2020-ci il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taım komandirinin müavini, xüsusi təyinatlı qrupun kəşfiyyatçısı (istehkamçı), xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 27-də Göygöl rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Hərbi xidmətlərə görə", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalları ilə təltif olunub.







**Rəşidov Tural Fazil oğlu**
(1989-2020)

30 may 1989-cu ildə Balakən rayonunun Tülü kəndində anadan olub. 2007-ci ildə tam orta məktəbi bitirib. 6 aprel 2007-ci ildən 15 dekabr 2008-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2009-cu ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "MAHHXHQ hazırlığı", 2018-ci ildə hərbi hissənin nəzdində «Təməl Xüsusi Təyinatlı» kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 6 aprel 2018-ci il tarixli əmri ilə "kiçik gizir", 28 aprel 2020-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı manqa komandiri, mexanikləşdirilmiş taborun (BMP-3) kəşfiyyat taqımının kəşfiyyat manqasının komandiri, xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı komandasının kəşfiyyatçısı (atıcı), kəşfiyyat dəstəsinin çevik kəşfiyyat taqımınm çevik kəşfiyyat qrupunun kəşfiyyatçısı (snayper), kəşfiyyat dəstəsinin çevik kəşfiyyat taqımının çevik kəşfiyyat qrupunun kəşfiyyatçısı (radiotelefonçu) vəzifələrində xidmət edib.

Vətən müharibəsində hərbi əməliyyatlar zamanı mühüm kəşfiyyat tapşırıqlarının yerinə yetirilməsində xüsusilə fərqlənib, rəşadət və şücaət nümunələri göstərib.

2020-ci il oktyabrın 15-də Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə

yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda", "Şücaətə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



***Ermani vandalları Ağdam şəhərini tamamilə yerlə yeksan ediblər. Yalnız Ağdam məscidi əvvəlki görkəmini qoruyub saxlayıb. Təcavüzkarlar məscidin minarələrindən müşahidə və oriyentiri müəyyənləşdirmək üçün istifadə ediblər. Uzun illərdən sonra bu müqəddəs məkanı ziyarət edən qəhrəman döyüşçülərimiz ilk növbədə şəhidlərimizə Allahdan rəhmət diləyiblər.***







**Rəşidzadə**
**Səid**
**Nofəl oğlu**
(1990-2020)

28 yanvar 1990-cı ildə Füzuli rayonunun Horadiz qəsəbəsində anadan olub. 2007-ci ildə Bakı şəhəri 207 nömrəli tam orta məktəbi bitirib. 2011-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 iyu 2011-ci il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 24 iyun 2014-cü il tarixli əmri ilə ona "baş leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, aerodrom-texniki təminat taborunun mühafizə bölüyünün komandiri vəzifələrində xidmət edib.

7 dekabr 2018-ci ildə ehtiyata buraxılıb.

Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq səfərbərlik üzrə yenidən hərbi xidmətə çağırılıb və mexanikləşdirilmiş taborun (BTR-82A) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının komandiri vəzifəsində döyüşlərdə iştirak edib.

2020-ci il oktyabrın 11-də Füzuli rayonu istiqamətində düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013), ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



**Rəsulov Mirbala Əmirağa oğlu**
(1989-2020)

17 oktyabr 1989-cu ildə Şabran rayonunun Rəhimli kəndində anadan olub. 2007-ci ildə tam orta məktəbi bitirib. 18 oktyabr 2007-ci ildən 2 aprel 2009-cu ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2011-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "MAH-HXHQ hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 24 aprel 2019-cu il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Motoatıcı manqa komandiri, xüsusi təyinatlı taborun xüsusi təyinatlı dəstəsinin xüsusi təyinatlı qrupunun kəşfiyyatçısı, xüsusi kəş-fiyyat dəstəsinin xüsusi kəşfiyyat qrupunun kəşfiyyatçısı (tuşlayıcısı-operator), xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı komandasının kəşfiyyatçısı (atıcı), xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı taqımının xüsusi təyinatlı manqasının qumbaraatanı, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

Vətən müharibəsində şəxsi mərdlik və igidlik nümunələri göstərib, cəsur döyüşçü kimi tanınıb.

2020-ci il oktyabrın 5-də Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlarda düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013), "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018), ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.







***Vətən müharibəsi döyüşlərində düşmənin minlərlə hərbi texnikası və infrastrukturu məhv edilmiş, qənimət götürülmüşdür. Onlardan bir qismi Azadlıq meydanında keçirilən möhtəşəm Zəfər paradında Ermənistanın kapitulyasiyasının rəmzi olaraq nümayiş etdirilmiş-dir. Bakıda, Ağ şəhər parkında yaradılmaqda olan "Hərbi qənimətlər parkı"nda düşməndən qənimət götürülmüş bu hərbi texnikalar da sərgilənəcək.***



**Rəsulzadə Təbriz Əfrayim oğlu**
(1993-2020)

5 fevral 1993-cü ildə Qax rayonunun Cəlayir kəndində anadan olub. 2011-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 26 iyun 2015-ci il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 iyun 2018-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Tank taqımının komandiri, tank bölüyünün komandiri vəzifələrində xidmət edib.

Azərbaycanın öz ərazi bütövlüyünü təmin etmək naminə başladığı Vətən müharibəsinin ilk günündə xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib, şəxsi şücaət nümunələri göstərib.

2020-ci il sentyabrın 27-də Tərtər rayonunun Qarağacı-Qapanlı kəndləri istiqamətində hərbi əməliyyatlar zamanı düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018), ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.







**Rustamov Ruslan Nüsrət oğlu**
(1981-2020)

23 oktyabr 1981-ci ildə Şamaxı rayonunun Şorbaçı kəndində anadan olub.

2009-cu ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını, 2016-cı ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 2 avqust 2016-cı il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 2 avqust 2019-cu il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

13 yanvar 2000-ci ildən 20 iyul 2001-ci ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

20 avqust 2014-cü ildən reaktiv artilleriya divizionunun qərargah batareyasının sürücüsü, motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 2-də Goranboy rayonu istiqamətində hərbi əməliyyatlar zamanı düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018), ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



**Rüstəmov**
**Üzeyir**
**Əyyub oğlu**
(1997-2020)

27 may 1997-ci ildə Şəmkir rayonunun Qılıncbəyli kəndində anadan olub. 2014-cü ildə tam orta məktəbi bitirib. 10 iyul 2015-ci ildən 14 dekabr 2016-cı ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2018-ci ildə "MAHHXHQ hazırlığı" və 2019-cu ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 18 may 2019-cu il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Kəşfiyyat manqasının baş kəşfiyyatçısı, kəşfiyyat bölüyünün kəşfiyyat taqımı komandirinin müavini, motoatıcı bölüyün (BMP-3) motoatıcı taqımının motoatıcı manqasının komandiri vəzifələrində xidmət edib.

Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın öz ərazi bütövlüyünün bərpa olunması və işğal edilmiş şəhər və kəndlərinin azad edilməsi uğrunda başladığı müharibənin ilk günündə döyüşlərə böyük ruh yüksəkliyi ilə atılıb.

2020-ci il oktyabrın 1-də Göygöl rayonu istiqamətində, Murovdağ zirvələri uğrunda hərbi əməliyyatlar zamanı düşmən tərəfindən açılan artilleriya atəşi nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.







**Rüstəmov**
**Vüsal**
**Valeh oğlu**
(1993-2020)

12 mart 1993-cü ildə Cəbrayıl rayonunun Alıkeyxalı kəndində anadan olub. 2015-ci ildə tam orta məktəbi bitirib. Müddətli həqiqi hərbi xidmət keçib.

2019-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 18 may 2019-cu il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandirinin müavini, motoatıcı taborun (BMP-3) motoatıcı bölüyünün motoatıcı taqımının döyüş maşını komandiri – döyüş maşınları heyəti rəisinin müavini, motoatıcı taborun (Marauder) motoatıcı bölüyünün motoatıcı taqımının döyüş maşını komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsində Cəbrayıl və Füzuli rayonlarının işğal edilmiş yaşayış məntəqələrinin azad edilməsi uğrunda döyüşlərdən Şuşa şəhərinədək şərəfli döyüş yolu keçib.

2020-ci il noyabrın 9-da Şuşa şəhəri istiqamətində hərbi əməliyyatlar zamanı düşmən tərəfindən atılan mərmi partlayışı nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.



**Rzayev**
**İlkin**
**Cəfər oğlu**
(1984-2020)

28 iyul 1984-cü ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Ələkli kəndində anadan olub. 2002-ci ildə tam orta məktəbi, 2006-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və “Zabit ixtisas kursu”nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 20 iyun 2006-cı il tarixli əmri ilə “leytenant” hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, motoatıcı tabor komandirinin müavini, hərbi hissənin döyüş hazırlığı bölməsi rəisinin baş köməkçisi, hərbi hissənin döyüş hazırlığı bölməsinin rəisi vəzifələrində xidmət edib. “Mayor” hərbi rütbəsinədək yüksəlib.

Murovdağ uğrunda döyüşlərdə şəhid olub və nəşi 2020-ci il dekabrın 18-də qarlı zirvələrdən çıxarılaraq son mənzilə yola salınıb.

Sağlığında “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)”, Hərbi xidmətdə fərqlənməyə görə” 3-cü dərəcəli medal, “Qüsursuz xidmətə görə” 3-cü dərəcəli, “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)”, “Qüsursuz xidmətə görə” 2-ci dərəcəli, “Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)” medalları ilə təltif olunub. Ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Vətən uğrunda” medalı ilə təltif olunub.







**Rzayev**
**Zülfü**
**Zeyni oğlu**
(1993-2020)

9 may 1993-cü ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Külüs kəndində anadan olub.

2010-cu ildə Heydər Əliyev adına hərbi liseyi, 2014-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və “Zabit ixtisas kursu”nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2014-cü il tarixli əmri ilə “leytenant”, Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 31 avqust 2017-ci il tarixli əmri ilə “baş leytenant” hərbi rütbəsi verilib.

Kəşfiyyat taqımının komandiri və kəşfiyyat bölüyünün komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündə kəşfiyyat bölüyünün fəaliyyətini peşəkarcasına istiqamətləndirsə də, az sonra düşmən mövqeyinin yaxınlığında şəhadətə yetişib.

2020-ci il sentyabrın 27-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Sağlığında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “İgidliyə görə”, “Azərbaycan Ordusunun 100 illiyi (1918-2018), ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Vətən uğrunda”, “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif olunub.



**Rzazadə Həsən Vüqar oğlu**
(1994-2020)

15 iyun 1994-cü ildə Sumqayıt şəhərində anadan olub. 2011-ci ildə Qusar rayonu Yuxarı Zeyxur kənd orta məktəbini, 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 26 iyun 2015-ci il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 iyun 2018-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, Sülhməramlı Qüvvələr taborunun sülhməramlı taqımının komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsi döyüşlərində şəxsi mərdlik və igidlik nümunələri göstərib.

2020-ci il oktyabrın 29-da Qubadlı rayonu ərazisində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub.







**Sadıqlı İbrahim Şahin oğlu**
(1993-2020)

28 iyun 1993-cü ildə Bakı şəhərində anadan olub. 2011-ci ildə tam orta məktəbi bitirib. 10 oktyabr 2011-ci ildən 12 mart 2013-cü ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2016-cı ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 12 aprel 2016-cı il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı manqa (BTR T-82A) komandiri-döyüş maşını komandiri, snayper qrupunun komandiri-snayper vəzifələrində xidmət edib.

Komandiri olduğu snayper manqasının üzvləri ilə birlikdə düşmənə canlı qüvvə sarıdan xeyli itkilər verib, mərdlik və igidlik nümunələri göstərib.

2020-ci il oktyabrın 3-də Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda" "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Sadıqlı**
**Məmmədhəsən**
**Meydan oğlu**
(1992-2020)

21 fevral 1992-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda anadan olub.

2010-cu ildə Heydər Əliyev adına hərbi liseyi, 2014-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və 2015-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2014-cü il tarixli əmri ilə "leytenant", Əlahiddə Ümumqoşun Ordu Komandanının 26 iyun 2017-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı bölüyün xüsusi təyinatlı qrup komandiri, xüsusi təyinatlı bölüyün komandiri vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 27-də Xocavənd rayonunun Qırmızı Bazar yaşayış məntəqəsi ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən odlu silahdan açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018), ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarda iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.







**Sadıqov**
**Yaşar**
**Füzuli oğlu**
(1975-2020)

10 sentyabr 1975-ci ildə Füzuli rayonunun Bala Bəhmənli kəndində anadan olub. 1992-ci ildə kənd tam orta məktəbini bitirib. 1993-cü ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) daxil olub və 1995-ci ildə təhsilini müvəffəqiyyətlə başa vurub.

Müdafiə nazirinin müvafiq əmrinə əsasən "leytenant" hərbi rütbəsi verilib.

Naxçıvan Muxtar Respublikasında motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini, hərbi hissənin qərargah rəisi – tabor komandirinin müavini, hərbi hissənin kəşfiyyat bölməsinin zabiti – bölmə rəisinin müavini (kəşfiyyatın planlaşdırılması üzrə) vəzifələrində xidmət edib.

2016-cı ildən başlayaraq əvvəl Bakıətrafı hərbi hissələrdən birində motoatıcı taborun komandiri, briqada komandirinin maddi-texniki təminat üzrə müavini – maddi-texniki təminat bölməsinin rəisi, 2018-ci ildən isə Beyləqanda briqada komandirinin maddi-texniki təminat üzrə müavini – maddi-texniki təminat bölməsinin rəisi vəzifəsində xidmətini davam etdirib.

2020-ci ildən Murovdağ istiqamətində əvvəl briqada komandirinin maddi-texniki təminat üzrə müavini – maddi-texniki təminat bölməsinin rəisi, sonra isə hərbi hissənin qərargah rəisi – briqda komandirinin müavini vəzifəsində xidmət edib.

"Polkovnik-leytenant" hərbi rütbəsinədək yüksəlib.

27 sentyabr 2020-ci ildə Ermənistanın təxribatlarına cavab olaraq "Dəmir Yumruq" əməliyyatı ilə başlanan Vətən müharibəsinin ilk günündən hərbi əməliyyatların hazırlanması və təşkili üzrə verilən tapşırıqları uğurla yerinə yetirib, döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 2-də Murovdağ silsiləsində zirvənin alınması uğrunda döyüşdə qəhrəmancasına şəhid olsa da, nəşi 26 fevralda qarlı aşırımlardan çıxarılıb və fevralın 27-də Bakı şəhərində Şəhidlər xiyabanında böyük izdihamın iştirakı ilə son mənzilə yola salınıb.

Sağlığında, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalları ilə təltif olunub.

Ölümündən sonra layiq olduğu mükafatlarla təltif edilməsi üçün aidiyyatı üzrə təqdimat göndərilib.



***Murovdağ zirvəsini fəth edən zabit son və əbədi mənzilinə yola salınır.***





**Sadiqov Emin Rəşadət oğlu**
**(1998-2020)**



21 iyul 1998-ci ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Kənd Şahbuz kəndində anadan olub.

2015-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsinin ilk günündən torpaqlarımızın düşmən işğalından azad edilməsi uğrunda döyüşlərdə fəal iştirak edib və haqq savaşımızda düşmənlərə qarşı amansızcasına vuruşub. Füzuli rayonunun bir çox yaşayış məntəqələrinin işğaldan azad olunmasında xüsusilə fərqlənib.

2020-ci il oktyabrın 26-da Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində hid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Döyüşdə fərqlənməyə görə" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Sadıqov Rəşad Xanlar oğlu**
(1978-2020)

11 oktyabr 1978-ci ildə Laçın rayonunda anadan olub. 1995-ci ildə tam orta məktəbi, 1999-cu ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 20 iyul 1999-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, Cəmşid Naxçıvanski adına hərbi liseyin Naxçıvan filialının taqım komandiri – tərbiyəçi, Heydər Əliyev adına hərbi liseyin tədris kursunun taqım komandiri – müəllim köməkçisi, Heydər Əliyev adına hərbi liseydə şəxsi heyətlə iş üzrə bölmənin baş təlimatçısı – psixoloq, Heydər Əliyev adına hərbi liseyin tədris şöbəsinin plan – proqram bölməsinin rəisi, hərbi hissənin təşkilat-səfərbərlik şöbəsi rəisinin baş köməkçisi (səfərbərlik üzrə), hospital rəisinin şəxsi heyətlə iş üzrə müavini, briqada komandirinin şəxsi heyətlə iş üzrə müavini – şəxsi heyətlə iş üzrə bölmənin rəisi, briqada komandirinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavini – ideoloji iş və mənəvi-psixoloji təminat bölməsinin rəisi vəzifələrində xidmət edib.

"Polkovnik-leytenant" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 29-da Laçın rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin





95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, Fövqəladə Hallar Nazirliyinin "Fövqəladə halların nəticələrini aradan qaldıran iştirakçıya» döş nişanı, "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub.



***Qarabağda şəhid olan oğullar***
***Canı yurda, elə qurban etdilər.***
***Onlar ölmədilər, şəhid oldular,***
***Ürəklərdə yaşamağa getdilər!***



**Sahratov**
**Cavid**
**Əlikömək oğlu**
(1981-2020)

23 dekabr 1981-ci ildə Yardımlı rayonunun Əsabad kəndində anadan olub. Tam orta məktəbi bitirib. 4 yanvar 2000-ci ildən 5 iyul 2001-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2006-cı ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 4 mart 2006-cı il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Tank bölüyünün tank taqımının tank komandiri, tank taborunun təlim – döyüş maşınları bölüyünün tank taqımının tank komandiri – sürücülük üzrə təlimatçı, tank taborunun tank bölüyünün tank taqımının tank komandiri vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 9-da Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən atılan mərmi partlayışı nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalları, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.







**Salmanov**
**Tariyel**
**Allahverdi oğlu**
(1988-2020)

7 fevral 1988-ci ildə Ağcabədi rayonunda anadan olub. 2010-cu ildə Azərbaycan Tibb Universitetini, 2011-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 14 oktyabr 2011-ci il tarixli əmri ilə "tibb xidməti leytenantı" hərbi rütbəsi verilib.

Hərbi hissənin poliklinikasının həkimi-stomatoloq vəzifəsində müddətli həqiqi hərbi xidmət keçib.

Vətən müharibəsinin başlanması ilə əlaqədar yenidən hərbi xidmətə çağırılıb və hərbi hissənin tibb məntəqəsinin həkimi kimi döyüşlərdə iştirak edib.

Yaralılara ilk tibbi yardım göstərilməsində, onların odlu döyüş meydanlarından təxliyə edilməsində və sağalaraq yenidən hərbi əməliyyatlara yola salınmasında vətənpərvəlik nümunələri göstərib.

2020-ci il oktyabrın 8-də Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyin görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.



**Samidli Babək Mətləb oğlu**
(1974-2020)

7 yanvar 1974-cü ildə Göyçay şəhərində anadan olub. 1990-cı ildə 10-cu sinfi, 1997-ci ildə Türkiyə Respublikası Quru Qoşunlar Hərbi Məktəbini, 1998-ci ildə Motoatıcı ixtisası məktəbini bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 28 avqust 1997-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, müdavimlər bölüyünün komandiri, motoatıcı bölük komandiri, motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini, tabor komandirinin müavini, hərbi hissənin qoşun xidməti şöbəsinin baş zabiti, hərbi hissənin qarnizon hərbi polisinin rəisi, motoatıcı taborun komandiri, hərbi hissənin əməliyyat bölməsinin zabiti – bölmə rəisinin baş köməkçisi (döyüş və komandir hazırlığı məsələlərinə cavabdeh), hərbi hissənin əməliyyat bölməsinin rəisi – qərargah rəisinin əməliyyatlar üzrə köməkçisi, briqada komandirinin müavini, hərbi hissənin qərargah rəisi – briqada komandirinin müavini, hərbi hissənin əməliyyat şöbəsi rəisinin gündəlik fəaliyyətin planlaşdırılmasına və qoşun xidmətinə nəzarət üzrə baş köməkçisi, hərbi hissənin əməliyyat şöbəsi rəisinin müavini, hərbi hissənin maddi-texniki təminat şöbəsi rəisinin qərargahın fəaliyyətinin planlaşdırılması üzrə müavini, korpus komandirinin şəxsi heyətlə iş üzrə müavini – şəxsi heyətlə iş üzrə şöbənin rəisi, korpus komandirinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavini – ideoloji iş və mənəvi-psixoloji təminat şöbəsinin rəisi vəzifələrində xidmət edib.

"Polkovnik" hərbi rütbəsinədək yüksəlib.





2020-ci il noyabrın 23-də Tərtər və Ağdərə istiqamətində hərbi əməliyyatlar dayandırıldıqdan sonra meyitlərin dəyişdirilməsi zamanı minaya düşərək şəhid olub.

Sağlığında "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Hərbi xidmətlərə görə", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı", "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə "Zəfər" ordeni və "Vətən uğrunda" medalı ilə təltif olunub.




***Düşməndən qənimət götürülmüş hərbi texnikalardan yalnız ikisi***



**Səfərli Cavid Xaliq oğlu**
(1993-2020)

31 may 1993-cü ildə İmişli rayonunun Əliqulular kəndində anadan olub. 2010-cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2014-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və 2015-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2014-ci il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 23 iyun 2017-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun qərargah rəisinin kəşfiyyat üzrə köməkçisi – kəşfiyyat taqımının komandiri, snayper bölüyünün snayper taqımının komandiri, snayper bölüyünün komandiri, mexanikləşdirilmiş bölüyün (SandCat) komandiri, mexanikləşdirilmiş tabor (SandCat) komandirinin müavini vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 20-də Xocavənd rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018), ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Səfərov Elvin Ramiz oğlu**
(1989-2020)

10 dekabr 1989-cu ildə Lerik rayonunun Soru kəndində anadan olub. 2007-ci ildə tam orta məktəbi bitirib. 4 yanvar 2008-ci ildən 8 iyun 2009-cu ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2015-ci ildə hərbi hissə nəzdində "Xüsusi Təyinatlı Qüvvələr kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 17 avqust 2015-ci il tarixli əmri ilə "kiçik miçman", Hərbi Dəniz Qüvvələri Komandanının 5 oktyabr 2017-ci il tarixli əmri ilə "miçman" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı snayperlər qrupunun dalğıcı – kəşfiyyatçı, xüsusi təyinatlı qrupun dalğıcı – kəşfiyyatçı vəzifələrində xidmət edib.

Vətən müharibəsində Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlılarının tərkibində döyüşlərdə fəal iştirak edib. 2020-ci il oktyabrın 31-də Xocavənd rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı, ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.



**Səfərov**
**Hikmət**
**İldırım oğlu**
(1972-2020)

11 iyul 1972-ci ildə Ağdam rayonunda anadan olub. 1995-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasını və "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 21 avqust 1995-ci il tarixli əmri ilə "leytenant", 22 iyun 2003-cü ill tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib. 14 oktyabr 2002-ci ildən 14 aprel 2004-cü ilədək müddətli həqiqi hərbi xidmət keçib.

Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq yenidən hərbi xidmətə çağırılıb və motoatıcı taborun rabitə rəisi – rabitə taqımının komandiri vəzifəsində döyüşlərdə iştirak edib.

Rabitə vasitələrinin daim işlək vəziyyətdə saxlanılmasına, rabitəçilərin xidməti vəzifələrinin peşəkarlıqla icrasına çalışıb və buna nail olub. Döyüşlərdə həm də cəsur döyüşçü kimi tanınıb.

2020-ci il oktyabrın 5-də Tərtər rayonunun Talış kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Cəsur döyüşçü" (ölümündən sonra), "Ağdamın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Səfərov**
**Nicat**
**Vaqib oğlu**
(1992-2020)

4 may 1992-ci ildə Yevlax şəhərində anadan olub. 2009-cu ildə 1 nömrəli Gəncə Peşə Liseyini bitirib. 8 iyul 2010-cu ildən 5 yanvar 2012-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2013-cü ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "MAHHXHQ hazırlığı", 2016-cı ildə "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 4 oktyabr 2016-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Snayperlər manqasının komandiri – snayper, mexanikləşdirilmiş taborun (BMP-2) snayperlər manqasının komandiri-snayper, motoatıcı taqımın motoatıcı manqasının komandiri, kəşfiyyat bölüyünün kəşfiyyat taqımı komandirinin müavini, kəşfiyyat bölüyünün kəşfiyyat taqımının kəşfiyyat manqasının komandiri, motoatıcı bölüyün motoatıcı taqım komandirinin müavini vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 2-də Goranboy rayonu istiqamətində hərbi əməliyyatlar zamanı düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013), ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



**Səfərov Şahmar Nazim oğlu**
(1997-2020)

1 sentybar 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Siyaqut kəndində anadan olub. 2015-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, dağ-atıcı taborun dağ-atıcı bölüyünün dağ-atıcı taqımının komandiri vəzifələrində xidmət edib.

Müharibənin ilk günündə dağ-atıcı taqımla birlikdə Kəlbəcər rayonuna doğru zirvələrə qalxaraq düşmənə xeyli itki verib və zirvəni ələ keçiriblər.

2020-ci il sentyabrın 29-da Daşkəsən istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. Nəşi 3 aydan sonra qarlı zirvələrdən çıxarılıb və böyük izdihamın iştirakı ilə son mənzilə yola salınıb. Əmisi oğlu da Vətən müharibəsi döyüşlərində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Döyüşdə fərqlənməyə görə" (ölümündən sonra), "Kəlbəcərin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Səlimli Bakıxan Alim oğlu**
(1993-2020)

31 avqust 1993-cü ildə Şəki rayonunun Əliyar kəndində anadan olub. 2011-ci ildə orta məktəbi bitirib. 21 oktyabr 2011-ci ildən 6 mart 2013-cü ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib. 2014-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 may 2014-cü il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Mühafizə və təminat bölüyünün mühafizə taqımının komandiri, qərargah bölüyünün komendant taqımının komandiri, motoatıcı taborun motoatıcı bölüyünün baş çavuşu vəzifələrində xidmət edib.

Vətən müharibəsində xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib və şəxsi heyətin rəğbətini qazanıb.

2020-ci il oktyabrın 20-də Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı qarşıya qoyulan döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

"Baş gizir" hərbi rütbəsində idi.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018), ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Səlimov**
**Cəmil**
**Oqtay oğlu**
(1991-2020)

15 yanvar 1991-ci ildə Bakı şəhəri Xəzər rayonunun Mərdəkan qəsəbəsində anadan olub. 2008-ci ildə tam orta məktəbi, 2010-cu ildə Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinin Hərbi Tibb məktəbini bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2010-cu il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taborun qərargah bölüyünün tibb məntəqəsinin feldşeri, motoatıcı taborun tibb məntəqəsinin feldşeri, hərbi hissənin tibb məntəqəsinin feldşeri vəzifələrində xidmət edib.

Vətən müharibəsində döyüş əməliyyatları zamanı yaralılara ilk tibbi yardım göstərilməsi və onların təxliyə edilməsində xüsusilə fərqlənib.

2020-ci il sentyabrın 29-da Goranboy istiqamətində gedən döyüşlərdə hərbi əməliyyatlar nəticəsində şəhidlik zirvəsinə ucalıb.

Sağlığında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medallarla, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.







**Səlimzadə**
**Kənan**
**Məmiş oğlu**
(1997-2020)

25 noyabr 1997-ci ildə İsmayıllı rayonunda anadan olub. 2014-cü ildə tam orta məktəbi, 2016-ci ildə Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinin Hərbi Tibb məktəbini bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2016-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Artilleriya divizionunun tibb məntəqəsinin rəisi – feldşer, motoatıcı taborun tibb məntəqəsinin feldşeri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündə motoatıcı taborun şəxsi heyəti ilə birlikdə işğal edilmiş torpaqların azad olunması uğrunda döyüşlərə atılıb və onlarla yaralıya ilk tibbi yardım göstərərək təxliyə edilmələrinə yardımçı olub.

Xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib, şəxsi heyətin rəğbətini qazanıb.

2020-ci il sentyabrın 27-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı düşmən minaatanlarının atəşləri altında növbəti yaralını döyüş meydanından çıxararkən şəhidlik zirvəsinə ucalıb.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018), ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



**Səmədli**
**Sənan**
**Fikrət oğlu**
(1997-2020)

27 dekabr 1997-ci ildə Yevlax rayonunun Malbinəsi kəndində anadan olub.

30 yanvar 2016-cı ildən 1 iyul 2017-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2018-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı" kursunu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 19 may 2018-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Özüyeriyən artilleriya batareyasının özüyeriyən artilleriya taqımının top komandiri vəzifəsində xidmət edib.

Azərbaycan tarixinə şanlı səhifə kimi yazılmış 44 günlük Vətən müharibəsinin ilk günündə komandiri olduğu özüyeriyən artilleriya topunun heyəti ilə birlikdə düşmənə sarsıdıcı zərbələr vurub, döyüşlərdə şəxsi qəhrəmanlıq və igidlik nümunələri göstərib.

2020-ci il oktyabrın 1-də Tərtər rayonunun Dəmirçilər kəndi ərazisində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən hərbi texnikanın partlası nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "İgidliyə görə" (ölümündən sonra), "Suqovuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Səmədov**
**İsmayıl**
**Məhəmməd oğlu**
(1990-2020)

9 avqust 1990-cı ildə Zaqatala rayonunun Lahıc kəndində anadan olub. 2007-ci ildə Kimya-Biologiya təmayüllü Respublika Liseyini, 2011-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2012-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 iyun 2011-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, xüsusi təyinatlı alayın xüsusi təyinatlı qrup komandirinin müavini, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupu komandirinin müavini, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsində Füzuli uğrunda gedən döyüşlərdə komandirlik etdiyi xüsusi əməliyyat qrupu ilə birlikdə mühüm tapşırıqları uğurla yerinə yetirib, düşmən birləşmələri, onların texnika, canlı qüvvə, hərbi obyektləri barədə ətraflı kəşfiyyat məlumatları toplayaraq düşmənin tamamilə darmadağın edilməsində fəallıq göstərib.

2020-ci il oktyabrın 11-də Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" medalları ilə təltif olunub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" (ölümündən sonra) adı verilib.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarmda iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.



***İki dəfə Sovet İttifaqı Qəhrəmanı, əfsanəvi sərkərdə Həzi Aslanovun davamçıları – Azərbaycan Ordusunun cəsur tankçıları ildırım sürəti ilə düşmən üzərinə od yağdırırlar.***





**Səmədov Sabuhi İbrahim oğlu**
**(1985-2020)**



23 iyun 1985-ci ildə Neftçala rayonunun Xıllı qəsəbəsində anadan olub. 2002-ci ildə tam orta məktəbi bitirib. 10 iyul 2003-cü ildən 2 yanvar 2005-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2010-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 6 mart 2010-cu il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Tank taqımının tank komandiri vəzifəsində xidmət edib.

"Dəmir Yumruq" əməliyyatı ilə başlanan 44 günlük Vətən müharibəsində Füzuli və Cəbrayıl rayonlarının yaşayış məntəqələrinin işğaldan azad olunması uğrunda döyüşlərdə fəal iştirak edib, komandanlığın etimadını doğruldub.

2020-ci il oktyabrın 9-da Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən atılan mərmi partlayışı nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013), "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018), ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.



**Seyidov Nihat Mehman oğlu**
(1998-2020)

12 iyun 1998-ci ildə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Teyvaz kəndində anadan olub. 2015-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun (BMP-2) motoatıcı bölüyünün motoatıcı taqımının komandiri, mexanikləşdirilmiş taborun (BMP-2) tank əleyhinə taqım komandiri, mexanikləşdirilmiş taborun (BTR-82A) mexanikləşdirilmiş bölüyünün komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən Tərtər və Ağdərə rayonları istiqamətlərində hərbi əməliyyatlara qatılaraq qarşıya qoyulan döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsinə çalışıb, vəzifə borcunu şərəflə yerinə yetirib.

2020-ci il oktyabrın 15-də Tərtər rayonu ərazisində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Döyüşdə fərqlənməyə görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Seymur Hüseyn oğlu**
(1993-2020)

20 oktyabr 1993-cü ildə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunda anadan olub. 2011-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 26 iyun 2015-ci il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 iyun 2018-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Vətən müharibəsində Füzuli və Cəbrayıl rayonlarının yaşayış məntəqələrinin düşmən işğalından azad edilməsi uğrunda gedən döyüşlərin birində igidlik nümunələri göstərərək şəhidlik zirvəsinə ucalıb.

Nəşi 2020-ci il noyabrın 27-də işğaldan azad edilən ərazidən çıxarılıb. Üzərinə Azərbaycan Respublikasının dövlət bayrağı sərilən cənazəsi hərbi, dini ənənələrə uyğun olaraq dövlət himninin sədaları altında, böyük izdihamın iştirakı ilə son mənzilə yola salınıb.

Motoatıcı taqım komandiri, motoatıcı taborun (Matador) motoatıcı bölüyünün motoatıcı taqımının komandiri vəzifələrində xidmət edib.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Soltanov
Nadir
Nəzir oğlu**
(1984-2020)

11 yanvar 1984-cü idl Şamaxı rayonununda anadan olub. 1999-cu ildə tam orta məktəbi bitirib. 2 aprel 2002-ci ildən 10 sentyabr 2003-cü ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib. 2006-cı ildə "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 1 mart 2007-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Mexanikləşdirilmiş taqımın döyüş maşını komandiri – manqa komandiri, rabitə bölüyünün baş çavuşu, motoatıcı manqanın (BTR T-82A) komandiri – döyüş maşını komandiri, motoatıcı bölüyün (BTR-82A) baş çavuşu vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 27-də Füzuli rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 90 illiyi (1918-2008), "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013), "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018), "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Süleymanlı
Kənan
Sadıq oğlu**
(1991-2020)

30 yanvar 1991-ci ildə Bakı şəhərində anadan olub.

2012-ci ildə Azərbaycan Kooperasiya Universitetini və 2012-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 5 oktyabr 2012-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

5 aprel 2014-cü ilədək Azərbaycan Ordusunda bölüyün tank əleyhinə taqımının komandiri vəzifəsində xidmə edib, sonra ehtiyata buraxılıb.

Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq səfərbərlik üzrə yenidən hərbi xidmətə çağırılıb və motoatıcı taqım komandiri vəzifəsində döyüşlərdə iştirak edib.

2020-ci il noyabrın 9-da Xocavənd rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Döyüşdə fərqlənməyə görə" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Süleymanov**
**Emin**
**Bəhmən oğlu**
(1977-2020)

21 iyul 1977-ci ildə İmişli rayonunda anadan olub. 1995-ci ildə Cəmşid Naxçıvanski adına İbtidai Hərbi Məktəbi (indiki Cəmşid Naxçıvanski adına hərbi lisey), 1999-cu ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 20 iyul 1999-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Reaktiv artilleriya divizionunun reaktiv artilleriya batareyasının idarəetmə taqımı komandiri, reaktiv artilleriya batareyasının komandiri, motoatıcı taborun minaatan batareyasının minaatan taqımının komandiri, motoatıcı taborun minaatan batareyasının minaatan taqımı komandiri – batareyanın baş zabiti, motoatıcı taborun minaatan batareyasının komandiri, artilleriya divizionunun artilleriya batareyasının komandiri, motoatıcı taborun minaatan batareyanın komandiri vəzifələrində xidmət edib.

"Mayor" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il noyabrın 9-da Şuşa rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən igidlik nümunələri göstərərək şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan





Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.



***Cıdır düzü intizar,***
***Lalələrdən qan sızar.***
***Halay tutun a qızlar,***
***Xilaskar əsgər gəlir!***

***Salam xarıbülbülüm,***
***Ay mənim süsən gülüm.***
***Ya Qarabağ, ya ölüm!***
***Xilaskar əsgər gəlir!***



**Süleymanov**
**İlkin**
**Mahir oğlu**
(1983-2020)

26 oktyabr 1983-cü ildə Bərdə rayonunun Kələntərli kəndində anadan olub. 2001-ci ildə tam orta məktəbi bitirib. 19 yanvar 2002-ci ildən 18 iyul 2003-cü islədək Daxili Qoşunlarda müddətli həqiqi hərbi xidmət keçib. 2004-cü ildə "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 15 fevral 2004-cü il tarixli əmri ilə "gizir", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 24 iyun 2015-ci il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandirinin müavini, minaatan batareyasının baş çavuşu, haubitsalı artilleriya batareyasının baş çavuşu, reaktiv artilleriya batareyasının baş çavuşu, zenit-raket artilleriya batareyasının baş çavuşu, vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 9-da Tərtər rayonunun Talış kəndi ərazisində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.







**Süleymanov**
**Orxan**
**Oruc oğlu**
(1990-2020)

20 iyul 1990-cu il tarixdə Ağstafa rayonunda Saloğlu qəsəbəsində anadan olub. 2008-ci ildə tam orta məktəbi bitirib. 6 oktyabr 2008-ci ildən 1 aprel 2010-cu islədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib. 2012-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 27 aprel 2012-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandirinin müavini vəzifəsində xidmət edib.

10 iyul 2017-ci ildə ehtiyata buraxılıb.

28 aprel 2020-ci ildə yenidən ordu sıralarına qayıdaraq motoatıcı taqım komandirinin müavini, motoatıcı bölüyün (BTR-82A) motoatıcı taqımının motoatıcı manqasının komandiri vəzifələrində xidmətini davam etdirib. Vətən müharibəsində iştirak edib.

2020-ci il sentyabrın 27-də Füzuli rayonunun Abdurəhmanlı kəndi istiqamətində xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.



**Süleymanov Tamerlan Xankişi oğlu**
(1992-2020)

1 mart 1992-ci ildə Lerik rayonunun Tikəband kəndində anadan olub. 2009-cu ildə tam orta məktəbi bitirib. 5 aprel 2010-cu ildən 9 sentyabr 2011-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2016-cı ildə hərbi hissə nəzdində "MAHHXHQ hazırlığı kursu"nu bitirib.

Birlik komandirinin 26 iyun 2017-ci il tarixli əmri ilə "kiçik çavuş", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 23 sentyabr 2020-ci il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Həmlə bölüyünün həmlə manqasının atıcısı-sanitar, həmlə manqasının tuşlayıcısı, motoatıcı bölüyün (BTR-82A) motoatıcı taqımının motoatıcı manqasının komandiri, motoatıcı bölüyün (BTR-82A) motoatıcı taqımının motoatıcı manqasının pulemyotçusu, motoatıcı bölüyün (BTR-82A) motoatıcı manqasının komandiri vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 27-də Füzuli rayonunun Abdurəhmanlı kəndi istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Şahbazov Ruslan Mahir oğlu**
(1991-2020)

14 iyul 1991-ci ildə Tərtər rayonunun Leninabad kəndində anadan olub. 2009-cu ildə tam orta məktəbi bitirib. 2 oktyabr 2009-cu ildən 2 aprel 2011-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2014-cü ildə "MAHHXHQ hazırlığı", 2018-ci ildə "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 19 may 2018-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Tank əleyhinə manqa komandiri, tank əleyhinə raket komplekslərinin operatoru, döyüş maşını komandiri – tank əleyhinə raket kompleksləri manqasının komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsində xidməti vəzifələrinin öhdəsindən peşəkarlıqla gəlib, şəxsi şücaət və igidlik nümunələri göstərib.

2020-ci il sentyabrın 29-da Tərtər rayonunun Talış kəndi ərazisində döyüş mövqeyində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Hərbi xidmətlərə görə", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.



**Şəbiyev Məhəmməd Vaqif oğlu**
(1998-2020)

6 avqust 1998-ci ildə Bakı şəhərində anadan olub. 2016-cı ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2020-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2020-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri vəzifəsində xidmət edib.

Sentyabrın 27-də Ermənistanın intensiv təxribat əməllərinə cavab olaraq Azərbaycanın öz ərazi bütövlüyünün bərpası və 30 ilə yaxındır ki, təcavüzkar Ermənistan tərəfindən işğal olunmuş tarixi torpaqlarımızın azad edilməsi naminə "Dəmir Yumruq" əməliyyatı ilə başladığı Vətən müharibəsində bir həftə ərzində müqəddəs savaşlarda fəal iştirak etsə də, qarşıya qoyulan döyüş tapşırıqlarını sonacan yerinə yetirmək ona qismət olmayıb.

2020-ci il oktyabrın 4-də Tərtər rayonunun Talış kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən düşmənin artilleriya atəşi nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.







**Şəkərov Xəyal İman oğlu**
(1998-2020)

1 sentyabr 1998-ci ildə Tovuz rayonunun Əsrik Cırdaxan kəndində anadan olub. 2015-ci ildə tam orta məktəbi bitirib. 6 oktyabr 2016-cı ildən 12 aprel 2018-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2018-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu başa vurduqdan sonra ("gizir" hərbi rütbəsi ilə) kəşfiyyat bölüyünün kəşfiyyat-müşahidə taqımı komandirinin müavini, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

Ermənistanın təxribat əməllərinə cavab olaraq "Dəmir Yumruq" əməliyyatı ilə başlanan Vətən müharibəsinin ilk günündən böyük ruh yüksəkliyi ilə döyüşlərə atılıb, peşəkar kəşfiyyatçı kimi xüsusi əməliyyat tapşırıqlarını uğurla yerinə yetirib, şəxsi igidlik və mərdlik nümunələri göstərib.

2020-ci il oktyabrın 10-da Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifələrini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "İgidliyə görə" (ölümündən sonra), "Kəlbəcərin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Şəmilov**
**Azər**
**Elyas oğlu**
(1971-2020)

13 avqust 1971-ci ildə Tərtər rayonunda anadan olub. 1998-ci ildə Azərbaycan Tibb Universitetini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 29 oktyabr 1998-ci il tarixli əmri ilə "tibb xidməti leytenantı" hərbi rütbəsi verilib.

30 avqust 1999-cu ildən 23 sentyabr 2001-ci ilədək tibb bölüyünün baş ordinatoru vəzifəsində müddətli həqiqi hərbi xidmət keçib.

Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq qismən səfərbərlik üzrə yenidən hərbi xidmətə çağırılıb və hərbi hissənin tibb məntəqəsinin həkimi kimi döyüşlərdə fəal iştirak edib.

Dəfələrlə atəşlər altında yaralı döyüşçülərə ilk tibbi yardım göstərib, onları döyüş meydanlarından təxliyə edərək yenidən həyata qaytarılması üçün səylərini əsirgəməyib.

2020-ci il oktyabrın 14-də Tərtər rayonunun Talış kənd ərazisində, döyüş mövqeyində xidməti vəzifəsini yerinə yetirərkən, tibbi yardım avtomobilinin düşmən tərəfindən atılan mərminin partlaması nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Suqovuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Şərifov**
**Mirnağı**
**Qasım oğlu**
(1995-2020)

20 avqust 1995-ci ildə Cəlilabad rayonunun Bacravan kəndində anadan olub.

2012-ci ildə tam orta məktəbi bitirib. 12 oktyabr 2013-cü ildən 13 aprel 2015-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2019-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 18 may 2019-cu il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Kəşfiyyat taqımının kəşfiyyat manqasının komandiri, qərargah bölüyünün mühafizə taqımının komandiri vəzifələrində xidmət edib.

Füzuli, Kəlbəcər, Şuşa döyüşlərində mühafizə taqımının fəaliyyətini bacarıqla tənzimləyib, əmr və göstərişləri uğurla yerinə yetirib.

2020-ci il oktyabrın 21-də Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Hərbi xidmətlərə görə" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra), "Kəlbəcərin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Şikarov Nəcəf Şikar oğlu**
(1985-2020)

24 yanvar 1985-ci ildə Şamaxı rayonunda anadan olub. 2002-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2006-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 20 iyun 2006-cı il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım və bölük komandiri, motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib. 5 aprel 2018-ci ildə ehtiyata buraxılıb.

Vətən müharibəsinə könüllü yollanıb və hərbi hissənin qərargah rəisi – tabor komandirinin müavini vəzifəsində döyüşlərdə iştirak edib.

2020-ci il noyabrın 9-da Füzuli uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Şirəliyev Niyət İmran oğlu**
(1990-2020)

9 fevral 1990-cı ildə Şamaxı rayonunun Ovçulu kəndində anadan olub. 2007-ci ildə B.Aliyev adına Ovçulu kənd orta məktəbini, 2011-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 iyun 2011-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini, dağ-atıcı taborun komandirinin maddi-texniki təminat üzrə müavini, hərbi hissənin qərargah rəisi – tabor komandirinin müavini vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il sentyabrın 28-də Göygöl rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan artilleriya atəşi nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



## Şirəliyev Sahib Yusif oğlu

(1995-2020)

18 oktyabr 1995-ci ildə Masallı rayonunun Ərkivan qəsəbəsində anadan olub. 2013-cü ildə Ağdam rayonu, 28 saylı köçkün tam orta məktəbini, 2017-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 13 iyun 2017-ci il tarixli əmri ilə "leytenant", Əlahiddə Ümumqoşun Ordu Komandanının 13 iyun 2020-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı qrup komandiri, motoatıcı taqımın komandiri, xüsusi təyinatlı qrup komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsində şəxsi igidlik və mərdlik nümunələri göstərib. xüsusi döyüş tapşırıqlarının yerinə yetirilməsində fərqlənib.

2020-ci il noyabrın 9-da Şuşa şəhəri ərazisində aparılan hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yerirərkən qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" (ölümündən sonra) ordeni, "Vətən uğrunda" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif edilib.







## Şirinov Elvin Elsevən oğlu

(1997-2020)

12 mart 1997-ci ildə Beyləqan rayonunun Birinci Şahsevən kəndində anadan olub. 2014-cü ildə tam orta məktəbi bitirib. 20 aprel 2015-ci ildən 3 oktyabr 2016-cı ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2017-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 28 sentyabr 2017-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Kəşfiyyat bölüyünün kəşfiyyat taqımının kəşfiyyat manqasının komandiri, motoatıcı bölüyün motoatıcı taqım komandirinin müavini vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günlərindən könüllü olaraq döyüş meydanına atılıb və şəxsi igidlik nümunələri göstərib.

2020-ci il oktyabrın 26-da Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Döyüşdə fərqlənməyə görə" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Şirinov Kamil Əliş oğlu**
(1991-2020)

9 aprel 1991-ci ildə Salyan rayonunun Çuxanlı kəndində anadan olub. 2009-cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2013-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 27 iyun 2013-cü il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Xüsusi əməliyyat qrupunun baş kəşfiyyatçısı və komandiri vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

Döyüşlərdə şəxsi şücaət və igidlik nümunələri göstərib, qarşıya qoyulmuş döyüş tapşırıqlrını uğurla yerinə yetirib.

2020-ci il sentyabrın 29-da Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda" medalı ilə təltif olunub.





**Şirvanov Mehman Mirəziz oğlu**
(1980-2020)



24 fevral 1980-cı ildə Lənkəran rayonunda anadan olub. 1997-ci ildə tam orta məktəbi bitirib. 2002-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) və Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 26 iyul 2002-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, motoatıcı taborun qərargah rəisinin maddi-texniki təminat üzrə köməkçisi, motoatıcı tabor komandirinin maddi – texniki təminat üzrə müavini, mexanikləşdirilmiş taborun (BMP-2) qərargah rəisi – tabor komandirinin müavini, mexanikləşdirilmiş taborun (BMP-3) qərargah rəisi – tabor komandirinin müavini, hərbi hissənin döyüş hazırlığı bölməsinin rəisi, motoatıcı taborun (BMP-3) komandiri, motoatıcı taborun komandiri vəzifələrində xidmət edib.

"Polkovnik-leytenant" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində komandiri olduğu hərbi hissənin şəxsi heyəti ilə ilk döyüşlərdə fərqlənib və qarşıya qoyulmuş döyüş tapşırıqlarını uğurla yerinə yetirib.

2020-ci il sentyabrın 27-də Goranboy rayonunun Gülüstan kəndi istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi

(1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda" medalı ilə təltif olunub.



***Şəhidlərin intiqamı artıqlaması ilə alınır. Azərbaycan əsgəri düşmənə sarsıdıcı və dağıdıcı zərbələr vurmaqda davam edir.***





**Şıxaliyev**
**Fariz**
**Şahverdi oğlu**
(1987-2020)



10 dekabr 1987-ci ildə Rusiya Federasiyasının Xabarovsk vilayətində anadan olub.

2005-ci ildə tam orta məktəbi, 2011-ci ildə Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakultəsinin Hərbi Tibb Məktəbini bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 iyun 2011-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

4 iyul 2006-cı ildən 2 yanvar 2008-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib. Sonradan taleyini həmişəlik olaraq ordu ilə bağlayır.

Motoatıcı taborun qərargah bölüyünün tibb məntəqəsinin feldşeri, motoatıcı taborun tibb məntəqəsinin feldşeri vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 26-da Xocavənd rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən igidlik və şücaət nümunələri göstərərək şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" və Azərbaycan Respublikasının Müdafiə nazirinin əmri ilə "Şücaətə görə" medalları ilə təltif olunub.



**Şıxəliyev**
**Mehti**
**Yalçın oğlu**
(1996-2020)

16 fevral 1996-cı ildə Hacıqabul rayonunun Meyniman kəndində anadan olub. 2013-cü ildə tam orta məktəbi bitirib. 8 aprel 2014-cü ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2015-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "MAHHXHQ hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 19 aprel 2019-cu il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı komandanın tuşlayıcısı-operator, atəş dəstək manqasının komandiri, atəş dəstək taqımının tank əleyhinə raket kompleksləri manqasının komandiri – operator vəzifələrində xidmət edib.

Vətən müharibəsində xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib, şəxsi igidlik və mərdlik nümunələri göstərib.

2020-ci il noyabrın 10-da Şuşa şəhəri istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik ediyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda", "Cəbrayılm azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.







**Şükürov**
**Anar**
**Mehman oğlu**
(1977-2020)

20 yanvar 1977-ci ildə Sumqayıt şəhərində anadan olub. 1998-ci ildə Azərbaycan Texniki Universitetini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 oktyabr 1998-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun minaatan batareyasının taqım komandiri, motoatıcı taborun minaatan batareyasının komandiri, xüsusi təyinatlı qrup komandirinin müavini, xüsusi təyinatlı alayın xüsusi təyinatlı qrup komandiri, xüsusi təyinatlı alayın xüsusi təyinatlı taborunun qərargah rəisi – tabor komandirinin müavini, xüsusi təyinatlı alayın xüsusi təyinatlı taborun komandiri, mexanikləşdirilmiş tabor komandirinin müavini, tabor komandirinin müavini, hərbi hissənin döyüş hazırlığı və tədris şöbəsinin döyüş hazırlığı bölməsi rəisinin baş köməkçisi, Döyüş Hazırlığı və Tədris İdarəsinin döyüş hazırlığı şöbəsi rəisinin müavini, qərargah rəisinin tədris üzrə müavini – tədris bölməsinin rəisi vəzifələrində xidmət edib.

"Polkovnik-leytenant" hərbi rütbəsinədək yüksəlib.

Ehtiyata buraxılsa da, Vətən müharibəsinin başlanması ilə əlaqədar yenidən hərbi xidmətə çağırılıb və döyüşlərdə fəal iştirak edib. Komandiri olduğu taborun şəxsi heyəti ilə birlikdə qarşıya qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gəlib və əsl igidlik nümunələri göstərib.

2020-ci il oktyabrın 16-da Tərtər rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Şücaətə görə", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib.

"Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.



***Kənd və şəhərlərimiz erməni vandalları tərəfindən dağıntılara məruz qalsa da, bu yerlər yenidən qurulacaq və ən uca zirvədə xilaskar şəhid əsgərin möhtəşəm heykəli ucaldılacaqdır.***





**Şükürlü**
**Elvin**
**Azad oğlu**
(1997-2020)



14 iyun 1997-ci ildə Füzuli şəhərində anadan olub.

2014-cü ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Dağ-atıcı taborun dağ-atıcı bölüyünün dağ-atıcı taqım komandiri, tank əleyhinə bölüyün tank əleyhinə taqımının komandiri vəzifələrində xidmət edib.

Atası Şükürlü Azad birinci Qarabağ müharibəsinin iştirakçısı, ehtiyatda olan kapitandır. Qardaşı Şükürlü Elnur da Vətən müharibəsində döyüşlərdə iştirak edib.

2020-ci il sentyabrın 28-də Daşkəsən rayonu ərazisindəki hərbi hissənin "Kəlbəcər" döyüş mövqeyində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Nəşi 2021-ci il yanvarın 22-də çıxarılaraq böyük izdihamın iştirakı ilə hərbi və dini ənənələrə uyğun olaraq son mənzilə yola salınıb.

Vətən müharibəsində xidmətlərinə görə mükafatlandırılması üçün aidiyyatı üzrə təqdimat göndərilib.



**Şükürov**
**İlkin**
**Aslan oğlu**
(1995-2020)

27 avqust 1995-ci ildə Qazax rayonunun Ürkməzli kəndində anadan olub. 2016-cı ildə tam orta məktəbi bitirib. 21 oktyabr 2013-cü ildən 1 aprel 2015-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2017-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "MAHHXHQ hazırlığı", 2018-ci ildə "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 8 dekabr 2018-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Tank əleyhinə artilleriya taqımının sürücüsü, motoatıcı taborun maddi-texniki təminat taqımının avtomobil manqasının sürücüsü, motoatıcı taqım komandirinin müavini, motoatıcı taqımın döyüş maşını komandiri – heyət rəisi, mexanikləşdirilmiş bölüyün (BTR, SandCat) mexanikləşdirilmiş taqımının döyüş maşını komandiri – döyüş maşınları heyətinin rəisi vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 9-da Füzuli rayonu istiqamətində hərbi əmə-liyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalı ilə təltif olunub.







**Şükürov**
**Samir**
**Təyyub oğlu**
(1974-2020)

7 noyabr 1974-cü ildə Lerik rayonunda anadan olub. 1992-ci ildə tam orta məktəbi, 1994-cü ildə Bakı Ali Hərbi Birləşmiş Komandanlıq Məktəbinin nəzdində 3 aylıq zabitlər kursunu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 20 sentyabr 1994-cü il tarixli əmri ilə "kiçik leytenant" hərbi rütbəsi verilib.

20 sentyabr 1994-cü ildən 22 avqust 1999-cu ilədək Azərbaycan Ordusunda motoatıcı taborun motoatıcı taqım komandiri vəzifəsində xidmət edib. "Baş leytenant" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsinin başlaması ilə əlaqədar olaraq qismən səfərbərlik üzrə yenidən hərbi xidmətə çağırılıb və motoatıcı bölük komandiri vəzifəsində döyüşlərdə fəal iştirak edib, igidlik və mərdlik nümunələri göstərib.

2020-ci il noyabrın 9-da Xocavənd rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "İgidliyə görə" (ölümündən sonra), "Xocavəndin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Tağıyev**
**Elçin**
**Ağaqulu oğlu**
(1989-2020)

1 iyul 1989-cu ildə Biləsuvar rayonunun Zəhmətabad kəndində anadan olub. 2007-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2011-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 iyun 2011-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, qərargah bölüyünün taktiki komanda məntəqəsinin rəisi, motoatıcı bölük komandiri, motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini, motoatıcı taborun qərargah rəisi – tabor komandirinin müavini, motoatıcı taborun komandiri vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 1-də Goranboy rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", medalları ilə, ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda" medalı ilə təltif olunub.







**Tağıyev**
**Fuad**
**Mərdan oğlu**
(1996-2020)

1 noyabr 1996-cı ildə Sabirabad rayonunun Həşimxanlı kəndində anadan olub.

2014-cü ildə tam orta məktəbi bitirib. 9 yanvar 2015-ci ildən Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçməyə başlayıb. 2016-cı ildə hərbi hissə nəzdində "Təməl Xüsusi Təyinatlı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 9 iyun 2016-cı il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifəsində xidmət edib.

Füzuli, Cəbrayıl və Xocavənddən başlayaraq Şuşa istiqamətinədək şərəfli döyüş yolu keçib. Xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı kimi göstərilən etimadı layiqincə doğruldub.

2020-ci il oktyabrın 24-də Şuşa şəhəri istiqamətində gedən hərbi əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.



**Tağıyev Ramiq Teymur oğlu**
(1998-2020)

31 oktyabr 1998-ci ildə Lerik rayonunun Kəlvəz kəndində anadan olub. 2016-cı ildə tam orta məktəbi bitirib. 7 yanvar 2017-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb və hərbi hissə nəzdində "Təməl Xüsusi Təyinatlı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 24 aprel 2019-cu il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Xüsusi əməliyyat taborunun təminat manqasının atıcısı (daşıyıcı), xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

Cəbrayıldan Şuşayadək döyüş yolu keçib. Bir çox mühüm kəşfiyyat tapşırıqlarını uğurla yerinə yetirib.

2020-ci il noyabrın 9-da Şuşa şəhəri ərazisində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 0 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və Azərbaycan Respublikasının Müdafiə nazirinin əmri ilə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medallarla təltif olunub.





**Tağıyev Ruslan Fuad oğlu**
(1982-2020)



12 iyun 1982-ci ildə İsmayıllı rayonunun Qubaxəlilli kəndində anadan olub. 1999-cu ildə E.Məmmədov adına 3 saylı orta məktəbi, 2003-cü ildə Azərbaycan Ali Hərbi Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının 2014-cü il məzunudur.

Azərbaycan Respublikası Müdafiə nazirinin 25 iyul 2003-cü il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun kəşfiyyat taqımının komandiri, kəşfiyyat bölüyünün (ümumi dəstək) komandiri, kəşfiyyat bölməsinin zabiti – bölmə rəisinin müavini (kəşfiyyatın planlaşdırılması üzrə), hərbi hissənin kəşfiyyat bölməsinin rəisi – qərargah rəisinin kəşfiyyat üzrə köməkçisi, hərbi hissənin kəşfiyyat şöbəsi rəisinin kəşfiyyatın planlaşdırılması üzrə baş köməkçisi, Kəşfiyyat Baş İdarəsinin Kəşfiyyat İdarəsinin planlaşdırma və əlaqələndirmə şöbəsinin planlaşdırma bölməsinin baş zabiti (motoatıcı bölmələrlə əlaqələndirici), Kəşfiyyat Baş İdarəsinin Kəşfiyyat İdarəsinin planlaşdırma və əlaqələndirmə şöbəsinin qoşun kəşfiyyatı bölməsinin baş zabiti, hərbi hissənin kəşfiyyat rəisi - kəşfiyyat bölməsinin rəisi vəzifələrində xidmət edib.

"Polkovnik-leytenant" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il noyabrın 4-də Laçın rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub.



***Xilaskar Azərbaycan əsgərinin, şəhid oğullarımızın canı, qanı bahasına işğaldan azad edilən xarabaya çevrilmiş yurd yerlərimizə qar yağsa da, bu yerlərə də tezliklə yaz gələcək. Üzümüz bahara, novruzadır.***





**Tahirov Vüsal Mehdi oğlu**
(1997-2020)



1 may 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Danyeri kəndində anadan olub. 2015-ci ildə tam orta məktəbi bitirib. 26 oktyabr 2015-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2017-ci ildə hərbi hissə nəzdində "MAHHXHQ hazırlığı", 2020-ci ildə «Gizir hazırlığı" kurslarını bitirib.

Əlahiddə Ümumqoşun Ordu Komandanının 26 iyun 2020-ci il tarixli əmri ilə "kiçik çavuş", 23 sentyabr 2020-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı manqa komandiri, snayper qrupunun kəşfiyyatçısı-snayper, xüsusi təyinatlı bölüyün xüsusi təyinatlı qrupunun kəşfiyyatçısı-snayper, xüsusi təyinatlı bölüyün xüsusi təyinatlı qrup komandirinin müavini vəzifələrində xidmət edib.

Şuşa uğrunda döyüşlərdə şəxsi igidlik nümunələri göstərərək şəhid olub. Nəşi 2020-ci il noyabrın 16-da işğaldan azad edilən ərazilərdən çıxarılıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) və Azərbaycan Respublikası Müdafiə nazirinin əmri ilə "Şücaətə görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Tarverdiyev**
**Cabir**
**Səmid oğlu**
(1987-2020)

8 fevral 1987-ci ildə Füzuli rayonunun Araz Dilağarda kəndində anadan olub. 2005-ci ildə tam orta məktəbi bitirib. 8 aprel 2006-cı ildən 22 sentyabr 2007-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2011-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "MAHHXHQ hazırlığı" və "Gizir hazırlığı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 8 may 2020-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Tank taqımının mexanik-sürücüsü, təlim-döyüş maşınları bölüyünün təlim-döyüş tankları taqımının mexanik-sürücüsü, tank bölüyünün tank taqımının mexanik-sürücüsü, tank bölüyünün tank taqımının baş mexanik-sürücüsü, mexanikləşdirilmiş taborun (BMP-3) tank taqımının tank komandiri vəzifələrində xidmət edib.

2020-ci il noyabrın 7-də Şuşa şəhəri istiqamətində hbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.





**Təhməzov**
**Elzamin**
**Kamal oğlu**
(1979-2020)



26 oktyabr 1979-cu ildə Bərdə rayonunun Şirvanlı kəndində anadan olub. 1997-ci ildə tam orta məktəbi, 2001-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 avqust 2001-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı taqım komandiri, xüsusi təyinatlı qrup komandiri, xüsusi təyinatlı taborun qərargah və təchizat bölüyünün komandiri, xüsusi təyinatlı taborun xüsusi təyinatlı bölüyünün komandiri, hərbi hissənin kəşfiyyat bölməsinin rəisi, hərbi hissənin dağ-atıcı hazırlığı üzrə təlimatçısı, hərbi hissənin kəşfiyyat şöbəsi rəisinin məlumatların toplanılması və təhlili üzrə baş köməkçisi, hərbi hissənin Kəşfiyyat rəisi – kəşfiyyat bölməsinin rəisi vəzifələrində xidmət edib.

"Polkovnik-leytenant" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsində xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib, rəşadət və şücaət nümunələri göstərib.

2020-ci il sentyabrın 28-də Tərtər və Suqovuşan kəndləri istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", ABŞ Müdafiə Nazirliyi tərəfindən «Ordunun Fəxri Medalı", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı

Qüvvələrinin 95 illiyi (1918-2013)". "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 3-cü dərəcəli "Rəşadət" ordeni və "Vətən uğrunda medalı ilə təltif edilib.



***Müdafiə naziri general-polkovnik Zakir Həsənov Bərdə Şəhidlər xiyabanında şəhid polkovnik-leytenant Elzamin Təhməzovun məzarı qarşısında***





**Telmanlı Allahyar Elman oğlu**
(1992-2020)



1 sentyabr 1992-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda anadan olub. 2010-cu ildə Heydər Əliyev adına hərbi liseyi, 2014-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və 2015-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2014-cü il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 iyul 2017-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Kəşfiyyat bölüyünün kəşfiyyat taqımının komandiri, kəşfiyyat bölüyünün kəşfiyyat-müşahidə taqımının komandiri, mexanikləşdirilmiş taborun (BTR-82A) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının komandiri, mexanikləşdirilmiş taborun (BTR-82A) mexanikləşdirilmiş bölüyünün komandiri vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 9-da Cəbrayıl rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.



**Useynov Ceyhun Elşad oğlu**
(1990-2020)

9 mart 1990-cı ildə Bakı şəhərində anadan olub. 2008-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2012-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 iyun 2012-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, xüsusi təyinatlı komandanın baş kəşfiyyatçısı, xüsusi təyinatlı komanda komandirinin müavini, atəş dəstək taqımının komandiri, xüsusi təyinatlı dəstə komandirnin maddi-texniki təminat üzrə müavini vəzifələrində xidmət edib.

"Kapitan" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 6-da Cəbrayıl rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və Azərbaycan Respublikası Müdafiə nazirinin əmri ilə "Şücaətə görə" medalları ilə təltif olunub.







**Vəliyev Elnur Əli oğlu**
(1997-2020)

14 aprel 1997-ci ildə Ucar şəhərində anadan olub. 2014-cü ildə Ucar şəhəri 4 nömrəli tam orta məktəbini, 2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2018-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı dəstənin atəş dəstək taqımının komandiri vəzifəsində xidmət edib.

Sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın başladığı Vətən müharibəsini Xocavən və Füzuli rayonları istiqamətində qarşılayıb. İlk gündən qələbə əzmi ilə döyüşlərə atılıb və atəş dəstək taqımının komandiri kimi etimadı doğruldub.

2020-ci il oktyabrın 26-da Xocavənd rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" və Azərbaycan Respublikası Müdafiə nazirinin əmri ilə "Şücaətə görə" medalları ilə təltif olunub.



**Vəliyev**
**Elyar**
**Arif oğlu**
(1991-2020)

17 oktyabr 1991-ci ildə Qobustan rayonunun Sədəf kəndində anadan olub. 2007-ci ildə 9-cu sinfi bitirib. 5 yanvar 2010-cu ildən 5 iyul 2011-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2011-ci ildə hərbi hissə nəzdində "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 5 iyul 2011-ci il tarixli əmri ilə "kiçik gizir", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 23 yanvar 2018-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı qrupun kəşfiyyatçısı (sanitar), xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

Vətən müharibəsində xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib, bir çox xüsusi əməliyyat tapşırıqlarını uğurla yerinə yetirib. Şəxsi şücaət və igidlik nümunələri göstərib.

2020-ci il oktyabrın 19-da Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medallarla təltif olunub.

Ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş





etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.



***Bir bayraq altında cəm olsun hamı,***
***Cənnət Qarabağa səfərimiz var!***
***Qisasa çağırır şəhid oğullar,***
***Qarşıda hələ çox zəfərimiz var!***



**Vəliyev**
**İlqar**
**Cahit oğlu**
(1973-2020)

12 oktyabr 1973-cü ildə Bakı şəhərində anadan olub. 1996-cı ildə Azərbaycan Dövlət Neft Akademiyasını bitirib, 1999-cu ildə bir aylıq təlim toplanışında iştirak edib.

19 sentyabr 1999-cu ildən 17 fevral 2001-ci ilədək motoatıcı taborun rabitə rəisi – taqım komandiri vəzifəsində hərbi xidmət keçib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 18 avqust 1996-cı il tarixli əmri ilə "leytenant", 27 dekabr 2000-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq qismən səfərbərlik üzrə yenidən hərbi xidmətə çağırılıb və motoatıcı taborun rabitə rəisi – rabitə taqımının komandiri vəzifəsində döyüşlərdə iştirak edib. Xocavənd və Cəbrayıl rayonlarının yaşayış məntəqələrinin işğaldan azad edilməsi uğrunda döyüşən hərbi hissənin rabitəsinin daim işlək olması üçün səylərini əsirgəməyib.

2020-ci il oktyabrın 22-də Xocavənd rayonu istiqamətində gedən döyüşlərdə xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən atılan mərmi nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Vəliyev**
**İsmayıl**
**Mehman oğlu**
(1996-2020)

24 mart 1996-cı ildə Naxçıvan şəhərində anadan olub.

2013-cü ildə Heydər Əliyev adına hərbi liseyi, 2017-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 13 iyun 2017-ci il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 13 iyun 2020-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Tank taqımının komandiri, mexanikləşdirilmiş taborun (BTR-82A) tank taqımının komandiri vəzifələrində xidmət edib.

Ermənistanın intensiv təxribat əməllərinə cavab olaraq Azərbaycanın başladığı Vətən müharibəsinin ilk günündən döyüşlərdə fəal iştirak edib və şəxsi igidlik nümunələri göstərib.

2020-ci il noyabrın 8-də Laçın rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif olunub.



**Vəliyev**
**Sehran**
**Nizami oğlu**
(1993-2020)

23 fevral 1993-cü ildə Biləsuvar rayonunun Nəsimi kəndində anadan olub. 2011-ci ildə Biləsuvar Peşə Liseyini bitirib. 28 aprel 2011-ci ildən 5 oktyabr 2012-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2016-cı ildə "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 4 oktaybr 2016-cı il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Kəşfiyyat taqımı komandirinin müavini – kəşfiyyat manqasının komandiri, kəşfiyyat-müşahidə taqımının texniki müşahidə qrupunun komandiri-operator, kəşfiyyat manqasının komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsində xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib, döyüşlərdə şəxsi igidlik nümunələri göstərib.

2020-ci il oktyabrın 2-də Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (ölümündən sonra) və "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra), "Qubadlının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif edilib.







**Vəliyev**
**Vüsal**
**İslam oğlu**
(1988-2020)

15 iyul 1988-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Dizə kəndində anadan olub. 2005-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2009-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2009-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Tank əleyhinə taqımın komandiri, motoatıcı taqım komandiri, motoatıcı taborun qərargah bölüyünün komandiri, motoatıcı bölüyün komandiri, tank əleyhinə bölüyün komandiri, motoatıcı taborun qərargah rəisi – tabor komandirinin müavini, motoatıcı taborun komandiri vəzifələrində xidmət edib. "Mayor" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 2-də Murovdağ istiqamətində döyüş tapşırığını yerinə yetirərkən igidlik göstərərək şəhid olub. Nəşi 2 aydan sonra Şuşa istiqamətində Ermənistan tərəfindən təhvil alınaraq Naxçıvana aparılıb və böyük izdihamın iştirakı ilə son mənzilə yola salınıb.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



**Vəlizadə**
**Faiq**
**Bayraməli oğlu**
(1997-2020)

1 fevral 1997-ci ildə Zərdab rayonunun Alıcanlı kəndində anadan olub. 2014-cü ildə tam orta məktəbi bitirib. 9 aprel 2015-ci ildən 1 iyul 2015-ci ilədək müddətli həqiqi hərbi xidmət keçib. 2016-cı ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 4 oktaybr 2016-cı il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandirinin müavini vəzifəsində xidmət edib.

Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək üçün "Dəmir Yumruq" əməliyyatı ilə başladığı Vətən müharibəsinin birinci günündən döyüşən taborun ilk sıralarında olub.

Tərtər və Ağdərə rayonları istiqamətində savaşaraq qarşıya qoyulan döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsi üçün səylərini əsirgəməyib.

2020-ci il oktyabrın 17-də Tərtər və Ağdərə rayonları istiqamətində xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən atılan artilleriya mərmisinin partlayışı nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.







**Vəlizadə**
**İbrahim**
**Malik oğlu**
(1997-2020)

2 aprel 1997-ci ildə Naxçıvan Muxrtar Respublikasının Babək rayonunun Yarımca kəndində anadan olub. 2014-cü ildə Heydər Əliyev adına hərbi liseyi, 2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 19 iyun 2018-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı kəşfiyyat qrupunun komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsində şəxsi rəşadət və şücaət nümunələri göstərib. Komandiri olduğu kəşfiyyat qrupu ilə birlikdə bir çox xüsusi tapşırıqları uğurla yerinə yetirib.

2020-ci il oktyabrın 16-da Tərtər rayonunun Suqovuşan qəsəbəsi istiqamətində xidməti vəzifəsini yerinə yetirərkən rəşadət və igidlik nümunələri göstərərək şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 3-cü dərəcəli "Rəşadət" ordeni (ölümündən sonra) və "Vətən uğrunda" medalı ilə (ölümündən sonra) təltif edilib.



**Verdiyev Natiq Əlimurad oğlu**
(1995-2020)

5 fevral 1995-ci ildə Xızı rayonunun Xələnc kəndində anadan olub. 2013-cü ildə Sumqayıt Dövlət Texniki Kollecini bitirib. Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2016-cı ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 5 iyul 2016-cı il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandirinin müavini, kəşfiyyat müşahidə bölüyünün texniki müşahidə taqımının texniki müşahidə qrupunun komandiri – operatoru, kəşfiyyat bölüyünün kəşfiyyat taqımı komandirinin müavini – kəşfiyyat manqasının komandiri, xüsusi təyinatlı kəşfiyyat bölüyünün xüsusi təyinatlı kəşfiyyat qrupunun kəşfiyyatçısı (aviasiya tuşlayıcısı) vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk şəhidlərindəndir.

2020-ci il oktyabrın 1-də Goranboy rayonunun Murovdağ silsiləsi istiqamətində gedən döyüşlərdə xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.







**Yaqublu Əliqismət Mükafat oğlu**
(1992-2020)

18 aprel 1992-ci ildə Lerik rayonunda anadan olub. 2010-cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2014-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və 2015-ci ildə "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2014-cü il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 23 iyun 2017-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Kütləvi qırğın silahlarından mühafizə taqımının komandiri, kimya emalatxanasının mühəndisi, əməliyyat bölməsi rəisinin kimya xidməti üzrə köməkçisi, kimya xidməti rəisi vəzifələrində xidmət edib.

Vətən müharibəsində xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib.

2020-ci il noyabrın 5-də Şuşa şəhəri ərazisində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni (ölümündən sonra), "Vətən uğrunda" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) və Azərbaycan Respublikası Müdafiə nazirinin əmri ilə "Şücaətə görə" (ölümündən sonra) medalları ilə təltif edilib.



**Yaqubov**
**Mayis**
**Rəhim oğlu**
(1998-2020)

20 aprel 1998-ci ildə Qazax rayonunun Daşsalahlı kəndində anadan olub. 2015-ci ildə Daşsalahlı kənd 2 nömrəli tam orta məktəbini, 2019-cu ildə Heydər Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Kəşfiyyat taqımının komandiri, xüsusi təyinatlı bölüyün xüsusi təyinatlı qrup komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən xüsusi döyüş tapşırıqlarını uğurla yerinə yetirib. Şuşaya doğru hərəkət edən igidlərin sırasında döyüşlərdə fəal iştirak edib. Bir çox yaşayış məntəqələrinin və strateji yüksəkliklərin azad edilməsində fərqlənib.

2020-ci il oktyabrın 17-də Xocavənd rayonunun Tuğ yaşayış məntəqəsi ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən atılmış mərminin partlaması nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.







**Yolçuyev**
**Azad**
**Nizami oğlu**
(1985-2020)

11 aprel 1985-ci ildə Qazax rayonunda anadan olub. 2003-cü ildə tam orta məktəbi bitirib. Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib. 2010-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "MAHHXHQ hazırlığı kursu"nu, 2015-ci ildə isə "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 27 yanvar 2015-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Tank taqımının baş mexaniki – sürücü, kəşfiyyat bölüyünün (radiokəşfiyyat və radioelektron mübarizə) texniki, kəşfiyyat taqımı komandirinin müavini – kəşfiyyat manqasının komandiri vəzifələrində xidmət edib.

2020-ci il noyabrın 4-də Şuşa rayonunun azad olunması uğrunda gedən döyüşlərdə hərbi əməliyyatları yerinə yetirərkən düşmənin açdığı artilleriya atəşi nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Yunusov**
**Alxas**
**Mirxas oğlu**
(1986-2020)

18 yanvar 1986-cı ildə Cəlilabad rayonunun Həziabad kəndində anadan olub. 2004-cü ildə tam orta məktəbi bitirib. 12 oktyabr 2004-cü ildən 1 aprel 2006-cı ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2018-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 8 dekabr 2018-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı taborun (BMP-3) motoatıcı bölüyünün motoatıcı taqımının döyüş maşını komandiri – döyüş maşınları heyəti rəisinin müavini, mexanikləşdirilmiş taborun (BMP-3) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının döyüş maşınları heyətinin döyüş maşını komandiri vəzifələrində xidmət edib.

"Dəmir Yumruq" əməliyyatı ilə başlanan Vətən müharibəsinin ilk şəhidlərindəndir.

2020-ci il sentyabrın 27-də Tərtər rayonunun Talış və Suqovuşan kəndləri istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmənin artilleriya atəşi nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif olunub.





**Yusifbəyli**
**Yusif**
**Sabir oğlu**
(1993-2020)



22 avqust 1993-cü ildə Yevlax rayonunda anadan olub. 2011-ci ildə tam orta məktəbi bitirib. 21 oktyabr 2011-ci ildən 2 aprel 2013-cü ilədək müddətli həqiqi hərbi xidmət keçib.

2016-cı ildə hərbi hissə nəzdində "MAHHXHQ hazırlığı kursu"nu, 2020-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 8 may 2020-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Minaatan taqımı komandirinin müavini – minaatan komandiri, özüyeriyən minaatan taqımının minaatan komandiri, mexanikləşdirilmiş taqımın (BMP-3) döyüş maşınları heyətinin döyüş maşını komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsində şəxsi qəhrəmanlıq nümunələri göstərib. Xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib, döyüşlərdə fərqlənib.

Cəbrayıl rayonu uğrunda döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. Nəşi 2020-ci il noyabrın 20-də azad edilən ərazilərdən çıxarılıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (ölümündən sonra) və "Vətən uğrunda" (ölümündən sonra) medalı ilə təltif edilib.



**Yusifov**
**Mehman**
**Musa oğlu**
(1979-2020)

18 iyul 1979-cu ildə Tovuz rayonunda anadan olub. 1996-cı ildə tam orta məktəbi bitirib. 6 oktyabr 1998-ci ildən 16 mart 2000-ci ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2002-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib. Azərbaycan Respublikası Müdafiə nazirinin 10 iyul 2002-ci il tarixli əmri ilə "gizir", 25 iyun 2013-cü il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı qrupun kəşfiyyatçısı (sanitar), rabitə bölüyünün baş çavuşu, mühafizə və təminat bölüyünün baş çavuşu, maddi-texniki təminat bölüyünün baş çavuşu vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 5-də Cəbrayıl rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.







**Yusifov**
**Ramil**
**Mürşid oğlu**
(1978-2020)

24 aprel 1978-ci ildə İsmayıllı rayonunun Ağbulaq kəndində anadan olub. 1995-ci ildə tam orta məktəbi bitirib. 18 iyun 1997-ci ildən 1 mart 1999-cu ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib. 2001-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 13 yanvar 2001-ci il tarixli əmri ilə "gizir", Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 5 may 2016-cı il tarixli əmri ilə "baş gizir" hərbi rütbəsi verilib.

Tank taqımının tank komandiri vəzifəsində xidmət edib.

2020-ci il sentyabrın 27-də Tərtər və Ağdərə rayonları istiqamətində döyüş tapşırığını yerinə yetirərkən ağır yaralanıb və həkimlərin səylərinə baxmayaraq 4 oktyabr 2020-ci ildə Silahlı Qüvvələrin Baş Klinik Hospitalında şəhid olub.

Sağlığında "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



**Yusubov**
**Elzar**
**Süleyman oğlu**
(1989-2020)

9 yanvar 1989-cu ildə Gürcüstan Respublikasında anadan olub. 2011-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi (Bədən tərbiyəsi və İdman) Akademiyasını bitirib.

Daxili Qoşunlarda müddətli həqiqi hərbi xidmət keçib və "gizir" hərbi rütbəsi verilib.

2019-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 30 dekabr 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Mexanikəşdirilmiş taborun (BTR, SandCat) mexanikləşdirilmiş bölüyünün (BTR) mexanikləşdirilmiş taqımının komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsinin ilk günündən Füzuli rayonunun yaşayış məntəqələrinin işğaldan azad olunması uğrunda döyüşlərdə fəal iştirak edib.

2020-ci il oktyabrın 8-də Füzuli rayonu ərazsində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Zakirov**
**Elvin**
**Ağasəlim oğlu**
(1980-2020)

15 avqust 1980-cı ildə Sumqayıt şəhərində anadan olub. 2001-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 15 iyul 2001-ci il tarixli əmri ilə "leytenant", 21 dekabr 2003-cü il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri vəzifəsində xidmət edib və 06 avqust 2015-ci ildə ehtiyata buraxılıb.

Vətən müharibəsinin başlaması ilə əlaqədar olaraq qismən səfərbərlik üzrə yenidən hərbi xidmətə çağırılıb və motoatıcı taqım komandiri vəzifəsində döyüşlərdə iştirak edib.

2020-ci il noyabrın 9-da Xocavənd rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Zalov**
**Fəqan**
**Amil oğlu**
(1997-2020)

1 aprel 1997-ci ildə Sabirabad rayonunun Qalaqayın kəndində anadan olub. 2014-cü ildə tam orta məktəbi bitirib. 9 iyul 2015-ci ildən 5 yanvar 2017-ci ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2017-ci ildə Hərbi Dəniz Qüvvələrində "MAHHXHQ hazırlığı kursu"-nu, 2018-ci ildə isə hərbi hissə nəzdində "Xüsusi Təyinatlı" təlim kursunu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 fevral 2019-cu il tarixli əmri ilə "kiçik miçman" hərbi rütbəsi verilib.

Gözətçi gəmiləri divizionunun gözətçi gəmisinin (G 122) artilleriya döyüş hissəsinin komendoru, xüsusi təyinatlı taborun (sualtı hücum) xüsusi təyinatlı dəstənin xüsusi təyinatlı qrupunun dalğıcı - kəşfiyyatçısı vəzifələrində xidmət edib.

Vətən müharibəsində Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlılarını təmsil edən hərbi qulluqçuların sıralarında döyüşlərdə iştirak edib. Rəşadət və qəhrəmanlıq nümunələri göstərib, xüsusi kəşfiyyat tapşırıqlarını uğurla yerinə yetirib.

2020-ci il noyabrın 9-da Xocavənd rayonu ərazisində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)" medalı ilə təltif olunub.

Ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş





tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.



***Vətən sağ olsun!***



**Zamanlı Məmməd Rəhman oğlu**
(1998-2020)

3 avqust 1998-ci ildə Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Püsyan kəndində anadan olub. 2015-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Artilleriya divizionunun artilleriya batareyasının artilleriya taqımının komandiri – batareyanın baş zabiti vəzifəsində xidmət edib.

Vətən müharibəsinin ilk günündə düşmənin hərbi obyektlərinə, döyüş mövqelərinə, hərbi texnika və canlı qüvvəsinə sarsıdıcı zərbələr endirib və döyüşlərdə şəxsi igidlik və mərdlik nümunələri göstərib.

2020-ci il sentyabrın 27-də Füzuli rayonu istiqamətində gedən hərbi əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni (ölümündən sonra) və "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif edilib.







**Zamanov Sənan Qahir oğlu**
(1987-2020)

17 avqust 1987-ci ildə Qusar rayonunun Çiləgiz kəndində anadan olub. 2004-cü ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2008-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 27 iyun 2008-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, mexanikləşdirilmiş taqım komandiri, qərargah bölüyünün komandiri, motoatıcı bölük komandiri, motoatıcı taborun (BTR-82A) motoatıcı bölüyünün komandiri, motoatıcı taborun (Matador) motoatıcı bölüyünün komandiri, motoatıcı tabor (Matador) komandirinin maddi-texniki təminat üzrə müavini, motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini vəzifələrində xidmət edib. "Mayor" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il sentyabrın 30-da Goranboy rayonunun Tapqaraqoyunlu kəndinin Kəhrillər xarabalığı istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.



**Zaməddinov Fərid İmran oğlu**
(1986-2020)

11 may 1986-cı ildə Oğuz şəhərində anadan olub. Şəki Dövlət Texniki Kollecini bitirib. 21 iyul 2004-cü ildən 17 dekabr 2005-ci ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2012-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 27 aprel 2012-ci il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Qərargah batareyasının radiotexniki kəşfiyyat və topogeodeziya taqımı radiolokiya stansiyasının rəisi, özüyeriyən artilleriya taqımı komandirinin müavini – top komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə fəal iştirak edib, noyabr ayının 9-dək xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib.

2020-ci il noyabrın 9-da Tərtər və Ağdərə rayonları istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.







**Zeynallı Aqil Aydın oğlu**
(1995-2020)

5 noyabr 1995-ci ildə Sabirabad rayonunun Mikayıl Müşfiq kəndində anadan olub. 2013-cü ildə tam orta məktəbi bitirib. 13 yanvar 2014-cü ildən 17 iyun 2015-ci ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2017-ci ildə hərbi hissə nəzdində "MAHHXHQ hazırlığı" və "Təməl Xüsusi Təyinatlı" kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 19 aprel 2019-cu il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Dərin kəşfiyyat taqımının kəşfiyyat qrupunun kəşfiyyatçısı – snayper, xüsusi təyinatlı dəstənin atəş dəstək taqımının snayper manqasının baş snayperi, atəş dəstək taqımının snayper manqasının komandiri (snayper) vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 29-da Xocavənd rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən igidlik və cəsurluq göstərərək şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəsur döyüşçü" və Azərbaycan Respublikası Müdafiə nazirinin əmri ilə "Şücaətə görə" medalları ilə təltif olunub.



**Zeynalov**
**Azad**
**Rafiq oğlu**
(1987-2020)

4 mart 1987-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Çomaxtur kəndində anadan olub. 2005-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2009-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2009-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Mühafizə bölüyünün mühafizə taqımının komandiri, qarnizon hərbi avtomobil müfəttişliyi rəisi – hərbi polis rəisinin köməkçisi, motoatıcı taborun motoatıcı bölüyünün komandiri, Xüsusi Təhlükəsizlik Baş İdarəsinin Daxili Təhlükəsizlik İdarəsinin Komendantlığının komendantının köməkçisi, motoatıcı tabor komandirinin müavini, mexanikləşdirilmiş taborun (BTR-82A) mexanikləşdirilmiş bölüyünün komandiri vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 11-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində ağır yaralanıb və 2020-ci il oktyabrın 26-da Bakı şəhərində, Gömrük Hospitalında şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi





uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.




*Onlar Qarabağdan zəfərlə gəlir,*
*Naxçıvan, qarşıla şəhidlərini!*
*Qızıl-al şəfəqli səhərlə gəlir,*
*Naxçıvan, qarşıla şəhidlərini!*

*Naxçıvan xan yeridi,*
*Maku sultan yeridi,*
*Sağımdan güllə dəydi,*
*Solumdan qan yeridi.*



**Zeynalov**
**Elnur**
**Elsevər oğlu**
(1994-2020)

28 iyul 1994-cü ildə Naxçıvan şəhərində anadan olub. 2011-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 26 iyun 2015-ci il tarixli əmri ilə "leytenant", Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin 26 iyun 2018-ci il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib.

Kəşfiyyat qrupunun komandiri, xüsusi təyinatlı kəşfiyyat qrupunun komandiri, xüsusi təyinatlı qrup komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsində Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlılarının tərkibində döyüşlərə qatılıb və bir çox xüsusi tapşırığın uğurla həyata keçirilməsində mərdlik və igidlik nümunələri göstərib.

2020-ci il oktyabrın 31-də Xocavənd rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", ölümündən sonra isə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Qarabağ" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.







**Zeynalov**
**Fikrət**
**Hikmət oğlu**
(1995-2020)

17 dekabr 1995-ci ildə Hacıqabul rayonunun Rəncbər kəndində anadan olub. 2013-cü ildə tam orta məktəbi bitirib. Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2018-ci ildə hərbi hissə nəzdində «Təməl Xüsusi Təyinatlı kursu»nu bitirib.

Silahlı Qüvvələrinin Baş Qərargah rəisinn 26 aprel 2019-cu il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Operator-radiotelefonçu, snayper, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

"Dəmir Yumruq" əməliyyatı ilə başlanan Vətən müharibəsinin ilk günündən böyük ruh yüksəkliyi ilə döyüşlərə atılsa da, möhtəşəm Zəfər paradını görmək ona qismət olmayıb. Yalnız iyirmi gün ərzində xüsusi əməliyyatlarda mahir kəşfiyyatçı kimi iştirak edə bilib.

2020-ci il oktyabrın 16-da Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Kəlbəcərin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Zeynalov**
**İlqar**
**Natiq oğlu**
(1989-2020)

26 avqust 1989-cu ildə Rusiya Federasiyasının Leninqrad (indiki Sankt-Peterburq) şəhərində anadan olub. 2012-ci ildə Ukraynanın O.Qonçar adına Dnepropetrovsk Milli Universitetini politologiya ixtisası üzrə bitirib.

31 oktyabr 2012-ci ildən 10 oktyabr 2013-cü ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib.

2016-cı ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 9 noyabr 2016-cı il tarixli əmri ilə ona "leytenant", Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin 9 noyabr 2019-cu il tarixli əmri ilə "baş leytenant" hərbi rütbəsi verilib. Motoatıcı taqım komandiri vəzifəsində xidmət edib.

2020-ci il sentyabrın 28-də Tərtər və Ağdərə rayonları istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub.







**Zeynalov**
**Məhəmməd**
**Bəxtiyar oğlu**
(1997-2020)

23 fevral 1997-ci ildə Neftçala rayonunun Bankə qəsəbəsində anadan olub. 2015-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun (BMP-2) motoatıcı bölüyünün motoatıcı taqımının komandiri, mexanikləşdirilmiş taborun (BMP-2) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə fərqlənib və qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlib.

2020-ci il sentyabrın 28-də Tərtər və Ağdərə rayonları istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirəkən düşmənin artilleriya atəşi nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "Döyüşdə fərqlənməyə görə" (ölümündən sonra) medalları ilə təltif olunub.



**Zeynalov Müseyyib Saleh oğlu**
(1978-2020)

27 yanvar 1978-ci ildə Salyan rayonunda anadan olub. 1996-cı ildə tam orta məktəbi bitirib. Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib. 2000-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyul 2000-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, Azərbaycan Ali Hərbi Məktəbində Kursant taqımının komandiri – müəllim köməkçisi, kursant bölüyünün komandiri – müəllim, motoatıcı tabor komandirinin şəxsi heyətlə iş üzrə müavini, hərbi hissənin şəxsi heyətlə iş üzrə bölmə rəisinin mənəvi-psixoloji təminat üzrə müavini vəzifələrində xidmət edib.

"Mayor" hərbi rütbəsinədək yüksəlib. 9 mart 2018-ci ildə ehtiyata buraxılıb.

Vətən müharibəsinin başlaması ilə əlaqədar olaraq qismən səfərbərlik üzrə yenidən hərbi xidmətə çağırılıb və motoatıcı tabor komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsində döyüşlərdə iştirak edib.

2020-ci il noyabrın 1-də Qubadlı rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, ölümündən sonra isə





Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərb hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.



***Ermәni tәcavüzkarlarının vәhşicәsinә divan tutduqları yurd yerlәri qalib Azәrbaycan әsgәrini göz yaşları ilә qarşılayırdı. İllәrin hәsrәtinә artıq son qoyulmuşdu. Şәhid ruhları da sevinirdi o gün.***



**Zeynalov Nurlan Rəfail oğlu**
(1989-2020)

25 noyabr 1989-cu ildə Sabirabad rayonunda anadan olub. 2011-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Ehtiyat zabit hazırlığı kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 7 yanvar 2012-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

7 yanvar 2012-ci ildən 7 iyul 2013-cü illədək Azərbaycan Ordusunda motoatıcı taqım komandiri vəzifəsində xidmət edib və ehtiyata buraxılıb.

Vətən müharibəsinin başlaması ilə əlaqədar olaraq qismən səfərbərlik üzrə yenidən hərbi xidmətə çağırılıb və motoatıcı taqım komandiri vəzifəsində döyüşlərdə iştirak edib.

2020-ci il noyabrın 9-da Xocavənd rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən atılan mərmi partlayışı nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.







**Zeynalov Tural Ruslan oğlu**
(1987-2020)

4 oktyabr 1987-ci ildə Bakı şəhərində anadan olub. 2006-cı ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2010-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2010-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Dağ-atıcı taqımın komandiri, dağ-atıcı bölüyün komandiri, hərbi hissənin döyüş hazırlığı bölməsi rəisinin köməkçisi, mexanikləşdirilmiş bölüyün (BTR-82A) komandiri vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il oktyabrın 11-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı xidməti vəzifəsini yerinə yetirəkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Sağlığında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



**Zülfüqarlı Zeynal Alim oğlu**
(1995-2020)

31 may 1995-ci ildə Sabirabad rayonunun Qaratuğay kəndində anadan olub. 2014-cü ildə Azərbaycan Dəniz Balıq Sənayesi Kollecini bitirib. 10 iyul 2015-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2016-cı ildə hərbi hissə nəzdində «Təməl Xüsusi Təyinatlı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26 aprel 2019-cu il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Xüsusi təyinatlı dəstənin minaatan taqımının minaatan manqasının baş tuşlayıcısı, xüsusi təyinatlı taqımın atəş dəstək manqasmın minaatan qrupunun tuşlayıcısı-minaatan, xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

2020-ci il oktyabrın 19-da Füzuli rayonu ərazisində gedən hərbi əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), "İgidliyə görə" (ölümündən sonra), "Cəbrayılın azad olunmasına görə" (ölümündən sonra), "Şuşanın azad olunmasına görə" (ölümündən sonra), "Kəlbəcərin azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunub.







**Zülfüqarov İlkin Nurəddin oğlu**
(1989-2020)

8 avqust 1989-cu ildə Ağsu rayonunun Gursulu kəndində anadan olub. 2007-ci ildə tam orta məktəbi bitirib. 2 oktyabr 2007-ci ildən 18 mart 2009-cu ilədək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib. 2016-cı ildə "MAHHXHQ hazırlığı" 2017-ci ildə «Təməl Xüsusi Təyinatlı» kurslarını bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 14 fevarl 2020-ci il tarixli əmri ilə "kiçik gizir" hərbi rütbəsi verilib.

Motoatıcı manqa komandiri, mühəndis kəşfiyyatı qrupunun komandiri, xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət edib.

Vətən müharibəsində xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib, bir çox kəşfiyyat tapşırıqlarını uğurla yerinə yetirib, şəxsi şücaət və igidlik nümunələri göstərib.

2020-ci il oktyabrın 8-də Cəbrayıl rayonu ərazisində gedən hərbi əməliyyatlarda döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan artilleriya atəşi nəticəsində şəhid olub.

Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.



**Pənahov**
**Əkbər**
**Bəylər oğlu**
(1990)

Pənahov Əkbər Bəylər oğlu 12 avqust 1990-cı ildə Gürcüstan Respublikasının Bolnisi rayonunun Musopriani kəndində anadan olub. 2017-ci ildə Bakı şəhərindəki 269 saylı tam orta məktəbi, 2011-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 24 iyun 2011-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun qərargah bölüyünün tank əleyhinə taqımının komandiri, motoatıcı taqım komandiri, motoatıcı bölük komandiri, motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsinin ilk günündən Murovdağ zirvələri uğrunda döyüşlərdə fəal iştirak edib, xidməti vəzifəsinin öhdəsindən layiqincə gəlib və 2020-ci il sentyabrın 29-da ağır döyüşlər zamanı itkin düşüb.

"Azərbaycan Respublikası Silahlı Qüvvələrin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018), "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medallarla təltif olunub.

*Azərbaycan Respublikası Müdafiə Nazirliyi müvafiq qurumlar və beynəlxalq təşkilatlarla birlikdə Vətən müharibəsində itkin düşən hərbi qulluqçuların axtarışlarını davam etdirir. Arzu edərdik ki, onlar haqqında tezliklə sağ-salamat olmaları barədə xoş xəbərlər eşidək.*







**Rəhmətov**
**Əbülfəz**
**Hüseynverdi oğlu**
(1989)

Rəhmətov Əbülfəz Hüseynverdi oğlu 3 iyul 1989-cu ildə Lerik rayonunun Anbu kəndində anadan olub. 2006-cı ildə K.Həmidov adına Anbu kənd tam orta məktəbini, 2010-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2010-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun qərargah rəisinin kəşfiyyat üzrə köməkçisi – kəşfiyyat taqımının komandiri, kəşfiyyat bölüyünün komandiri, motoatıcı taborun qərargah rəisi - tabor komandirinin müavini, tabor komandirinin müavini, hərbi hissənin kəşfiyyat bölməsi rəisinin məlumatların toplanılması üzrə köməkçisi vəzifələrində xidmət edib. "Kapitan" hərbi rütbəsinədək yüksəlib. Vətən müharibəsinin ilk günündən Füzuli və Cəbrayıl rayonlarının yaşayış məntəqələrinin erməni işğalından azad edilməsi uğrunda döyüşlərdə fəal iştirak edib, mühüm kəşfiyyat tapşırıqlarını uğurla yerinə yetirib və 2020-ci il oktyabrın 16-da Cəbrayıl rayonunun Hovuslu kəndi uğrunda gedən hərbi əməliyyatlar zamanı itkin düşüb.

"Azərbaycan Respublikası Silahlı Qüvvələrin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalları ilə təltif olunub.

*Azərbaycan Respublikası Müdafiə Nazirliyi müvafiq qurumlar və beynəlxalq təşkilatlarla birlikdə Vətən müharibəsində itkin düşən hərbi qulluqçuların axtarışlarını davam etdirir. Arzu edərdik ki, onlar haqqında tezliklə sağ-salamat olmaları barədə xoş xəbərlər eşidək.*



**Qənbərli Qənbər Bəhruz oğlu**
(1993)

Qənbərli Qənbər Bəhruz oğlu 10 sentyabr 1993-cü ildə Tərtər rayonunun Kəngərli kəndində anadan olub. 2012-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbininin Quru Qoşunları fakültəsini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2016-cı il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taqım komandiri, tank əleyhinə idarə olunan raketlər taqımının komandiri, motoatıcı bölüyün (MT-LB) komandiri vəzifələrində xidmət edib. "Baş leytenant" hərbi rütbəsinədək yüksəlib.

Vətən müharibəsinin ilk günündən Murovdağ zirvələri uğrunda döyüşlərdə fəal iştirak edib, xidməti vəzifəsinin öhdəsindən layiqincə gəlib və 2020-ci il sentyabrın 29-da ağır döyüşlər zamanı itkin düşüb.

"Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif olunub.

*Azərbaycan Respublikası Müdafiə Nazirliyi müvafiq qurumlar və beynəlxalq təşkilatlarla birlikdə Vətən müharibəsində itkin düşən hərbi qulluqçuların axtarışlarını davam etdirir. Arzu edərdik ki, onlar haqqında tezliklə sağ-salamat olmaları barədə xoş xəbərlər eşidək.*







**Yusifov Əli Suləddin oğlu**
(1997)

Yusifov Əli Süləddin oğlu 14 avqust 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Oğuzkənd kəndində anadan olub. 2015-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbininin Quru Qoşunları fakültəsini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı taborun (BMP-2) motoatıcı bölüyünün motoatıcı taqımının komandiri, mexanikləşdirilmiş taborun (BMP-2) mexanikləşdirilmiş bölüyünün mexanikləşdirilmiş taqımının komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən Füzuli rayonunun yaşayış məntəqələrinin işğaldan azad olunması uğrunda döyüşlərdə fəal iştirak edib, xidməti vəzifəsinin öhdəsindən layiqincə gəlib və 2020-ci il oktyabrın 3-də Kənd Horadiz kəndində ağır döyüşlər zamanı itkin düşüb.

*Azərbaycan Respublikası Müdafiə Nazirliyi müvafiq qurumlar və beynəlxalq təşkilatlarla birlikdə Vətən müharibəsində itkin düşən hərbi qulluqçuların axtarışlarını davam etdirir. Arzu edərdik ki, onlar haqqında tezliklə sağ-salamat olmaları barədə xoş xəbərlər eşidək.*



**Vəlizadə İbrahim Səməd oğlu**
(1998)

Vəlizadə İbrahim Səməd oğlu 11 iyun 1998-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Vərməziyar kəndində anadan olub. 2015-ci ildə Heydər Əliyev adına hərbi liseyi, 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbininin Quru Qoşunları fakültəsini və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 22 iyun 2019-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Motoatıcı bölüyün (BMP-3) atəş dəstək taqımının komandiri, motoatıcı bölüyün (MT-LB) motatıcı taqımının komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən Murovdağ zirvələri uğrunda döyüşlərdə fəal iştirak edib, xidməti vəzifəsinin öhdəsindən layiqincə gəlib və 2020-ci il oktyabrın 3-də "3382" yüksəkliyində itkin düşüb.

"Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif olunub.

*Azərbaycan Respublikası Müdafiə Nazirliyi müvafiq qurumlar və beynəlxalq təşkilatlarla birlikdə Vətən müharibəsində itkin düşən hərbi qulluqçuların axtarışlarını davam etdirir. Arzu edərdik ki, onlar haqqında tezliklə sağ-salamat olmaları barədə xoş xəbərlər eşidək.*







**İxtiyar İlqaroğlu**
(1994)

İxtiyar İlqaroğlu 6 iyul 1994-cü ildə Goranboy rayonunda anadan olub. 2012-ci ildə tam orta məktəbi, 2014-cü ildə hərbi hissə nəzdində "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu hazırlığı kursu"nu bitirib.

Silahlı Qüvvələrin Baş Qərargah rəiisnin 1 oktyabr 2016-cı il tarixli əmri ilə "kiçik gizir", 9 aprel 2019-cu il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilib.

Motoatıcı manqanın snayperi, snayper manqasının snayperi, kəşfiyyat bölüyünün (ümumi dəstək) atəş dəstək taqımının snayperlər qrupunun snayperi – kəşfiyyatçı, kəşfiyyat manqasının kəşfiyyatçısı, xüsusi təyinatlı kəşfiyyat qrupunun kəşfiyyatçısı, motoatıcı taqım komandirinin müavini, xüsusi təyinatlı kəşfiyyat qrupunun kəşfiyyatçısı - pulemyotçu vəzifələrində xidmət edib.

Vətən müharibəsinin ilk günündən Ağdərə və Tərtər rayonları istiqamətlərində döyüşlərdə fəal iştirak edib, xidməti vəzifəsinin öhdəsindən layiqincə gəlib və Suqovuşan istiqamətində 2020-ci il oktyabrın 6-da itkin düşüb.

*Azərbaycan Respublikası Müdafiə Nazirliyi müvafiq qurumlar və beynəlxalq təşkilatlarla birlikdə Vətən müharibəsində itkin düşən hərbi qulluqçuların axtarışlarını davam etdirir. Arzu edərdik ki, onlar haqqında tezliklə sağ-salamat olmaları barədə xoş xəbərlər eşidək.*



# VƏTƏN MÜHARİBƏSİNDƏ ŞƏHADƏTLƏRİ İLƏ TARİX YAZANLAR, ADLARI TARİXƏ YAZILANLAR


1. Abbasbəyli Həmid Cavanşir oğlu ........45
2. Abbaslı Arif Firuz oğlu ........46
3. Abbasov Ağaqardaş İlham oğlu ........47
4. Abbasov Ceyhun Natiq oğlu ........48
5. Abbasov Hüseyn Əlizadə oğlu ........49
6. Abbasov İntiqam Yavər oğlu ........50
7. Abbasov Teymur Feyruz oğlu ........52
8. Abbasov Seymur Müşfiq oğlu ........53
9. Abdullayev Elşən Sabir oğlu ........54
10. Abdullayev Eldar Firidun oğlu ........55
11. Abdullayev Hasil Miryusif oğlu ........56
12. Abdullayev İbrahim Habil oğlu ........58
13. Abdullayev Kənan Mübariz oğlu ........59
14. Abdullayev Rasim Yaqub oğlu ........60
15. Abdullayev Rəşad Arif oğlu ........62
16. Abdullayev Şəhriyar Kamil oğlu ........64
17. Abdullayev Tural Bəylər oğlu ........65
18. Abdullayev İntiqam Allahverdi oğlu...66
19. Abdulrəhmanov Şöhrət Böyükbəy oğlu..68
20. Abdullazadə Həsənağa Şakir oğlu ......69
21. Abdurahmanlı Sübhan Mahir oğlu .....71
22. Abdurahmanov Əfqan Ağasəf oğlu ....72
23. Abdurahmanov Elvin Əbülfəz oğlu ....74
24. Abdurahmanov Hafiz Xalid oğlu ........75
25. Abışov Babək Vaqif oğlu ........76
26. Abuşov Bəhruz Zabid oğlu ........77







27. Ağaəhmədov Elnur Fəxrəddin oğlu ...78
28. Ağamalıyev Şəhriyar Əvəz oğlu ........79
29. Ağamirov Şıxmir Qabil oğlu ........80
30. Ağayev Ağali Tağı oğlu ........81
31. Ağayev Asəf Abid oğlu ........82
32. Ağayev Cəlal Ağaverdi oğlu ........84
33. Ağayev Elçin Zakir oğlu ........85
34. Ağayev Həmdəm Mayıl oğlu ........86
35. Ağayev İlkin Tehran oğlu ........88
36. Ağayev Mirlətif Mirislam oğlu ........89
37. Ağayev Ramil Mərdan oğlu ........90
38. Ağayev Saleh Nurəddin oğlu ........91
39. Ağayev Vüqar Əhməd oğlu ........92
40. Ağayev Zülfü Ağalı oğlu ........94
41. Alıyev Elçin Bayram oğlu ........96
42. Alıyev Laçın Rasim oğlu ........98
43. Alıyev Vahid Abbas oğlu ........99
44. Allahverdiyev Babək Bəxtiyar oğlu ....100
45. Allahverdiyev Elşad Zaməddin oğlu ..101
46. Allahverdiyev Namaz Baxış oğlu ......102
47. Alməmmədov Emin Akif oğlu ........103
48. Alqayev Harun Məhəmməd oğlu .....104
49. Aslanov Ağasadıq Xəlil oğlu ........105
50. Aslanov Babək Sakit oğlu ........106
51. Aslanov Tural Elşən oğlu ........107
52. Aslanov Xəyal Qüdrət oğlu ........108
53. Atakişiyev Tərlan Dərgah oğlu ........109
54. Atayev Nicat Habil oğlu ........110
55. Axundov Mirzə Musa oğlu ........111
56. Azayev Asif Məhəmmədağa oğlu .....113
57. Azayev Sadiq Xubyar oğlu ........114
58. Babayev Şamil Nazim oğlu ........115
59. Babaşov Bayram İlqar oğlu ........116
60. Babaxanov Elman Ağamirzə oğlu ....117
61. Babayev Əli Həsən oğlu ........118
62. Babayev Elməddin Cəfərqulu oğlu ..119
63. Babayev Murad Nadir oğlu ........120
64. Babayev Nihad Akif oğlu ........121
65. Babayev Rahib Bəxtiyar oğlu ........123
66. Babayev Ramil Taqət oğlu ........124
67. Babayev Rəşad Ağabəy oğlu ........125
68. Babayev Vüsal Sübbuh oğlu ........126
69. Bağırov Süleyman Loğman oğlu ......127
70. Balayev Orxan Vidadi oğlu ........128
71. Baliev Hüseynağa Salman oğlu ........129
72. Baxşəliyev Natiq Saleh oğlu ........130
73. Baxşəliyev Qərib İnqilab oğlu ........131
74. Bayramlı Elmar İsa oğlu ........133
75. Bayramov Elburus Eyvaz oğlu ........134
76. Bayramov İqbal Əhmədağa oğlu ......136
77. Bayramov Ramin Hüseynağa oğlu ..138
78. Bayramov Ruslan Azər oğlu ........139
79. Bayramov Samir Elxan oğlu ........140
80. Bayramov Xəqani Məmməd oğlu ....141
81. Bədəlov Oktay Ələddin oğlu ........142
82. Bədəlov Valeh Vahid oğlu ........144
83. Bərxudarov Toğrul Məmməd oğlu...146
84. Bəşirov Hakim Nizam oğlu ........147
85. Budaqov Rəşad Ramiz oğlu ........148
86. Budaqov Rufiz Şirzad oğlu ........149
87. Cabbarov Orxan Rövşən oğlu ........150
88. Cabbarov Seymur İlham oğlu ........152
89. Cabbarov Vidadi Cəbrayıl oğlu ........153
90. Cabbarzadə Məmmədiyə Məhəmməd oğlu ........155
91. Cavadlı Nemət Cavid oğlu ........156
92. Cavadov Cəlil Ağaddin oğlu ........157
93. Cavadov Namiq Rəhbər oğlu ........158
94. Cəbrayılov Sübhan Rahim oğlu ........159
95. Cəbrayılov Elnur Tofiq oğlu ........161

96. Cəfərli Həmid Kərim oğlu ....................162
97. Cəfərli Orxan Etibar oğlu ....................163
98. Cəfərli Xəyal Xəlil oğlu ....................164
99. Cəfərov Elməddin Hümbət oğlu ....................165
100. Cəfərov Etibar Teyyub oğlu ....................166
101. Cəfərov Mətləb Məhəmməd oğlu ....................167
102. Cəfərov Ramiz Sübhan oğlu ....................168
103. Cəfərov Ruslan Gündüzoviç ....................170
104. Cəfərov Şahlar Fəzail oğlu ....................172
105. Cəfərov Zaur Hüseyn oğlu ....................173
106. Cəmilli Şakir Arif oğlu ....................175
107. Cəmilli Xəqani Mənsur oğlu ....................176
108. Çobanov Orxan Zahid oğlu ....................177
109. Dadaşov Elkin İmanqulu oğlu ....................178
110. Dadaşzadə Mahir Qərib oğlu ....................179
111. Dadaşzadə Yalçın İsmayıl oğlu ....................180
112. Dəmirov Siyahim Əlizamin oğlu ....................181
113. Dövlətli İskəndər Vüqar oğlu ....................182
114. Dünyamalıyev Ceyhun Zeynal oğlu ....................183
115. Dursunov Fərid Fazil oğlu ....................184
116. Emnalıyev Orxan Eyvaz oğlu ....................185
117. Eyyubov Tural Yadulla oğlu ....................186
118. Əbilov Kamal Vidadi oğlu ....................187
119. Əfəndiyev Adil Qədir oğlu ....................188
120. Əhədov Tural Rahil oğlu ....................189
121. Əhədzadə İlkin Qələmşah oğlu ....................190
122. Əhmədli Şahid Gülməmməd oğlu ....................191
123. Əhmədov Emil Bahadur oğlu ....................192
124. Əhmədov Vidadi Murad oğlu ....................194
125. Əhmədov Yasən Yelmar oğlu ....................196
126. Əhmədzadə Famil Ağaəhməd oğlu ....................198
127. Əjdərov Rəhman Rasim oğlu ....................199
128. Əkbərov Əmrah Şahid oğlu ....................200
129. Əkbərov Orxan Nadir oğlu ....................201
130. Ələkbərov Allahverdi Məzahir oğlu ....................102
131. Ələkbərov Bağır Əsəd oğlu ....................203
132. Ələkbərov Əlisahib Selman oğlu ....................204
133. Ələkbərov Fərid Tahir oğlu ....................205
134. Ələkbərov Naiq Faiq oğlu ....................207
135. Ələkbərov Niyaməddin İsrafil oğlu ....................208
136. Ələkbərov Röyal Fərmail oğlu ....................210
137. Ələkbərov Telman İqdam oğlu ....................211
138. Ələsgərli İlkin Bəkir oğlu ....................212
139. Ələsgərli Zaur Mübariz oğlu ....................214
140. Ələsov Əli Aydın oğlu ....................216
141. Əlimov Elvin Nəsrəddin oğlu ....................217
142. Əlisoltanov Vahid Tahir oğlu ....................218
143. Əliyev Anar Vaqif oğlu ....................219
144. Əliyev Asiman Vaqif oğlu ....................221
145. Əliyev Atəm Vaqif oğlu ....................223
146. Əliyev Dəyanət Ələsgər oğlu ....................225
147. Əliyev Elçin Rasim oğlu ....................227
148. Əliyev Əmirulla Vahid oğlu ....................228
149. Əliyev Ənvər Nizami oğlu ....................229
150. Əliyev Fərmin Fərman oğlu ....................230
151. Əliyev Fəzail Cahan oğlu ....................231
152. Əliyev Fizuli Vidadi oğlu ....................233
153. Əliyev İbrahim Mustafa oğlu ....................235
154. Əliyev İmran Əli oğlu ....................236
155. Əliyev Kərim Məhəmmədəli oğlu ....................237
156. Əliyev Məmməd Cahangir oğlu ....................238
157. Əliyev Mirzağa Məmmədbağır oğlu ....................239
158. Əliyev Nohəl Ələqəmə oğlu ....................241
159. Əliyev Ramil Qurban oğlu ....................243
160. Əliyev Rəşad Əmiralı oğlu ....................244
161. Əliyev Samir Əliheydər oğlu ....................246
162. Əliyev Səbuhi Teyyub oğlu ....................247
163. Əliyev Sənan Əlisəfa oğlu ....................249
164. Əliyev Xəqani Füzuli oğlu ....................251
165. Əlizadə Fuad Nazim oğlu ....................252





166. Əlizadə Pərvin Vüqar oğlu ....................253
167. Əlizadə Qorxmaz Arif oğlu ....................254
168. Əlizadə Tahir Qəribəli oğlu ....................255
169. Əmənov Məhəmməd İntizam oğlu ....................256
170. Ənvərli Aqşin Faiq oğlu ....................257
171. Əsədov Emil Balaqardaş oğlu ....................258
172. Əsədov Əsəd Cəmaləddin oğlu ....................259
173. Əsədullayev Elnur İmran oğlu ....................260
174. Əsgərli İntiqam Bayram oğlu ....................262
175. Əsgərli Tural Ələmdar oğlu ....................264
176. Əsgərov Asəf İlqar oğlu ....................265
177. Əsgərov Elçin Yalçın oğlu ....................266
178. Əsgərov Musa Əlifağa oğlu ....................267
179. Əsgərov Novruz Ələddin oğlu ....................268
180. Əsgərov Rauf Vaqif oğlu ....................270
181. Əsgərov Rüfət Mürvət oğlu ....................271
182. Əsgərov Samid Gülmalı oğlu ....................273
183. Əyyubov Ceyhun Savalan oğlu ....................275
184. Əzimov Cavanşir Cəlal oğlu ....................276
185. Əzizov Elgün Elman oğlu ....................277
186. Əzizov Elvin Əfrail oğlu ....................278
187. Əzizov Teymur Əli oğlu ....................280
188. Əzizov Xəyyam Əli oğlu ....................281
189. Fərəcov Kamran Qılman oğlu ....................282
190. Fərəməzov Nurlan Əhliman oğlu ....................283
191. Fərzalıyev Samiq Misir oğlu ....................284
192. Feyziyev Sadiq Tahir oğlu ....................285
193. Feyzullayev Beyrək Seyfulla oğlu ....................286
194. Feyzullayev Zahir Eyvaz oğlu ....................287
195. Göyüşov Məzahir Niyaz oğlu ....................288
196. Göyüşov Sərvan Mehman oğlu ....................289
197. Gülməmmədov Amin Mayis oğlu ....................290
198. Gülüşov Tərlan Salman oğlu ....................291
199. Hacıyev Abakar Məhəmməd oğlu ....................292
200. Hacıyev Elnur Yaqub oğlu ....................294
201. Hacıyev Hikmət Şubay oğlu ....................296
202. Hacıyev İsmət Şölət oğlu ....................298
203. Hacıyev Ramid Nəriman oğlu ....................299
204. Hacıyev Şükür Bayram oğlu ....................301
205. Hacıyev Teymur Zaur oğlu ....................302
206. Haşımov Tərzan Qəhrəman oğlu ....................303
207. Həməşəyev Qismət Oruc oğlu ....................304
208. Həmidov Əmrah Firavan oğlu ....................305
209. Həmidov Mixail Hamletoviç ....................306
210. Həmidov Rəsman Mərdan oğlu ....................307
211. Həmidov Şükür Nəriman oğlu ....................308
212. Həmzəyev Mərhəmət Rizvan oğlu ....................310
213. Həmzəyev Novruz Bəkir oğlu ....................311
214. Həsənli Telman Rafiq oğlu ....................312
215. Həsənov Aqil Nofəl oğlu ....................313
216. Həsənov Ceyhun Aydın oğlu ....................314
217. Həsənov Elşad Paşa oğlu ....................315
218. Həsənov Əsəd Fərhad oğlu ....................316
219. Həsənov Nurlan Nadir oğlu ....................317
220. Həsənov Sadiq Əli oğlu ....................318
221. Həsənov Səddam Aydın oğlu ....................319
222. Həsənzadə Famil Şiraslan oğlu ....................320
223. Həşimli Cəmil Əflatun oğlu ....................322
224. Həşimov Fərrux Mirzəməd oğlu ....................323
225. Həşimov Nağı Anar oğlu ....................325
226. Heydərov Amid Rəbbil oğlu ....................326
227. Heydərov Sabir Ceyhun oğlu ....................328
228. Heydərov Vasif Nazim oğlu ....................329
229. Hümbətov Azad Arif oğlu ....................330
230. Hümbətov Ruslan Səlim oğlu ....................332
231. Hüseynli Əmrah Namik oğlu ....................333
232. Hüseynli Etiram Həsən oğlu ....................334
233. Hüseynli İlqar Şəmiyyət oğlu ....................335
234. Hüseynov Aslan Malik oğlu ....................337
235. Heydərov Anar Bəhruz oğlu ....................338

236. Hüseynov Əfşan Əbülfəz oğlu .......... 339
237. Hüseynov Eldost Asəf oğlu .......... 341
238. Hüseynov Fərrux Baxış oğlu .......... 342
239. Hüseynov Kərim Tərlan oğlu .......... 343
240. Hüseynov Mətin Ramiz oğlu .......... 344
241. Hüseynov Nazim Yaqub oğlu .......... 345
242. Hüseynov Nəbi Hacıbala oğlu .......... 346
243. Hüseynov Nurlan Madər oğlu .......... 348
244. Hüseynov Orxan Bəhmən oğlu .......... 349
245. Hüseynov Ramin Qüdrət oğlu .......... 350
246. Hüseynov Raqib Adil oğlu .......... 351
247. Hüseynov Rəhim Qədir oğlu .......... 352
248. Hüseynov Şahnur Şahin oğlu .......... 354
249. Hüseynov Şirbala Hüseynbala oğlu .......... 355
250. Hüseynov Ülvü Möhsün oğlu .......... 356
251. Hüseynov Zaur Vaqif oğlu .......... 358
252. Hüseynzadə Həmidağa Baqi oğlu .......... 359
253. Xasıyev Röyal Abuzər oğlu .......... 361
254. Xəlilbəyli Turqut Nadir oğlu .......... 363
255. Xəlilli Namiq Həsən oğlu .......... 364
256. Xəlilov Coşqun Mikayıl oğlu .......... 365
257. Xəlilov Nadir Ağadadaş oğlu .......... 366
258. Xəlilov Namiq İlyas oğlu .......... 357
259. Xəlilov Vidadi Vaqif oğlu .......... 368
260. Xıdırov Elgün Fuad oğlu .......... 370
261. Xosizadə Müşfiq Zakir oğlu .......... 371
262. İbadov Aqşin Nazim oğlu .......... 372
263. İbadov Murad Yusif oğlu .......... 373
264. İbayev Elmar Hikmət oğlu .......... 374
265. İbrahimli Adil Asəm oğlu .......... 375
266. İbrahimli Elməddin Zeynəddin oğlu .......... 377
267. İbrahimov Xeyrulla Mais oğlu .......... 378
268. İbrahimov Zamanət Gülhəsən oğlu .......... 380
269. İbrahimov Əlövsəd Seyidxan oğlu .......... 381
270. İmaməliyev Sərraf Murtuzəli oğlu .......... 382
271. İmanzadə Ayaz Daşqın oğlu .......... 383
272. İsayev Təbriz İsabala oğlu .......... 384
273. İsgəndərov Arzu Seymur oğlu .......... 386
274. İsgəndərov Əsəd Bəybala oğlu .......... 388
275. İskəndərov Elvin Akif oğlu .......... 389
276. İskəndərov Elvin Mətləb oğlu .......... 390
277. İslamov Bəxtiyar Saleh oğlu .......... 391
278. İslamov Samir Xaliq oğlu .......... 393
279. İsmayılov Abbasəli İmamqulu oğlu .......... 393
280. İsmayılov Aqil Əli oğlu .......... 394
281. İsmayılov Aslan Əvəz oğlu .......... 395
282. İsmayılov Camal Vidadi oğlu .......... 396
283. İsmayılov Ceyhun Abbas oğlu .......... 398
284. İsmayılov Elçin Mübariz oğlu .......... 399
285. İsmayılov Əmrah Xudaverdi oğlu .......... 400
286. İsmayılov Fuad Murad oğlu .......... 401
287. İsmayılov İmamverdi Yoloğlu oğlu .......... 402
288. İsmayılov Kamran Vaqif oğlu .......... 404
289. İsmayılov Natiq Əjdər oğlu .......... 406
290. İsmayılov Nizaməddin İsmayıl oğlu .......... 408
291. İsmayılov Rabil Elburus oğlu .......... 409
292. İsmayılov Tahir Niyazi oğlu .......... 410
293. İsmayılov Vüsal Nəbi oğlu .......... 411
294. İsmayılzadə Səməndər Vahid oğlu .......... 412
295. İsrafilov Kənan Faiq oğlu .......... 413
296. İzzətli Fərid Aydın oğlu .......... 414
297. Kazımov Elvin Ədalət oğlu .......... 415
298. Kazımov İlkin Xanməmməd oğlu .......... 416
299. Kazımov Rusif Yusif oğlu .......... 417
300. Kazımov Vüsal Kamran oğlu .......... 418
301. Kəlbalıyev Səyavuş Hümbət oğlu .......... 419
302. Kəlbiyev Telman Yadigar oğlu .......... 420
303. Kərimov Asif Məmməd oğlu .......... 421
304. Kərimov Sənan Rəhman oğlu .......... 422
305. Kərimov Taleh Adil oğlu .......... 423





306. Kərimov Tərlan Daşqın oğlu .......... 425
307. Kərimov Tofiq Dadaş oğlu .......... 426
308. Qanıyev İsaxan İsaman oğlu .......... 428
309. Qasımov Baba Əhməd oğlu .......... 429
310. Qasımov Faiq Mayıl oğlu .......... 431
311. Qasımov Faiq Qaçay oğlu .......... 433
312. Qasımov Hafis Cavanşir oğlu .......... 435
313. Qasımov Həmid Oruc oğlu .......... 436
314. Qasımov Hüseyn Kamil oğlu .......... 437
315. Qasımov Qoşqar Atakişi oğlu .......... 439
316. Qasımov Ramiz Vaqif oğlu .......... 440
317. Qasımov Rəmal Saleh oğlu .......... 442
318. Qasımov Şöhrət Şakir oğlu .......... 443
319. Qasımov Xaspolad Fikrət oğlu .......... 444
320. Qədimov Güloğlan Nurəddin oğlu .......... 445
321. Qədirov Şahin Bayram oğlu .......... 446
322. Qəfərov Rəvan Elxan oğlu .......... 447
323. Qəfərov Saməddin Rasim oğlu .......... 448
324. Qəhrəmanov Elməddin Niyaməddin oğlu .......... 449
325. Qəhrəmanov Ruslan Mehman oğlu .......... 450
326. Qənbərli Elton Baba oğlu .......... 451
327. Qənbərov Mehman Nərman oğlu .......... 452
328. Qənimətov Ətraf Oktay oğlu .......... 453
329. Qəniyev Cahid Şaiq oğlu .......... 455
330. Qorçuyev Anar Nadir oğlu .......... 456
331. Qubadov Zülfüqar İsmi oğlu .......... 457
332. Quliyev Aqşin Dilavər oğlu .......... 458
333. Quliyev Aqşin Mehdi oğlu .......... 460
334. Quliyev Əli Tədbir oğlu .......... 461
335. Quliyev Əvdil Qardaşxan oğlu .......... 462
336. Quliyev Elnur Eldar oğlu .......... 463
337. Quliyev Həsən İbrahim oğlu .......... 465
338. Quliyev Hətəmxan Məti oğlu .......... 466
339. Quliyev İlqar Akif oğlu .......... 468
340. Quliyev Ramil Nuralı oğlu .......... 470
341. Quliyev Ramin Rizvan oğlu .......... 472
342. Quliyev Rəşad Əfraz oğlu .......... 473
343. Quliyev Rəşad Rəşid oğlu .......... 474
344. Quliyev Şahmar Kəmaləddin oğlu .......... 476
345. Quliyev Şəhriyar Nəsib oğlu .......... 477
346. Quliyev Vəli Vəli oğlu .......... 478
347. Quliyev Vüsal Tahir oğlu .......... 479
348. Quluzadə Əlimərdan Fəttah oğlu .......... 480
349. Quluzadə Kamran Pərviz oğlu .......... 481
350. Qurbanəliyev Tapdıq Dövlətxan oğlu .......... 482
351. Qurbanov Emil Vaqif oğlu .......... 484
352. Qurbanov İmran İlqar oğlu .......... 485
353. Qurbanov Ramil Südeyif oğlu .......... 486
354. Qurbanov Rauf Vahid oğlu .......... 487
355. Qureşli Firuz Əli oğlu .......... 488
356. Mahmudov Cavid Hilal oğlu .......... 489
357. Mahmudov Emin Pünhan oğlu .......... 491
358. Mailov Namiq Abış oğlu .......... 492
359. Mansurov Elçin Elşən oğlu .......... 493
360. Maşıyev Asəf Volodya oğlu .......... 495
361. Məcidov Aqil Aydın oğlu .......... 496
362. Məcidov Rafiq Rasim oğlu .......... 497
363. Məcidzadə Teymur Tehran oğlu .......... 498
364. Mədətov Röyal Şahin oğlu .......... 499
365. Mehbalıyev Elşən Təvəkgül oğlu .......... 500
366. Mehbalıyev Vasif Gülhəsən oğlu .......... 501
367. Mehdiyev Samir Valeh oğlu .......... 502
368. Mehdiyev Samir Vaqif oğlu .......... 503
369. Mehdiyev Zahir Zakir oğlu .......... 504
370. Mehdizadə Mərdan Əhməd oğlu .......... 505
371. Məhəmmədli İsmayıl Mahir oğlu .......... 507
372. Məhərrəmov Fuad İmaməddin oğlu .......... 508
373. Məhərrəmov Ülvü Tahir oğlu .......... 509
374. Məhərrəmov Vüsal Aslan oğlu .......... 510

375. Mehtiyev Paşa Ehtibar oğlu ............... 511
376. Məlikov Aqil Niyaz oğlu ............... 513
377. Məlikov Mahmud Təhmasib oğlu ..... 514
378. Məmişli Sahil Ağaverdi oğlu ............... 516
379. Məmiyev Valeh İsbat oğlu ............... 517
380. Məmmədli Nicat Rizvan oğlu ............... 518
381. Məmmədli Rüfət Vidadi oğlu ............... 519
382. Məmmədli Sənan Səlim oğlu ............... 520
383. Məmmədli Sübhan Səbuhi oğlu ....... 521
384. Məmmədli Turan Raqif oğlu ............... 523
385. Məmmədov Amil Müqabil oğlu ....... 524
386. Məmmədov Anar Elşad oğlu ............... 525
387. Məmmədov Anar Kərəm oğlu ............... 527
388. Məmmədov Ayxan Rəfail oğlu ............... 528
389. Məmmədov Cavad Səfiyar oğlu ....... 529
390. Məmmədov Cavid İlham oğlu ............... 530
391. Məmmədov Çingiz İlham oğlu ............... 531
392. Məmmədov Elcan Zöhrab oğlu ....... 532
393. Məmmədov Elmir Nadir oğlu ............... 533
394. Məmmədov Əlövsət Əli oğlu ............... 534
395. Məmmədov Elşad Əvəz oğlu ............... 536
396. Məmmədov Elşən Əziz oğlu ............... 537
397. Məmmədov Elvin Etibar oğlu ............... 538
398. Məmmədov Emin Vətən oğlu ............... 539
399. Məmmədov Fərid Vəlhəd oğlu ....... 541
400. Məmmədov İbrahim Nakam oğlu ..... 542
401. Məmmədov İsmət Hikmət oğlu ....... 543
402. Məmmədov Kənan Hüseyn oğlu ...... 544
403. Məmmədov Kənan Nifdalı oğlu ....... 545
404. Məmmədov Kərim Namil oğlu ....... 546
405. Məmmədov Maarif Məmməd oğlu ... 547
406. Məmmədov Mahir Ağasəlim oğlu ... 548
407. Məmmədov Məhəmməd Zakir oğlu ... 549
408. Məmmədov Natiq Sahib oğlu ............... 550
409. Məmmədov Pərvin Rza oğlu ............... 551
410. Məmmədov Pərviz Ələddin oğlu ...... 552
411. Məmmədov Rəşad Asif oğlu ............... 553
412. Məmmədov Ruslan Ramiz oğlu ....... 554
413. Məmmədov Sadiq Sadəddin oğlu ..... 555
414. Məmmədov Sahil Ədalət oğlu ............... 557
415. Məmmədov Sahil Rasim oğlu ............... 558
416. Məmmədov Səbuhi Hümbət oğlu ..... 559
417. Məmmədov Şəhriyar Müzəffər oğlu .. 560
418. Məmmədov Soltan Akif oğlu ............... 561
419. Məmmədov Tural Arif oğlu ............... 563
420. Məmmədov Turan Nadir oğlu ............... 564
421. Məmmədov Ümid Fərman oğlu ....... 565
422. Məmmədov Ürfan Çingiz oğlu ............... 566
423. Məmmədov Vüqar Xələddin oğlu .... 567
424. Məmmədov Vüsal Qüdrət oğlu ....... 568
425. Məmmədov Xəyal Ağabəy oğlu ....... 569
426. Məmmədzadə Cahan Saleh oğlu ...... 571
427. Məmmədzadə Elvin İlham oğlu ....... 572
428. Məmmədzadə İlkin Əzizağa oğlu ..... 573
429. Məmmədzadə Mikayıl İlqar oğlu ..... 574
430. Mənəfov Şahmar Vidadi oğlu ............... 575
431. Mikayıllı Mikayıl Miğfər oğlu ............... 577
432. Mikayıllı Samir Sabir oğlu ............... 579
433. Mikayılov Azər Əmrah oğlu ............... 581
434. Mikayılov Nahid Soqat oğlu ............... 582
435. Mikayılov Ramiq Namiq oğlu ............... 583
436. Mikayılov Rahim Qalib oğlu ............... 584
437. Mirzəli Rəşad Hafiz oğlu ............... 586
438. Mirzəyev Elmar Şahin oğlu ............... 587
439. Möhsümov Elmar Rövşən oğlu ....... 588
440. Muradlı İlkin İlyas oğlu ............... 589
441. Muradov Siyavuş Akif oğlu ............... 590
442. Muradov Turan Vaqif oğlu ............... 591
443. Muradov Vüsal Cəsarət oğlu ............... 592
444. Mürsəliyev Sübhi Balamirzə oğlu ..... 593





445. Musayev Ramil Aydın oğlu ............... 595
446. Musayev Sahib Musa oğlu ............... 597
447. Musayev Sədi Süleyman oğlu ............... 599
448. Müsibov Veysəl Yadullayeviç ............... 601
449. Mustafayev Nurlan Hamlet oğlu ...... 603
450. Mütəllimov Qəzənfər Ədalət oğlu ... 605
451. Nadirli Ərtoğrul Hümbət oğlu ............... 607
452. Nağıyev Anar Sahib oğlu ............... 608
453. Nağıyev Elfaq Azad oğlu ............... 610
454. Nağıyev Murad Mayıl oğlu ............... 611
455. Nağıyev Vüsal Əmirastan oğlu ......... 612
456. Namazov Orxan Ceyhun oğlu ............... 613
457. Nayıbov Devran Fazil oğlu ............... 614
458. Nəbiyev Cilingir Azad oğlu ............... 615
459. Nəbiyev Orxan Rza oğlu ............... 616
460. Nəcəfli Sadiq Nüsrət oğlu ............... 617
461. Nəcəfov Cəmil Nəcəf oğlu ............... 618
462. Nəcəfov Fuad Taleh oğlu ............... 619
463. Nəcəfov İlkin Misir oğlu ............... 620
464. Nəcəfov Vüqar Aydın oğlu ............... 621
465. Nəcəfov Yaqub Məhəmməd oğlu ..... 622
466. Nəciyev Xalid Qabil oğlu ............... 623
467. Nəhmətov Vüsal Üzeyir oğlu ............... 624
468. Nəsibov Elmar Şirzad oğlu ............... 625
469. Nəsibov Nicat Qəşəm oğlu ............... 627
470. Nəsibov Xaliddin Vaqif oğlu ............... 628
471. Nəsirov İlyas Arzuman oğlu ............... 629
472. Niftəliyev Ceyhun Bahadur oğlu ...... 631
473. Niftəliyev İlyas Güloğlan oğlu ............... 632
474. Niftəliyev Mehrab Söhrab oğlu ......... 633
475. Niftəliyev Elşən Əfqan oğlu ............... 635
476. Noçuyev Surxay Əbdül oğlu ............... 636
477. Novruzlu Ümid Bahadur oğlu ............... 638
478. Nudirəliyev Zaur İsmayıl oğlu ......... 639
479. Nurmətov Çoban Razaddin oğlu ...... 641
480. Nuriyev Cavid Əşirəf oğlu ............... 642
481. Nurzadə Rövşən Əli oğlu ............... 643
482. Omarov Vüsal Şəmsəddinoviç ............... 644
483. Orucov Ceyhun Namaz oğlu ............... 645
484. Orucov Elşən Yavər oğlu ............... 646
485. Orucov Elvin Rövşən oğlu ............... 647
486. Orucov Nail Rəfail oğlu ............... 648
487. Orucov Nemət Əkbər oğlu ............... 650
488. Orucov Xalid Saleh oğlu ............... 651
489. Ömərov Elvin Xeybər oğlu ............... 652
490. Paşayev Daşdəmir Əlizaman oğlu .... 653
491. Paşayev Elsevər Vaqif oğlu ............... 654
492. Pənahov Rövşən Mahmud oğlu ....... 656
493. Piriyev Səttar Fuad oğlu ............... 657
494. Pirseyidov Elnur Nasir oğlu ............... 658
495. Poladov Aynur Şıxbaba oğlu ............... 659
496. Ramaldanov Babək Meynəddin oğlu .. 661
497. Ramazanov Fərid Ömər oğlu ............... 663
498. Rəcəbov Ruslan Rəcəb oğlu ............... 665
499. Rəhimli Kamil Vəli oğlu ............... 667
500. Rəhimov Elvin Ehtiram oğlu ............... 668
501. Rəhimov Rəşad İlqar oğlu ............... 670
502. Rəhimov Tural Arif oğlu ............... 671
503. Rəşidov İlham Tahir oğlu ............... 672
504. Rəşidov Tural Fazil oğlu ............... 673
505. Rəşidzadə Səid Nofəl oğlu ............... 675
506. Rəsulov Mirbala Əmirağa oğlu ......... 676
507. Rəsulzadə Təbriz Əfrayim oğlu ......... 678
508. Rüstəmov Ruslan Nüsrət oğlu ......... 679
509. Rüstəmov Üzeyir Əyyub oğlu ......... 680
510. Rüstəmov Vüsal Valeh oğlu ............... 681
511. Rzayev İlkin Cəfər oğlu ............... 682
512. Rzayev Zülfü Zeyni oğlu ............... 683
513. Rzazadə Həsən Vüqar oğlu ............... 684
514. Sadıqlı İbrahim Şahin oğlu ............... 685

515. Sadıqlı Məmmədhəsən Meydan oğlu..686
516. Sadıqov Rəşad Füzuli oğlu ....687
517. Sadıqov Emin Rəşadət oğlu ....689
518. Sadıqov Rəşad Xanlar oğlu ....690
519. Sahrabov Cavid Əlikömək oğlu ....692
520. Salmanov Tariyel Allahverdi oğlu ....693
521. Samidli Babək Mətləb oğlu ....694
522. Səfərli Cavid Xaliq oğlu ....696
523. Səfərov Elvin Ramiz oğlu ....697
524. Səfərov Hikmət İldırım oğlu ....698
525. Səfərov Nicat Vaqib oğlu ....699
526. Səfərov Şahmar Nazim oğlu ....700
527. Səlimli Bakıxan Alim oğlu ....701
528. Səlimov Cəmil Oktay oğlu ....702
529. Səlimzadə Kənan Məmiş oğlu ....703
530. Səmədli Sənan Fikrət oğlu ....704
531. Səmədov İsmayıl Məhəmməd oğlu....705
532. Səmədov Sabuhi İbrahim oğlu ....707
533. Seyidov Nihad Mehman oğlu ....708
534. Seymur Hüseyn oğlu ....709
535. Soltanov Nadir Nəzir oğlu ....710
536. Süleymanlı Kənan Sadıq oğlu ....711
537. Süleymanov Emin Bəhmən oğlu....712
538. Süleymanov İlkin Mahir oğlu ....714
539. Süleymanov Orxan Oruc oğlu ....715
540. Süleymanov Tamerlan Xankişi oğlu...716
541. Şahbazov Ruslan Mahir oğlu ....717
542. Şəbiyev Məhəmməd Vaqif oğlu ....718
543. Şəkərov Xəyal İman oğlu ....719
544. Şəmilov Azər Elyas oğlu ....720
545. Şərifov Mirnağı Qasım oğlu ....721
546. Şikarov Nəcəf Şikar oğlu ....722
547. Şirəliyev Niyət İmran oğlu ....723
548. Şirəliyev Sahib Yusif oğlu ....724
549. Şirinov Elvin Elsevən oğlu ....725
550. Şirinov Kamil Əliş oğlu ....726
551. Şirvanov Mehman Mirəziz oğlu....727
552. Şıxaliyev Fariz Şahverdi oğlu ....729
553. Şıxəliyev Mehti Yalçın oğlu ....730
554. Şükürov Anar Mehman oğlu ....731
555. Şükürlü Elvin Azad oğlu ....733
556. Şükürov İlkin Aslan oğlu ....734
557. Şükürov Samir Təyyub oğlu ....735
558. Tağıyev Elçin Ağaqulu oğlu ....736
559. Tağıyev Fuad Mərdan oğlu ....737
560. Tağıyev Ramiq Teymur oğlu ....738
561. Tağıyev Ruslan Fuad oğlu ....739
562. Tahirov Vüsal Mehdi oğlu ....741
563. Tarverdiyev Cabir Səmid oğlu ....742
564. Təhməzov Elzamin Kamal oğlu ....743
565. Telmanlı Allahyar Elman oğlu ....745
566. Useynov Ceyhun Elşad oğlu ....746
567. Vəliyev Elnur Əli oğlu ....747
568. Vəliyev Elyar Arif oğlu ....748
569. Vəliyev İlqar Cahit oğlu ....750
570. Vəliyev İsmayıl Mehman oğlu ....751
571. Vəliyev Sehran Nizami oğlu ....752
572. Vəliyev Vüsal İslam oğlu ....753
573. Vəlizadə Faiq Bayraməli oğlu ....754
574. Vəlizadə İbrahim Malik oğlu ....755
575. Verdiyev Natiq Əlimurad oğlu ....756
576. Yaqublu Əliqismət Mükafat oğlu ....757
577. Yaqubov Mayis Rəhim oğlu ....758
578. Yolçuyev Azad Nizami oğlu ....759
579. Yunusov Alxas Mirxas oğlu ....760
580. Yusifbəyli Yusif Sabir oğlu ....761
581. Yusifov Mehman Musa oğlu ....762
582. Yusifov Ramil Mürşid oğlu ....763
583. Yusubov Elzar Süleyman oğlu ....764
584. Zakirov Elvin Ağasəlim oğlu ....765





585. Zalov Fəqan Amid oğlu ....766
586. Zamanlı Məmməd Rəhman oğlu ....768
587. Zamanov Sənan Qahir oğlu ....769
588. Zaməddinov Fərid İmran oğlu ....770
589. Zeynallı Aqil Aydın oğlu ....771
590. Zeynalov Azad Rafiq oğlu ....772
591. Zeynalov Elnur Elsevər oğlu ....774
592. Zeynalov Fikrət Hikmət oğlu ....775
593. Zeynalov İlqar Natiq oğlu ....776
594. Zeynalov Məhəmməd Bəxtiyar oğlu..777
595. Zeynalov Müseyyib Saleh oğlu ....778
596. Zeynalov Nurlan Rəfail oğlu ....780
597. Zeynalov Tural Zeynal oğlu ....781
598. Zülfüqarlı Zeynal Alim oğlu ....782
599. Zülfüqarov İlkin Nurəddin oğlu ....783
600. Pənahov Əkbər Bəylər oğlu ....784
601. Rəhmətov Əbülfəz Hüseynverdi oğlu.785
602. Qənbərli Qənbər Bəhruz oğlu ....786
603. Yusifov Əli Suləddin oğlu ....787
604. Vəlizadə İbrahim Səməd oğlu....788
605. İxtiyar İlqaroğlu ....789



***Xarıbülbül, Xarıbülbül,***
***Yarı güldü, yarı bülbül.***
***İllər ilə qan ağladın,***
***Həsrət ilə yol gözlədin...***
***Şəhidlərin sayəsində***
***Bundan sonra barı bülbül,***
***Yarı bülbül, Xarıbülbül!***

Layihənin müəllifi, tərtibçi-redaktor:
**Abdulla Qurbani**
*Azərbaycan Respublikasının Əməkdar İncəsənət Xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik*

Q89 **"VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ" (Birinci kitab).**
Bakı, **«APOSTROF-A»**, 2021, səh 800.

*Nəşrdə Azərbaycan Dövlət İnformasiya Agentliyinin, Müdafiə Nazirliyi Mətbuat Xidmətinin, Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzinin fotomateriallarından istifadə olunub.*

Çapa imzalanmış 21.04.2021,
formatı 70x100 1/16,
f.ç.v. 50
kağız təbaşirli,
ofset çapı,
cambria qarnituru 14

Kitab

Publishing & Printing
APOSTROF-A
012 432 51 04
050/055 313 07 06
apostrof0706@gmail.com

nəşriyyatında nəşrə hazırlanmış
və ofset üsulu ilə çap olunmuşdur.
AZ1000, Azərbaycan, Bakı, H.Zərdabi 71A